**Laura Cəbrayıllı**



# Yeddinci qat

BAKI
"AVRASİYA PRESS"
2010

*İlk kitabımı dünyadan erkən köçən atamın əziz xatirəsinə həsr edirəm.*

***Laura Cəbrayıllı***

Nəşrə məsul: **İnqilab Quliyev**

Redaktor: **Umud Rəhimoğlu**
Məsul redaktor: **Qulu Ağsəs**

**Laura Cəbrayıllı. Yeddinci qat.** Bakı, "Avrasiya Press", 2010, 328 səh.

Ötən əsrin 90-cı illərindən başlayaraq, dövri mətbuatda ədəbi-bədii yazılarıyla çıxış edən Laura Cəbrayıllının ilk kitabına ədəbi portretlərlə yanaşı, elm, ədəbiyyat, dövlət xadimlərilə maraqlı müsahibələri və gündəliyindən sətirlər daxil edilmişdir.

**ISBN 978-9952-442-27-4**

© Laura Cəbrayıllı, 2010

# ƏDƏBİYYAT ONU AXTARIR

Qadınlar haqqında:

"Qadın məğlub etməyincə təslim olmur".

"İstənilən dövrdə məhv olan cəmiyyət birinci qadınları boğub. Qadağaların, qaydaların çoxu qadın üçün doğulub".

Biz kişilər heç vaxt bunun fərqində deyilik.

Dünyanın ən ağır istedadlarından (ağır taleli yazarlarından yazmadım – *V.B.*) Mehdi Bəyazid haqqında qeyri-adi düşüncələr:

"Onun saçı, başı payıza oxşayır. Burnu qədim türk hərflərini xatırladır. Kəskin biçimli çənəsi sanki bir qərbli üzünü tamamlayır. Başqalarıyla həvəslə danışığa can atan bu çəlimsiz adamı görəndə çatdırın ki, ədəbiyyat onu axtarır".

Mən bu düşüncələri Tolstoy, Qorki, Yusif Vəzir qələmindən çıxmış səviyyədə gördüm.

"Bütün filosoflardan fərqli olaraq, Rəmiş dediyini dərhal da isbat eləyə bilir. Çünki biz Rəmişin dilinə yox, əlinə inanırıq".

Məncə, barmaqlarına desəydi, daha dəqiq olardı, bəlkə də əlinə-dilinə qafiyəsi onu bu sözə gətirib. Gənc şair Aqşin haqlıdı, bəzən həqiqətən dil yazdırır. Amma, fikir kimi çox yaxşı deyilib, həm də dilin ritmi baxımından "əlinə"ylə də razılaşmaq olar.

Dünyanın ən həssas fikir, söz adamlarından Vidadinin dünyanı tez tərk etməsi haqqında: (vaxtsız yox, məhz tez tərk etməsi haqqında – *V.B*)

"Bu dünyada (çox yazarlara) bələdçiliyi azmış kimi dünyanın o üzünə də nəslinə bələdçilik etmək üçün tezcək yollandı".

Şair mətbəxinə komandanlıq etsə də, şairlərin yaradıcılıq "mətbəxi" haqqında da hökm verməyə cəhd edir. Bəlkə də haqlıdır:

"Şair istədiyi yox, bacardığı şəkildə yazır".

Əzizim, Qulu Ağsəs. Ehtiyatlı ol, daim müşahidə altındasan. Elə biz də bir balaca özümüzü yığışdırmalıyıq. Deyəsən, o, öz mətbəxində oturub dünyanın bütün şeir "mətbəxini" görür.

"Uçurdun bayrağı göyə,
qəhrəmanlarçün böyüyən
körpə güllər də görməyə
ən uca yerə qaldırın
yenə görməsə körpələr,
Arazı, Kürü dikəldin,
Araza, Kürə qaldırın".

(*V.B.*)

Məncə, bu cür pafoslu şeirlərin verdiyindən müəllifin "Şuşa neçə ildir dərdini dağlara danışır" kimi qısa, sadə ifadəsi daha dəqiq və anlamlıdır.

Dünyanın bir çox böyük alimlərinin böyük hörmət və təzimlə danışdıqları Xudu Məmmədov haqqında:

"Xudu müəllimi qoruya bilərdikmi? Əslində cavab aydındır. Biz kimi qoruya bilirik ki? Bu günün də sadələri, adiləri belə deyəcək... Sual hələ də yeri bilinməyən bir alimin yaralı yerinə toxunacaq... Bir başqası Xudu Məmmədovun adına hətta bu sualı da qısqanacaq".

Bizi bizə dəqiq tanıdan ən gözlənilməz və ən sərt sonluq. Bu sərt ifadəni yazmaq üçün çox həssas, hətta qadın ürəyindən də həssas ürəyin olmalıdı. Bağışlayın, siz kimsiniz?!

Eyni sərtlik, eyni həssaslıq başqa bir ifadədə də qadın ürəyindən o yana keçmədə:

"Yer üzünün ən ağır üzüntüsü boş evə girməkdir, qapını aç, işığı yandır və buyur, sən sükutun qonağısan".

Bir balaca söz oyunu olsa da, çox gözəl və dəqiq deyilib: "Amerikaya gedib çıxan balaban bizim mahnını (bəlkə havanı – *V.B.*) çalır. Əcnəbilər bilmir ki, bu, Azərbacan mahnısıdır. Adamı, elə balabanı da yandıran budur".

Keçidlərə fikir verin:

"Hava da yavaş-yavaş qaralır, ömür-gün də, fikir-xəyal da".

"Qadın nizamdır – ailənin və mühitin, enişin və yoxuşun".

Bu da Dövlət Ədəbiyyat Müfəttişliyi üçün yeni test proqramı:

"Ədəbiyyat qəriblər üçün yazılan yol işarələridir".

"Ürəyindən yıxılan şair" – çox dəqiqdir. Şair day başqa hardan yıxıla bilər?!

Belə çıxır ki, vəhşi at ovçuları – mustangerlər də şairdir, ya bu, şairanə sənətdir:

"Mustanger – vəhşi at ovçusu olmaq üçün təkcə peşəkarlıq və cəsurluq yox, həm də həssas, mərd bir ürək lazımdır".

Yəni at ovçusu, at öyrədən həm də şair olmalıdır. Elə onun özünə də xanım mustanger demək olar.

Bu son misalım da dəqiq ifadə olunub: "Nağılı uşaqlar oxusa da, nəticə böyüklər üçündür".

Həm də gözlənilməzdir. İndi mən desəm ədəbiyyat dəqiq gözlənilməzliklərlə gözəldir, o dəqiqə mənə etiraz edib nəsə başqa şey deyəcəklər. Mən də heç nə deməyib sadəcə əl eliyəcəm. Uzaqlarda görünməyən, ancaq hər an bizimlə olan kiməsə.

***Vaqif Bayatlı***



## BÜTÖV CÜMLƏLƏRDƏ QIRIQ-QIRIQ HƏQİQƏTLƏR...

...Bizim dövrümüzdə (yaxın tariximizdə) sual vermək yaman dəbdəydi, evdə-eşikdə, qonum-qonşuda, çöldə-bayırda hamı sözünə sualla başlayır, sualla da qurtarırdı: Nə tez gedirsən? Niyə gec gəldin? Nətəhərsən? Hara gedirsən? Niyə görünmürsən? Bu işlərin axırı necə olacaq?..

İndi bir az başqa zamandı, hamımız tez gedib gec gəlirik, bir-birimizin birtəhər dolanmağına, az-az görünməyinə öyrəncəliyik, heç birimiz dünyanın axırının necə olacağını bilmirik... Üstəlik, onda heç kim sadəlövh görünməkdən utanıb eləmirdi, qonşu qonşudan Moskvanın niyə belə elədiyini, axşam "Xəbərlər"də nə dediklərini çəkinmədən soruşurdu. İndi istənilən suala hamının öz cavabı var. Ta heç kim söz soruşan olmaq istəmir – hamı istəyir cavab versin. Niyəsini bilmirəm, amma ətrafımızdakı adamların getdikcə söz yiyəsi, hökm sahibi olmağa can atdığını, ilin-günün bu vaxtında hərənin ürəyində bir hökmdar böyütdüyünü görürəm və təəccüblənirəm. İstəyirəm deyəm ki, biz belə görməmişik. Bunun ardınca eşitdiyim "bəs necə görmüsünüz" sualını da gözləyirəm və ona cavabım da hazırdır. Amma bir qəliz məsələ var. Gördüklərini, yaşadıqlarını hər saat dilə gətirmək, bu günəcən ürəyinə yığılanları kiminləsə bölüşmək olmur. Niyəsini bilmirəm. Bəlkə elə şeylər var ki, adam onu yalnız səssizcə yaza bilir? Bəlkə öz dünyandan danışmaq elə özündən danışmaq kimidir, ona görə adam çəkinir? Bəlkə adamlar mənim dünyamı –atamı, Nəbi babanı, Əmir dayını, Tamilə xalanı, Sirac dayını, Manisə xalanı, Ramazan dayını Dəyirman Dərəsini tanımırlar, ona görə onlardan danışa, yaza bilmirəm? Bəlkə də tanıyırlar, amma mən tanıdığım kimi yox. Onlar mənim böyüdüyüm mühitdir. Mən yaşadığım hər an üçün indiyəcən onlara hesabat verirəm. "Hesabat" deyəndə birtəhər çıxır, mənim bu dünyam dinc, sakit, tolerant dünyadır...

...Qartalın ətəyinə çatanda balaca qardaşım Əlibabanın yüyürə-yüyürə avtobusa sarı qaçdığını gördüm. Qaçdığı sürətlə dayanacaqdakı adamlardan qabaq atılıb avtobusa mindi, böyrümə çatanda yavaşca qulağıma "kişi bayaqdan həyətdə dayanıb yola baxır ki, qızım nə vaxt keçəcək, elə bunu demək istəyirdim," – deyib tələsik arxa qapıdan düşdü. Bu, onların – mənim doğmalarımın "səni çox istəyirik" deməyi idi və onlar məni Bakıya, oxumağa belə yola saldılar...

...Bir yol qayıdıb pəncərəmizin şüşələrini görmədim –"Aralığa düşən "Qrad"ın qəlpəsi həyətimizə düşdü, yaxşı ki evdə yoxuyduq, işdəydik,

Fidanı (o, anamı öz adıyla yox, belə çağırırdı) evə gəlməyə qoymadım, qardaşıgilə göndərdim. Ev-eşiyi heylə gündə ona göstərmədim, Mehralı kişiylə (iş yoldaşıydı) gəldik, qırıqları təmizlədik, şüşələri kəsib tələsik qoyduq yerinə. Bunlar özümüzün "xrustal" şüşələrimizin yerini vermir, amma tapdığım elə bu oldu. Tez düzəltmək istədim ki, uşaq-böyük gəlib qapı-bacanı heylə görməsin," – bunu deyən atam idi, –"yaxşı ki, bir az o tərəfə düşməyib, armudu parçalayardı. Həyətə girəndə elə ona şükür elədim ki, armud salamatdı".

Onun üçün bütün ağaclar canlıydı, saatlarla onların böyrünü kəsdirib danışırdı, calaq qoyurdu, yerini dəyişirdi, barını saxlaya bilməyənlərə dəstək düzəldirdi... Heç bir ağacın barını axıracan yığmaya qoymurdu ki, qoyun özünə də qalsın. Qırmızı alçanın barını qonum-qonşunun gəlinləri üçün qoruyurdu –"dəyməyin, birinin ürəyi istəyər, tapıb verə bilmərik", – deyirdi. Armud ağacını isə ayrı cür istəyirdi, hələ neçə il əvvəl ağır əməliyyat olunanda yarıyuxulu halda həkimlərə deyirmiş ki, bizimkilərə deyin, qayıtmasam, qapının ağzında armud calamışam, ayın axırı calağın sellofanın açsınlar, yoxsa quruyar ha! Əməliyyatdan qayıdıb calağını böyütdü: "Görsəm erməni gəlir, qoşa armudları baltalayaram, onların düşmənə qalmasına dözəmmərəm", – deyirdi...

...Bir də gələndə atam yoxuydu. Ürəyi heç 60-acan da dözmədi. Həkimlər xəstə ürəklə müharibənin hay-küyündən uzaq durmağı məsləhət görürdülər. O, ev-eşiyindən, boyunu sevdiyi ağaclarının yanından hara gedəsiydi, ona görə də narahat dünyasını dəyişdi...

...Bir də qayıdanda yolumuzu tapmadım. Bizim torpağa gedən yollar yoxuydu... Yaşadığım bu ömrün tən yarısı yolun o üzündədi – nə o taydakı ağaclarımıza (görən bizim ağacları kəsiblər? Özlüyümdə cavab verirəm ki, yox! Kişi qoymaz, nahaq yerə ağacının yanında qalmayıb ki?!), nə də adamlarımıza əlim çatır...

...Ömrün bu yarısı gözümün qabağında, əlimin altındadır. Onu bir yerə toplamaq, qırıq-qırıq həqiqətləri bu bütöv cümlələrdə qorumaq istədim. Bir də baxanda onu itirməkdən qorxduğum üçün...

***müəllif***



# ESSE
# PUBLİSİSTİKA
# MÜSAHİBƏ



# Sözlə oynayanlar üçün libretto

Düzdü, bugünkü çal-çağırda, şouda ədəbiyyata vaxt ayırmaq, ədəbi mühit və ədəbi əsərlər barəsində düşünmək çətindi, amma aradabir lazımdı. Bir baxmaq lazımdı ki, qabaqlar partiya və ideologiya maşınının vintciyi-təkərciyi olan ədəbiyyat və sənət çağdaş şounun məngənəsində özünü necə hiss edir, təzə nə yazıb-yaradır... Çünki indi qəribə zamandı, ədəbiyyatdan, az-çox yazılan nümunələrdən, klassiklərdən xəbərsiz olduğunu nə qədər çox deyirsənsə, o qədər çox məşhurlaşır və sevilirsən. Məsələn, Çingiz Aytmatovun qurdlar ailəsindən, maralından, atından danışmaq zövqsüzlüyünə, başqa sözlə, yaşının çoxluğuna, başqa sözlə, "köhnə"lərin müdafiəçisi olmağına dəlalət edir. Demokratik şəraitdən istifadə edib belə təfəkkürünlə bir az da irəli gedib İsa Hüseynovun, Sabir Əhmədlinin povestlərinin dünya ədəbi irsinə töhfə olduğunu deyə bilərsən, vay o haldan ki, bir az üzü bəri gələsən... Anarın, Elçinin, Mövlud Süleymanlının adını çəkdikcə, yaşının üstünə yaş gəlir, yəni əvvəlkilərin, yəni köhnələrin böyrünə keçirsən. İndiki nəsil "Qanköçürmə stansiyası", "Yol", "Məhşər", "Gürcü familiyası", "Sarı gəlin", lap elə "Ürək yaman şeydir"i də oxumur...

İndi ədəbiyyata yeni nəfəs gəlib, biri yazının içində atasını, o biri anasını, digəri itiyini, başqası gələcəyini axtarır. Bu yeni nəfəsli ədəbiyyatın çağdaş və yetərincə fəal oxucu auditoriyası da formalaşıb. Onlar internet səhifələrini və portalları bir-birinə vurub adamın özünə pıçıltı ilə deməyə belə utandığı və lüzum görmədiyi gerçəklikləri yazının, sözün içində axtarırlar və tapırlar. Belə neo-ədəbiyyatın obrazlılığa, bədii üsul və üsluba, heç sözə də ehtiyacı yoxdu. Söz də indi bir az köhnəlmiş termindi, yazının içində söz olmasa da olar, əsas "babam mənə kor deyib, gəl-gedəni vur deyib" cəsarəti və bu qəhrəmanlığın gen-bol əksidir. İndi çılpaq həqiqətlərin ədəbiyyatda əksini izləmək dəbi keçib, meydan çılpaq sözlərindi...

Şübhəsiz ki, bu yenilikdi, amma belə yeniliyin adı nədi? Bir vaxt sənətdə belə bölünmə və parçalanma yarananda çətin vəziyyət idi, sonra şoubiznes yarandı, formalaşdı, qəbul olundu və indi uşaqdan-böyüyə hamı Tolikin macəralarını izləyir... Nəyi pisdi ki, şən həyatdı! İndi də əsas məsələ neoədəbiyyatçıların adının tapılmasıdır, ad qoyulandan sonra bütün hüquqlar rəsmiləşəcək və adiləşəcək.

Qarşıda bizi maraqlı ədəbi mənzərə gözləyir, məsələn, çağdaş ədəbi mühitdəki nanoqrupların bir-biri ilə dartışması və yazışması, küsüşməsi və barışması...

Hələliksə, hamı susur və müşahidə edir. Rüstəm Behrudi heç kim soruşmayanda belə özünü türk dünyasının ən böyük şairi kimi qələmə verir, Əkrəm Əylisli ədəbiyyatımızın gələcəyini ədəbi və əbədi düşməninin düşmənlərində görür, Cavanşir Yusifli ədəbiyyatdakı qrupbazlığı tənqid etdiyinə görə yazısını heç harada çap etdirə bilmir, ədəbiyyata "Canavar"la gələn Yaşar indi "525-ci qəzet"də gözünün qurdunu öldürür... Neyləsin, indi əsər də yazmaq asandı, ən çətin iş qruplardan müdafiə olunmaqdır. Gözümüzün qabağında və az qala hamının iştirakı ilə ədəbiyyat ciddi bir sahə olmaqdan ayrılıb əyləncəyə, şouya xidmət edir – hamı da yeni yaranan bu əyləncə növü ilə razılaşır. Kimlərinsə çox böyük səylə dedi-qodu, böhtan, lap elə gerçəklik hesabına yaratmaq istədiyi şou-ədəbiyyat layihəsi onda baş tutmadı. O vaxt bizim çağdaş yazıçı-şairlər, ciddi ədəbiyyatla məşğul olanlar bu şouya qoşulmadılar. İndi əksinə, elə bil şou-ədəbiyyatın yaranmasını hamı istəyir.

Beləliklə, bu günün ədəbi mənzərəsi belədir: ədəbiyyatçılar iki cəbhəyə və xırda qruplara bölünüblər, amma elələri də var ki, onları bu cəbhələrin hamısında görmək olur. Yəni AYB-nin orqanında Anarı, portallarda isə ədəbi müxalifəti mədh edirlər. Kimsə, haçansa ədəbiyyata söz oyunu deyib, indi də bir dəstə adam qolların qaldırıb düşüb ortalığa, süz ki, süzəsən... Əvvəllər ailə qurmayan, yaxud nikahı tələm-tələsik pozulanlar musiqidən ayrı qapı tanımırdılar, indi tanıyırlar – Ədəbiyyat! Onlar üçün xoşbəxt Adam, xoşbəxt Ada, xoşbəxt Ad, heç xoşbəxt A da yoxdur, hamı bədbəxtdir: ölkə də, əhali də, söz də, yazı da... Biri çıxış yolunu solçuluqda, o biri xristianlıqda, digəri də qir-qiybət, dedi-qoduda





görür. Qoca valideynlərini kimsəsizlər evinə verənlər onlardan qabaq ədəbiyyatda olanları da tarixin arxivinə göndərmək istəyirlər. Neoədəbiyyatçıların ədəbiyyata hansı ədəbi nümunəni, üsulu gətirdikləri məlum olmasa da, devizləri məşhurdu: Bizdən olmayanlar köhnədi!

Sonra, onu da əlavə edək ki, indi tənqidçilər tənqidi tənqid edənlərlə, yazıçılar onları tərif etməyənlərlə vuruşurlar... bir yandan da Prezident təqaüdü...

*2008*

# Həmişə bizim Xudu...

Hərdən gözlərim önündə nəhəng tabloya bənzər bir aləm canlanır: bomboz uzanan kimsəsiz səhra, ağır yerişli karvan, bu karvanın yorğun-ağrın sarvanı, bir də ulduzlar. Tutqun göydə ilk baxışda bir-birindən seçilməyən ulduzların arasından özününkünü tapan, göylərin daxili nizamını tutan sarvan bu boz, tənha səhralardan keçib mənzil başına yetir... Hələ azmamışıq ki, – sualına cavab verən təkcə göydəki ulduzlarmı?

İlk baxışdan elə adamlar da bir-birinə oxşayır. Hamının iki əli, bir başı... Yəqin Göydən də baxanda bomboz Yerdəki bu başların hamısı çox sirli, sehrli görünür. Amma...

Bu qala bizim qala,
Həmişə bizim qala,
Qurmadım özüm qalam,
Qurdum ki, izim qala.

Xalqın malı kimi tez-tez dilimizə gələn bu bayatı kimin ürəyindən qopub, bilirsinizmi?

* * *

Məmmədov Xudu Surxay oğlu. 1927-ci il dekabrın 14-də Ağdamın Mərzili kəndində doğulub. 1946-cı ildə o vaxtkı Azərbaycan Dövlət Universitetinin geologiya fakültəsinə daxil olub. Ali təhsildən sonra geokimyaçı ixtisasına yiyələnib. 1951-55-ci illərdə SSRİ EA-nın Kristalloqrafiya İnstitutunun aspiranturasını oxuyub. 1956-cı ildə özü laboratoriya yaradıb və ömrünün sonuna kimi həmin laboratoriyaya rəhbərlik edib. Alim Xudu Məmmədovun araşdırmaları bütövlükdə tərkib-quruluş-xassə əlaqələrinin öyrənilməsinə həsr olunub. Rəhbərliyi altında 10-a qədər doktorluq, onlarca namizədlik dissertasiyası müdafiə edilib. 250-dən çox elmi əsərin, monoqrafiya və ixtiranın müəllifi professor Xudu Məmmədov 1988-ci ilin oktyabrında dünyasını dəyişib.





* * *

O 1988-ci il ki, Mirzə Cəlil demişkən, külli-ərz kəllə-mayallaq aşırdı... O 1988-ci il ki, dünyanın ən müasir imperiyalarından biri dağılır, xalqlar, millətlər bağımsız yola atılırdı... Bəs sən hardasan, ay yazıq Vətən, biçarə Vətən?

Alimliyi, elmi, kəşfləri bir yana, bu qarışıq və tariximiz üçün dolaşıq bir zamanda biz təpədən-dırnağa xalqın olan Xudu müəllimimizi itirdik. Düzdü, əvəzsiz şəxsiyyət yoxdu, deyirik. Amma ağlımıza gələnin də, gəlməyənin də başımıza gəldiyi 1988-ci ildən üzü bəri yola saldığımız bu illərin hər günündə onun yoxluğu göründü.

* * *

Göydə ulduz sayılmaz,
Çiy yumurta soyulmaz.
Bütün xalqlar ayıldı,
Nədən türklər ayılmaz?

Xudu müəllimin bu bayatısı da dildən-dilə gəzirdi. Hamı da eşidirdi. “Elm və sənətin qeyri-adi uyarlığını kəşf edən, zəkası ilə “cansız təbiət” terminini elm tarixindən silən Xudu Məmmədovun şəxsiyyətinə də vuruldum, xarakterinə və sadəliyinə də. Onunla tanışlığıma qismətin payı kimi baxıram”. Çingiz Aytmatovun – bu gün dünyaya qələmini öpdürən bu adamın vurulduğu Xudu Məmmədovu özümüz necə tanıdıq, necə qavradıq? Azadlığın havasından qanları bir az da coşan dəliqanlılar müəllimlərini eşitməyə niyə hazır olmadılar? Axı, bu müəllimimizin canlı-cansız aləmin, yerin-göyün ahəngindən xəbərdar olduğunu yaxşı bilirdik. Yoxsa:

...Mən bir yetim quzuyam,
Kim eşidər mələsəm?

– deyəndə Xudu Məmmədov bizim “müəllim” sevən xalq olmadığımızı da bilirdi?

* * *

Çox qəribədi, Şərq ədəbiyyatı başdan-başa didaktikadır. Amma heç bir şərqli nəsihəti, məsləhəti özünə yaxın qoymur. Və yenə çox qəribədi ki, heç kimin sözünü, fikrini udmayan bu tərslər həvəslə başqasına ağıl verir, yol göstərirlər. Yəqin elə ona görə, Şərqin başı həmişə belə qeylü-qallı, yolları dolanbadolandır. Görünür, didaktikanın belə çoxluğu bizim çox pis öyrənci olduğumuzdan irəli gəlir. Bəlkə biz əvvəlcə dualarımızı təzələyək: söz deyənlərimizi yox ey, ay Allah, söz eşidənlərimizi çox elə!.. "Etiraf edirəm ki, elmdə Xuduya öyrətdiyimi bir pay hesab etsəm, Xududan öyrəndiyim iki bütöv paydan daha artıqdır". Bu sözləri akademik N.V.Belov deyib. Biz Xudu müəllimdən nəyi öyrəndik?

* * *

Amma öyrənməli məsələlər çoxdu, lap çox... Televiziya ilə futbol üzrə dünya çempionatının maraqlı oyunlarından biri gedirmiş. Hamı oyuna diqqət kəsilsə də, Xudu müəllim kitab oxuyurmuş. Meydan sahibləri qalib gəlir, dövlət himni səslənir. Bütün stadion ayağa qalxıb himnə baş əyir. Xudu müəllim də kitabdan ayrılıb qalib komandanın himninə qulaq asır. Kimsə deyir ki, görürsünüzmü, Xudu müəllim, onlar öz himnlərini necə çox istəyirlər? Vallah, bizim öz himnimizi, Üzeyir bəyin əski himnini Azərbaycanın dövlət himni etsələr, gündə beş rükət namaz qılanlar kimi, beş dəfə dizimi yerə qoyub bu himnə qulaq asaram, – deyə cavab verir Xudu müəllim.

Dünyanın malında gözüm qalmadı,
Fələyin işinə sözüm qalmadı.
Həsrət ürəyimi elə yondu ki,
Bircə görüşə də dözüm qalmadı.

Bu misraları da özü deyib. Fələk də ürəkdən gələn bu sözləri o saat eşidib. Himnimizə bir kərə ürəkdolusu, açıq-aşkar qulaq asmağı da fələk ona çox gördü.





* * *

Hər dəfə himnimiz səslənəndə, oyanış, dirçəliş gününü qeyd eləyəndə ən böyük arzuları ürəklərində gömülən adamları dönə-dönə anmalıyıq. Yox, bu, yersiz nəsihət – məsləhət deyil. Məsələ burasındadır ki, dünyanı necə tutursan – elə gedir, dövlətçiliyi də necə qurursan – elə ucalır. Biz elmdə öz inhisarını hələ sağlığında yaradan Xudu Məmmədovun adına qaçan bir anı da qıymırıq. Halbuki dünyanın böyük-böyük adamları ona başqa cür qiymət verirdi:

"Xudu Məmmədovun töhfəsi dünya kristalloqrafiyaçılarının hər hansı birininkindən böyükdür. Bu, onun elmdəki inhisarıdır. C.Bernalddan və N.Belovdan sonra Xudu Məmmədov sementlərin kristallokimyası sahəsində dünya lideridir".

***E.S.Makarov,***
***professor***

* * *

"Akademiklər bağı". Gənclərin, tələbələrin çox sevdikləri, öz aralarında belə dedikləri bağçanın aşağı küncündəki bina. Azərbaycan Milli Elmlər Akademiyası, Qeyri-üzvü və Fiziki Kimya İnstitutu. Xudu müəllim burada işləyib. Yaratdığı laboratoriya bu binanın üst mərtəbəsinə sonralar qalxıb. Əzəl yeri aşağı olub. Xudu müəllim yanına gələn qonaqları elə "podval"da qarşılayıb-yola salırmış. Bu bəxtəvər taleli "podval" adlı-sanlı elə qonaqlar görüb ki! Xudu müəllimin tələbələri hələ də elmin, əziyyətlə yaratdığı laboratoriyası isə alimlərin qulluğundadır. Tələbələri müəllimləri haqda çox ürəklə söz deyir, məlumat verirlər. Amma azacıq kədərli səslə, keçmiş zamanda danışılan ən isti söhbətlər belə insan ömrünün bir anını əvəz eləmir.

* * *

Onu şəkillərdə həmişə tanınmış, görkəmli adamların arasında, ortasında görürük. Bu qədər sadə geyimli adamın dəfələrlə ən iri dövlətlərdə olmasına heç inanmırsan. Amma şəkillər deyilənlərin

yox, yaşantıların əksidir. Şəklindən bizə təmtəraq sevməyən, mənəm-mənəmlikdən, insanların daş kimi ayaqlarının altına qoyduğu iddialardan uzaq, hamını dinləməyə, dünyanı oxumağa hazır olan bir adam baxır. O, "mənim işçilərim nahar məsələsində Çörçill kimi dəqiqdirlər" – tez-tez belə deyər, özü isə nahara çıxmağı belə unudarmış. Tələbələrinə həmişə, "gələndə mənə kökə (bulka) alın", deyirmiş. Özünə bir neçə dəqiqəni qıymayan bu adam həvəslə kristal qəfəslərin quruluşunu öyrənir, kilimlərimizin naxışını oxumağa, muğamlarımızın səs qəfəsini qurmağa çalışır... Bu sadə geyimli adam "simmetriya mərkəzinin Patterson sintezinə görə təyin edilməsinin müstəsna dərəcədə sadə üsulunu göstərib" (Q.Lipson və V.Kokren – ingilis alimləri). Heç bir təmtərağı sevməyə-sevməyə, "mən tərəkəmə oğluyam" – deməyi xoşlayan bu adam teatr sənətinin özünəməxsusluğundan, poeziyanın görünməyən qatından soraq verər, dəqiq müşahidələrini nəsildaşları ilə bölüşərdi. "Qoşa qanad" əsərində elmlə sənətin bağlılığını, "Naxışların yaddaşı" kitabında əski türklərin xalça, kilim naxışlarının maddələrin kristal quruluşu ilə üst-üstə düşdüyünü sübut edib...

* * *

Hər hansı şəhərə gendən baxanda dərhal nəzəri çəkən bütün tikililərdən fərqli olanlar, bir də yüksəkdə dayananlar olur. Minarələr, qüllələr, qalalar, sənətkarlıqla tikilən binalar... Xalqlar, millətlər də belədir. Çox-çox uzaqdan seçilənimiz, kənardan görünənimiz idi Xudu Məmmədov. Onu Azərbaycan professional musiqi sənətinin banisi, çox sevdiyi Üzeyir bəyin evində itirdik. Ev-muzeyin zirzəmisində xalq hərəkatı fəallarının yığıncağı olan günü. Müzakirələr, təkliflər, qurtuluş yolları, sədlər... Haçalanan fikirlər, qızmış beyinlər... Xudu müəllim nəyəsə əsəbiləşib də! Və bəlkə də o an bir, iki, üç... il sonrakı hadisələri, faciələrimizin səbəbini fəhmi ilə duyan Xudu müəllimin ürəyi tablamayıb. O günün məclis iştirakçıları, adını bu gün hörmətlə çəkən nəsildaşları, xatirə danışmağı sevən tanışları ən yaxın, ən məhrəm, adlarını çəkməyəndə inciyən dostları qoy bu suala cavab axtarsınlar:

Xudu müəllimi qoruya bilərdikmi?





* * *

Əslində, cavablar aydındır. Biz kimi qoruya bilirik ki? Bu günün də sadələri, adiləri belə deyəcək... Sual hələ də yeri bilinməyən bir alimin yaralı yerinə toxunacaq... Bir başqası Xudu Məmmədovun adına hətta bu sualı da qıçqanacaq...

Amma görkəmli və gərəkli adamları tanıyanlarla tanımayanların bir fərqi var: tanıyanlar kim olduğunu bildikləri adamı qorumağa həm də borcludurlar. Qoruya bilməyənlərin sonradan kədərli səslə xatirə danışmağındansa, elə tanımayanların təəssüflə danışması daha maraqlıdır. Niyə? Adamları qorumaq vərdişimizin yaranması üçün!

Ömrünü musiqiyə bağlamaq xoşbəxtlikdir – sən olmayanda belə səsin, nəğmən dünyanı gəzəcək, yoxluğun bilinməyəcək.

Rəssamlıq, yazıçılıq... da belədir. Onların yoxluğu, boşluğu görünmür.

Tanıyanların duruxmadan müəllim dediyi Xudu Məmmədovun yoxluğu isə görünür...

Bakıda Dünya Azərbaycanlılarının Birinci Qurultayı açıldı. Dünyanı azərbaycanca, Azərbaycanı dünyaca sevən bir azərbaycanlımızın bu qurultaya qatılmasını fələk qoymadı, bir anlıq simasının görünməyini isə... Xudu müəllimin bu məsələlərə sözü? O, sözünü çoxdan deyib, biri isə dilimizin əzbəridir:

Bu qala bizim qala,  
Həmişə bizim qala,  
Qurmadım özüm qalam,  
Qurdum ki, izim qala.

* * *

Demə, hərdən gözümüzə axan ulduz kimi görünən ulduzların bir qismi min il bundan əvvəl ölmüş ulduzlardır. Sönə-sönə gəldikcə gözümüzə görünür. Amma sönəndən sonra belə, parlaqlığını, işığını itirməyən təkcə Göydəki ulduzlarmı?

*noyabr – 2001*

# Dərdin bəlası

Əsatirə görə, od oğrusu sal qayalara zəncirlənir və baş Allahın hökmü ilə hər gün səhər bir ac qartal ünyetməz qayalığa uçur, ölümsüz Prometeyin diri-diri ciyərini didir... Bu mifik hadisənin üstündən əfsanəvi illər ötüb-keçib. Di gəl, bir vaxt od tapdığına sevinən, sonralar isə elə hey od içində olan dünya Prometeyin ağrılarını, sızıltılarını görünən igidliyin arxasında gizlədib. Ona görə yox ki, hətta müqəddəs olsa belə, oğurluğun faciəvi sonluğu görünməyib. Görünür, ah-ufdan, fəryaddan elə köhnə dünya da bezibmiş... O gündən bu günə "yağışın yuduğu, günün qurutduğu dünyada" nə dəyişib? İnsanın yaratdığı sürətlə dəyişir, təzələnir. Bəs Allahın yaratdığı? Yüz ölçüb axırda bir biçdiyimiz formasiyaların tarixini də, deyəsən, heç inkişaf-zad sıralamır. Onda çağdaş dünyadakı sintez quruluşlar hesabla gərək olmayaydı. Amma belə deyil: həmən aclıq-toxluqdur, həmən qul-quldar, həmən feod-feodal, həmən manifaktura-manifest, həmən kommuna-kommunist...

Bir dəfə də gəlmişəmmi?
Gəlmişəmmi, görmüşəmmi?
Yaşamışam, ölmüşəmmi –
Dünya mənə tanış gəlir.

Belə bir gündə həyatda, 23 yaşında ədəbiyyatda doğulan bu tərs oğlan ayrı nə deyəsiydi? Bir-birinin dalınca göz açan dərdin balalarından da o dərhal seçildi. Bir də dünya, ədəbiyyat, lap elə oxucu da dərdin qara-qara balalarından ta doymuşdu. Ona görə dərdin bəlasını o saat sevdik. O, üç, iyirmi üç yaşında da dərdlə oynayırdı, indi də. Şairin dirisi – ölüsü, dəlisi-ağıllısı olmur. Şairin nəfəsi olur. O, dünyanı udur, nəfəsiylə də içindən qovur. Bəs söz? Sözün səsini hamı eşidir. Bu səsin zilini, bəmini də hamı tutur. Sözün yaxşısını-pisini, xeyirini-xatasını, birinə ox – birinə qalxanını da hamı görür.





Amma o, sözün nəfəsini duyur. O, əlini dilin lüğət tərkibinə yox, sözün qalaktikasına uzadır və kağızda nəfəs ala biləninı seçib götürür. O, sözləri zərgər kimi düzmür. Havası bir-birini vurmayan, bir-biri ilə danışan sözləri qoşa qoyur. O, sözü yazan yox, sözün yazısını yazandır: talelərini istəsə qoşa, istəsə ayrı yazar. Amma insaflı yazandır, ona görə sözlər şairə şükür oxuyur. Sözün şükürünü də eşidir, mışıltısını da və o, sözdən şeir, nağıl yazmır. O, sözün şeirini, nəğməsini yazır. Bu şıltaq yazarı ədəbiyyata, oxucuya sevdirən tilsim budur. Ədəbiyyatçılara sevdirməyənsə dərdlə oyunda, sözün içində salıb itirmədiyi iddiası.

"Mən küsüb gedirəm, qoy, hamı qalsın..." Hamı yerindədi, atam balası, heç nə tərpənməyib: həmin ağılsız dünyadı, həmin cilovsuz həyat. İlin birindən zor-xoş ayrılan kimi, üzü sənə söykənən təzənin əlini sıxırsan...

Bu gün – şair Ramiz Rövşənin ad günü – bizdən olsa, əlimizi uşaq kimi bir-birinin dalınca cuman bu illərin qabağına qoyub "bəlkə balaca bir antrakt elan eləyək" deyərdik. Amma heyf, çox heyf ki, ömürdə antrakt olmur.

*dekabr – 2001*

# Realist nəsrin urası

“Yenə payız gəldi...” – məşhur mahnının məşhur misrası yenə bizimlə, günümüzdə, dilimizdə... Yenə gündüzlər gödəldikcə daralmağında, gecələr dartıldıqca uzanmağında... Yenə Yer öz işində, Göy öz gərdişində. Bu yerişi dəyişmək, təzələmək, ləngitmək üçün insan nələr etməyib? Ağlı kəsəndən Yerin qabağına gah daş itələyib, gah da iri-iri qaya! Sonra səsinə güc verib – haraylayıb ötən anı! Gah onun qabağına qılıncla çıxıb, gah da odla. İnsan sözü yaradıb, yoxsa söz insanı – bilmirik. Amma sözü sözdən seçəndən Yerlə davanın başqa zamanı başladı. Sözü yazıya çevirib bərkitdikcə, yazı bir yağıya döndü ki, gəl görəsən. Yer dolandı – gəlib gördü, üstündən adladı, yenə gəlib onu gördü.

* * *

“Adamın öz yerində peyğəmbər olması mümkün deyil. Gərək gedib hardasa peyğəmbər olub qayıdasan”. Bu sözləri hələ neçə yüz il qabaq Zərdüşt deyib. Bu sözdən sonra doğrudan da, hansı Yer adamına tapınmışıq? Göydən gələni, Göydən göndəriləni müqəddəs bilmişik, Göydən deyiləni eşitmişik. Göydən seçiləni, Göyün seçdiyini biz də sevmişik, seçmişik. Yer adamlarını bəyənməmək hamımızı birləşdirsə də, Zərdüşt sözsüz-şəksiz bizim yerlidir. Çünki dünyanın hər tərəfindən daha çox, bizim yerimizdə doğulan, yaşayan adam belə deyə, nəhayət, bu mühit onu bax belə yerindən eləyə bilərdi. Üstündən nə qədər vaxt ötdüyünü – heç tarixçilər də düzəməlli bilmirlər, amma bizim yerimiz heç dəyişməyib. Sənətə, elmə, mədəniyyətə, ədəbiyyata, tərbiyəyə, əxlaqa qiymət verəndə də son yeri özümüz üçün saxlayırıq, Yer adamlarını seçəndə də. “Bəyəm Azərbaycanda realist ədəbiyyat var?”, “Bizim yazıçılar niyə Drayzer kimi yazmırlar?” suallarını eşidəndə adamın ürəyi əsir, deyirsən, iki cavabsız sualından ürəklənib üçüncü fikrini hökmlə deyəcək. Deyir də. “Bizdə yazıçı yoxdur!”





Yenə klassikləri on il (indi on bir il) orta, 4-5 il ali məktəbdə adlarını eşitməkdən yadda saxlayır, amma müasirlərə, çağdaşlara təzə nəsil çox xəsisliklə vaxtından vaxt ayırır.

* * *

“Yazıçının bir üstünlüyü var, o da ölən ana qədər işləyə bilməkdir” – deyən yazıçını, ömrünün 50 ilindən çoxunu ədəbiyyat həsr edən bir yazıçının bu ölkədə hamı tanımır. İri-iri romanların, povestlərin müəllifi Sabir Əhmədli yazdıqlarından və yazacaqlarından danışa bilmir.

* * *

– Hərdən adama elə gəlir ki, bizim bəzi yazıçılar yetərincə təbliğ olunmur.

– Mən də çox vaxt məəttəl qalıram: ola bilər mən iqtidara müxalifəm. Yaxşı, olsun. Bəs müxalifət niyə inkar edir, etinasız yanaşır? Belə çıxır müxalifətin də müxalifiyəm. Bu roman çap olunub – “Kütlə”ni deyirəm, qeybət yox, söhbət eləyirəm – meydan hadisələri haqda əsərdir. Bədii keyfiyyəti hələ bir yana. Axı, heç maraqlanan da yoxdur. Radiolar, jurnalistlər, tənqidçilər hara baxır, o boyda Ədəbiyyat İnstitutu nə işlə məşğuldur?

* * *

Yazıçı bu sualına cavab gözləyir – biz susuruq. Dinib gərək M.F.Axundovun gecə-gündüz ruhuna şadlıq diləyək. Niyə? İki yüz il bundan öncə Axundov ədəbiyyatı qəzəl yazanların əlindən tutub aldı. İndi də qalmışıq qəzəl təhlilçilərinin əlində: Füzuli bu sözü belə yox, elə deyib (Füzulişünaslar indi cavab verməyə tələsəcək...), Seyid Əzimin filan ildə yazdığı qəzəldir, yoxsa qəsidə (Seyidəzimşünaslar cavab verməyə tələsəcək...)? Hamınız haqlısınız, bütün... şünaslar haqlıdır. Amma müasirlərimiz haqda elə vaxtında qiymət versək, onların ədəbiyyat tarixindəki yerini müəyyənləşdirsək, yaradıcılığını tənqid və təhlil etsək – heç zamanın qiymətinə, sabahkı araşdırıcıların zəhmətinə də ehtiyac qalmaz.

* * *

– Bu ədəbiyyat nə idi axı, sizi özünə çəkdi?

– Bu 70 ilin 50-si ədəbiyyatda keçib... Amma yox... deyə bilmirəm, nədir ədəbiyyat. Hər yaşda təzə üzüylə, görkəmiylə görünüb mənə. Söz kəsən bir fikir tapıb deyə bilmirəm. Ədəbiyyat hökmə ən az tabe olan sənətdir.

* * *

Halbuki, yazarlar haqda bizim başqa təsəvvürümüz var. Ya pırtlaşıq saçı üzünə tökülü, pencəyin qolu qolundan, şalvarı ayağından gödək, yaxud əksinə, içsə də, içməsə də, fərqi yoxdur, daim sərxoş, laməkan... Ya da iri gözləri od saçan, güldən bülbülə, bülbüldən gülə söz aparan, gözü orda-burda, sözü boğazında, ağzında...

Sabir Əhmədli onların heç birindən deyil. Xarakteri də fərdidir, yaradıcılığı da. O, baş hərfindən nöqtəsinə, vergülünəcən realist yazıçıdır. O qədər realist ki, çox vaxt prototiplərinin adını belə dəyişməyi ya unudur, ya artıq sayır. O qədər realist ki, oxucusunu deyəcəyi sözə, gerçəkliyə hazırlamağı mənasız sayır. Onun yaradıcılığında nə fəlsəfə, nə də söz oyunu var. Hər cür fikir və ifadə oyunundan qaçan yazıçı iddiası o qədər aşağı, o qədər görünməzdir ki, əsəri haqda deməyə özü söz tapmır. Özünü tərifləməyi bacarmayandan nə mədhiyyəçi, nə tərifçi, nə də təbliğatçı ola bilər. Sabir Əhmədli Azərbaycanda yaratdıqları haqda danışmağı sevməyənlərin, özünü təbliğ edə bilməyənlərin ən ustasıdır.

* * *

– Ədəbi mühitin içində olan proseslər bizi həmişə maraqlandırıb. Mühitdaxili intriqalar hər yerdə açılır, bircə bizdən başqa.

– Bu gün mənim ədəbi mühitim qeyri-professional adamlardır. Kimdir? Kitabsatan, qəzetsatan, yoldaşım, övladım, nəvəm... Sizə deyim ki, bu cür yaşayan təkcə mən deyiləm. Azərbaycanda bu gün ədəbi mühit boşdur. Onlarla yaradıcı təşkilatlar var. Amma bu qədər mühit yoxdur. Təşkilat mühit sayıla bilməz. Onlar ildə heç bir





kərə də olsun üzvlərini toplaya bilmirlər. Qabaqlar ədəbi məclislər varmış. Belə şeylər bu gün qətiyyən yoxdur. Yazanların taleyilə, yazdıqlarıyla maraqlanan kimdir? Bu hərəkatdan sonra nə yazılıb, necə yaranıb? Bir müzakirə, yığışma, toplaşma... Bu gün heç kimin məşğul olmadığı, maraqlanmadığı sahə ədəbiyyatdır. Hərdən adama elə gəlir, qəsdən ədəbiyyatı gözdən salırlar. Yazıçılar Birliyinin 700 üzvü var, onlar bir-birini nə vaxt görürlər?

* * *

Söz də, sənət də getdikcə üzünü kütləvilikdən elitaya çevirir, ona sığınır. Başa düşülmək, duyulmaq, amma həm də qorunmaq üçün... Sözə sığınan adamların sözündən başqa nəyi var? Amma elə o söz cəmiyyət üçün həmişə təhlükəli olub. Yerli şərait, cəmiyyət, üstəlik bizim xalq da idarə etməyi sevir. “Xalq öz övladını həmişə gözünün qabağında görmək istəyir – tribunada, ya dar ağacında, fərqi yoxdur” – rəhmətlik Aydın Məmmədovun müşahidəsi dəqiqdir. Və xalq ürəyindən keçəni övladının dilindən eşitmək istəyir – səhv ya düz, fərqi yoxdur. Amma Sabir Əhmədli heç xalqına da güzəştə getməyən bir yazıçıdır. Keçmiş dövrün keçmiş tənqidçilərinin dili ilə desək, onun yaradıcılığı bu baxımdan xəlqi ədəbiyyat deyil. O, xalqın arzularını yox, bu gününü yazır. O, xalqın həyatını düzəlişsiz, bəzək-düzəksiz, hətta obrazsız qələmə alır. Bütün faciələrimizin kökündə təsadüfi şahlar, sultanlar, xanlar, paşalar... durur. Folklordan, klassik ədəbiyyatdan üzü bəri xalq sadə, təmiz, saf adamların toplusu kimi təsvir olunur. Sabir Əhmədli çörəyini qandan, baş kəsməkdən çıxaran lap sadə adamları göstərir. Yoxsa, bu qəssabları tanımırıq?

* * *

– Axundovun oğlu ilə məktubları mətbuatda çap olundu. Mirzə Fətəli gileylənib ki, ona fikir verən yoxdur. Oğlu da cavab verir ki, ata, gələcək nəsillər sənin qiymətini verəcək. Mirzə yazır ki, oğul, sonrakı nəsillər bu eşşəklərdən törənən olarsa, vay bizim halımıza...

– Bu şairlər, yazıçılar məmləkətində 70 ildə bir dost tapmadız, deyəsən...

– Yaxın adamlar var. Amma uzun illərin münasibəti işbirliyinə çevrilmədi. Birimizi vurublar, susmuşuq. Onu haqsız incidiblər, səsimizi çıxarmamışıq.

– Siz də?

– Hə, mən də. Bu, qəribə sifətdir. O ağrı özümə də dəyməyincə yerimdən durmuram.

* * *

Ölkəmizdə yazıçı Sabir Əhmədlini tanıyan da var, tanımayan da. Tanıyıb, amma heç bir cümləsini oxumayan da var, heç tanımayan, oxumayan da. Amma – zaman muxtariyyəti hələ uzanan – 60-cıların bu nümayəndəsi ədəbiyyatımızda realizmin iri nümunələrini yaradıb: "Yamacda nişanə", "Gedənlərin qayıtmağı", "Toğana", "Axirət sevdası", "Kef", "Kütlə"... Adı orta məktəb dərsliklərinə düşməsə belə! Hekayələrindən nümunə, yaradıcılığı haqda məlumat hələ bir yana, 60-70-ci illərin sırasında belə adı unudulub, yaddan çıxıb. Özü də kimin? Dərsliyin müəlliflərindən biri olan Bəkir Nəbiyevin. Orta məktəb dərsliyində yazıçı Sabir Əhmədlinin adı niyə yoxdur görən? Özü isə susur. Yazdıqlarının heç mürəkkəbi qurumayanlarsa ən xırda diqqətsizlikdən sac üstündəki qarğıdalı kimi partlayıb açılırlar.

* * *

– Bir cavanın yazdığını görərkən...

– Qıymıram onlara. Adam bu sənətdə bağının bəhrəsini dadmır. Amma bir yaxşı yazı oxuyanda fərəhlənirəm. İstedadlı cavanları qorumaq lazımdır.

– Cavanlara məsləhətiniz?

– Özlərindən əvvəlki bütün ədəbi təcrübəni öyrənsinlər. Amerika, Fransa, Rusiya... oxusunlar. Mənim nəvələrimin, elə indiki uşaqların da ən çox qorxduqları şey oxumaqdır. Kitablara





baxıb hey soruşurlar: "Baba, bu kitabların hamısını oxumusan?" Deyirəm, hə. Heyrətlənirlər. Hələ oxuduqlarım bir yana, bu rəfə yığılanların hamısını həm də yazmışam.

* * *

"Bir heylə qanı axan canlıda bu qədər nəfəs, hey, güc hardandır?"
"Qanköçürmə stansiyası".

* * *

– ...Get-gedə bizim ömür möhlətimiz də azalır. Bir roman yazıram – xatirədir. Yazıçılar belə yazını lap axırda yazırlar. Yaşa dolduqca görürsən ki, ömür sovulur. İndiyəcən yazdıqlarımın ən irisi bu olacaq. Çox maraqlı bir adı da var – "Ura". Bilirsiniz nə deməkdir?

– Xeyr.

– Bağın axırıncı məhsuluna nə deyirlər?

– ...

– Buna deyirlər "peşarı". Bəs taxılın axırına nə deyirlər, sürsünbülü yığırlar ha? Bilmirsiz. Ona "başaq" deyirlər. Bəs bostanın axırına? Ona da "ura" deyirlər. Bu kitab ömrün urasıdır.

-Yazdıqlarınızın yekunu olan bu roman...

– Hə, mənim uramdır. Həm həyatımın, həm də ayrı-ayrı illərdə yazdıqlarımın bir növ dosye əvəzi.

* * *

Yenə payız gəldi... Bağının barını dadanlar indi külək sovurmamış, qar, yağış tutmamış urasını toplayır. Zamanın hər cür küləyi, qarı, yağışı onu tutsa, adını kimlər unutsa, bizim oxucular romantik ədəbiyyata daha çox vaxt ayırsa da, ədəbiyyatdakı yerini, işini-gücünü, inad-tərsliyini özü tanıyır. Əsas da adamın öz gözüdür. Bu gözü nə aldatmaq olur, nə də tovlamaq. Bütün qrup və qruplaşmalardan uzaq olan realist Sabir Əhmədli illər boyu becərdiyi bağının bəhrəsini isti-isti bizə uzadır. Həyatının, yaratdıqlarının urasını yazıçıdan təhvil almağa hazırıqmı?

* * *

Söz yazıya çevrilib bərkiyəndə bir dava başlanır – gəl görəsən. Yerin özü gəzib dolanır – gəlib görür, üstündən adlayır – gəlib görür. Yazıçı heç kimin dəyişə, təzələyə, ləngidə bilmədiyi Yerin qabağına qələmini qoyur....

*noyabr – 2001*





# Ayın dostu

(*4 yaşlı Alsunun ilk müsahibəsi*)

– Saat neçədi?
– Yatmaq vaxtıdı.
– Günəş yatıb?
– Yatıb.
– Ağac yatıb?
– Yatıb.
– Bəs yarpaqlar tərpənir axı...
– Budaqlar onları yırğalayır ki, yuxuları şirin olsun.
– Yaxşı, onda mən də yatıram, amma nağıl danış.
– Biri vardı, biri yoxdu, iki ayı balası vardı...
– Bu nağılı başqa analar da bilirlər?
– Bilirlər.
– İstəmirəm.
– Amma hər ana nağılı öz nağılı kimi danışır.
– Aya baxıram. Ayın işığı xoşuma gəlir.
– Bax. Qaranlıqda işığa baxarlar.
– Sən də Ayın işığını görürsən?
– Görürəm.
– Sən onu mən gördüyüm kimi görürsən?
– ...
– Ulduzlar Ayın balalarıdı?
– ...Onlar bizdən çox aralıdı... Ona görə biz onları balaca Günəş kimi görürük.
– Yox, onlar balaca Günəş deyillər. Onlar Ulduzdular. Ulduzsuz Göy olar?
– Hərdən Ulduz Buludun içində gizlənir, amma Göy onu axtarıb tapır.
– Buludu görmüşəm, qaymağa oxşayir. Bəs Ulduz gizlənəndə Ay onsuz darıxır?

– Tək olanda hamı darıxır.
– Ay mahnı oxuyur?
– Oxuyur, hərə öz mahnısını oxuyur.
– Ulduzlar ona qulaq asır?
– Hə, yoxsa onlar özlərini Göydə tək bilib qorxarlar.
– Mən də qulaq asıram. Bilsən, necə gözəl oxuyur, bilsən necə oxuyur... Bilirsən, niyə dedim ki, ta mənə layla oxuma?
– Niyə?
– Ayın mahnısı bir az anaların laylasına oxşayır. Ay oxuyanda yuxu gəlib mənim gözümə girir. Gözümdə kimi görürəm?
– Ayı, Günəşi...
– Yox, düz demədin. Ay, demək olar ki, bütün dostlarımı gözümə gətirir. Atanı, səni, nənəni... Ona görə Ay mənim dostumdur, mən onu çox istəyirəm. Səndən ona salam deyim?
– Bizdən ona salam de. Biz hər gün ona baxırıq. Bilirik ki, Ay bir dənədi...
– Sağ ol, deyəcəm, Ay elə sevinəcək, elə sevinəcək ki...

*avqust – 2009*





# Yuxusuna da söz girən dilçi

...Biz əzəldən-axıracan bu dünyanı adamla tanıyırıq. Bu dünyanın ən böyük hadisəsi adamdır. Bizi dünyaya bağlayan, hər köks ötürəndə ondan qopmağa qoymayan adam. İli, günü, ayı da adamların sayəsində "mənimsəyir", yadımızda saxlayırıq.

Avqust mənim üçün Kamil müəllimin ayıdır.

Sözün şəkli kimi gördüyüm bir adamın...

..."Sözün sehri" ilə rastlaşanda uşağıydım. Bir-birindən maraqlı bu sehrlərə nəyin bahasına olursa-olsun ürəyimdə, dilimdə yer eləməyə çalışdığım 1988-1989-cu illər indi də yadımdadı. Uzun müddət o inancların, yozumların, kitabın ruhunun, yazının enerjisinin təsiri altındaydım, ondan qopa, ayrıla bilmirdim... Adamın qanını duruldan bu kitabın sehri qəribəydi – yuxu yerinə arzularını görürdün, onlar gözün qədər sənə yaxınıydı... Qanadlı söz də sənin ixtiyarındaydı – bir göz qırpımında zamanları bir-birinə qovuşdururdu... Onda elə bilirdim, söz hamının sözünə baxır. Yazının tamam ayrı bir sehr olduğunu illər sonra anladım. İki kəlməni yanyanaşı yazmağın yükünü, ağırlığını da lap sonra, universitetdən-təhsildən, ürəyindən keçəni hər saat sözə çevirə bilməyəndən sonra yaşadım. Söz sözdən, cümlədən, kağızdan, adamdan nə təhər ürküb qaçırmış, adamı nə təhər ürəyi dolu, əliboş qoyurmuş, yolunu gözləməyəni qapısında nə təhər gözlədirmiş, ay Allah...

Onu indi də söz kimi görürəm, sirli, gizli söz kimi.

...Bilmirəm, sözü sözdən seçənlərin dövrü keçib, yoxsa onu sonacan tanıyan, axıracan duyanlar yerdən yavaş-yavaş köçüblər, hər halda, mənim söz-adamım indi xeyli yalqızlaşıb, tənhalaşıb...

Nəvəsinə həsr etdiyi yazısında yuxusuna girən sözdən danışır. Özlüyündə heyrətli olan bu məqam məni heç təəccübləndirmədi, yəni dilçinin yuxusuna söz gələr, amma Kamil müəllimin yuxusu başqa bir yöndən diksindirdi məni. Söz dilçinin yuxusunda sözdüzəldici-sözdəyişdirici şəkilçilərini qəbul edir, dəyişir, böyüyür, artır, çoxalır, bir sözlə, nəfəs alır, yaşayır... Adətən, yuxu şəkil, görüntü kimi görünür. Elə ona görə də yuxunu sözə çevirə bilmirik. Hətta ən yaddaqalan, bizim aləmimizdə ən uzunmüddətli yuxunu

belə yazıya almaq cəhdimiz uğursuz olur. Bu baxımdan, şəkilli yuxulardan fərqli olan bu sözlü yuxuya diksindim və sözlü yuxularımızın azlığına təəssüfləndim...

Avqust ayının 18-i dilçi Kamil Vəli Nərimanoğlunun dünyanı tanıdığı gündür.

...Dünya deyəndə ki, bəlkə günü bu gün də bizim Kamil müəllimimizin heç bu dünyanı tanımaq fikri yoxdu. "Elin yaddaşı, dilin yaddaşı" olan yerdə, söz "Dastan poetikası"na yetəndə dünyanın əyri-üyrü üzündən danışmağa vaxt qalırmı? Sözü sözdən seçənləri tanıyandan, dili dillə dindirməyi bacarandan sonra bu dünyanın yetdiyinə yerli-yersiz ilişməyinə, işlərinə, işdəklərinə baş qoşmağa vaxt qalırmı?

Onun adı harda, hansı yaşda olmağımdan asılı olmayaraq, məni tələbəliyə qaytaran açar sözdür.

...Akademik Ağamusa Axundovun cümlənin quruluşu, intonasiyası ilə bağlı filolologiya fakültəsinin I kursuna yönəltdiyi suala yerimdən (seçilməkdən, fərqlənməkdən çəkindiyimə görə) cavab verdim. Lövhəyə çağırdı ki, dediyini bir də təkrar elə. Fikrimi təkrarladım. Dedi, niyə belə düşünürsən? Dedim, bilmirəm. Ayrı cümlələr yazdırdı, soruşdu, cavab verdim, amma niyəsini izah eləyə bilmirdim, ordan təyini söz birləşmələrinə, sintaksisə adladıq, axırda Ağamusa müəllim soruşdu ki, hansı məktəbi qurtarmısan? Dedim, Qorki adına (sonralar Mehdi Mehdizadə adına olacaqdı) Cəbrayıl şəhər orta məktəbini. Ani pauzadan sonra qayıtdı ki, Sabir Əhmədov, Tofiq Hacıyev, Kamil Vəliyev, indi İsmayıl Məmmədov... Cəbrayıl bizim dilçiliyimizin onurğa sütunudur...

İxtisas bölümündə müasir Azərbaycan dili kafedrasını seçdim, dilçiliyi sevdim, Kamil müəllimin rəhbərliyi ilə diplom müdafiə elədim... Dilçilərimizin təkidinə və çox hörmətli müəllimim Yusif Seyidovun təqdimatına baxmayaraq, elmin yolundan könüllü çəkildim. Nəsə məni sözün, yazının içinə çəkirdi, ədəbi aləmin süfrəsindən xeyli uzaqda olan mətbəxini göstərmək istəyirdi... Buradan təkcə ədəbi məhsullar yox, ədəbi şəxsiyyətlər də aydın görünürdü. Bu aydınların arasında mənim Kamil müəllimim də vardı və onu görməmək mümkün deyildi.





Çünki o, dilçiliyin sintaksis bölümüylə məşğul olan tək-tük dilçimizdən biriydi; dilin poetikasını araşdırırdı; sözləri duyğu işarələri ilə sıralayırdı... Dilin poetikasını araşdırmaq üçün dilçi olmaq hələ azdı, gərək Sözün adamı olasan. Bir qəliz iş də var ki, Söz hamını yaxına buraxmır!

Dilçimizə bir sualım vardı, soruşdum.

"Xalq üçün ağlayan göz kor olar" – nə deməkdir, bizim uzaqgörən xalqımız bu sözlərlə nə demək istəyib axı? "Bu, ilk növbədə yanğıdı", – dedi: "Birinci mənada belədi ki, xalq üçün ağlayan göz təkcə kor qalmır, bəzən onu çıxarırlar. Bunu bilən xalq çoxlu ağlayan gözlər yetirir, onlar axır taleyini bilə-bilə, ağrıya-yana haqqı müdafiə edirlər. Xalq gec-tez haqqı tapan qüvvədi, haqq da xalqın içindədir".

O da həmişə xalqın içindədir, gah universitet dəhlizində, gah qəzet redaksiyasında, gah da dost məclisində...

Onu hamı tanıyır!

...Filoloqlar üçün müəllim, sabiqlər üçün keçmiş baş nazirin keçmiş müavini, iqtidar üçün müxalif partiya müşaviri, kasıb qələm adamları üçün təmənnasız sponsordur, heç nəyə gücü çatmasa, çaya qonaq eləyir... Onunla oturub çox şeydən danışmaq olar – sözdən, ədəbiyyatdan, cəmiyyətdən, fəlsəfədən, dostlardan, çayxana ilə ədəbi mühit arasındakı dartışmadan, yuxudan, Allahdan-bəndədən, indi üstəlik qürbətdən... Onun yazısında sözlər darıxmır. Bu yazılar dünyanı bölüşdürmək istəyənləri barışdırmaq istəyən bir alimin sərhədsiz-zolaqsız dünyası kimi gözlə görünür. Bu ucsuz-bucaqsız dünyanın qəhrəmanları – məşhur şahmat dahisi də, indi yəqin təzə-təzə yeriyən nəvəsi də yolunu gözlədiyimiz doğmamızdır, yaşıdımızdır, müasirimizdir.

"Bir az alov, bir az kül. Bir az dərd, bir az sevgi, bir az Məcnun, bir az Leyli. Bir az aylı-ulduzlu, bir az günəşli. Bir az yaş, bir az quru. Bir az Nəsimi, bir az Füzuli... O mənəm". Belə "məchulluğa" baxmayın, özünü belə təqdim eləyən bu müasirimizi tanımaq asandır. Onu lap yaxşı tanıyanlar söhbətini unutmur, tələbələri insafını, oxucuları kitablarını...

*2009*

# Vidadi fenomeni

“Adama ağıl ona görə verilib ki, əzab və əziyyətdən, iztirabdan xilas ola bilsin. Deməli, xilas var, xilas yolu var – ölüm!” Rus yazıçısı Lev Tolstoyun sözləridi. Həyat və ölüm... Can atdığımız həyat, qorxduğumuz, qaçdığımız ölüm! Həyat yaşamaqdı, yaşatmaqdı. Yox, bir canlının, varlığın yaşamaq uğrunda təbii qəbul olunan mübarizəsindən söhbət getmir. Həyat özündən qiymətli, qat-qat dəyərli olan sevgilərin, istəklərin yaşaması üçün bizə gərəkdi. Ölümə gəlincə... Özünü, mənliyini qorumaq, ucalığını saxlamaq üçün ölüm bir yol, özü də xilas yolu ola bilər. Amma son imkan, axırıncı yoldu. Həyatdan yorulanda, dünyadan, adamlardan, hətta özündən bezəndə bu son xilas yolunu da seçmək olar, hər şeyi istəyinə, diləyinə qurban verib yaşamaq da. Qalır bircə gerçəklik: udmaq – uduzmaq.

* * *

Bir vaxtlar dünyamızda maraqlı bir adam, güclü və gərəkli bir ədəbiyyatçı, istedadlı yurddaşımız varıydı – deyə sözə başlamaq olar. Amma bu təyinlər artıqdı. Bir vaxtlar bu Göyün altında, Yerin üstündə Vidadi Məmmədov da var idi – deyən kimi tanıyanlar onu xatırlayacaq. Vidadi Məmmədov! Bir dəfə Vaqif Bayatlı az yazmaq üstündə bizi danlayanda qəflətən qayıtdı ki, bizim çox istedadlı bir dostumuz vardı. Elə hey tələsməyin, yazacam, hökmən yazacam – deyirdi. Heç nə yazmadı, birdən də çıxıb getdi.

Birdən çıxıb gedən bu adam kim idi?

* * *

Vidadi Məmmədov 1940-cı il noyabrın 17-də Azərbaycanın Tərtər bölgəsində anadan olub. Bərdədə, Gəncədə yaşayıb, sonra Bakıya gəlib. BDU-nun filologiya fakültəsinə daxil olsa da, II kursda universitetdən ayrılıb. Öncə “Ədəbiyyat və incəsənət” qəzetində, 





bir az “Hüquq” jurnalında, sonra ömrünün axırına qədər birinci iş yerində çalışıb. Öz imzası ilə cəmi iki: “Vağzalda” və “Çarpaz bucaqlar” hekayələri, bir-iki də publisistik yazısı çap olunub. Amma... “Vidadi çoxlarından yaxşı şeir yaza bilərdi, yazmadı. Əsl tənqidçi ola bilərdi, əvəzsiz nasir ola bilərdi, misilsiz publisist ola bilərdi, nadir tərcüməçi ola bilərdi. Bunlardan heç biri olmadı, olmaq istəmədi”. Şair Ələkbər Salahzadənin sözləridi. Kamil Vəli Nərimanoğlu isə “Vidadi bizim hamımıza elə bil o tərəfimizdən baxıb bu tərəfimizi, bu tərəfdən baxıb o tərəfimizi görən adam idi”, – deyir və tez də duruxur: “Onun haqqında keçmiş zamanda, kədərlə danışmaq olmur. Vidadi özündən xəbərsiz sənə baxan adam idi. Elə yerdən baxırdı ki, o yerdən heç baxış gözləmirdin. O yerdən sənə həm də qiymət verirdilər. O yerdən sən müxtəlif gülüş, satirik, ciddi söhbətin obyektinə çevrilirdin. Bu mənada, Vidadi hamının söz deyən dostu idi. Vidadi ən təmənnasız adam idi. Əsəri haqqında kimsə söz desin-deməsin, yazdığı çap olunsun-olunmasın, katibliyin xoşuna gəlsin-gəlməsin, onun üçün heç bir fərqi yox idi. Vidadi həyatı çox yaxşı bilirdi. Həyatın dibindən gələn adam olduğu üçün onun məsləhəti həmişə doğru olurdu. Eldar Baxış, Azər Abdulla, Ramiz Rövşən, Baba Vəziroğlu, Nizami Cəfərov, Saday Budaqlı... Müxtəlif nəsillərin nümayəndələri, aralarında yaş fərqi olan bu adamların hamısı ilə məhrəm idi Vidadi...”

Azər Abdulla onun adını bir “qlavlit” senzor kimi çəkdi. Nə mənada? “Qələmi əlinə alan kimi Vidadi gəlib dururdu adamın gözünün qabağında: belə yazsam, görən nə deyəcək? Çayxanada, dost-tanışın arasında təhlil edəndə münasibəti necə olacaq? Onun zövqü, ədəbiyyat, nəsr, poeziya haqqında sözü ilə hesablaşırdıq. Onu saymamaq, ondan qaçmaq olmurdu, çünki qeydləri çox dəqiq idi”.

Rəhmətlik İsa İsmayılzadə “Məmmədov” soyadını eşidən kimi Vidadini anıb kövrəlirdi: “Başdan-başa qəribəlik içində olan bu adamı hamı sevirdi – alim də, alverçi də, bazar, küçə adamı da, şair də... Mələk idi, yoxsa cadugər, amma hamının idi, hamının”.

Nizami Cəfərov bir vaxtlar onunla “Ədəbiyyat və incəsənət” qəzetində işləyib. Özü demişkən, dostluğa yaxın münasibətləri olub. “Mən bir məsələdə çətinlik çəkəndə, xüsusilə Yazıçılar

İttifaqında olan əhval-ruhiyyədən baş çıxarmayanda, şəxsi münasibətlər mənim üçün anlaşılmaz qalanda ondan soruşardım. O, adamları tanıyan adam olsa da, hərdənbir ehtiyat edib çox sözü açmırdı. Tez-tez deyirdi ki, sən təzəsən, hələ çox şeyləri bilmirsən. O vaxt baş redaktor Nəriman Həsənzadə də tez-tez onunla məsləhətləşər, zarafatla "vəzirim" deyərdi. Lazım olan kimi – "vəzir, bir tədbir" – deyə üzünü ona tutardı. Vidadi də bir neçə dəfə fağır-fağır başını tərpədib deyərdi: vəzir nağıllarımızda mənfi surətdi. Bununla da məsləhətin işin xeyrinə olmayacağını bildirirdi".

Nizami müəllimdən bir əhvalat da eşitdim. Qohum-qardaşından kimsə imtahana hazırlaşırmış. Bir-iki cümlə yazır ki, bəs bunları təhlil etmək lazımdı. Vidadi təsadüfən Aydın Məmmədovla rastlaşır. Deyir, Aydın, sənin bu dilçilikdən, cümlə təhlilindən başın çıxır? Aydın duruxur: nə bilim, belə də. Vidadi cümlələri ona göstərir. Aydın bir on dəqiqə ona baxır, bir xeyli dayanır, sonra nə isə yazır, pozur... Vidadi görür ki, cümlələr asan təhlil olunmadı, alanda soruşur: Aydın, indi bu düzdü?.. Aydın deyir, hə. Bir az keçir, bir də soruşur. Aydın deyir, o nə sözdü, arxayın ol. Bir az gəzirlər, ayrılanda bir də qayıdır ki, Aydın, bu cümlə day düzdü, heyləmi, arxayın verim uşağa, göstərsin müəllimə? Aydın baxıb-baxıb deyir: bilirsən, mən bu işlərdən bir az çoxdan ayrılmışam. Sən belə elə, onları bir Kamil Vəliyevə də göstər. Vidadi də qayıdır ki, bilirsən, Aydın, sən böyük işlərlə məşğulsan, şumer – filan, bu, millətimizin cümləsidi, ola bilsin, elə Kamillikdi...

* * *

Kim idi Vidadi Məmmədov, sualına ayrı-ayrı vaxtlarda rast olduğum nəsildaşlarının cavabı müxtəlif oldu. Biri onun adını eşitcək kədərləndi, o birisi gülümsədi – vallah, Vidadiyə "Allah rəhmət eləsin" demək olmur, o saat ona-buna sataşmağı yadına düşür. Deyirsən, "rəhmət" sözünü eşitcək yenə nəsə deyəcək... Özündən xəbərsiz sənə baxan, hamının söz deyən dostu, təmənnasız ədəbiyyatçı, onu saymamaq, ondan qaçmaq mümkün olmayan senzor, hamını sevən və hamının olan Vidadi Məmmədov bu həyatdan, insanlıqdan, ədəbiyyatdan, dostlardan, çayxanadan nə istəyirmiş?





* * *

"Dünya bir uşaq şarı kimi ovcuma yerləşsəydi, mən düşünmədən onu yerə çırpıb parça-parça edərdim".

(*"Çarpaz bucaqlar" hekayəsindən bir cümlə*)

Dünyanı parça-parça etmək istəyirdi, yoxsa oyuncaq şarları?

Çox sevirmiş səsini, oxumağını Rübabə xanımın. Rübabə Muradovadan yazacağına, mütləq yazacağına söz versə də, yazmadı. Tapın, mənə Rübabənin nəğmələrini, kasetini tapıb gətirin. Bir həftəyə roman hazırdı – deyirmiş. Bəlkə tapsalar, ona çatdırsalar... "Nə kaset, nə nəğmə – dəxli yoxdu, yazmayacağını bilirdik" – dedi İsmayıl Məmmədov. Niyə yazmırdı axı?

* * *

Onunla – hər şeyə və hamıya, bu dünyanın oyunlarına və oyunbazlarına, xırdalarına və xırdalığına gülən bir adamla tanış olduqca bu sualın cavabı açılır. Sənət heyrətdən yaranır. Ona isə bu dünyanın hər üzü tanış idi.

Bir də onun qoyub getdikləri, elədikləri heç az iş də deyil! Hamını darıxdıran mühiti boşluqdan qoruyub, çox yazara yaradıcılıq payı verib. O illərin ədəbiyyatında az-çox nə qalırsa, o həm də Vidadinin yaratdığıdı, ondan qalandı. O illərin ədəbiyyatında az-çox nə oxunursa, üzə çıxırsa, həm də Vidadi oxunur, yada salınır...

* * *

Bu dünyadakı bələdçiliyi azmış kimi, dünyanın o üzünə də nəslinə bələdçilik etmək üçün tezcək yollanır. 1988-ci il noyabrın 5-dən 6-na keçən gecə Bakıda avtomobil qəzasına düşür, noyabrın 8-də xəstəxanada gözlərini əbədi olaraq yumur. 1988-ci ilin 17 noyabrına – ad gününə cəmi 9 gün qalmışdı. 48 yaşı tamam olacaqdı. Ona da hövsələsi çatmadı.

* * *

Son sualı mən yox, fransız yazıçısı Balzak verir: "İncə qəlbli, kövrək insanlar bu dünyada uzun müddət yaşaya bilməzlər. Namuslu, böyük hisslər bu alçaq, xırdaçı, məhdud cəmiyyətlə uyuşa bilərmi?" İncə, yaxud kobud, yaxşı, ya pis... Adamlar və dünya – gələn gedir. Amma hər gedən ömrünü özü ilə qəbrə qoymur. Elə adamlar var, onlar heç nə uduzmurlar. Bu dünyaya uyuşsalar da, birdən baş götürüb qaçsalar da!

Özündən sonra Vidadi Məmmədovun 60-nı qeyd etdik, indi üzü yetmişə gedir... "Diş-diş azalıram" – sağ olsa, özü belə deyərdi.

***P.S.*** Şəxsən tanımadığımız adamlardan yazanda bizi qınayan da olur. Qoy lap yaxşı tanıyanlar yazsınlar. Yazsınlar! Amma istəsək də, istəməsək də, tale və xidmət ipinin son ucu gənclərin əlindədi. Kimdən önə nə keçəcək, kim yadda qala biləcək, kim təzədən seviləcək – bu hökmləri, dəyərləri təzə gələnlər söyləyir. Bir də, lütfən inciməyin, əgər desək ki, çox-çox ORDAKIlardan, çox-çox BURDAKIlardan bizə yaxın, doğma olan Vidadi Məmmədov...

*oktyabr – 2001*





# Rəmiş yenə adsız qaldı...

Milli Musiqi günü ərəfəsində Azərbaycan Prezidentinin sərəncamı ilə bir qrup mədəniyyət xadiminə fəxri adlar verildi. Azərbaycanın əməkdar artisti adına layiq görülənlər arasında olan Hüseynov Rafiq Hüseyn oğlunu heç kim tanımadı. Əslində isə onu Azərbaycanda tanımayan yoxdu...

Onu hamı tanıyır, amma ad-familini nə qədər əzbərləsək də, yenə yaddan çıxır. "Vallah, adım ta özümün də yadımdan çıxıb. Amma doğum haqqında şəhadətnamədə Hüseynov Rafiq Hüseyn oğlu yazılıb". Şəhadətnamədə onun doğum günü də fevralın 13-ü yazılıb, amma o, gitarasını hər dəfə əlinə alanda təzədən doğulur. Əfsanəyə görə, hər gün ölüb-dirilən Prometeydir, o da Zevsin qəzəbinə tuş gəlib. Görən yaşadığı insan ömrünün hər günündə təkrar-təkrar doğulan və bu tale ilə heç cür vidalaşa bilməyənləri Tanrı kefinin hansı vaxtında yaradıb: xoş, yoxsa qəzəbli?!

Cavab yoxdur, heç vaxt da olmayacaq. Amma hər cür cavabdan daha inandırıcı olan sənət var: "Ürəyimdəki axınlardan özümün də xəbərim yoxdur. Birdən lap bir milyon manat versələr də, çala bilmirəm. Birdən də görürəm ki, öz-özünə əllərim çalır". Yəqin nəfəslilərdən başqa bütün alətlərdə çalmağı haçan öyrəndiyini, niyə gitaradan lap bərk yapışdığını da heç özü bilmir. Bəlkə gitaranın qəribliyini ürəyi götürməyib? Bəlkə gitaraya da aşiqinin könüllü varından-yoxundan əl götürməsi xoş gəlib? Bilmirik. Çünki ötüb keçən illər bu sevginin-sənətin mifini hələ xırdalaya bilməyib.

Bir vaxt onu gənclər sevib, canlı əfsanəyə çevirib. Elə indi də onu sevənlər həmin cavanlardı. Bugünkü gəncliyin başqa kumirləri, idealları var... O vaxtkı gəncliyə Rəmişin dərvişliyi, çərçivələrdən uzaq olmağı xoş gəlmişdi. İndikilər tamam başqalarını bəyənirlər...

Onun haqqında elə indi də çox danışılır, söz-söhbətlərin çoxu özünün də qulağına çatır. Amma ürəyinə yetəni bir başqasıdır – Rəmiş nə əcəb solo konsert vermir? “Mən gedim kimə deyim ki, mənim konsertimi təşkil elə. Utanıram axı...” O heç kimə oxşamadan özünəməxsus bir şəkildə ağız açmaqdan utanır. Amma şəhəri bəzəyən afişaların içində gitarasını görməyəndə də sənətdən, barmaqlarından utanır. Bu dəfə də özü kimi! Küsmək? Ağlına deyə bilmərəm, amma dilinə heç vədə gəlməz. Bu niyənin də cavabı özündə, dünyanı təkcə öz arşını ilə ölçüb-biçməyindədi. Yox, onun arşını nə dərvişlikdi, nə müqəddəslik, nə dəli-doluluq, nə də köhnə kişilik... Bu, Rəmişin arşınıdır!

“Çoxu musiqinin şirinliyi deyir, yox, bu naşı sözüdü, musiqidə də yaraşıq olur, musiqinin də öz sözləri, cümlələri, iniltiləri olur...”

Bütün filosoflardan fərqli olaraq, Azərbaycanın əməkdar artisti Rafiq Hüseynov dediyini dərhal da isbat eləyə bilir. Çünki biz Rəmişin dilinə yox, əlinə inanırıq...

*2008*





# Gücsüz bir yağış damlası kimi...

...Hərəmiz bir yandan döyürük bu pəncərə dünyanı... Neçə illərdi belə döyülür dünya – şüşəyə dəyən yağış damcısı üzü aşağı özüylə tərtəmiz bir cığır açır... Neçə illərdi belə yuyulur bu pəncərə-dünya. Döyülür, yuyulur... təmiz olmur ki, olmur. Açılan təmiz cığırı, yuyulan bir damcı üzü, yol-rizi olmayıb bəlkə dünyanın? Bəs söz, sənət, ədəbiyyat, mənəviyyat harayları nədi? Bu yazı-pozular nə üçündü? Üzü bəri neçə illərdi insanlıq İlkinliyə, Təmizliyə çağırış eşidir və... İyirminci yüzilliyin sonu...

Kim neylədi, kim nə dedi, vaxtı necə xərclədi, necə getdi, hər gedən eləcə köçüb getdimi? Qalan nədi? Qalan varmı?

* * *

Bir vaxtlar bu dünyada Şahmar da vardı. Kim idi bu Şahmar?

* * *

– Şahmarı tanıyırsan?
– Hansı?
– Aktyor.
– Hansı?
– Bığlı.
– Hansı?
– Gəncəli.
– Hansı?
– Yazıçı.
– Hansı?..

Hüseynov Şahmar Həsən oğlu 1939-cu il iyulun 31-də Azərbaycanın Xanlar bölgəsində, Nərimanov kəndində anadan olub. Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alıb. 1966-cı ildən

aktyor kimi işə başlayıb. Onu gah aktyor Sahmar Ələkbərov, gah da sair Sahmar Əkbərzadə ilə qarısıq salırdılar. Boy-buxunlu, zil səsli bu Sahmarların üçünü də erkən itirdik.

AKTYOR

Üstündəki lövhəyə baxmasaq da, Sahil bağındakı binanı çoxumuz tanıyırıq: Kukla Teatrı. Kuklalar bizi çoxdan ayrıldığımız uşaqlığa qaytarır, bizi özünə – ilkinliyə çağırır, bu öz yerində. Amma bura Şahmarın iş yeri olub. Fiziki cəhətdən çox güclü görünən bu adam sanki hər şeydən və hər kəsdən qaçıb bu ağ binaya sığınıb. Heç nəyə yox, uşaq yaddaşına güvənib. Kuklalar üçün can qoyub... Kukla rollar yaradıb: "Şəngülüm, Şüngülüm, Məngülüm" tamaşasında Dəmirçi, "Məşədi İbad"da Qoçu Əsgər, "Qaravəlli"də Yaxşı kişi, "Tıq-tıq xanım"da Aparıcı, "Sehirli Güzgü"də Zalım... Teatr üçün ssenarilər yazıb... Heç nə demədən birbaşa içəri keçib Şahmarı soruşuram.

Və...

Heç kim özünü itirmir. Burda hamı Şahmardan çətinlik çəkmədən danışır. Hər kəs deyilməyən nəsə demək istəyir... Sağlığında o qədər tanınmayan obrazı təhlil edirlər: görünüşü, yerişi, gülüşü, söz-söhbəti... Hər şey o qədər canlıydı ki... Lap Şahmar kimi...

Yazdığını da bilirmişlər. Aktyor dostları dedilər ki, hekayələri çox gözəl idi: "Buradakı prototiplərini özümüz də tanıyırıq. O, olanları yazırdı. Düzdür, çox məşhur olmadı, amma, inanın, çox gözəl idi yazdıqları".

YAZIÇI

Şahmar çoxdan yazsa da, ilk dəfə hekayələri 1976-cı ildə "Ulduz"da çap olunub. Cəmi iki kitabı işıq üzü görüb: "Elçilik" sağlığında, "İtki" isə ölümündən sonra çıxıb. Bu iki kitabla da gözəl hekayəçi kimi yadda qalmaq, ədəbiyyatda yaşamaq olar.

Şahmar ədəbiyyatımızın vaxtsız itkisi idi.





Dünyanın qiyamət gününü demirəm, amma sözün qiyamət günündə Şahmar üzüağ bəndədi. Niyə çox yox, az yazıb? Niyə nüfuzlu adamlara, nəşriyyatlara, redaksiyalara yol tapmayıb? Suallar çoxdu. Hamımız insanıq və bu insan ömrünü hərə bir cür yaşayır. Konkret yaradıcılığa gəlincə... O, təmənnasız yazıb. Hekayələrindəki təbiilik, səmimilik, şirinlik adama o qədər doğmadı ki! O, heç nəyə çağırmır. Onun obrazları heç nə istəmirlər, hay-küylü də deyillər. Amma diridilər. Gəzirlər, dərd çəkirlər, bir-birinə baxırlar... Bu hekayələrdəki həyat elə yaxındı... Bir kəlmə, cümlə artıqlığı yoxdu:

"Yolun üstündə mağaza vardı. Usub içəri girdi, satıcı qıza iki manat verib iki şokolad aldı və onları bayırda Mamedə verib: – Bunları ver uşaqlara, – dedi və bir xeyli Mamedin gözlərinə baxıb ah çəkdi, – Uşaqlarına, yoldaşına heyfin gəlsin. Bir az susub əlavə etdi: – Özünə də! Daha heç nə demədi, dönüb getdi"

(*"Yaxın qohum" hekayəsindən*)

TANIYANLAR:

**Rəhman Əlizadə:** "O, hər şeyi ürəyinə salan yazıçı idi. Gördüyünü ürəyinə yığırdı. Elə buna görə də çox yaşamadı yəqin".

Mövlud Süleymanlı: "Şahmar tək Azərbaycanda yox, dünya səviyyəsində qəbul edib bəyəndiyim yazıçıdı. Şahmarın şəxsində Azərbaycan çox böyük yazıçısını itirdi".

**Camal Yusifzadə:** "Şahmar haqqında keçmiş zamanda danışmaq olmur. Əslində onun kimliyini sağlığında da bilirdik. Bütün ləyaqətli yazıçılar Şahmardan qorxurdu. Çoxları indi boynuna almasa da..."

**Elxan Məmmədli:** "Şahmar əsl istedad idi".

**Qulu Ağsəs:** "Şahmar ədəbiyyat fabrikinin şirniyyat sexidi".

Təkcə yazılarını yox, həyat tərzi, söhbətiylə tanış olanların fikirlərini də öyrəndik. Bəs özü?

GÜNDƏLİKDƏN SƏTİRLƏR

3 yanvar 1998

Heç vaxt, heç vədə özümdən razılıq, xoşhallıq hissini özümə yaxın qoymayacağam. Ölümə məhkum olunmuşlar tək hər saniyəm, hər dəqiqəm mənə əziz olacaq və mən onların hər birindən qənaətlə istifadə edəcəm.

4 yanvar 1998

...Sabahdan yox, elə bu gündən başlayıram. Başladım.

5 yanvar 1998

Vallah, billah, məndən adam olmayacaq. Yenə dünənki kimi boş-boşuna keçirdim günlərimi. Belə yaşamaq olar? Axırda özümü öldürəcəm, vallah. Uqlov deyir ki, insan 200 il yaşamalıdır. Yaxşı yaşamaq üçün israfçılığa yol verməməlidir. Hər bir şeydə. 6-dan 18-dək, 12 gündür. Gününə 5 manatdan 60 manat eləyir. Ciddi, səliqəli, səhmanlı yaşayacam. Başladım.

Bu son səhifə və son sətirlərdi.

Az qala, hər günün sonunda "başladım" sözü yəqin diqqətinizi çəkdi. Özündən narazılıq, özündən giley də... Hamının zəhmli, tündxasiyyət kimi tanıdığı Şahmar oxunur bu sətirlərdə... Çoxunu çaşdıran xarici görkəmi, gör-gövdəsi də aldadıcı imiş... Cəmi 48 il tablaya bildi...

Hüseynov Şahmar Həsən oğlu 1988-ci il yanvarın 9-u axşam 7-yə 15 dəqiqə işləmiş pəncərə dünyamızdan süzüldü keçdi.

"Gəlmək istəməsəm də, ağır hissləri qar kimi yara-yara gəlmişəm".

*("Qoyungöz" hekayəsindən)*

Bu dünyaya belə gəlmişdi Şahmar. Belə də yaşadı. Səs-küysüz, bəzək-düzəksiz, hər cür təmənnalardan uzaq hekayələrini də beləcə yazdı. Ağır hissləri qar kimi yara-yara.





BİZİM GÜNDƏLİKDƏN SƏTİRLƏR

Həyat yoldaşı Elmira xanım (Elmira Hüseynova, Kukla Teatrının aktrisası) danışır ki, düzdür, Şahmarın gur, zil səsi vardı, amma mahnı oxuya bilmirdi. Bir dəfə tamaşada nəysə səhvimdən ötrü Şahmar elə hirslənmişdi ki... Səsi bütün teatrı götürmüşdü. Təsadüfən eşitdiyi səsdən heyrətlənən Rəşid Behbudov:

– Vot eto qolos, – deyir.

* * *

Şahmarı soruşan kimi Vidadi xatırlandı... Onların möhkəm dostluğundan hamı danışdı. Vidadi zarafatla "Şahmar mənim cangüdənimdi", – deyərmiş.

* * *

Şahmardan sonra Vidadi bir dəfə yarızarafat, yarıciddi deyib ki, gərək özümü yaxşı aparım. Şahmar da yoxdu, kimdi məni qoruyan...

* * *

Dostları xatırlayır ki, Vidadini, Şahmarı elə bil bir gündə itirmişdik: o günlər hava elə sərt idi ki. Vidadini torpağa tapşırıb evə döndük, televizoru yandırdıq, donub qaldıq: Şahmarın şəkli ekranla bir idi. Demə, Baba Vəziroğlunun Şahmarın xatirəsinə hazırladığı veriliş efirə gedirmiş...

* * *

Şahmar məclisi, qonaqları, yeyib-içməyi, xəmir xörəklərini çox sevirmiş. İndi, ildə iki dəfə (gəlim və gedim günü) o ənənə evində təkrar olunur. Birdən gələn olar...

## DOSTLARIN DA ÖMRÜN KİMİ VƏFASIZDI

Özünü danlaya-danlaya yaşanan bir ömür – 48 il. Yazılan hekayələr – hələlik 2 kiçik kitab. Özünə nə qaldı? Heç nə. Bizə? Gedən heç nə aparmır. Hamısı bizimdi. Və... Vaxtsız köçən bir yazıçını itirdiyimiz 10 ildi... Onunla maraqlananda, kitablarını gücbəla tapanda da, evində olanda, yarımçıq yazılarını, çap olunmamış hekayələrini, gündəliyini oxuyanda da, hətta onu tanıyanları danışdıranda, ürəkaçan sözləri eşidəndə də ürəyim ağrıdı... Məni birbaşa söz deməməkdə çoxları qınayır. Qınamayın məni, deməklə yara sağalırsa... onda lap açığı:

"Bir dəfə (təzə rəhmətə gedəndə) Baba Vəziroğlu televiziya üçün veriliş hazırlayıb. Hekayələrini Sadaya (Saday Budaqlı) verdim – ikinci kitabını çıxartdılar. Sağ olsunlar. Sonra gündəliklərini, yarımçıq yazlarını, kitablarını apardı dostları. Heç nə qaytarmadılar. Heç kimin boynuna qoya bilmədim. Bu 10 ildə ilk jurnalistsiniz ki..." – dedi Elmira xanım.

İndi ki, qəzet bolluğudu. Hamısında da "Ədəbiyyat" səhifəsi... Bu səhifələr, bu ədəbiyyat redaksiyaları kimə xidmət edir? İnsafınız olsun... Hərdən ədəbiyyata da xidmət göstərin!

Sağlığında bilmirəm (gündəlikdən oxuyuram ki, redaksiyalara gedib-gəlməkdən ayaqqabıları sürtülüb), indi eşitdiyim fikirlər yüksəkdi. "Elə bu yazdıqları da bəsdi", – deyir hamı... Yaxşı, niyə təbliğ olunmur? Niyə yayılmır? O dövrdə hər kəs özünə qarşı olan ən xırda təzyiqi belə tələm-tələsik nəsillərin yaddaşına ötürməyə macal tapır indi, amma belə bir yazıçı, bu boyda Şahmar açılmır ki, açılmır. Niyə?

Əminəm ki, Şahmarın hekayələri öz Ədəbiyyatçısına, Araşdırıcısına tuş gələcək... Və əminəm ki, o, Şahmarın tanıdığı adamlardan heç biri olmayacaq.

Bir də, hələ çox əlinə qələm alanlar istər-istəməz Vidadi Məmmədovun bu sözlərini xatırlayacaqlar:

"Get, Şahmarı tap, oxu, bala, mütləq oxu..."





Və... Qaldı insanlığa... Sağlığında qurduğu məclisləri ötürməyənlər: bu evdə atalarını erkən itirən iki oğul "papanın dostlarına" elə qərib-qərib baxır ki... Dostlar, bilirsinizmi?..

Daha nə? Ad da çəkim? Biz ki sözü göydə tuturuq.

* * *

Gücsüz bir yağış damlası dedim... Gücsüz? Pəncərə dünya ilə üz-üzə duran bu qədər qurban damlalar...

Nə qalır, nə qalmır pəncərə bilər?!

*noyabr – 1998*

# Mustanger

Dostlar bilir, yazmaq yaman ağırdı, illah da birinci cümləni... Amma yazı adamı hərdən heyrətləndirir də, bəzən yazını niyə, necə, nə vaxt yazdığını heç özün də bilmirsən. Bir də görürsən ki, yazı hazırdı – sənə yalnız səsini, nəfəsini duyduğun sətirləri yeni bir dünyaya gətirmək qalır. Əslində, bizim ürəyimizdə özümüzdən xəbərsiz yazılan yazılar var. Bu yazılar bizimlə birgə böyüyür, yaşlanır, bəzən də dünyaya gəlişini gözləyə-gözləyə qocalır. Bizim bu yazılardan xəbərimiz var, amma nədənsə onları sevinə-sevinə üzə çıxarmağa, başqaları ilə bölüşməyə adam tələsmir. Bəlkə o yazılarsız özümüz təklənirik və biz bu yalqızlıqdan qorxuruq, bəlkə də onların bizdən qopmağına, ayrılmağına, azadlığına qısqanırıq...

Bizim ən yeni jurnalist nəsli Zöhrab Əmirxanlını tanımır. Onların nə "küncdən zərbə"dən xəbəri var, nə fədakar qəzetçidən, nə də onun iti redaktor qayçısından, çünki xeyli vaxtdır, bu tanınmış Oxatanın "Küncdən zərbə"si dayanıb. Yazıya, sözə məhz Quran ayəsi kimi baxan, ən adi "ziq-zaq"ı da ("Yox, bütün hallarda burda bir "ziq-zaq" var, mən onu tapa bilmirəm, amma hiss eləyirəm" – Z.Əmirxanlı) səhifəyə yaxın qoymayan, hər nöqtə-vergül üçün canını qoyan, hər hərfin, kəlmənin qeydinə qalan redaktor indi kimə lazımdı ki?! Üstəlik, işi də getdikcə çoxalırdı, nöqtə-vergülü yerbəyer etməyə nə vardı, "universal" neojurnalistlərə yerini göstərməyə, onlarla "uğraşmağa" hövsələsi çatmadı və... Hamı onu qınadı – biri səbirsizlikdə, digəri xırdaçılıqda. Biz mıxda olanı döyəcləyən mollanın xələfləriyik axı, o da izahsız-filansız papağını götürüb mətbuatdan, qəzetçilikdən, yazıdan getdi!

...Bizim onunla birgə bir "Şans"ımız olub:

– Adım Zöhrabdı, xoş gəlmisiniz. Bütün hallarda, biz sanballı bir qəzet çıxartmalıyıq...

"Onunla işləmək çətindi, yaman tez hirslənir, hirslənəndə də gözü heç kimi görmür"– qarşımda isə tamam ayrı adam və yeni





"Şans" vardı. Bu bizim "Şans"ımızıydı – baş redaktor Azər Hüseynbala hirslənəndə, müavin Zöhrab Əmirxanlı tərifləyəndə, Məmməd Nazimoğlu "anekdot"larına ara verəndə, Hüseyn Əfəndi dinəndə, Qulu Ağsəs kiriyəndə heyrətlənirdik, yazıya, sözə heyrətlə qəzet çıxarırdıq...

"– Bunun nə ayağı var, nə də başı, belə cümlə olar? Bütün hallarda, bu, yazı deyil.

– Niyə elə deyirsiniz ki, yazıdı da...

– Məsələ burasındadı ki, bu, yazı deyil da, ay bala. Yazı yaza bilirsən?

– Siz axı necə yazı istəyirsiniz ki?

– Sən burdan çıxıb gedə bilərsən?

– Niyə?

– Mən belə istəyirəm! İndi neyniyim ki, bütün hallarda, mən bunu istəyirəm..."

Yazıdan, sözdən xəbərsizin birini bu şəkildə qəzetdən uzaqlaşdırması bir müddət dildə-ağızda gəzdi. O, həqiqətən də səbrsiz idi, sözünü, yazısını bilməyənlərlə isə danışmağa sadəcə ərinirdi.

..."Şans"ın ulduz fallarını mən işləyirdim. Hər dəfə də qəsdən Oxatana yazırdım ki, sizə əsəbiləşmək olmaz, səhhətinizi düşünürsünüzsə, bunu unutmayın... Əvəzində gün ərzində bu sözləri tez-tez eşidirdik: "Səhər oxudum ki, bu gün mənə hirslənmək olmaz, ona görə özümə söz vermişəm, dinməyim, çünki bütün hallarda bu gün şəkərim qalxa bilər..."

...Bürclərə-filana yox, o, Yazıya, Yazılana bütün varlığıyla inanan bir sadəlövh idi.

Uşaq vaxtı oxuduğum "Başsız atlı"da yazıçının təsviri indi də yadımdadı: əfsanəvi mustanger – vəhşi at ovçusu olmaq üçün təkcə peşəkarlıq və cəsurluq yox, həm də həssas, mərd bir ürək lazımdı. İdman üslubunda geyinməyi xoşlayan Zöhrab Əmirxanlının təzə cins kostyumuna hamı "mübarək" dedi, mən də qayıtdım ki, Zöhrab bəy əsl mustangerə oxşayır. Aradan xeyli müddət keçəndən sonra, nədənsə söz düşəndə hamının yanında qəfil dedi: – Bilmirəm, mustanger nə deməkdi, amma bütün hallarda, əgər onu Laura deyibsə, deməli, pis söz deyil.

...Sözü bu qədər sevən Zöhrab Əmirxanlı neçə illərdi ki, sözümüzə gendən baxır, indi 50-ni də bizdən uzaqda qarşılayır... "5"iniz, beşliyiniz mübarək, cənab mustanger Əmirxanlı! Hamımızdan küsün, amma qələm-kağıza salam verməyə arabir bəhanə axtarın, axı onların əlləri çoxdandı uzalı qalıb...

*dekabr – 2008*





# Hər kəsdən Aydın

Gerçəkliklə mübarizədə sözün də, sözə sığınan adamların da gücsüzlüyünü bilib bu yazını yazıram. Sözə qısılan, sözə sığınan adamların kimsəsiz, arxasız, dayaqsız olduqlarını deməyə ehtiyac da yoxdu. Belə şeyləri daha hamı bilir!

* * *

Şəkinin Kiş kəndində rəhmətlik Mirsaleh atanın bir çətən uşaqdan sağ qalanı, gözünün ağı-qarası, bircə balası vardı. Bir ocağın istisi, bir ailənin oğul payı, Azərbaycanın, türk dünyamızın Aydınıydı o.

Tay-tuşları ilə keçirdiyi günlər də, yüksək qiymətlərlə başa vurduğu təhsil illəri də arxada qaldı. Deyirlər, yola tək çıxanlar yüyrək olar... Yox, o, yolda da tək deyildi. Amma tək-tək yerimək, irəliyə getmək istəyənlərdən biri idi filoloq Aydın Məmmədov. Birdən addımlarını yeyin atdı, birdən də dönüb hamıdan qaçdı... Hara, niyə, kimdən qaçırdı, Aydın Məmmədov?

Mənzil başına hamıdan tezmi çatmaq istəyirdi? Çiyninə aldığı, daşıdığı yüklərdən azad olmaq üçünmü bir yerdə dayana bilmirdi? Yoxsa, oxuduqları, bildikləri çox-çox gerçəkliklər insan kimi yaşamağa, hamı kimi olmağa qoymurdu onu? "Ey ölüm, tez gəl, bizi öldürdü həyat" – çağıran Saib Təbrizi, "Dedim şeytana rəhmət, Adəm övladı görən gündən" – dünyanın hər üzünü açıb-tökən Məhəmməd Hadi, "Yerlərdə süründüm, yetişir, göylərə qaldır" – yalvaran Cavid idimi onu bizlə və özü ilə başbaşa qoymayan, bu dünyadan uzaqlaşdıran...

Tənqidçi Aydın Məmmədovun sözləri bu ləngər vuran, ağır yerişli cümlələrin yolunu kəsir: "Uzaqlaşdı?! Bəlkə başını götürüb qaçdı? Axı, hər yazı yazanda nə qədər tanıdığın, bildiyin sifətləri göz önünə gətirib fikirləşmək olar. Bunu tənqid etsəm qorxuludu, onu tənqid etsəm o inciyər... Ey... Nə deyim, deyirəm, döyürlər, demirəm, dilim yanır..."

Yalan deyil ki, möhtərəm tənqidçilər?

Elə hər yerdə, hər işdə belədi – eləmi, xalq, millət, vətəndaş, yurddaş... dediklərimiz?

Gərək ki, Bernard Şounun sözləridi: "Cəmiyyətin tərəqqisi uğrunda vuruşmaq elə həmin cəmiyyətlə müharibə etmək deməkdi". Türk xalqlarının, Azərbaycan mədəniyyətinin, elminin tərəqqisi, sabahı uğrunda könüllü vuruşanlardan idi Aydın Məmmədov. Özü də müxtəlif cinahlarda: türkologiya, dilçilik, ədəbiyyat, tənqid, sonra da siyasət... Haçansa ötkəm çıxış da etdi, kimlərisə yerində oturtdu da, hardasa qırx dərənin suyunun əslində, elə bir dərədən axdığını sübut da etdi... Ad-san qazandı – tənqidçi Aydın, dilçi Aydın, şumer Aydın... Başqa? Ayrı nə olacaqdı ki?

"Çox vaxt biz o adamları tərs hesab edirik ki, onlar biz çaldığımız havalara oynamırlar". Yuri Brezan. Mühitin, cəmiyyətin çaldığı havalara, ata, alim, işçi, lap elə vətəndaş modellərinə, qəliblərinə sığmadı Aydın Məmmədov.

Cavanlıqda... Aydın müəllimin sözləridi, cavanlara deyərmiş: "Anadan olanda hamı təmiz olur, pisi də, yaxşını da sonra görür, sonra alışır...". Adamları pisliyə çəkən cəmiyyət həmişə sudan quru çıxır, qalır... Hə, biz mıxda olanı döyməyə (və mıxda olanın döyülməyinə) öyrənmişik. Bir də kim bilmir ki, insan cəmiyyətində sərxoş başlar daha təhlükəsizdi. Böyük başın böyük dərdlərini çəkmək asanmı olur?

Qızı Pərvanə xatırlayır: "Evdə elə zarafatcıl idi... Deyirdik, sən gərək "Mola Nəsrəddin" dövründə yaşayaydın, yazaydın... Tez-tez deyərdi, elə xoşum gəlir, babalar nəvələrini bulvara gəzməyə gətirir, çiyinlərində oturdub dənizi göstərirlər". Çox-çox adi olan bu insan arzusu nə qədər əlçatmazmış! – "Hə, başıma bəla başım".

* * *

Mirsaleh kişi yuxusunda görüb ki, Aydın gəlir, əlində də üç qızılgül. Gülləri ona verib deyir, bunları qoru.

...Orda da rahatsızdı Aydın müəllim. Özündən sonrakılara, xalqına, cəmiyyətinə nə dediyini bilən, nələri isə anlatmaq istəyən, amma onların nə götürdüyünü bilməyən adamın rahatsızlığıdı bu. Nə götürdük, nəyi öyrəndik?





* * *

O gedirdi. Hardan gedirdi – çoxumuz görürdük: ədəbiyyatdan. İnadkar bir müxalifətdən, heç bir hakimiyyət iddiasında olmayan, zamanların, dövrlərin hökmdarı olan ədəbiyyatdan yol alırdı. Sözün içində azman olmaq ona gücsüzmü gəldi, yoxsa cəmiyyətin yaralarının daha dərin olduğunu görürdü?

"Mənim mövqeyim orta müxalifətdir" – deyəndə uçmuşdu ədəbiyyatdan, gedib qonmuşdu ortaya. Ortada isə ədəbiyyat yox idi. Orda biz gördüyümüz siyasi hadisələrin baş alıb getdiyi siyasət meydanı vardı. Aydın orda nə gördü, ağlı nə kəsdi... Sözünü deyirdi, özünü tanıtmaq, təsdiq etməyə çalışırdı, biz biləni beləydi. Xəlvətcə ürəyini maqnitofon lentinə açır Aydın müəllim: "Əhədi kəsilmiş atları güllələyirlər, elə deyilmi?!". Elədir, Aydın müəllim.

* * *

Bu dünyada ona ən çox yaraşan, deyəsən, "şumer" təyini oldu. Dostları zarafatla ona şumer Aydın deyərmişlər. Bu problemlə çox məşğul olduğuna, ondan çox danışdığına görə. Dilçilər bilir, türkologiyada bir şumer problemimiz var. Ən çox araşdırılan, amma açılmayan, mübahisəli, maraqlı, hələ uzun illər elm üçün qaları bir problemdi bu. Şumer Aydının da həyatı, ölümü başdan-başa sirlərə, ziddiyyətli fikirlərə dolaşıqdı. Qəsdən böyük adamların Aydın haqqında dəyərli fikirlərini xatırlamadıq və onun seçilən uğurlarını sadalamadıq. Bizim üçün nəyi dəyişir axı? İndən belə bilsək ki, Aydın Məmmədov dəyərli adam imiş – neyləyəsiyik guya?

* * *

...Doğuldu, bir insan ömrü yaşadı və... Bilməli olduğundan çox şeyi bilməyə cəhd etmək heç kimə xeyir vermir. Allahınmı, ya bəndəninmi hökmü ilə "mən bilirəm, maşın qəzasında öləcəm" – deyən Aydın Məmmədovu doğrudan da maşın qəzasında itirdik. Qaçılmaz gerçəklik budur. Bu ölümü daxili etiraz, kütləvi sükutla qarşıladıq.

"Rəhmətlik Şahmarın ən sevimli dostu rəhmətlik Vidadi idi, bəs sənin ən sevimli dostun kim idi, Aydın, sən o dünyada ən çox kimdən ötrü darıxacaqsan, sən kimdən ötrü ölümə bələdçilik eləyəcəksən?!"

Ramiz Rövşənin sualıdır. Aydın Məmmədovun ən sevimli dostu, ən çox darıxdığı, kaş Azərbaycan ədəbi tənqidi olmaya?!

"Sən nədən qorxurdun, Aydın?..

Kimdən qorxurdun? O köksüz, dibsiz qorxu idi elə bəlkə səni darıxdıran?"

Bu da Afaq Məsudun sualı. Afaq xanım, bu qorxanlar niyə qorxur, nədən qorxur? Bu günəcən qurbanlarımız birmi, beşmi?

"İndi hansı buğda çuvalının, ya ulduz çuvalının üstündə oturub adamlara baxırsan, Aydın?! Necə görünürlər?! Heç olmasa, bir azca adama oxşayırlarmı?"

Bu da Vaqif Bayatlının sualı. Suallar, özü də cavabsız suallar yaman çoxdur...

Sözdə nə var: ya sual, ya məsləhət, nəsihət, ya da təsvir... Gerçəkliyə təsiretmə gücü də olsa-olsa elə budur. Vəssalam. Balzakın "Qorio ata"da insanlığa belə bir sualı var: "Hansı daha dəhşətlidi, daş ürəklərə, boş kəllələrə baxmaq, ya tək-tük oyaq başların qəzada, kolda, kosda... itməsini seyr etmək?"

* * *

Yanvarın 16-da Mahnı Teatrında Aydın Məmmədovun 55 illiyinə həsr olunmuş bir məclis də nəzərdə tutulub. Dostlar danışacaq, xatirələr yada salınacaq və sonda hamı Aydın Məmmədovun yoxluğunu bir daha anlayacaq. Ayrı? Ayrı nə istəyirik ki?

*yanvar – 1999*





# Ürəyindən yıxılan şair

Həyatın son ucunun ölümlü olduğunu görə-görə gəlmişik. Dünya binə olandan hələ heç nə dəyişməyib. Can verilir, alınır. İnsan doğulur, ölür. Ölənin məzarı doğulana beşik olur... Dünyanın bu gerçəkliyi ilə hamı barışsa da, ölümün yaxında, bir addımda olduğuna ömür boyu heç kim inanmır. Hər kəs gücü gəldikcə ölümü fikrinin, sevgisinin sərhədindən o üzə qovur. Amma bu dünyada adamın qaç-qovundan bircə elə ölüm qorxmur...

Akif Səməd neçə yol yatağa düşmüşdü, nəinki qonum-qonşu, dost-tanış, elə özü də neçə yol əlini ürəyindən üzmüşdü. Neçə dəfə halallaşıb-vidalaşmışdı, amma heç birində ölüm ona yaxın düşmədi. Ölümü yadından çıxardığı, ən az yadına saldığı bir vaxt yanında gördü. Yazıçılar Birliyində, onu sevənlərin-sevməyənlərin, əslində heç bunun da dəxli yoxdu, əsas odu ki, yazı-pozu adamlarının arasında Akif Səməd bir anlıq dünyanı unutdu. Gördüyü ilə görüşdü, görüşdüyünün yadına saldı: "Bu axşam televiziyada məndən veriliş gedəcək, baxarsınız". Lap ərki çatanlara özünü tapşırdı: "Birdən yadımdan çıxar, məni görəndə bir "vızıv" göndərərsiniz, özüm biləcəm".

Dövlət Televiziyasının birinci proqramı (Az.TV) ilə veriliş getdi, yenicə işıq üzü görən "Özümə yol" kitabından söz açıldı, özü danışdı, şeir oxudu...

"Vızıvlar"a, onu axtaranların zənglərinə cavab verilmədi. Hərənin ağlına bir fikir gəldi...Yox, ölüm yenə yada düşmədi. Hamının yaddan çıxardığı bir vaxtda Akif Səmədin ölüm xəbəri yayıldı. Günün günorta çağı, Yazıçılar Birliyindən çıxar-çıxmaz, Sahil bağında...

Əzrayıla üstün gəldim,
Özüm xoşluqla ölürəm.
Görməyə işim qalmadı,
Neynim, boşluqdan ölürəm.

Əslində ölməyə ən az hazır olanlar ölümdən çox danışırlar. Sözünə bənd olmayın, Akif Səməd də dünyadan, adamlardan ayrılmağa hazır deyildi. Nə yaşamışdı ki?! Dörd onilliyi güclə ömürdən aşırmışdı. Qəzavü-qədəri də duyurdu, ürəyi ona hamıdan yaxınıydı axı, amma qəsdən başqa obraz yaradırdı. Hər görən danlayırdı: "Ay Akif, belə olmaz, özünə bax".

O da özünə baxırdı, amma gözü alanı dilinə almırdı, elə hər dilə gəlib çatanı çölə çıxarmaq olurmu?

İndi gedəmmirəm, yollarım bağlı
Ömür özü kölgə, qaralı-ağlı,
Mən adam haqsızam, o ağac haqlı,
Ağac istəməzmi ola kölgəsi?..

Padşahla dilənçinin əhvalatı olmasın, hamı canının sağlığını istəyir. Amma biz dünyaya gəlməmişdən tərəzinin gözünü bir düzəldən də var. Tale ona şair təbiəti, ovqatı, xasiyyəti... və ürəyi vermişdi. O da elə bu ürəkdən, öz ürəyindən yıxıldı...

Ürəklə mənimki tutur,
Araya girən olmasa.
Tutub üzündən öpərəm,
Qıraqdan görən olmasa.

Bəlkə də Akif Səmədin bu dünyada son arzusu 45 yaşını keçirmək idi: "50-yə etibar yoxdu, istəyirəm bu ad günümü əsl yubiley kimi keçirəm". Gördü, sözünə bamır, ürəyinin əleyhinə getmədi, onun azadlığı üçün canından keçdi...

İyulun 22-si, Milli Mətbuat Günü şair Akif Səmədin 45 yaşı oldu. Rəhmətlik Vidadi Məmmədov "diş-diş azalırıq",– deyərmiş. İndi ədəbiyyatımız, şeirimiz, mətbuatımız, cəmiyyətimiz itkilərimiz boyda azalır, nə deyək, neyləyək?!

*iyul – 2004*





# 59 – Hüseyn Cavidin tale rəqəmi

Repressiya illərində həbs olunan, 1939-cu ildə Maqadana sürgün edilən, Uzaq Sibirdə, İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində torpağa tapşırılan Hüseyn Cavidin cənazəsinin qalıqları Azərbaycana necə gətirilib? SSRİ tarixində ilk dəfə baş verən bu qeyri-adi köçürməni həyata keçirənlər və bu səfərdən imtina edənlər kimdir? Şairin nəşinin 41 ildən sonra Vətənə gətirilməsinin bütün təfərrüatlarını öyrənmək cəhdim qəribə bir araşdırmaya çevrildi...

Öyrəndim ki, bu məsələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin görkəmli şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyinin qeyd edilməsi ilə bağlı 1981-ci ilin iyun qərarı ilə başlayır. Yubiley tədbirləri çərçivəsində Hüseyn Cavidin Bakı və Naxçıvanda ev muzeyinin açılması, heykəlinin ucaldılması, Cavid Poeziya Teatrının yaradılması nəzərdə tutulur. 1982-ci il oktyabrın 2-də Heydər Əliyev Naxçıvana səfəri zamanı yubileylə bağlı görülən işlərlə maraqlanır. Naxçıvan Vilayət Partiya Komitəsində keçirilən görüşdə ona ziyalıların adından Cavidin nəşinin Azərbaycana gətirilməsi təklifi ilə müraciət olunur. Bu, Cavidin nəşinin Vətəninə qaytarılmasına dair ilk təklif deyildi. Bundan əvvəl artıq iki dəfə belə müraciət olunsa da, təkliflər nəticəsiz qalmışdı. Ziyalılar bu məsələni üçüncü dəfə gündəmə gətirir və təklifi müsbət qarşılayan Heydər Əliyev buna icazə verməklə yanaşı, lazım olan bütün köməkliyi göstərəcəyini bildirir.

Naxçıvan Vilayət Partiya Komitəsi şairin cənazəsinin gətirilməsi ilə bağlı 12 oktyabr 1982-ci ildə qərar qəbul edir və qərarın icrası komitənin katibi Həmid Cəfərova tapşırılır. Həmid Cəfərovdan eşitdim ki, qəbul olunan qərardan sonra cənazəni gətirmək üçün səfərə çıxmaq istəyənlərin sayı azalıb: "İlk əvvəl könüllülər çox olsa da, sonradan bir çoxları müəyyən səbəblərdən səfərə

çıxmaqdan imtina etdi. Son məqamda Naxçıvanın sabiq daxili işlər nazirinin müavini, polkovnik Telman Əliyev və o zaman SSRİ-nin ən cavan deputatı olan Zakir Nəsirov səfərə çıxmağa məmnuniyyətlə razılıq verdi".

Beləliklə, Həmid Cəfərovun rəhbərliyi ilə Telman Əliyev və Zakir Nəsirovdan ibarət olan üçlük oktyabrın 14-də Sibirə uçur və 19-da İrkutsk vilayətinin rəhbərliyi ilə görüşür: "Sözsüz ki, rəhbərlik və yerli hüquq-mühafizə orqanları bizi xoş sifətlə qarşılamadılar. Səfərimizin məramı onlar üçün qəribə görünürdü. Onlara qəribə gəlirdi ki, 41 ildən sonra vaxtilə xalq düşməni damğası vurulan şairin məzarını tapıb, cənazəsini vətənə aparmaq istəyirik. İnadkarlığımızı görüb, missiyamızı həyata keçirməyə razılıq verdilər və nə kömək edə biləcəklərini soruşdular. Bildirdik ki, repressiya illərində Məhbus Əlillər Evində çalışanlardan kimsə, məhkəmə tibbi eksperti, kriminalist və fotoqraf istəyirik. Razılaşdılar. Onlar Rusiya tarixində rast gəlinən ilk belə hadisədən şok içində idilər. Hörmət əlaməti olaraq, bizə xüsusi vaqon ayrıldı və Tayşetə gəldik".

Üçlük rayon arxivində bir daha Şevçenko kəndində yerləşən Məhbus Əlillər Evində həlak olanların siyahısını araşdırır və siyahıda Hüseyn Cavidin adını tapır: "Sənədə əsasən 21 saylı Məhbus Əlillər Evində müalicə olunan Hüseyn Cavid (Rəsizadə ) 1941-ci il dekabrın 5-də saat 22.30-da ayaqlarını soyuq apardığına görə ürək zəifliyindən dünyasını dəyişib və dekabrın 7-də məhbus qəbiristanlığında 59 nömrəli qəbirdə, taxta tabutda, 2 metr dərinliyində başı şərqə tərəf dəfn olunub. Cavid Maqadana sürgün edilib, amma o zaman Sibirdə xəstələnən bütün məhbuslar bura gətirilib müalicə olunurmuş. Dəfninin gecikməsinin səbəbi odur ki, Stalin rejimi vaxtında məhbus dustaqların ölümü komissiya tərəfindən mütləq təsdiqlənirdi və sonra dəfnə icazə verilirdi. Şairin dəfnində Məhbus Əlillər Evində olan dustaq azərbaycanlılar iştirak edib və onlar da Cavidi üzü qibləyə dəfn ediblər".

Hüseyn Cavidin dəfn olunduğu məzarlığa getmək müşkülə çevrilir. Ora getməkdə israrlı olan Azərbaycan nümayəndələrinə izah edilir ki, Şevçenko kəndinə İrkutskdan sutka yarımlıq yoldur: "Dedilər ki, Məhbus Əlilər Evi meşənin içində yerləşir, ilin 10 ayı





burada şaxta-boran olur. Arxivdə bu sənədləri tapandan sonra bizə hüquqi sənəd lazım idi. O illərdə 11-12 milyon adam repressiya qurbanı olmuşdu, Şevçenkodakı məzarlıqda təxminən 40 min qəbir vardı. Biz həmin məzarlıqda dəfn olunan Azərbaycan şairinin qəbrinin açılmasına və nəşinin vətənə aparılmasına icazə almalı idik".

Bu hüquqi sənəd də əldə olunur, rayon rəhbərliyinin 21 oktyabr qərarına əsasən, 50 nəfərdən ibarət komissiya məzarlığa yola düşür. Həmid Cəfərov o günləri belə xatırlayır: "30 dərəcə şaxtada 75 kilometr yolu 4-5 saata getdik və Şevçenko kəndinə çatdıq. Kənd əslində 100 hektarlarla ərazisi olan meşə idi. Məzarlığa gəldik. Şaxtalı havada qarın altında olan qəbirlərin arasında 59 nömrəli qəbri axtarırdıq. İki saat axtarışdan sonra birdən rayon prokuroru Yelena Yakovlevnanın səsi gəldi: "Tapdım!" Sevinə-sevinə onun yanına qaçdıq və məzarın başına vurulan taxtanı silib-təmizlədik, 59 nömrəsini gördük. Təkrar dəqiqləşdirdik, tam əmin olandan sonra komissiya üzvləri qəbrin açılması ilə bağlı aktı imzaladı".

Sanksiya verilir və oktyabrın 21-də qəbir açılır: "Əvvəlcə qəbrin başında diz çökdük, gözümüz yaşardı. Bu, həm sevinc, həm də kədər yaşları idi. Qəbrin torpağı çox saf idi, iki metr dərinlikdə tabutun üst hissəsi göründü. Mənim boyum balaca olduğuna görə yerimi Zakirə verdim. O, məzara enib tabutun taxtasını çıxartdı və elə bil canlı insan parladı. Ət çürümüşdü, amma sümüklər hamısı yerində idi. Alnını silib öpdüm, baş hissəsinin arxasına baxdım, tüklər yerində idi".

Arxiv sənədlərində göstərildiyi kimi, qara adyala bükülü cəsədin qalıqları qarın üstünə qoyulur, yundan təmizlənir və ekspertlər onun sol ayağında yun corabın izini aşkar edirlər. Qalıqlar aktlaşdırılır və nümayəndə heyətinin özü ilə apardığı ağ tabutun içinə ağ mələfə salınır, mələfənin üstünə torpaq tökülür: "Qalıqları səliqə ilə yığdıq. Orada bir mitinq keçirib Sibir torpağına minnətdarlıq etdik ki, sən bizim şairimizi 41 il qoynunda saxlayıbsan. Qəlbən isə düşündük ki, bura elə qədim türk torpaqlarıdı. Burada qəribə bir məqam oldu. Bizi 10 nəfər avtomatlı şəxs müşayiət edirdi, polkovnik Telman Əliyev gözlənilmədən üzünü həmin dəstəyə rəhbərlik

edən mayora çevirib komanda verdi: “Yaylım atəşi açın!” Və orada 100 yaşını bitirən Cavidin ruhunun şərəfinə 100 yaylım atəşi açıldı”.

Cənazə ilə Tayşetə qayıdan nümayəndələr həmin axşam orada şairin ruhuna ehsan verirlər və oktyabrın 24-də Cavidin ad günündə, 100 yaşının tamamında şairin cənazəsi ilə birgə İrkutskdan Vətənə dönürlər. Təyyarədə Həmid Cəfərova yaxınlaşan stüardessa planın dəyişdirildiyini bildirir: “Əvvəl Moskvaya uçduq. İrəvana, oradan da Naxçıvana uçmalı idik. Bizə dedilər ki, Heydər Əliyevin göstərişi ilə Bakıya uçmalısınız. Çünki Cavid Bakıdan aparılıb, onun cənazəsi Bakıya qayıtmalıdır. Oktyabrın 26-sı Bakıya düşdük, bizi respublikanın dövlət və hökumət nümayəndələri, elm, ədəbiyyat xadimləri, şəhər sakinləri təntənə ilə qarşıladılar”.

Aeroportdan Cavidin nəşi Şirvanşahlar Sarayına, şahlar otağına gətirilir. Bu zaman məlum olur ki, bir qrup şəxs şairin qızı Turan xanımla görüşərək ona təklif ediblər ki, Hüseyn Cavid Bakıda dəfn olunsun. Şairin nəşinin harada dəfn olunması ölkə ziyalılarını iki qrupa bölür. Söz-söhbətlərə son qoymaq üçün oktyabrın 27-də Azərbaycan SSR Elmlər Akademiyasının böyük zalında Mərkəzi Komitənin katibi Həsən Həsənovun rəhbərliyi ilə respublika ziyalıları, elm, ədəbiyyat xadimlərinin iştirakı ilə böyük iclas keçirilir. Həmid Cəfərov bu iclası da dəqiqliyi ilə xatırlayır: “İclasda ilk çıxış edən professor Qulu Xəlilov tarixi missiyanın yerinə yetirildiyini dedi. Onun çıxışı yadımdadı: “İndi yoldaşlar deyirlər ki, Naxçıvan uzaq olar, onu burada Fəxri Xiyabanda dəfn edək. Həsən Həsənov, Fəxri Xiyabanda o qədər “julik”, rüşvətxor dəfn olunub ki, Hüseyn Cavidi orada dəfn etsək, ruhu bizdən inciyər”. Onun bu sözü gülüş və alqışla qarşılandı”. İclasda ümumilikdə 21 nəfər çıxış edir və sonda Hüseyn Cavidin Naxçıvanda dəfn olunması qərara alınır.

Şirvanşahlar sarayında şairlə vida mərasimindən sonra noyabrın 1-də gecə saatlarında cənazə şairin evinə gətirilir və bir gün sonra başda Heydər Əliyev olmaqla Azərbaycanın dövlət, hökumət nümayəndələri vida mərasiminə gəlirlər. Daha sonra cənazə xüsusi təyyarə ilə Naxçıvana aparılır. Əvvəl ata evinə gətirilən şair noyabrın 3-də ev muzeyinin yanında, uşaqlıqda çox sevdiyi tut ağacının





altında dəfn olunur. Beləliklə, 1919-cu ildə ata evindən çıxan Hüseyn Cavid 63 il sonra ana torpağa qovuşur.

Cavidin cənazəsinin Vətənə qaytarmaq üçün Sibirə gedən SSRİ-nin sabiq deputatı Zakir Nəsirovla söhbətimizdə o, səfərdən imtina edənlərin adlarını açıqladı: “Uzaq Sibirə səfərə çıxmaq, qarda, meşədə yol getmək asan deyildi. Məzarlığa baxanda diksindik. Məgər 40 minlik qəbiristanlıq olar? Bu, qarın içində bir qəbir meşəsi idi. Ruslar bizə heyrətlə baxırdılar, bu, onlar üçün də analoqu olmayan hadisə idi. Bu məsələ ilə bağlı Heydər Əliyevin Leonid Brejnevlə yarım saat xüsusi söhbəti olmuşdu. Cavidin nəşinə ilk dəfə mənim əlim dəyib. Qəbirdən onun sümüklərini mən çıxartmışam. Hansı hissləri keçirdiyimi necə deyim? Bu səfərdən son anda çoxları imtina etdi. Açıq danışaq, niyə gizlədirik, Naxçıvanın daxili işlər naziri vardı – Sadıq Sadıqov, şəhər daxili işlər şöbəsinin rəisi vardı– İbrahim Qədimov. Rafael Hüseynov “Vaxtdan uca” əsərində onların adının baş hərflərini verib, niyə adları açıqlamayaq? Bilirsinizmi, rahat kabinetdə oturub qərar verənlər Uzaq Sibirə getmək istəmirdilər. Mən Fransaya getməli idim, amma o səfəri təxirə saldım ki, Fransa qaçmır, sonra gedərəm”.

Tarixi missiyanı həyata keçirən üçlüyün sonuncusu, Naxçıvan daxili işlər nazirinin sabiq müavini, polkovnik Telman Əliyev isə o vaxt keçirdiyi qorxunu uzun illərdən sonra, söhbətimiz zamanı etiraf edir: “Həyəcan keçirirdim, bir çox vəzifəlilərin səfərdən imtinası məni də qorxudurdu. Digər tərəfdən isə bacım ölüm ayağında idi. Bizim nümayəndə heyətində yeganə rütbəli şəxs olduğuma görə, üzərimə düşən məsuliyyəti də hiss edirdim. Sibirə çatan gün xəbər aldım ki, bacım rəhmətə gedib, amma geri qayıtmadım. Səfərdə mənim üçün ən çətin an məzarın açılması oldu, dözməyib ağladım”.

Hüseyn Cavidin cənazəsi Azərbaycana gətirilsə də, “ailə” yenə pərən-pərən idi. Şairin qızı Turan xanım həmişə ailə üzvlərinin bir yerdə dəfnini arzulasa da, atasının cənazəsi gətirildikdən və şairin xatirə türbəsinin yaradılması qərarından sonra onun xahişi yerinə düşürdü. Onun ailə üzvlərinin hamısını bir yerdə dəfn etmək barədə xahişinə Heydər Əliyevin cavabı müsbət olur və 1937-ci ildə ayrılan ailə üzvləri 59 ildən sonra təkrar görüşürlər. 1996-cı ilin

13 sentyabrında Müşkünaz xanımın məzarı Bakıdan, Ərtoğrul Cavidin məzarı isə Naxçıvandan türbəyə gətirilir. Həmin il oktyabrın 29-da Heydər Əliyevin iştirakı ilə Cavidlərin türbəsinin açılış mərasimi keçirilir. 2004-cü ilin 12 sentyabrında Turan Cavid də vəfat etdi və o da məhz 13 sentyabr tarixində bu türbədə dəfn olunur.

Hüseyn Cavidin həyatında 3 rəqəmi sirli şəkildə təkrarlanıb: 1937-ci ilin 3 iyununda 3 nəfər – Hüseyn Cavid, Əhməd Cavad və Mikayıl Müşfiq həbs edilib, məlum "üçlük" onu gedər-gəlməzə, Maqadana göndərib, 41 il sonra bir başqa "üçlük" onu vətənə gətirib, şairin cənazəsinin gətirilməsi ilə bağlı 3 dəfə məsələ qaldırılıb, ailə 13 sentyabrda bir-birinə qovuşub və s.

Şairin həyatında 59 rəqəmi də dəfələrlə təkrarlanıb. Başının ölçüsü 59 olan şair 59 yaşında vəfat edib, ölümü 59 nömrəli aktla sənədləşdirilib. Bakıdakı 59 nömrəli evindən zorla ayrı salınan şair Sibirdə 59 nömrəli qəbirdə dəfn olunub və 59 ildən sonra ailəsi ilə "görüşüb"...

Sonda bir məsələyə də aydınlıq gətirək. Tarixi missiyanın iştirakçılarının sözlərinə görə, Sibir arxivlərində şairin gündəliyinə, şeirlərinə, ümumiyyətlə onunla bağlı hər hansı əşyaya rast gəlinməyib. Yalnız şahid ifadələri əsasında məlum olub ki, Cavid dustaq yoldaşlarına oxuduğu şeirləri sonra sobaya atıb yandırırmış...

Və qəribə olan daha bir fakt. Sibirdəki həmin Məhbus Əlillər Evində digər Azərbaycan şairi Gülhüseyn Hüseynoğlu da müalicə olunub, bəraət alıb, vətənə sağ-salamat qayıdıb...

*iyul – 2008*





# 3478 işarə

Hamının həsrətlə gözlədiyi yüzilliyin sonu, axır ki, yetişdi. Üstəlik, gözlədiyimizdən də tez gəlib çatdıq sona. Bizim gəlişimizlə ümidlərin, inamların məkanı 20-30 il daha irəliyə sıçradı. Bu da təbiidir. Nə yetişmədə, nə də sıçrayışda qəribə, maraqlı heç nə yoxdur.

Amma... 1990-cı illərin gəncliyi, yüzilliyin son cavanları göründü! İnsan cəmiyyətində dəyişilən və dəyişən yüzillər, dövrlər yox, nəsillərdi! Ədəbiyyatı bir vaxtlar "nələrdənsə" təmizləyən, "kimlərdənsə" qoruyan, yazarları düz yola istiqamətləndirən bizim tənqidçilər 1990-cı illər gəncliyinə böyük ümidlə baxırdılar. Bu nəslin özü yoxkən haqqında daha çox danışılıb, nəinki bu gün. Söz seçənlərimizə nə olub görən? Bu təzələr nə əcəb istiqamətlənmir, yazılar saf-çürük edilmir? 1990-cılar çap olunur, kitabları çıxır, az-çox oxunur... Bu cavanların müsahibələri, atüstü, ayaqüstü dedikləri daha çox izlənir, nəinki ədəbiyyat adıyla ortaya qoyduqları.

Çağdaş ədəbi proses bugünkü cəmiyyətin qanunauyğunluqları ilə idarə olunursa, vay gəncliyin halına! Yox, əgər ədəbiyyatın da öz mizanları varsa, onda vay sizin halınıza, möhtərəm ədəbiyyatçılar nəsli!

Hər nəsil ədəbiyyata öz tənqidçi, təhlilçi, araşdırıcısıyla gəlir. Deyilişi belə bir vaxtlar hay-küy qoparsa da, günümüzdə oturuşmuş fikirdir. Tanınmış adlı-sanlı tənqidçilərimiz ya bazar iqtisadiyyatının ağırlığına söykənirlər (ədəbi orqanlar ardıcıl çıxmır, izləyə, ala bilmirik və s.), ya da iş-güclərinin çoxluğuna. Amma insan cəmiyyətində çox şey köhnədir, o cümlədən də bəhanələr. Kimisə qınamaq fikrində deyilik. Əsla! Sadəcə, bu gün ədəbiyyatın içindən başqa qalan hər yerdən ədəbiyyatla nəfəs alanlarımızın səsi-sorağı gəlir. Ən yumşaq halda, onları qısqanmamaq mümkünsüzdü.

Nəsillərin bir-birinə qısqanclığı da həmişə olub, olacaq. Sayğısızlıq isə əsl bəladır. Daim qeyri-müəyyən fikir, konkretlik yox,

dəqiq müşahidə yox... İmkan düşən kimi "bostana daş atanların" cavabı verilir, vəssalam...

Dünyadakı proseslər bizim yüzilliyin sonunda hətta imperiyaları vurub dağıdırsa, ədəbiyyatdakı miflərin, bütlərin uçması gəncliyin suçumu? Rahatsız olmağa dəyməz, uçan bütlərdi, ədəbiyyat ki deyil!

Təzələrə bir yazıçımızın münasibəti belə oldu: "Yazmağına yazırlar, amma bizləri ötüb-keçmək, bizi silkələmək yoxdu...". Ədəbiyyat adamın gərək ruhunu tərpətsin, bəli, bu, şəksizdir. Dərd budur ki, ruhun silkələndiyini də adamın özündən başqa kimsə duymur! Əlac qalır cismin də tərpənməyinə... Bu proses isə duyğulanma yox, qıcıqlanmadır.

"Bizim cavanlar çox tərbiyəlidir. Bax, bu, xoşuma gəlmir". Şairimizin də iradı yerindədir. Bu da şəksizdir, əxlaq, tərbiyə modelləri kimə xidmət edir-etsin, onların ömrünü təzə nəsil müəyyənləşdirir. Amma necə olur, biriylə münasibətdə bu modellərin parçalanması əladır, ayrısıyla: "Paho, sən nə etmisən?.."

Beləliklə, 20-ci yüzilliyin son günlərinin, günümüzün ədəbi

MƏNZƏRƏSİ – əvvəlkilər hərə öz mifini qoruyur, cavanlar nədən necə istəyir yazır, kim hansı ad altında istəyir elə çap olunur, yazılanlar kiçik, qapalı dairələrdə müzakirə edilir, rəy verilir...

REALLIĞI – hərə özünü yazır. Ədəbiyyatın əzəli, əbədi mövzularının, sakit pıçıltılarının qalib nümayişi aydınca sezilir...

BƏLASI – sənət nə sənət, nə də xalq üçündü, bu gün sənət elə yazanın özü üçündür. Yer üzündə yazmaqla bir insan bəndəsi canını nədənsə qurtarırsa, elə bu da sənətin qələbəsidi...

Sağ ol, sənət!

*may – 1999*





# "Ətirşah Masan"dan reportaj

...Elə ilk cümlədəcə, bütün səbəbləri günah kimi "Ətirşah Masan"ın boynuna qoymaq, Əkrəm Əylislinin "Azərbaycan" da çap olunan yeni romanından sözə başlamaq, yazıçının yaxın tariximizdən bu günə ötürdüyü reportajın istiliyini yoxlamaq, yazı ilə gerçəkliyin arasındakı gizli, sirli sərhədləri axtarmaq, müəllifin üstünə qələmi qılınc kimi oynada-oynada qaçmaq, binəva xalqı "həyatı bədii obrazlarla əks etdirən söz sənəti"nin qoruyucu vasitələrinin hamısının – romanın, reportajın, bədii təfəkkürün, yazıçının, obrazlılığın və s. və i. üstünə qaldırmaq olar. Amma yox. Axır sözü əvvəl demək heç yaxşı deyil. Belə tələskənliyi, kəsəliyi, əvvəla, ədəbiyyat yaxına qoymur. Nə qədər olmasa, ədəbiyyat adamının məktub yazandan, günləri qələmə alandan, xatirə dəftərlərinin vərəqlərini doldurandan gərək bir fərqi olsun, axı. O biri yandan, harda doğulub – yaşamasından asılı olmayaraq, oxucuların da ürəyi üzə qıpqırmızı, birbaşa deyilən sözdən atlanmır. Çünki müəllif "mıs-mıs" deyəndə özünü "mustafa"ya hazırlamaq üçün xeyli vaxt qalır.

Amma bu "xeyli vaxt"ın da bir ölçü-əndazəsi, sözü ağızda o üzəbu üzə ötürən dilin də üzündə həyası gərək olsun. Yoxsa, fikirlərin hamısı yarımçıq qalar, mətləb unudular, gül kimi "sözün canı" da diri-diri qəbrə qoyular. Düzdür, danışanda ("yazanda" sözünü xüsusi qeyd eləmək vacib deyil, çünki yazı nitqin sadəcə, sənədləşməsidir, ayrı heç nə) belə "incə" məntiq məsələlərinin yolunu hamı gözləmir. Ona görə günü bu gün də sözünü axıracan deyə bilməyənlərin, dilinə gələnləri iradənin gücünə geri itələyənlərin, axır sözünü gizlədə-gizlədə dünyadan köçənlərin, ürəyindəkini biryolluq çölə çıxara bilmədiyi üçün əzab çəkənlərin, deyəcəyi sözə özünü hazırlayıb qurtara bilməyənlərin siyahısını nə qədər desən uzatmaq olar. Ən pisi budur ki, siyahının bir belə uzun və yöndəmsizliyi dünyanın harasında doğulub-yaşamasından asılı olmayaraq, heç kimi heyrətləndirməz.

Halbuki əksinə, məsələn Kafkanın axır sözünü əvvələ keçirməsi dəhşətlə qarşılandı, faciə ilə qurtardı. Bu tərbiyəsizliyi dünya hələ də unuda bilmir, necə yəni mən tısbağa oluram, cəmiyyətə qoşulmuram, gündə bir cildə düşüb sizi ələ salıram, başına toplandığınız işığı qaraya boyayıram... Böyük üsyankarlardan fərqli olaraq, Kafka özü özünü öldürdü. O, nə özünü, nə də ədəbiyyat adı ilə yazdıqlarını sevə, bəyənə bilmədi. Niyə? Əgər Günəşi danırsansa, onda gərək isinməyin başqa yolunu göstərəsən. Özü bir gilə işıq verməyəndən sonra lampanı sındıranları heç kim bağışlamır: nə Allah, nə bəndə, nə də istedad-filan... İllər ötüb, hələ də müxtəlif sahələr üzrə dünyanın tanınmış elm adamları oturub baş sındırırlar: görən, Kafkanın bir gilə işığı barmağı ilə örtmək istəməsini necə yozsunlar ki, Allaha xoş getsin?! Bu Kafka yenə hardan gəlib yada düşdü? (Qəribədir ki, hər dəfə Əkrəm Əylisli mənim yadıma Kafkanı salır və ya əksinə, tənhalar tənhası Kafka mənə bizim yazıçını xatırladır. Gendən, ilk baxışdan onlar bir-birinə heç oxşamırlar. Di gəl, sözlərinin lap dərinliyində onlar sirli şəkildə elə bil qoşalaşırlar. Bəlkə də bu belə deyil? Sadəcə, Əkrəm Əylislinin özündən ətrafa iyrənə-iyrənə boylanması, əlində əlac olduğu qədər onu "öldürücü gülüş"lə dolaması və bütün bunları ədəbiyyat naminə, bədii təfəkkürlə yox, qəsdən, şüurla eləməsi adamın yadına bu günün məşhur "təklik-tənhalıq" havasını, o vaxtınsa yazıq Kafkasını salır). Qapqara, havasız, işıqsız hücrəsi ən birinci Kafkanın elə özünü zəhərlədi, amma kimlərinsə səhvi üzündən illər onun yaralarının üstünü örtmədi. Ona görə bu gün Kafkanın xəstə vaxtı yazdığı irinli, çirkli, tüpürcəkli səhifələrini çevirəndən sonra istər-istəməz əlini-üzünü sabunla bərk-bərk yuyursan. İşıq tapa bilməyəndə adamlar həmişə suyla durulanırlar...

Tanrıya həm də Yaradan deyilir!

Yerdə oturub özündən təzə nəsə düzəltmək istəyənlərə həm də yaradıcı deyilir!

Yaradanı göydə (düzünü bir Allah bilir) təsvir edirik, yaradıcını yerdə. Adi, sadə adamlar onlar arasında nəsə bir bağlılığın olduğuna inanırlar. "Ədəbi dilin tələbləri"nə uyğunlaşanda bu ilkin təsəvvür "istedad", "talant", "vergi" şəklinə düşür. Belə bir bağlılığın





olması fikri yaradıcılara xoş gəlir, adiləşməkdənsə, hər halda qeyri-adilik yaxşıdır. Amma adamlar sevdikləri kimi bu yaradıcıları daşqalaq da eləyə bilərlər. Çünki ibtidai təsəvvürdən tutmuş bu gün müxtəlif dillərə tərcümə olunan səma kitablarına görə də Göydəki Yaradan təkcə yaratmır, həyat paylamır, həm də idarə edir, nizamlayır, tərəzinin gözünü əyilməyə qoymur, varlıyla kasıbı, buynuzluyla buynuzsuzu ayırmır...

Ona görə də haqq-ədalət, nizam da Allahın adlarından biridir!

Ona görə də cəmiyyətin itən harmoniyasını düzüb-qoşmağa çalışmaq, durulanmaq üçün işıq axtarana könüllü yardımçı olmaq, kini-qəzəbi-qisası-nifrəti dünyadan oğurlamaq, göydən gələn bəlanı-ildırımı əliylə tutmaq üçün çıxmağa palıd axtarmaq da yaradıcının təyinlərindən sayılır!

Bu adlarına yiyə çıxmayanları adilər yaradanlarının heç birinə: istər Göydəkinə, istərsə də Yerdəkinə bağışlamırlar. Hətta Tanrısından üz döndərən insan gör indi özü ilə bir müstəvidə gördüyü yaradıcısına neyləyər? Fantaziya, təfəkkür, təxəyyül bədiiləşmə və s. öz yerində, ona görə yaradıcıların (harda doğulub-yaşamasından asılı olmayaraq) güclərinin, istedadlarının, imkanlarının da bir həddi, çərçivəsi, haşiyəsi var. Çünki bu yer üzündə qədərsiz, hədsiz hələ heç nə yoxdur!

"...İradənin gücünə, ürəyimin doluluğuna inananda asan yazmağa başlayıram. Tanıdığım, tanımadığım adamların xoş münasibəti bu yerdə mənə çox kömək eləyir. Adicə təbəssüm, hörmət, salam-kəlam mənim yazmağım üçün impuls ola bilir". Əkrəm Əylisli "Ədəbiyyat yanğısı"nda belə yazır. Xoş münasibət sevgi doğurur, bu böyük, nəhayətsiz sevgidən sevgi ilə yazılan əsərlər dünyaya gəlir, sevilə-sevilə oxunur... Heç nəyə gücü yetməsə də, yazar ədəbiyyatın imkanları hesabına hər mütaliə ocağına bir gilə sevgi yollayır. Bu bir gilə sevgi isə həyat tərzindən, taleyindən, şəxsi faciəsindən asılı olmayaraq, oxucunun yadına daha bəşəri duyğuları, bəlkə bu yer üzündən öncəki hansısa sirli genetik bağlılığı salır... Bu böyük, mühüm, ilahi zəncirin halqası isə tanıdığın-tanımadığın adamların hörmətindən, təbəssümündən, xoş münasibətindən başlanır – Əkrəm Əylislinin sadə bir dillə etirafı

ədəbiyyat adlı bir tapmacanın ən dəqiq açmasıdır. Amma Tanrıdan uzaq olsa da, şeytan insana çox yaxındır. Adamı tapdığı dahiyanə kəşflərin arasında rahat oturmağa qoymur, yerindən-yurdundan eləyib üzünü o biri tərəfə yönəldir. Bir ayrı havanın ciyərlərinə gəlib dolduğundan heç xəbərin də olmur, yəni şeytan çox ciddi bir şəkildə soruşur: sevgi sevgi doğurursa, bəs qəzəb? Qəzəb niyə qəzəb doğurmasın? Şeytanın asanlıqla qoyduğu "nida"sından yaxa qurtarmaq üçün ədəbiyyat da bir xeyli zəhmət və əmək sərf edib, oxucularını hərdən tamam tərəfinə çəkib də. Amma bu illər ərzində şeytanın sakitcə durub baxmağını da düşünmək sadəlövhlük olardı. Aydın məsələdir ki, o da bildiyini edib, ədəbiyyatın içindən tərəfinə çəkdiyini çəkib...

"Ətirşah Masan" Əkrəm Əylislinin yenicə işıq üzü görən və hələlik ən son nəsr nümunəsidir. Janrını özü "roman-reportaj" kimi qeyd eləyib. 2003-cü ilin iyul-noyabr aylarında Əylisdə qələmə alınan, dörd fəsillə çap olunan "Ətirşah Masan" həcmcə böyük deyil. Şübhəsiz ki, yazıçı əsərinin həcminə görə yox, hadisələrin inkişafına, obrazlarını həyatın sonuna kimi tək qoymadığına görə roman adlandırıb. Söz yox ki, bu roman istənilən ədəbiyyatşünasın xətkeş-karandaşı ilə asanlıqla povestə dönə bilər. Amma digər tərəfdən, ədəbiyyatçının belə yazı-pozusuna ehtiyac da yoxdur, çünki yazıçı özü də sözün ürəyində roman boyda böyüməsini gözləməyə hövsələsinin çatmadığını dəqiq bilir. Bəs reportaj nədir? Əsərində müəllif bugünkü həyatı, zamanı, qəhrəmanları göstərdiyinə, yeri gəlmişkən onlara münasibət bildirdiyinə görə isti-isti qeydlərə deyilən "reportaj" anlamı ilə roman arasına "tire"yle sərhəd qoymağı lazım bilib.

Tipik şərq nağılı kimi analığının incitdiyi Masanın taleyi satılıb-alınır. Onun xəstə, qoca, şikəst, iyrənc Yədullayla bir yastığa baş qoymağı ilə roman başlayır. Canı boğazına yığılan bu talesiz gəlinə yenə nağıllarda olduğu kimi, ağappaq işıqla Əkrəm Əylislinin sevimli kəpənəyi kömək eləyir: "Qızım, qızılım Masan! Ölmək sevdasını çıxart başından, onun sərəncamı Allahın əlindədir. Bundan sonra sən hələ çox ömür sürəcəksən. Bir-birindən gözəl günlər görəcəksən..." Hadisələr inkişaf etdikcə Masanın günlərinin





gözəlliyi şübhə doğursa da, hər halda ağappaq kəpənəyin dedikləri olur: qaynananı ilan vurur, ərin də günün günorta çağı canı ağzından çıxır. Ərinin qırxı çıxmayan Masan Qəzənfəri yuxarı başa keçirir. (Şeytan bildiyini eləyir, tərbiyəsizlik əxlaqsızlıq, amansızlıq da özünə oxşar qeyri-insani bir hiss doğurur) Gecədən-gecəyə gələn kişi müharibəyə gedir, bic uşaq dünyaya gəlir. Haramdan halal törəyə bilməz, daşı daş üstünə qoymayan Aslanın ömrü daş-divarın arasında çürüyür, onunla başlayan haramlıq qızı Sülü ilə davam edir. Ağacları budaq-budaq gəzən anasından qat-qat tədbirli, fərasətli, həm də sivil dünyagörüşlü Sülü meydana gəlib çıxır...

Buracan tələsən müəllif reportajına başlayır. Sözünün canına keçir:

"– Pulu neynirsən? – dedi. – Həna alıb Keçi bəyin saqqalına yaxacaqsan?

– Bax e, bir buna bax! Bu da Elçibəyi bəyənmir! – Sülü yanıqlı-yanıqlı söyləndi. – Çox görmüşük sənin kimi imperiya nökərlərini. Gəllik hakimiyyətə, onda bilərsən ki, keçi kimdi, adam kimdi".

İmperiyaya qarşı vuruşan, azadlığa layiq olan adamların heç kökündən təsvir eləməsə də, əvəzində müəllif əsərinə yetərincə "mənfi qəhrəman geyimində" olan şair obrazlarını gətirir. Əbülfəz Elçibəy, Mirzə Xəzər, Vaqif Səmədoğlu, Zəlimxan Yaqubdan fərqli olaraq, bu şair-şüəra obrazlaşdırılıb. Bununla belə, onların prototiplərini tanımaq, kimlərin bostanına daş atıldığını anlamaq çətin deyil.

Bataqlıq çiçək bitirməz, deyirlər. Yazıçı bu məşhur fikrə də əks tərəfdən yanaşıb. Yəni lotos gülü, bataqlıq çiçəyi də dibçəkdə, güllük-çiçəklikdə yetişə bilməz. Genetik cəhətdən əxlaqsızlıq, haram daşıyıcısı olan Sülü də hər yerdə inkişaf edə bilməz. Yazıçı onu münasib bildiyi yerə – meydan hərəkatına, azadlıq mübarizəsinə, kürsülərə, sonda isə Milli Məclisə gətirib çıxarır. Əlverişli mühitin içində Sülü boy atır, hələ Ələddinin ürəyinə damanlar da gerçəkləşsə, onda artır-çoxalır...

Azadlıq mübarizəsi hər xalqın tarixində əvəzsiz yer tutur. Yazıçılar dünyanı balaca bir model kimi görsələr, onların realist düşüncəsi, bədii təxəyyülü xalqların, ölkələrin üstündən adlasa belə, yenə adama qəribə gəlir. Görən, Azərbaycan xalqının yox, deyək

Ermənistan, ya da qonşu Gürcüstanın azadlıq mücadiləsini belə əxlaqsızlıq yuvası kimi qələmə versə, onlar Əkrəm Əylislinin Əylis kəndində oturub yazdığı roman-reportajını necə qarşılayardılar? Görən, biz erməniləri və ya ilk baxışdan daha sivil görünən gürcüləri inandıra bilərdikmi, bütün bunlar ədəbiyyatdır, ədəbiyyatsa kənddə kişilərin keçiylə-çəpişlə çıxardığı oyunları yazmayanda, bəzi lirik ricətləri yerli-yerində təsvir eləməyəndə, bugünkü nəsrə ögey analıqdan başlayan, ağappaq kəpənəklə qurtaran öncəgörümləri gətirməyəndə oxucusunu tapmır, oxunmur...

"Belə çıxır ki, bütün erməni xalqını gündə yüz dəfə söymək olar, ancaq bir müsəlman alçağına bir dəfə də bircə kəlmə güldən artıq söz demək olmaz".

Bu "Ətirşah Masan"da bir kəlmə qonşuların ünvanına artıq-əskik söz yazılsaydı, görən uşaqlı-böyüklü müsəlman xalqı yazıçını erməni xalqının qəzəbindən qoruya bilərdi, ya yox? Maraqlıdır, bütün bu təsvirlərin, səhnələrin, epizodların sırf bədii təxəyyüldən doğulduğuna və ədəbiyyat məsələləri olduğuna görən həmin bu "bütün erməni xalqı" inanardı, ya yox? Onlara niyə başa sala bilməzdik ki, bəli, bu, ədəbiyyatdır, ədəbiyyat isə... Yenə "Ədəbiyyat yanğısı"ndakı etiraf yada düşür: "Adicə təbəssüm, hörmət, salam-kəlam mənim yazmağım üçün impuls ola bilər".

Bir vaxt sovet pedaqoqları uşaqları məntiqlə sınamağa üstünlük verirdi, çünki alimlərə görə, yaşa dolduqca insanın fikri, hissi, dünaygörüşü dəyişə bilər, amma dünyanı qavrama, dərketmə üsulu yox. Bu mənada, ədəbiyyata yanaşma məntiqini yazıçı dəyişə bilməz. Yəni ötəri bir təbəssüm, salam-kəlam masaya tərəf itələyirsə... onda əksinə, tanıyıb-tanımadığının hansısa yersiz ittihamı, kiminsə acı sözü, yöndəmsiz jesti də yaradıcılıq üçün impuls ola bilər və mümkündür. Qəzəbə qəzəb, kinə kin? Bəs, cəmiyyətdən gələn qəzəbi özündə sındırıb ədəbi əsərə çevirən və kinli nizə kimi yenidən cəmiyyətin düz ürəyinə yönəldənə yazıçı kimi yanaşmaq olarmı? Bu, bəşəri sual deyil, çünki atalarını öldürməyə hazır olan Dostoyevski qəhrəmanları da geriyə – cəmiyyətə özü ilə kin gətirmədi. Ona görə "Ətirşah Masan"ın nə qədər ədəbiyyat məsələsi olub-olmadığını, bütün bu əhvalatların roman cildinə





düşüb-düşmədiyini, bədii sözə çevrilib-çevrilmədiyini tapmaq bizim Azərbaycan ədəbiyyatının boynuna düşür.

...Və nəhayət, son cümlədəcə xalq hərəkatına bir vaxt "inam yox, iman gətirmişəm" – deyən yazıçını indi yerli-yersiz qınamaq, gözəl dilinə və təhkiyəsinə göz yumub onu kimlərinsə ayağına vermək, "Ətirşah Masan"ın "mustafa" olub-olmadığı üzərində baş sındırmaq, ağzındakı dilin qədər yaxın, amma dünyaca uzaq olan Əkrəm Əylislinin demədiklərini də oxumağa çağırmaq olar. Amma yox. Axır sözü axırda da deməyə gərək tələsməyəsən, qoy hələ hamı danışıb ürəyini boşaltsın...

*iyul-2004*

# İsa Hüseynov: “Boz-bulanıq axın ədəbiyyatı süquta aparır”

– Muğanna üçün 80 yaş nə deməkdi, yazıçını bu yaşda daha çox hansı məsələlər düşündürür?

– Bu yaşdan yekun iyi gəlir. Amma səksən, bir növ yekun yaşı olsa da, bütün insanlar kimi mən də yaşamaq, işləmək istəyirəm. Yaradıcılığımın son dövrünün məhsulu indiyə qədər gördüyüm işlərin içində ən xeyirlisidir. Əvvəlki dövrdə yazdıqlarım olduqca bəsit olduğuna görə, yaradıcılığımın birinci dövründən imtina etmişəm. Ən məhsuldar dövrüm təxminən 60-cı illərdən başlayır, o dövrdə 5-6 povest yazmışam. Bunlar Azərbaycanın kənd-şəhər həyatını əhatə edən bir növ populyar əsərlərdir. “Məhşər” romanından sonra isə yaradıcılığımın II dövrü başlayır. Sonra “İdeal”, “Qəbiristan”, “GürUn”, “Cəhənnəm” romanları gəlir. Bunlar tamam fərqlidir, elə bil ki, tamam başqa yazıçının əsərləridir. Bu da qədim türk dili olan OdƏr dili, SafAğ elmi ilə əlaqədardır.

– OdƏr dili və SafAğ elminin sadə izahı necədir?

– Bu dilin nə olduğunu indiyə qədər bilən olmayıb. Rus alimləri yazıblar ki, bu, qədim türk dilidir və hecalardan ibarətdir. Halbuki, OdƏr dilində hər bir söz söz birləşməsindən əmələ gəlir. Yəni, hər sözün tərkibində 5-6 söz birləşir və hamısı da böyük hərflə yazılır. Məsələn, sizə bir planetin adını deyim: OdAğÜzBağOdƏr planeti latın dilində Yupiterdir. Yerdə həyat təhrif olunandan sonra bu planetin də adı dəyişib Yupiter olub. Yupiterin mənası anlaşılmır, amma odərcə mənası belədir: “od” həqiqət, “ağ” işıqdır, yəni tər-təmiz işıq mənasındadır. Yerdə bu adın dəyişməyinin səbəbini izah etmək üçün gərək Yerin tarixinə bir qədər səyahət edəsən. Yer planetinin 3 tarixi var, biri 50 min illik irəli salınan tarix, biri 50 min illik geri salınan tarix və yeni tarix. Birinci dəfə işıq gəmilərində Yerə GurAğ adında ordu göndərilib, sonralar adı dəyişilib qrek





olub. Onlar işıq silahları ilə Yer planetində heyvanatı qırmaq, bəzilərinin kökünü kəsmək, Yerdə insan həyatı üçün şərait yaratmağa gəliblər. Sonra Yerə qədim türklər – OdƏrlər gəliblər. Onların da başında insanları bir-birinə bağlayan bağlar gəliblər – təhrifi “boq”dur. Bir bağ (boq) olmayıb. Qalaktikanın ən böyük planetində OdAğÜzdə Bağ Ata oturub. Onun 4 oğlu məlumdur. Bu oğullar odərlərlə bir yerdə Yerə gəliblər. I oğlu ƏsƏlMən – mənim yaradan oğlum mənasındadı, ona yerdə Urubağ deyilib. Onun başçılığı ilə 11 bağ işlərini görüb qurtarandan sonra işıq silahlarını qreklərdən alıblar. Buna görə də qreklərdə bağlara qarşı narazılıq yaranıb və müharibələr başlayıb.

– Yerin ilk sivilizasiyası niyə məhv olub?

– İlk sivilizasiya çox yüksək imiş və orda SafAğ insanlar, yəni ölümsüz insanlar yaşayırmış. Yerdəki aramsız müharibələr odərlərə, qreklərə, onlarla birgə gələn latınlara təsir edib. Odərlərin kökünü kəsmək, dillərini məhv etmək istəyiblər. Nəticədə onlar bizim Midiya dediyimiz Bağudey – mənası Uca həqiqət bağı deməkdir – ölkəsini tərk edib perik düşüblər. Sonralar farslar onlara tərik düşənlər, tərikanlar deyiblər. Türk adı burdan gəlir. Eynən indiki kimi, Atom parçalanıb, buxarlanma baş verib, yağışlar başlayıb, Yeri su basıb. Bağlar görüblər ki, irəliyə yer yoxdur, ona görə tarixi geri sayıblar. Biz I Dünya müharibəsi deyəndə 1914-1918-ci illəri nəzərdə tuturuq. Halbuki, 604-cü illə 802-ci il arasında 200 il davam edən müharibə olub. Nəticədə, odərlər vətənlərini itiriblər. Sonra müxtəlif ölkələr, millətlər yaranıb. “Azərbaycan” sözü təhrif olunmuş addır. Qrekin “Atropaten” sözündən “Azərbaycan” sözü yaradılıb. “Azər” – az işıq, “baycan” sözünün mənasını başa düşmək üçün bayquşun adını xatırlamaq kifayətdir. Bu fikirlərimi Azərbaycan alimləri də qəbul edirlər.

– Yaradıcılığınızın II dövründə yazdıqlarınızın, başqa sözlə, Muğannanın əsərlərinin məqsədi nədir?

– Bu əsərlərin məğzində bəşəriyyətin taleyi dayanır. Onları xarici dillərə tərcümə eləmək çox çətindir. Tərcümə üçün gərək ən modern, postmodernist, hər iki dili yaxşı bilən, OdƏr dilinə də az-çox bələd olan tərcüməçilər olsun. Belə tərcümələr olmayınca,

belə əsərlərin Yer planetində yayılması çətindir. Amma indi-indi əsərlərimi təhlil etməyə başlayıblar. İndiyə qədər susurdular.

– Bu romanlar ədəbi mühitdə bir növ çaşqınlıqla qarşılandı, bəs alimlərin bu əsərlərə münasibəti necə idi, Sizinlə görüşmək, danışmaq istəyənlər oldumu?

– Heç kim dinmirdi, alimlər də susurdular, ədəbiyyatşünaslar da... Mən qədim tarixlə maraqlanmağa başlayanda oxuduğum min bir kitabdan əlavə, planetdən səslər eşitdim. Bu, OdAğÜz planetindən gələn səslər idi. Yer tarixinin tamam təhrif olunduğunu gördüm. İsos Xristosun adı da təhrifdir, onun adı türkcədir, Eysar – uca hökmdar deməkdir. Onun qardaşlarının adları da təhrif olunub. Bağ Atanın birinci oğlu ƏsƏlManın adı dəyişib Süleyman olub. İkinci oğlunun adı ÜnEy – mənası Uca səs deməkdir – təhriflə Nuh olub. Üçüncü oğlu Erəlim – Elm işığı deməkdir – təhriflə İbrahimdir. OdƏr dili proqram dilidir, yaradıcı dildir. Bu yaradıcı dil dəyişdikcə yerdə həyat da dəyişir, təhrif olunur. OdƏr dili ün şəkilində, Günəş işığında Yerə göndərilir. Yerdə müəyyən adamlar bu səsi eşidib yayırlar və Yerdə yaradıcılıq işləri, əkin-biçin başlayır.

– Siz bu dili bilirsiniz?

– Mən bu səsləri eşidirəm, bu dili də mənə öyrədirlər.

– Məqsəd nədir?

– Yerdə, birinci sivilizasiyanı təkrar qurmaq istəyirlər. OdƏr dili bütün planetlərdə danışılır. Bütün planetləri Bağlar idarə edirlər.

– Sizcə, qalaktikada necə planet var?

– Bu gün qalaktikada 9 planet var, 10-cusu Günəşdir. Günəş milyonlarla kilometr uzanan metaldır. Bu metal EyOdƏr planetinin atmosferindən enerji alır və planetlərə soyuq enerji buraxır. SafAğ işığı Merkuri planetinə toxunanda istilənir, sonra torpağa toxunanda daha çox istilənir və yaradıcılıq xüsusiyyəti yaranır. Onu da Bağlar proqramlarla insanların beyninə yönəldirlər və yaradıcılıq belə başlayır. İnsanların xəstəlikləri də OdƏr dilini bilməməkdən irəli gəlir. Bütün bitkilərin hamısının adı DərMəndir. Onlarla insanların xəstəlikləri müalicə olunur və əbədi həyat yaranır. SafAğ elmini yaymaqda məqsəd əbədi həyatı qaytarmaqdır. Əbədi həyat bütün planetlərdə var, amma doğuluş yoxdur. Bircə Yer planetində





doğuluş var. SafAğ elmi hakim olduqdan sonra burda da doğuluş tədricən azalacaq. Kənddə bir uşaq doğulanda bütün kənd toy-bayram edəcək. Kainat sonsuzdur. Biz Günəş sistemini tanıyırıq, başqa sistemləri tanımırıq. O planetlərdə işıq o qədər güclüdür ki, işıq zülmət yaradır. Oradakılar da çox gur bir işıqda yaşayırlar. Bizim planetdə həyat o gur işıqdan gələn insanlarla başlayıb.

– Onda belə demək olarmı, İsa Hüseynov bizim dünyamızın yazıçısı, Muğanna isə başqa, naməlum dünyanın mirzəsidir, bir növ diqtələri yazıya alan adamdır?

– Tamamilə doğrudur. İsa Hüseynov Yer yazıçısıdır. Amma "Məhşər"lə başlayan və ondan sonra yazılanların məqsədi, yolu başqadır. Muğanna adı da təsadüfü deyil, bu adı mənə veriblər, bizim muğlar deməkdir. ƏsƏlMənin muğlar nəslidir. Muğları axırıncı dəfə bizim Muğana düşürüblər. Onlar ilk dəfə bizim tarixin 950-ci ilində Azərbaycana gəliblər.

– Necə bilirsiniz, Qarabağın xilasına hələ çox qalıb?

– Yox, lap az qalıb. Böyük dövlətlər tarixi ləngitmək istəyirlər, amma azərbaycanlılar lap yaxın vaxtlarda Qarabağa rahat gedib-gələ biləcəklər. Burda bir məsələ var, ermənilər də eyni qayda ilə sərbəst şəkildə Azərbaycana, Bakıya gəlib-gedəcəklər. Bax, bu məsələdən yaman narahatam.

– Bəs dünyanı nə gözləyir?

– Çox yeri su basacaq, amma Azərbaycana təhlükə yoxdur. Xəzərin sahilləri təhlükəli olacaq. Sudan bir az aralı olmaq lazımdır...

– Bu dünyadan köçənlərin başqa dünyada yaşaması həqiqətdir?

– Bu dünyadan köçənlərin yalnız 4 faizi Aya gedir, qalanları əbədi həyata qovuşurlar. Ömür boyu yaxşı iş görməyənlərə Ayda elədikləri bir-bir başa salınır, bir növ onlara dərs keçilir, günahlarını başa düşdükcə onlar da ölümsüzləşirlər. Biz Yerin üstündə yaşayırıq, Ayın isə içində həyat var. Bu, eynən Yerdə olduğu kimi bir həyatdır, dağları, bulaqları, ağacları var...

– Bu qeyri-adi informasiyalar daha çox kimlərə verilir, bu adamlar hansı prinsiplə seçilir?

– İnsan ana bətnində olanda onun taleyi artıq müəyyənləşir. Təzə doğulan körpənin qədim dövrdən başlayaraq gələn irsiyyəti

Bağlara məlumdur. Onlar insanları irsən tanıyırlar. Məsələn, hansı şairin hansı irsdən olması və kimə bağlı olduğu onlara məlumdur. Onların qaydalarına görə, insanlara təsir ola bilər, amma təzyiq yolverilməzdir.

– Sizin yaradıcılığınız yeni bir Azərbaycan ədəbiyyatının yaranmasına təkan verib. Bəs Sizin ədəbi taleyinizdə kimlərin əvəzsiz rolu olub?

– Xalq yazıçısı Mehdi Hüseynin mənim taleyimdə böyük rolu olub. Yaradıcılığımın II dövrü başlayanda ədəbi ictimaiyyətdə mənə qarşı hücumlar başladı, məni sovet həqiqətini təhrif etməkdə, qara boyalarla işləməkdə təqsirləndirirdilər. Bizim Mərkəzi Komitədə Yazıçılar Birliyinin nümayəndələrinin iştirakı ilə müşavirə çağırıldı. Yazıçılar Birliyinin 45 nəfərdən ibarət partiya üzvü o müşavirədə iştirak etdi. 45 nəfərdən 43-ü əleyhimə danışdı. Mehdi Hüseyni təqsirləndirdilər ki, öz qohumu, eloğlusu İsa Hüseynovu kollektivə qarşı qoyur. İş o yerə çatdı ki, mənim partiyadan çıxarılıb AYB-dən qovulmağım heç kimdə şübhə yaratmadı. Mirzə İbrahimov çıxış edib dedi ki, nə istəyirsiniz ondan, İsa romanı ürəyinin qanı ilə yazıb, həqiqəti yazıb. Hamının gözlədiyinin əksi baş verdi. Mirzə İbrahimov o vaxt böyük nüfuz sahibi olmaqla yanaşı, yüksək dövlət vəzifəsi daşıyırdı. Onun bu sözü mənim taleyimdə böyük bir dönüş oldu. Amma mən tək deyildim, məndən sonra ədəbiyyata gələn Anar, Elçin, Mövlud Süleymanlı yeni hekayələr, povestlər yazırdılar. Onda mən "Azərbaycan" jurnalında işləyirdim və nəsrə baxırdım. Bu əsərlər mənim əlimdən gəlib keçirdi. İndi özlərinin etiraf etdikləri kimi, onların ədəbi talelərində də mənim böyük rolum olub. Amma mənim taleyimdə mərhum prezident Heydər Əliyevin böyük xidməti var. O, "Məhşər"i yüksək qiymətləndirən, məni təsdiq edən dövlət xadimlərindən birincisi olub.

– Xalq yazıçısı Elçinlə müsahibəmdə o bildirdi ki, əgər ilk povestləri dünya dillərində tərcümə olunsaydı, indi İsa Hüseynov Çingiz Aytmatovdan daha məşhur yazıçı olardı. Bu povestlərinizin dünya dillərinə tərcüməsi niyə baş tutmayıb?

– Bu povestləri yazandan sonra uzun müddət rus dilində yaxşı tərcüməsi axtardım. Axırda birini tapdım, bir xeyli də tərcümə





olundu... Sonra baxdım ki, təhrif olunuram, əsərlərimin bir növ suyunun suyu tərcümədə görünür. Ona görə "Məşhər"i özüm diqtə elədim, tərcüməçi redaktə elədi. Gördüm ki, özüm də özümü təhrif etmişəm.

– Müasirləriniz Sizi Nobel mükafatına layiq olan Azərbaycan yazıçısı hesab edir, bu mükafata münasibətiniz necədir?

– Yerdə SafAğ elminin inkişafına qədər belə Nobel mükafatlarının seçilməsi, verilməsi mənasızdır.

– Saz çala bilirsiniz?

– Vaxtilə 73 saz havasını hamısını ifa etmişəm, xəstələnəndən sonra havaları unutdum. Bu yaxınlarda həyat yoldaşım Firuzə Ağstafadan mənə təzə saz alıb gətirib. Əlimə aldım, birdən-birə ən sevdiyim havanı çalmağa başladım. Ünlə mənə deyildi ki, sənin yaddaşın bərpa olunur. İndi bəzi havaları çalıram.

– Bugünkü ədəbi prosesi necə qiymətləndirirsiniz?

– Anarın "Ağ qoç, qara qoç" əsəri çox yüksək səviyyədə yazılıb. Elçinin "Ölüm hökmü" romanı, Əkrəmin, Mövludun povestləri dəyərlidir. Ümumən, küll halında götürəndə isə demokratiyanın inkişafı, söz azadlığı ədəbiyyatımızda mənfi hallara gətirib çıxarır. Kapitalizm sistemi, bazar iqtisadiyyatı Azərbaycanda ədəbiyyatın xeyrinə deyil, çünki yaxşı yazıçılar əsərlərini çap etdirməyə pul tapmırlar. Söz azadlığı hədsiz dərəcədə aşağı səviyyəli yazıçılar, şairlər yaradır, onları ədəbiyyata gətirir. Onların əsərləri adi belletristika səviyyəsində deyil. Ədəbiyyatımıza olan güclü boz-bulanıq axın məni qorxudur. Bu axın ədəbiyyatı süquta aparır. Əgər bədii ədəbiyyatın nəşri dövlətin və ayrı-ayrı bədii şuraların ixtiyarında olsa, onda əsərlərin bədii siqlətinə fikir verilər. Bu meyar yaranmayınca, belə qarışıq mərhələ davam edəcək.

– Əksər yazıçılar bütün qəhrəmanlarını yenidən bir yerə toplamağa çalışırlar. Belə bir arzunuz varmı?

– Mənim də qəhrəmanlarım əsərdən-əsərə adlayıb. Görünür, bu da bağların işidir. Əslində, yaxşı yazıçılar da müəyyən səsləri eşidirlər. Onlar hərfi mənada eşitmirlər, bir çox yaradıcının beyninə informasiyalar səssiz gəlir, özlərinin xəbəri olmur. Məsələn, Bəxtiyar Vahabzadənin xəbəri yoxdur ki, o, ünlə yazır.

– Həmkarlarınızdan Sizə baş çəkənlər olurmu?

– Yox. Adam darıxır, son vaxtlar gözüm də çox zəifləyib, mütaliə edə bilmirəm. Əlbəttə, həmkarlarımın gəlib-getməyi yaxşı olardı, ədəbi prosesdə baş verənlərdən bir az da yaxından xəbər tutardım. Amma daha çox elm adamının söhbətlərini, əsərlərimlə bağlı elmi təhlilləri eşitmək istəyirəm.

– Hansı arzunuz var?

– Mənim yeganə arzum budur ki, dövlət quruluşunda demokratiyanın inkişafı ilə bərabər qanunauyğun bir şəkildə yoxlama, idarəetmə, izləmə başlanılsın. Bu ədəbiyyatda və elmdə həyata keçirilsin. Bu nəzarət olmalı, məqsədyönlü istiqamətdə inkişaf etməli və ümumbəşəriyyətə xidmət göstərməlidir ki, Yer üzündə qlobal birləşmə olsun. Belə qloballaşma və birləşmə bağların arzusudur...

*iyun –2008*





# Səs+söz=Flora Kərimova

“İnana bilmirdim, amma həkimin təkidli sözlərindən sonra təhlükənin olduğunu yəqinləşdirdim”. Yenə təhlükə, yenə “SOS!” siqnalı və yenə mətbuatın hay-həşiri. Eşidən olacaqmı?

* * *

Bizim heç anadangəlmə səsimiz olmayıb, biz heç ömür boyu oxumamışıq. O, indiyəcən oxuyub, indən sonra oxumasa nə olar?

Həyəcanı belə qarşılamaq – yox, qabalıqdan irəli gəlmir. Bu, sadəcə, təhlükəni adiləşdirmək istəyidir, yaşamaq üçün vacib olan bir ehtiyacdır.

Səs dünyanın ən qədim, insanınsa birinci kəşfidir. Bu kəşf dünyanın yaşından alıb insana, insanın ömründən alıb dünyaya verdi. Bu kəşf dünyanın yaxasını insana tanıtdı, insanın yaxasını isə dünyanın əlindən tutub aldı. Ona görə lap yaxında oxuyan olsa da, səs qulağımıza həmişə uzaqdan gəlir. Ona görə hər təzə oxuyanla görüşəndə dünya özünü itirir: salam, köhnə dost, təzə düşmən! Belə deyir və bu mərd düşməni ilə gizlincə fəxr eləyir. Yox, söz də dünənki uşaqdır, sənət də, lap elə siyasət də! Demək – sözün, gizlətmək – siyasətin dünyaya gətirdikləridir. Səs bir anda onların da ayağını Yerdən üzür...

* * *

O, oxuyanda təkcə dünənki kəşflər yox, bir an əvvəlki adi insan da dəyişib başlayır uçmağa. İnsan uça da bilir, üstəlik Yerin köhnə bazarını, təzə nırxını uçura da. Belə səs itsə, nə olar? Bəs səsini qoruyacağını deyirdi, yenə iclasa gəlib? Axı, bu iclasların çoxu elə onun iştirak elədiyinə görə tarixə düşür, bunu özü də bilə-bilə, yenə... “Olmur ey, olmur, qadan alım. Nəyi tövbə eləyim? Ancaq bir az səbrli olmalıyam, az əsəbiləşməliyəm. O da heç mənlik

deyil. Siyasilər niyə mənə səsimi qorumağı dönə-dönə demirlər? Mən onların çağırışıyla gəlməmişəm ki, onların xeyir-duasıyla ayrılım, ay sənə qurban. Gərək səsimi qoruyam, amma. Çünki təkcə o, mənim ürəyimi boşaldır. Siyasət, yox, ürəyimi boşaltmır. Nəyə baxım sevinim, dərd üstündən dərd gəlir. Baxırsan, ürək ağrıyır, dil dinir, adam danışdıqca göz boşalır. Neyləyim ki, baxtım belədir?"

* * *

Onun özündən də qabaq səsi doğulub. İndi Allah eləməmiş, səssiz o neyləyər? Əslində, bizim gücümüz elə səs-küy salmağa çatır. Mətbuat lap yaxından verilən, amma nədənsə eşidilməyən həyəcan siqnallarını qəbul eləməklə məşğuldur. Bu həyəcan siqnalını isə nə bata bilən səs göndərib, nə hədsiz enerjili bir qüvvəsini itirə bilən siyasət, nə də dünyanı onsuz oxuya bilməyən fanat: Bu "sos"u azalan ömür möhləti göndərib. Kaş eşidiləydi...

* * *

"Demək istəyirsiniz batır, hə, batır səsim", – deyir və gülümsəyir. Yox, bu nə ironiya, nə də sevincin işartısıdır. Bu, dünyanı yaşamaq meydanına çevirməkdir. Musiqiyə, sənətə, sözə, bir də bir-birinə dirsəklənməklə insan yüzillərdir yaşaya bilir. Yüzillərdir dünyanı özündən doymağa qoymur insan. İnsanın nəfəsi çox güclüdü, çoox, lap çox. İnsan nəfəs alanda bütün kainatı, qalaktikanı, həyatı udur, udur, udur...

Sən ki, təbib deyilsən,
Neçin açdın yaramı, durnam?

Hayıf, biz təbib deyilik. Bəs, təbiblər Flora xanıma nə deyir? "Çox atlanıb-düşsən, danışıq səsin də batacaq" – lap elə belə də dedilər.

* * *

Bizim heç anadangəlmə səsimiz olmayıb, biz heç ömürboyu oxumamışıq. O, indiyəcən oxuyub indən sonra oxumasa, nə olar?





* * *

...O, özüylə bacara bilmir, səsi də onunla mübarizəyə girişə. Belə səsi hər vaxt axtarıb-tapmaq olmur. Ilin-günün bu vaxtında itirməksə heç məntiqə sığmır. Ona görə bir qrup elm, mədəniyyət xadimi, tanınmış ziyalılar telekanallara yazılı müraciətlə üz tutdular: amandır, bu səsi heç nəyin, heç kimin, heç Flora Kərimovanın özünün də ayağına verməyin!

Bu səs qalaktikanı, kainatı ciyərlərimizdə duymağa yardım edir. Belə bir ilahi yardımdan imtina etməyimizə necə dözürük? Dözürükmü?!

*yanvar – 2002*

# İkicə kəlmə: Mehdi Bəyazid

Onun saçı-başı payıza oxşayır. Gözləri yaşıla çalır. Burnu qədim türk hərflərini xatırladır. Dodaqları zərifdir. Kəskin biçimli çənəsi sanki bir qərbli üzünü tamamlayır. Başqalarıyla həvəslə danışığa can atan bu çəlimsiz adamı görəndə çatdırın ki, ədəbiyyat onu axtarır...

* * *

"– Azərbaycanda elə yaxşı yazı yoxdur ki, onu özümünkü hesab etməyim. Şamxal Rüstəmi tanıyırsız, şairdir. Bir dəfə gördüm ki, kefi yoxdur. Dedim, noolub? Cavab verdi ki, nəsə alınmır ey, bilmirəm məni kimin qarğışı tutub. Sözü göydə tutdum. Girdim qoluna, dedim gedək. Getdik oturduq, götürüb vərəqin üstünə yazdım:

Hər çiçəyi, hər gülü
Leysan yağışı tutmaz.
Xəta hər ömrə gəlməz,
Qəza hər başı tutmaz.
Süd əmmişəm döşündən,
Ana qarğışı tutmaz.
Bircə biləydim məni
Kimin qarğışı tutdu?

Dedim, Şamxal, sən məndən daha koloritli yazırsan. Get bunu davam elə, qonaqlığı məndə. Getdi, zay elədi... Qonşu qız Sənəm, ay nə bilim, nənəm... Sənəm, nənəm nədir, ə? Sənə söz dedim, sən neylədin?"

* * *

"Şerin də qurtaran yeri olur. Yazırsan, yazırsan, birdən... vəssalam! Ədəbiyyat qurtardı. Sonra tale başlayır. Fransaya səfərə gedirsən, sənin üçün, deyək Moskvada, səfər qurtarır. Sonra texniki məsələlər qalır. Ömür də belədi, şeir də..."





* * *

"Qurbanın "Rezonans"da rəhmətlik Eldar Baxışdan bir yazısı vardı ha, yadınızdadı? Oxudum, gördüm Eldarın bir şeiri tanış gəlir. Birdən yadıma düşdü...

Eldar çoxyazan idi, elə yaxşı da yazırdı. Uşaqların içində Ramiz (Rövşən) varlıydı. Bir paltosu vardı, dizdən. Geyinirdi, bir az qəribə görkəmi-zadı da vardı. Bu da Voznesenskidən, Yevtuşen-kodan gəlmə şey idi. Eldar kasıbıydı, amma istəyirdi onun da elə paltosu olsun. Allahın işindən paltosu gödəldi, oldu dizdən. Hə, Eldar belə bir günündə məni gördü, çağırdı. Baxdı ki, mən gələnə oxşamıram. Yaxınlaşdı:

– Təzə bir şeir yazmışam, oxuyummu?

Dedim, oxu. Oxudu. Dedim, Eldar, şeir yazanda kənardan durub özünə, boy-buxununa heç baxırsan? Qayıtdı ki, noolub? Dedim, bu nədir ə, yazmısan? Sözü vur divara, qoy yapışıb qalsın, Dedi, nətəhər? Dedim:

Özgə əli artıq olar,
Çəkər başı öz əlindən.
Özü qarazırtıq olar,
Qız istəyər gözəlindən...
Hoppanıb düşdü: – Əlini ver, ə.

Cibindən şax bir onluq çıxardı, dedi, Məmmədəlinin kababxa-nasını yıxmağa gedirik.

...Gəldim, Qurbanı tapdım, dedim şeir elə deyil. Danışdım, bəs onluq belə, kababxana heylə. Nəsə, sonra məlum oldu ki, Eldar sözün üstündən xətt çəkib şeiri düzəldib, səhifənin başından da yazıb:

– Allah sənin dədənə, nənənə, özünə də rəhmət eləsin, ay Mehdi Bəyazid!"

* * *

"Birdən qəfil bir şeir, ya nəsə yadıma düşür, onda istəyirəm kiməsə deyim. Bir dəfə avtobusda dözmədim, qoca bir arvada dedim ki, ay xala, sənə bir şeir oxuyacam. Arvad döndü:

– A bala, nə oxuyursan, oxu, amma qabaqca de görüm, bu dayanacaq hansıdı, mən harda düşəcəm?”

* * *

“Bir dəfə Vahid Əziz mənə deyir ki, sən belə çox qəribəsən ey... Məsələn, mən şeir yazanda şair oluram. Sən bütün günü orda danışırsan, burda uşaqlarla oturursan... Qayıtdım ki, elə ona görə heylə yazırsan da... (gülür) Nə bilim, mənə də bu çatmır da, necə yəni: bu vaxtı şairəm, sonra qalstuk-zad bağla çıx çölə ki, şairliyim qurtardı, indi...”

* * *

“Heç kimə deməmişəm, amma sizə deyəcəyəm ki, niyə poeziya ilə məşğul olmuram. O sirri sizə açacam. Şeir yazanda başımı itirirəm. Sonra heç cür özümə gələ bilmirəm. Mən bilirəm, yaxşı şairəm. Lap yaxşıyam. Amma həm əla şair, həm də normal adam tanımıram. İkisinin də bir yerdə olması mümkün deyil.”

* * *

“Bizim xalqın psixologiyası belədi ki, birbaşa üzünə heç kimi tənqid etmək, söz demək olmur. Görək pişim-pişimlə deyəsən ki, sənin qaşın belədi, gözün gözəldi, amma burnun bir balaca nəsə əyridi. Bu xalqın istedadlısı da belədi, istedadsızı da. Şairi də belədi!”

* * *

“Ramiz (Rövşən) bir heylə yazıb-yaradıb... Tanınır, oxunur... Amma bircə misrası da tutmadı məni! Bir dəfə də olsun, nəfəsi vurmadı məni. Mənim kimi diqqətli, yaxşı bir oxucuya özünü sevdirə bilmədi. Mən sevə bilmədi, onun ədəbiyyata gətirdiklərini. Ramiz özü haqqında nə danışır-danışsın, özünü kim sayır-saysın, məni ovsunlaya bilmədi. Neyləyim mən?”





* * *

“Məktəbdə-zadda oxuyanda heç vaxt saçımı daramazdım. Əlimlə düzəldərdim. Bir dəfə mamamgildəydim (bibi). Güzgünün qabağında ha darayıram, saç düzəlmir ki, düzəlmir. Dözmədim, dedim, ay Qəndab, saçımı ha darayıram, heç yatmır. Əlində süpürgə ev süpürürdü. Dinmədi. Qanan üçün arvadların susmağı da bir cavabdı. Amma saçımın əlindən yorulmuşam axı, əlim qalıb başımda, dözmədim, bir də soruşdum. Sakitcə cavab verdi:

– Saç da ürəkdən su içir, ay bala.

Bu bir cümləni eşidəndən sonra qapını çırpıb getdim. Başa düşdüz, nə dedi o? Dedi ki, ay yazıq, gör neçə illərdi küçələrə düşüb atasız-anasız gəzirsən, ürəyin şana-şanadı, özün sağ-salamatsan ki, saçın da sahmanda olsun...”

* * *

“Mühit bir qurbağa da yetirmir. Özün özünü yetirməlisən!”

* * *

“Vasili Şukşinlə bir az yaxın olmuşam. Bir dəfə oturmuşduq, yeyib-içirdik. Vasili kirimirdi:

– Ya yeyo lyublyu, lyublyu...

Dözmədim, dedim:

– Bilirsən nə var, ay Vasili, sən əsərlərində daha vicdanlısan, nəinki həyatda. Əyə, sən o zalımın qızını sevmirsən, onu Tarkovskinin əlindən aldığına görə çox istəyirsən. Baxdı, baxdı, özündən çıxdı:

– Ay səni... Neçə illər sinəmin altında gizlətdiyim sirri üzümə vurdun...”

* * *

“Qətl günü” haqda elə o vaxt sözümü demişəm. Yusifin özünə də dedim ki, bax, buna, buna görə bu, roman deyil, qağa. Belə roman olmaz.”

* * *

"İsa Hüseynov ədəbiyyatda əlini qoydu özündən əvvəlkilərin qabağına, dedi ki, bəsdirin! İndi bizim dövr gəldi. Hansı dövr? "Tütək səsi"ndə qışqırır ha:

– Ay camaat, ay camaat...

Təptəzə nəfəsiydi. Yolu açdı, təmizlədi İsa Hüseynov və tamam ayrı bir ədəbiyyatın başlanmasına imkan yaratdı. Arxasınca altmışıncılar gəldi. Hamısı güclü göründü, seçildi... Vaqif (Bayatlı) bütün ədəbiyyatı silkələdi. Əvvəlkiləri əli ilə saxladı. Amma yolu itirdi, yolu aça, təmizləyə bilmədi. İrəlidən birinci özü geri qayıtdı. Başladı təzədən gəlməyə, özünütəqlidə, özünü təkrara... Vaqifin poeziyada elədiyini heç kim eləməyib. Azərbaycanın son dövr iki böyük şairi olub: biri Səməd, biri də Vaqif. Heyf, Vaqif başladı kimlərisə tərifləməyə, kimlərisə özünə tay-tuş seçdi... Vaqif heylə itdi..."

* * *

– Hərə yaratdığı əsərinin sürətiylə əvvəlkiləri ötməlidir. Bir ədəbi nəsil o birini mexaniki şəkildə keçə bilməz.

– Deməli, ədəbiyyatda estafet yoxdur?

– 60-cıların bir parlaq obrazına 70-80-ci ildə cavab verən ikinci obraz yaranmırsa, deməli, 60-cıların dövrü uzanır. Belə getsə, 60-cıların dövrü gələn əsrin ortalarına kimi də uzana bilər. Onların qabağını kəsən olmasa, dövrləri, bəli, uzanacaq. Flober Balzakı təkzib edə-edə meydana çıxdı.

* * *

– Deyirsiz, dahilərin böyük yox, zəif yerlərini axtaraq?

– Yoox! Vaqif Cəbrayılzadənin ədəbiyyata gəlməyi nəydi? Dedi ki, əvvəlkilər, neyləmisiz çox sağ olun, indi icazə verin, mən sözümü deyim. Mən sözümü başqa cür deyəcəm.

* * *

"Vaqif elə susmaqla da ədəbiyyatı idarə eləyə bilərdi. Təkcə susmaqla da!"





* * *

"Bu saat, deyirlər, ədəbiyyat vaxtı deyil. Yox, ədəbiyyatın ən gözəl dövrüdür. Özü də bütün dünyada inqilablar, müharibələrdən böyük ədəbiyyat doğulub. İndi hər şey ədəbiyyatı çağırır. Azərbaycan jurnalistikası bu on ildə dünyanın ən böyük igidliyini elədi. Mətbuat çox böyük, nəhəng iş gördü. İndi jurnalistikadan ədəbiyyata axın olmalıdı. Hələ yoxdur. Azərbaycanın bu günündə bütün əsrlər, bütün zamanlar qovuşub. Yazmaq üçün bir yazana nə lazımdırsa, hamısı var. Di gəl, ədəbiyyatımız yaranmır."

* * *

– Həmişə elə olur, özündən danışmaq istəməyən başqalarından danışır. Siz də özünüzə yönələn sualları azdırsaz da, maraqlı söhbət etdiz. Bu bircə sualdan isə heç hara qaçmaq mümkün deyil: Yazmamağa necə haqq qazandırırsız?

– Mən yazmamağından yox, təklikdə həmişə çox yazmağımdan şikayətlənirəm. Mən təfəkkürcə mühəndisəm. Dəqiq elmlərdə hər şey dəqiqdir. Odur ki, özümü aldada bilmirəm. Bunu bacarsaydım, qazaxlılara qoşulardım, indi katiblikdə yerim olardı... Hamı mənə deyir gəl, niyə gəlmirsən ədəbiyyata? Mən özüm də başa düşürəm ki, Mehdi Bəyazidin ədəbiyyata gəlməyi ədəbiyyata lazımdır. Yazacam. Hiss edirəm ki, artıq vaxtım yetişib. Hökmən gələcəm.

* * *

Bu da iki-üç dəfə müşahidə eləyib bir dəfə danışdırdığım, vur-tut iki saata tanıdığım, sözlü, ədəbiyyatdan ötəri doğulan, yazısı olmayan adam. Sözlü-yazısız adam! Bircə biləydim, onu kimin qarğışı tutub?

*oktyabr-1999*

# “Dolu”: roman, yoxsa tarixi salnamə?

Dolu nədir? Adi təbiət hadisəsi. Başqa bir dolu da var. Onun nə olduğunu adi, normal həyat tərzindən ayrılanlar, müharibəni tanıyanlar, taleyi dəhşətlə vəhşətin umuduna qalanlar bilir. Bu taleyə məhkumlar yaşadıqlarını heç kimə arzulamırlar. Heç kimə arzulanmayan bu taleyin nə olduğunu bir az deyilənlərdən, bir az kino və ədəbiyyatdan eşidib-bilirik. Təsvir öz yerində, gərək eşitdiyin sözü də qəribçiliyə salmayasan. Deyiləndə ki, ermənilər Qarabağı istəyir, torpaqlarımız alınacaq, sonra da o yerlərə qayıtmaq asan olmayacaq – inanmırdıq... Deyilənlər gəldi başa. Aqil Abbas da “Dolu”da deyilənlərdən danışsaydı, dərd yarıydı. “Dolu”da başımıza gələnləri, Qarabağın həyatını, Allahsız və amansız müharibə həqiqətini gördük. Ağzıgöyçəklərin söz danışmağı hələ bir yana, gündə 5 dəfə vaxtlı-vaxtında çörək yeyən müasir sivil dünyaya da torpağı itirməyin səbəbini və təzədən ora qayıtmaq arzusunu izah etmək olmur. Nə deyəsən, gendən baxana döyüş asan gəlir, döyüşdən, müharibədən asanlıqla danışanların hansına cavab qaytarasan?!

Şou-bizneslə müharibəni qarışıq salanlar elə jurnalistikada da, ədəbiyyatda da vaxtaşırı ortaya bu sualı, mövzunu atırlar ki, Qarabağdan niyə əsər yaranmır? Cavab da aydındır ki, Qarabağ müharibəsinə dair xeyli əsər, şərh, analiz yazılıb, filmlər də çəkilib. Hamı deyir, azdı, çünki bu əsərlərin heç biri adamın əlini Qarabağa çatdırmır. Əsərlə, ədəbiyyatla, sənətlə, kinoyla Qarabağı qaytarmaq olmur. Əslində, bu həqiqəti yazıçılar da bilir, oxucular da. Tam səmimiyyətlə etiraf etsək, bu gün bizim sinir, duyğu və hisslərimiz Qarabağ mövzusunda olan ritorika, pafos, romantika dolu hər hansı məlumata artıq reaksiya vermir. Bu mənada “Dolu” bir növ ətalətdə olan hissləri oyatdı. Düzdü, Qarabağ yenə qayıtmadı, amma Qarabağın qəhrəmanları, qurbanları bu günümüzə döndü. Bu





qəhrəmanlar və onların taleyinə düşən müharibə həyatı uydurma deyil. Dünyanın Ən Varlı Şəhərini ədəbiyyatda qurub-yarada bilsəydik, nə vardı? Aran Qarabağın paytaxtına nə desən, yaraşardı, bircə bu müharibə həyatından savayı. “İnsanlar dəli kimidilər, hər sözdən havalanırlar” – deyən Komandiri kim tanımır? Bəlkə Drakonla Pələng uydurmadır? Varlıqları heç yazıçı təxəyyülünə də sığmayan bu say-seçmə oğulları itirdik və çox heyf ki, torpaqqarışıq! Müəllif əsəri elə hey bədiiliyə bürümək istəsə də, çılpaq gerçəklik göz qabağındadı. Bəlkə ona görə ki, həqiqətin bədiisi, təbiisi olmur. “Dolu” Qarabağ müharibəsinin, bir az da qlobal götürdükdə Qarabağ faciəsinin daxili ab-havasını, qaynağını, onu qorumaq istəyinin muxtarlığını, elə bu səbəbdən də yaranan özbaşınalığı dəqiqliyi ilə təsvir edib. Qarabağ faciəsinin bu reallığı müxtəlif publisistik yazılarda, siyasi analiz və şərhlərdə ayrı-ayrılıqda deyilib, amma “Dolu”da müharibə tarixi bütövdür, tamdır. Bu baxımdan, əsər daha çox tarixi salnaməni xatırladır. “Tarix müharibələr tarixidir. O yerdə ki, sülhdür, sakitçilikdir, salnaməçi susur”. Oljas Süleymenovun bu dəqiq fikri qədim dövrün gerçəkliyini əks etdirir. Müasir dünyanın salnaməçiləri isə tam əksinə, müharibələrdə susur, sülhü, sakitliyi qələmə alırlar. Amma istənilən tarixi ənənənin unudulması üçün illər tələb olunsa da, onun bərpası üçün bir göz qırpımı kifayət edir. Sonuncu müharibə tarixini qələmə alan salnaməçinin davamçısı olan cağdaş müəllif əski salnamələrdə olduğu kimi, bədiiliyi və gerçəkliyi bir nümunədə qovuşdura bilib. Əsərin uğuru və əksinə, talesizliyi də elə budur. “Dolu” məhz müharibəni əks etdirdiyi üçün seçildi və mövzu əsərin bədii, texniki qüsurlarını gizlətdi. Daha doğrusu, qüsurların bəzisini. Axı, bir yazı nümunəsində yer alan bir belə vulqar ifadələrin çoxluğunu və yersizliyini mövzu və ideya necə ört-basdır eləsin? Doğrudanmı, kişi həyatı və leksikonunu təsvir üçün beyinlərdə olan və olmayanların hamısını yazıya gətirmək vacib idi? Xüsusən, ilk səhifələrdə yazı, söz, tale, xatirə və hisslərin əlində əsir olan müəllifin avtobioqrafik obrazı aydın görünür. Çətini sözü ram edincədir, sonra müəllifin əsəbi ötür, yazı da öz axarına düşür. Bu baxımdan, müəllif tamamlanan yazıdan sonra təkrar əvvələ qayıdıb əsəbi vaxtlarının

məhsulu olan ilk səhifələri redaktə etməyi bir növ unudub. Bədiilik müəllifdən təkcə gözəl yazı yox, həm də məharətli redaktə tələb edir. Təbiətin dolusu, ermənilərin dolusu, müəllifin dolusu – bu seldə, qarmaqarışıqlıqda oxucu yaddan çıxıb. Məsələn, kütləvi söyüşlərin içində komandirin dilində vulqar kəlmələr yalnız yük kimi görünür. Çünki bu leksikon onun istər gerçək, istərsə də bədii obrazına tamam yaddır.

Vurhavur, qovhaqov, qaçaqaç və final. İtirilən torpaqlar, qurban gedən oğullar, boş qalan səngərlər...Sağ qalan, amma dirilərin dünyasında özünə yer tapmayan Komandirin faciəsi və döyüş səngərlərinə tamaşa etməsi təbii səhnədir və istər-istəməz onun dəfni göz önünə gəlir. Cənazəni aparanların başı üstündə bir dəstə göyərçin uçur...Təkcə yerdəkilər yox, göydəkilər də Allahın gözəl, amma nakam yaratdığı bəndəsi ilə halallaşır, vidalaşır və tabut dəfn olunanda göyərçinlər bir-birini al qana batırır... Yox, məcazlaşma deyil, bu da yaxın tariximizin şahid ifadələridir. Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmovu (Fred Asifi) son mənzilə yola salanlar bu qeyri-adi hadisəni indi də danışırlar. Bu tarixi sonluğu, Komandirin son tale nöqtəsini də, görünür, müəllif çoxlu oyaq xatirələrinin içində unudub.

"Dolu" nədir? Süjet xəttinə, hadisələrin təsvirinə və həcminə görə, iri hekayə və ya povest. Bədiiliyin arxa plana keçməsinə, tarixiliyin və gerçəkliyin xüsusi təsvirinə görə tarixi salnamə. Əsirlikdə qalan torpağın ağrısı-həsrəti, ölənlərin ruhu, dirilərin borcu kimi 2008-ci ilin gündəminə gələn yazı. Biz bu yazının dünyanın müxtəlif dillərinə tərcüməsini arzu edirik. Qoy, sensasiya axtaran müasir dünya oxucuları bu yazımızı oxusunlar, amma heç vaxt bilməsinlər ki, Dolu nədir?!

*mart – 2008*





# Yazıçının ölümü

...Əslində bu yazını Çingiz Aytmatovun vəfatını eşidən andan yazıram. Böyük bir yazıçı təfəkkürünün itkisi, əsl yazıçı ürəyinin dayanması ilə barışa bilmirdim və mənə elə gəlirdi ki, Yer bu boşluqdan ağlını itirəcək... Ağlı azan, ipi boşalan Yeri Allahın yadına salıb yalvarırdım ki, qanadını onun üstündə saxlasın, balalarımıza, körpələrə rəhm eləsin...

Çingiz Aytmatovla vidalaşmaq çətin idi.

O, yaxın dostumun atası kimi mənə doğma, Yaradan İnsan kimi əlçatmazdı. Yaradan İnsan sirli bir anlayışdı – ya insanın tanrıya, ya da tanrının insana sarı yolundakı kəsişmə nöqtəsidir. Biz bu nöqtəni ona görə görürük ki, ta inkar edə bilmirik.

O mənim üçün həm də "Əlvida, Gülsarı" deyib "Qiyamət"ə qaçdığım, dəniz kənarındakı alabaşla, ağ buludla, ana maralla, qurd ailəsiylə oynadlğım, bu həyatın "Əsrdən uzun gün"ündən, "Edam kötüyü"ndən qorxduğum illərim demək idi. Adam bir ilindən ayrılanda dözə bilmir, o ki ola ömrünün bir parçası ilə vidalaşasan...

Onun yubileylərini, bu yubileylərin təntənəsini gözləyirdim, amma heç ağlıma da gəlməzdi ki, 80 illiyinin Bakıdakı təntənəsi bizi görüşdürə bilər. Biz – jurnalistlər onunla birgə Fəxri Xiyabandan keçəndə qəbir daşlarına yanındakı adamlardan daha diqqətlə baxdığını, tez-tez başını qaldırıb səmaya göz gəzdirməyini müşahidə etdim. Heydər Əliyevin məzarını ziyarət edəndən sonra özü bir yer seçib jurnalistlərə işarə ilə "buyurun" dedi, suallara qısa, məntiqi cavabını verdi. Səhərisi gün növbəti toplantıdan sonra qısa müsahibə istədim, dayandı. Yanındakılar tələsdiklərini, harasa artıq yubandıqlarını ona xatırlatdılar, çiynini çəkib bir növ günahkarcasına mənə dedi: "Devuşka, k sojaleniyu, vremeni tak malo..." Ortaq türk dili ideyasına münasibətini, "Qar üstündə Məryəm"in taleyini bilmək istəyirdim...Bildim də – Azərbaycan yazıçıları ilə görüşdə Avrasiya Birliyinə daha çox önəm verdiyini, yarımçıq

romanını hökmən bitirəcəyini açıqladı. Müasirlərindən çox razı olduğunu bildirən Aytmatov üzünü auditoriyaya tutub onu da dedi ki, müasirlərinizdən muğayat olun, bunu sizə 80 yaşlı bir ağsaqqal kimi deyirəm...Və bu səfər boyu onun çıxışlarını, jestlərini, görüşlərini izlədikcə məni qəribə bir hiss bürüdü: o elə bil türk elləri ilə vidalaşmağa, dostları ilə halallaşmağa gəlmişdi... Bu fikri o vaxt da dostlara dedim. Niyə elə düşündüyümü bilmirəm, bəlkə Çigiz ağanın yorğunluğu, bəlkə də dönə-dönə sağollaşması, özünü adlı-sanlı yazıçıdan çox bir ağsaqqal kimi aparması, bizi bir-birimizə, yəni müasirlərimizə tapşırması diqqətimi çəkmişdi... Amma əgər yazıçının intuisiyası nədənsə narahat olsaydı, heç vaxt söz verməzdi, üstəlik təzə yazısı da vardı: "Bugünkü insanın mənəviyyatında bir boşluq var. O boşluq getdikcə böyüyür və bu, dünyada uzun illər boyu yaranmış harmoniyaların dağılmasına, parçalanmasına gətirir..." Aytmatov tək-tək insanların həyatından başlanan mənəvi boşluqların nəticəsindən müasirlərini xəbərdar etməyə, təlaşını, nigarançılığını yazmağa hazırlaşırdı...Yazıçını yaşadan yazıdır, elə öldürən də...

...O gündən bu günə, bu yazının başladığı vaxtdan bəri bütün bunları gündə yüz kərə ürəyimdə dolandırsam da, yazmırdım. Yazıçı Çingiz Aytmatovun ölümü ilə Yerin ən böyük dayağını itirdiyinə əminiydim, keçirdiyim sarsıntının dərinliyinə də əminiydim, amma elə bil qolumdan tutan kimsə, söykəndiyim nəsə vardı... YAZIÇI öldü, yaşasın YAZI! Hə, elədir, "Yazıçının ölümü"nü yazmırdım, çünki yazının həmişəyarlığına inanırdım və Çingiz Aytmatov imzalı yazılardan su içə-içə böyüyən körpə-körpə yazıları, yazılarıyla ölməzliyə, sevgiyə, bəşəriliyə can atan körpə-körpə yazıçıları görürdüm...

...Sabir Əhmədlinin vəfatı aprelin 17-ni tarixləşdirdi. Azərbaycan üçün o günün ən vacib xəbəri bu idi, amma nədənsə televiziyamız, mətbuatımız susdu... Azərbaycan xalqının Nikolay Qoqolu heç vaxt unutmayacağı, Çili, Panama, Koreya hadisələri haqqında məlumatlar yayıldı və... Azərbaycanın xalq yazıçısı, Prezident təqüdçüsü, görkəmli nasir, 20-yə yaxın roman müəllifinin vəfatı, dəfni xəbərinə vaxt qalmadı. Niyə?





"Məhəmmədi əsgərlikdən saxlatdıra da bilərdim, cəbhədən yayındıra da. Amma o boyda oğulu xalqdan gizlədə bilmədim. Onu nə təhər gizlədəydim axı?" Bunu Sabir müəllim bir dəfə müsahibəmizdə dedi. Biz bu böyük etirafı tarixə çevirə bilmədik, ona görə də Sovet İttifaqı Qəhrəmanının qardaşı, şəhid atası, nəhəng yazıçının itkisinin fərqində olmadıq...

"O qədər qanı axan canlıda bu qədər nəfəs, hey, güc hardandır, ilahi?"– bircə elə bu "Qanköçürmə stansiysı" bəsiydi, ta heç nə yazmasa belə...Amma o, Azərbaycan ədəbiyyatında realist nəsrin ən böyük və ən gözəl nümunələrini yazdı. Ədəbiyyatımızda Sabir Əhmədli qədər təpədən dırnağa kimi realist olan və realizmi ömrünün sonuna kimi heç bir ədəbi cərəyana dəyişməyən ikinci yazıçımız yoxdur. 20-yə yaxın roman üstəgəl povest, üstəgəl hekayə, üstəgəl publisistika – ondan məhsuldar ikinci nasirimiz də yoxdur.

"Yeni romanımın adı uradır. Ura – qədim sözümüzdür, kənddə-kəsəkdə indi də işlənir. Bostanın son məhsuluna, ən axıra qalanına deyilir. Axır məhsul şirin olur, əvəzsiz olur... Bu gün çox işlək olan məşhur "Upa!" – kəlməsi ilə bir yaxınlığını da duyuram, o da son, finiş, axır deməkdir, ola bilər ki, bu söz elə türk dilindən gəlmədir..." – Sabir Əhmədli romanının adını ilk dəfə "Şans"a demişdi. Ad qəribəydi, heç bilmirdik yazaq, yoxsa yox, yadımdadı, uzun-uzadı müzakirələri axır ki, rəhmətlik Hüseyn Əfəndi yekunlaşdırdı: "Uralamaq feli dilimizdə var-axıra qalanı yığmaq, son məhsulu toplayıb seçmək, ayırmaq deməkdi, onda elə kök də uradır". Sabir müəllim yazdı, mətbuat yazdı, söz işləkliyini qaytardı, indi hamı işlədir, rahat yazır...

Və həmin mətbuat aprelin 17-si, 18-i, 19-u Nikolay Qoqolun Azərbaycan xalqının xatirəsində əbədi yaşayacağını, onun şərəfinə Moskvada, Kiyevdə düzənlənən tədbirlərin xırda detallarını xatırlatdı, Sabir Əhmədlini unutdu... Biz Qoqolun Azərbaycan ədəbiyyatına, mənəviyyatına təsirini desək də, ta ondan uzağa gedə bilmərik. Sabir Əhmədli Qoqol deyil axı, o, Azərbaycan xalqının, Azərbaycan dilinin, Azərbaycan nəsrinin, Azərbaycan təfəkkürünün görkəmli xadimidir. Yazılarını oxuya-oxuya bu dildə yazmağı, müsahibələrini izləyə-izləyə danışmağı, mühakimələrini-müşahidələrini dinləyə-dinləyə

düşünməyi, müasirlərin daş karxanasına çevirdiyi mətbuatdan bəzəndə susmağı ondan öyrənmişik. Ailə üzvlərini, yaxın qohumlarını tanıyıram – müəllim, həkim, alim... onlar Azərbaycan xalqına xidmət edirlər və edəcəklər də, qardaşı, 19 yaşlı Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov bir azərbaycanlı balası kimi döyüşə atılmışdı, oğlu Məhəmməd Azərbaycan uğrunda şirin canından keçdi... Sabir Əhmədliylə bərabər bütün nəsli-kökü də Azərbaycana söz atanın qabağına sözlə, Azərbaycan xalqına "qan-qan"deyənin qabağına canıyla, qanıyla çıxıb. Bəs onda niyə Azərbaycan xalqı özünün dağ boyda yazıçısının ölüm gününü qırağa qoyub Qoqolu unutmayacağına söz verir?!

...Oğlunu itirəndən sonra bir müddət mətbuata-filana çıxmadı. O vaxt Dövlət Radiosunda çalışırdım, 20-21 yaşım vardı, ondan müsahibə almağı mənə həvalə etdilər. "Ədəbiyyat qəzeti"nin baş redaktoruydu, zəng elədim, əvvəl razılıq vermədi. Əsərlərindən, ədəbiyyatımızdan söz saldım... Dedi, gəl.

Otağa girəndə nəsə oxuyurdu, salam verib özümü təqdim elədim. Diqqətlə mənə baxdı. Səsyazma aparatını qurdum, yaxın gəldi, stulu çəkib oturdu. Ədəbi prosesimizlə bağlı birinci sualımı verdim... Başını aşağı salıb oturmuşdu. Sualımı bir də təkrar elədim... Xeyli sükutdan sonra ayağa qalxıb əvvəlki yerinə qayıtdı, "danışa bilmirəm, bala"- dedi. Bu dəfə mən onun yanındakı stulu çəkib oturdum.

– Cavanlarımızın üzünə baxa bilmirəm. Mənim balam da bu yaşdaydı... Elə yaraşıqlı, qanı elə qaynarıydı... Sən mənim Məhəmmədimi tanıyırdın? Tanısaydın, heç vaxt bura müsahibəyə gəlməzdin, elə oğuldan sonra mən nə danışım axı...

– Sabir müəllim, siz mənim atamı tanıyırdınız?

– Kimin qızısan?

– Bu dünyada balalarından başqa heç nəyi olmayan bir atanın... Bir yaşa dolan ata görəndə sevinirəm, deyirəm, yəqin onun da üzü, səsi, yerişi indi belə olardı... Hər dəfə də məəttəl qalıram ki, bütün atalar niyə bir-birinə belə oxşayır, onlara baxa-baxa atam yadımdan çıxır, atamı yada saldıqca onlar mənə doğmalaşır... Belə çıxır ki, mən səhv eləmişəm, yaşa dolan atanı görəndə gərək köks ötürüm ki, mənim atam bu illərin heç birinə qalxammadı...





Onu görəndə onsuz da kövrəlmişdim, bu söhbətdən sonra gözüm doldu, ta heç nə demədən aparatı yığışdırdım. Gəldi, dedi ki, bağışla məni, qızım, biz cavanlarımızdan çox şeyi öyrənməliyik, elə dərdi çəkməyi də... Mən hər saat özün itirən adam deyiləm, bala dərdi yaman pis imiş, ona dözəmmədim... Gəl, otur, yazıçı-jurnalist kimi yox, elə ata-bala kimi danışaq, nə istəyirsən, soruş-yaz...

Bu ilk görüşümüzdən sonra dəfələrlə ondan müsahibə aldım, yaradıcılığıyla bağlı müxtəlif yazılar hazırladım, bir sıra məsələlərə münasibətini soruşdum... Bir dəfə olsun belə, kiminsə, hansı həmkarınsa qarasınca kəlməsini eşitmədim... Kiminsə yaradıcılığına dodaq büzdüyünü də görmədim, başqasından söz salanda da özünəməxsus ustalıqla söhbəti öz yaradıcılığının üstünə gətirirdi. Əliylə kitab rəfindəki kitablarını göstərib gülə-gülə deyirdi: "Nəvəm məndən soruşur ki, baba, sən bu kitablarlın hamısını oxumusan? Deyirəm, hə, oxumaq bir yana, mən onların hamısını yazmışam da... İndiki cavanların ən çox qorxduğu şey kitabdı..."

İtirdiyimiz adam bax belə yazı-pozu adamıydı. Özündən danışıb-eləməyi də yoxuydu, deyirdi ki, bu sənətdə adam öz bağının bəhrəsini yemir. Bir dəfə də soruşdum ki, bu şairlər, yazıçılar diyarında niyə özünüzə yaxın bir dost, həmdəm tapmadınız axı? Belə cavab verdi: "O qruplaşma-filan məndən uzaq bir şeydir, qaldı ki, dost məsələsinə... Özümdə də günah var. Bilirsənmi, daş adamın öz ayağını yaralamayınca, ağrının nə olduğunu bilmirsən... Başına gələn başmaqçı olur..."

Bizim yazıçımız belə adamıydı – dili şirin deyildi, qılığı yoxuydu, ədəbi tədbirlərdən, cayxana müzakirələrindən, mühitdaxili sözsöhbətlərdən uzağıydı... Gendən quru adam kimi görünsə də, sadəydi, simsarıydı...

Yazıçının sələfi də olmaq gözəldi, xələfi də... Ən çətini yazıçının müasiri olmaqdır. Mirzə Fətəli Axundovun müasirləri onun meyitini ortada qoyduqlarına görə bu gün yada salınır və...

"Müasirlərinizdən muğayat olun" – 80 yaşlı Aytmatovun ağsaqqal sözü qulağımda səslənir, "Daş adamın öz ayağını da yaralamayınca ağrının nə olduğunu bilmirsən" – 79 yaşlı Sabir Əhmədlinin etirafını da elə bil təzədən eşidirəm və yazıçının ölümünə

müasirlərinin etinasız münasibətini düşünürəm... "Sizdən sonra gələn nəsillər bir gün sizin üzünüzə..." – Mirzə Cəlilin səsini eşidirəm, qorxuram, utanıram...

YAZIÇI öldü, yaşasın YAZI – yox, inanmıram. Yazıçıların ölümü bizi yazının ölümünə yaxınlaşdırır... Aytmatovun dediyi böyük mənəvi boşluq bəlkə elə budur?! Böyük yazıçı deyiləndə onun adını çəkirik, Nobel mükafatı verəndə başqasının... 80 illiyində namizədliyini türk dünyası irəli sürdü, axırı nə oldu? Guya dünya Aytmatovu tanımır?

Biri var, müasirini tanımayasan, bilməyəsən, biri də var, dəyərini biləsən, onu tanıyasan və yanından ötəsən...

Bu elə yazının ölməyi deməkdir...

*aprel – 2009*





# Şeirdə yeni imza: Mahir Mehdi

Bir az olar Mahiri tanıdığım. Sözə atdığımız lağımlar bizi görüşdürüb. Səsimi eşidibmiş... Yazı-pozuya həssas münasibəti, kənara dərin müşahidəçiliyi ədəbi talantından soraq versə də, Mahir daha çox ədalı cavanıydı. Çılğınlığına yaraşmayan nəzakət qaydalarına itaətkarlığı, bumbuz soyuqluğundan istiliyə can atmağı, ötkəmliyi ilə yanaşı sadəlövhcəsinə etirafları da ona aid idi, amma özü deyildi (Bütün bunlar, əslində, illər boyu mədəniyyət mərkəzi olan Şuşadan gəlmə genetik amil idi). Demə, bu şuşalıya nə Şuşa, nə Bakı, nə də dəlicəsinə vurulduğu Avropa yox, Vaxt və Şərait lazım imiş. İnqilabçılar üçün inqilabi şərait nə qədər vacibdirsə, ədəbiyyatçılar üçün ədəbi şərait də o qədər əsasdı. Kağıza köçürdüklərini üzə çıxardı Mahir Mehdi. Qabaqlar da çap olunurdu. Ara-sıra... Bu dəfə isə, deyəsən, yüz ölçüb-biçib ədəbiyyata var gücü ilə gəlməyə qərar verib. Hissləri çox sakit, səssizdi. Onda sınan xətlər seçilən, dərhal görünəndi:

Gah dolur, gah boşalır,
Bu dəmiryol vağzalı.
Yorulur gözləməkdən,
Səni gözləmə zalı.
Saatın əqrəbindən
Ümid asılı qalır.
Vaxtı vurub qırmağa
Əllərim daş axtarır.

Sözün sehri ilə, dilin sehri əsl yazıda bir-birinə elə qovuşur, istəsən də ayıra bilmirsən. Mahirin şeirlərində bu qovuşma o qədər təbiidi – bilmirsən dilimiz gözəldi, yoxsa şeirimiz.

...Açaydıq bu düyünü,
Qopaydıq, ayrılaydıq,
Bizi sərxoş eləmiş
Sevgidən ayılaydıq.

Bu yazılarda dil heç yerə sürtünmür, kələ-kötürə ilişmir – doğrudur, di gəl bəzilərində yorğunluq, əsəbilik hiss olunur. Mahir hiss ilə, duyğu ilə, gizlənpaç oynamağa həvəslə qoşulur, söz ilə işləməyə isə çox könülsüz. "Kimi", "tək"... nədi bu bənzətmə qoşmaları belə? Şeir meydanında əsasların bütün hərəkətləri gözəldir: davası da, barışı da, qovuşmağı da... Köməkçinin bütün yardımları artıqdır, ağırdır...

Düzdü, bunlar yazımızın qaydalarıdı. Amma nəyinsə yazı olduğuna inanmamaq daha gözəldir, bir də bəyəm şeir yazıdır?

Bəlkə görüşmədik,
Fikir eləmə,
Gedirəm nur gəzəm
Qaranlıq üçün...

Haracan gedə bilirsən, get... Yaxşı yol... Bircə tələsmə, yaxşı...

*may – 1999*





# Rafiq Əliyev: "50 ildən sonra dünya tamam dəyişəcək"

*Qeyri-səlis riyazi məntiq nəzəriyyəsinin davamçısı, SSRİ Dövlət Mükafatı laureatı Rafiq Əliyev 1942-ci ildə Ağdam rayonunun Novruzlu kəndində anadan olub. Orta məktəbi medalla, ali məktəbi fərqlənmə diplomu ilə bitirib, 25 yaşında namizədlik, 32 yaşında doktorluq dissertasiyasını müdafiə edib, 47 yaşında AMEA-nın müxbir üzvü seçilib. Onun rəhbərliyi altında 30 doktorluq, 150-dən çox namizədlik dissertasiyası müdafiə olunub. Nəşr edilən 60 kitabından 48-i xarici ölkələrdə çap olunub, "Soft computing" və "Soft computing its aplications" bestseller-kitabları dünyanın 5 qitəsində dərsliklərə salınıb. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatlaşdırılmış idarəetmə sistemləri" kafedrasının müdiri, eyni zamanda, Corciya Dövlət Universiteti (ABŞ), Təbriz Universiteti (İran) və Zigen Universitetinin (Almaniya) professorudur.*

*Onunla söhbət etmək çətindir – kimin qarşısında əyləşdiyini yaxşı bilirsən...*

*Onunla söhbət etmək asandır – çox mürəkkəb elmi nəzəriyyələri olduqca səlis, aydın bir tərzdə izah edir...*

– Rafiq müəllim, dünya elmində inqilab kimi qarşılanan qeyri-səlis məntiq nəzəriyyəsi nədir?

– Bu nəzəriyyənin yaradıcısı, dünya şöhrətli alim Lütfi Zadədən bir dəfə mən də bu suala daha sadə bir cavab istədim. O da izah elədi, amma nə qədər sadələşdirmək istəsək də, alınmadı. Belə demək olar ki, ötən əsrin 60-cı illərinə kimi bütün dünya Aristotel məntiqi ilə çalışırdı. Klassik riyaziyyat məktəbinin söykəndiyi bu məntiqə görə, hər hansı müddəa ya doğrudur, ya da yalan. Bu məktəbin dünya elmində bir çox kəşfi, nailiyyəti olub, amma elə məsələlər var ki, onu Aristotel məntiqi və klassik riyaziyyat məktəbi ilə həll etmək mümkün deyil. İkili məntiqə görə, dünya ya

ağ, ya da qaradır, amma Lütfi Zadə yeni bir məntiq irəli sürdü və ağla qaranın arasında yüzlərlə, minlərlə rəngin olduğunu bildirdi. Qeyri-səlis məntiqə görə, dünyada olan istənilən müddəanın saysız-hesabsız dərəcəsi var. Bir olan Allahdan başqa, o, mütləqdir.

– Yəni, Allah ya var, ya yoxdur?

– Bəli, əslində onun varlığına şübhə yoxdur, amma kimsə ateist ola bilər. Qeyri-səlis məntiq həyatda tolerantlığı təklif edir. Yəni, real həyatda mütləq heç nə yoxdur. Allah da insanı tarazlıqda yaradır, birinə ağıl verir, birinə var-dövlət, o birinə sağlamlıq... Bu baxımdan, hətta xoşbəxtliyin də dərəcəsi var. Qeyri-səlis məntiq nəzəriyyəsi elmi real həyata yaxınlaşdırmağa çalışır.

– Qeyri-səlis məntiqin faydasını konkret misallarla necə izah etmək olar? Bu üsulla hansı avadanlıqlar hazırlanır?

– Lütfi Zadə bu nəzəriyyəni siyasi, iqtisadi sistemlər, sosial həyat, insan davranışının formaları üçün irəli sürsə də, onun nəzəriyyəsi daha çox texnologiyada tətbiq olundu. Bu, qəribə bir paradoksdur. Hazırda müasir yapon sənayesi qeyri-səlis məntiq üzərində qurulub. Müasir kompüter, paltaryuyan maşın, fotoaparatlar və s. qeyri-səlis məntiq nəzəriyyəsi əsasında hazırlanır və gəlirlər milyardlarla hesablanır. Adi misal, şəkil çəkəndə əl əsir. Yalnız çox mahir fotoqraflar onu möhkəm tuta bilirlər. Əvvəlki aparatlarda şəkil çəkmək üçün məhz peşəkar olmaq lazım idi. Zadə nəzəriyyəsi əsasında hazırlanan müasir fotoaparatlarda isə əl əssə də, keyfiyyət dəyişmir.

– Niyə?

– Ona görə ki, bu nəzəriyyə insan təcrübəsini, insan biliyini formalaşdırmağa imkan verir və standart dərəcəyə yox, kənara çıxmalara, qeyri-səlis qaydalara əsaslanır. Klassik riyaziyyat bir dildən başqa dilə tərcüməni həyata keçirə bilmir. İnternetdəki bugünkü axtarış sistemləri "Əhməd haradadır?" filmindəki Zülümov səviyyəsindədir. Sən birini axtarırsan, o bütün Əhmədləri yığıb gətirir. Əlbəttə, bu səviyyə heç kimi qane etmir, təkmilləşmə üçün tədqiqatlar aparılır. Klassik riyaziyyatla təxminən 3 yaşlı uşağın səviyyəsində olan bu sistemi yaratmaq mümkün oldu. Bu gün dünyada heç kim adekvat iqtisadi modellər qura bilmir, klassik və





neoklassik iqtisadi nəzəriyyəyə görə, hamı (istər istehsalçı olsun, istər istehlakçı) öz gəlirini maksimallaşdırmağa çalışır. Gəlir artır, bəs dünya? Aclıq təhlükəsi getdikcə reallaşır, çörək tapılmır, bəs 10 ildən sonra necə olacaq? Ona görə də yeni iqtisadi modellərin yaradılması məsələsi getdikcə aktuallaşır. Yaponiya qıza oxşayan robotlar yaratmağa başlayıb. İndi bu robotların ilan kimi bütün istiqamətlərə hərəkətinin təmin olunmasına cəhd edilir. Texnologiya ilə yanaşı, bizim siyasi həyatımız da yeni siyasi modellərə söykənməlidir. Qeyri-səlis məntiqlə düşünən siyasətçi heç vaxt İraqı bombalamazdı, daha optimal yol axtarardı. Lütfi Zadənin internetdə fikri yayıldı: "Düşünmürəm, Amerika İraqa müharibə elan etsin. Əgər bunu etsə, onda uzun müddət dünya xaos içində yaşayacaq". Bu, öncəgörmə deyil, hadisələrin qeyri-səlis məntiq əsasında izahıdır. Liderlər emosional yox, tolerant qərarlar qəbul etməlidirlər.

– Azərbaycanda qeyri-səlis məntiq nəzəriyyəsinə söykənən texnologiyanın yaradılması və istifadə olunması nə dərəcədə realdır? Ümumiyyətlə, bu nəzəriyyə əsasında hazırlanan texnologiyanın dünya ölkələri üzrə yayılması necədir?

– Bu nəzəriyyəyə söykənən cihazların və qurğuların istehsalı Yaponiya, Cənubi Koreya, Sinqapur, Malayziya, ABŞ, Almaniya və başqa ölkələrdə üstünlük təşkil edir. Əlbəttə, bu texnologiyanın Azərbaycanda tətbiqi yaxşı olardı, amma bunun üçün tələb olunan vacib amillər var. Yəni, Azərbaycanın neftdən sonrakı dövrünü düşünmək lazımdır. Biz bu günə kimi müəyyən texnologiyaları gərək alaydıq. Heç olmasa, müasir texnologiyaların əldə olunmasına hazırlıq getməli idi. Dünyada 4 iqtisadi inkişaf modeli var. Birincisi, bilik istehsal edən ölkələr: ABŞ, Almaniya, Fransa və s. Bu ölkələrdə elm və təhsilin səviyyəsi çox yüksəkdir. İkincisi, texnoloji iqtisadi modellə işləyən ölkələr: Yaponiya, Malayziya, Cənubi Koreya və s. Onlar elmi tədqiqatlara çox vəsait ayırmır, hazır texnologiyaları alıb tətbiq edirlər, yəni, birinci modellə işləyən ölkələrdəki qədər elmi nəticələri olmasa da, savadlı mütəxəssisləri var. Üçüncüsü, xammal istehsal edən ölkələr: Rusiya, Azərbaycan, Qazaxıstan, İran və s. Dördüncüsü, aqrar yönümlü ölkələr: Yunanıstan, Monqolustan və s. Ölkənin iqtisadi modelinin düzgün seçilməsi vacib şərtdir. Bəzən

belə çıxışlar eşidilir ki, gəlin biz də bilik istehsal edən ölkələr modelinə keçək. Çox yaxşı, amma necə? Bu iqtisadi model üçün elmə külli miqdarda vəsait ayırmaq lazımdır. Biz isə təhsilimizi, elmimizi hələ də rüşvətdən təmizləyə bilmirik.

– Hər yeni kəşfin müsbət və mənfi cəhətləri var. Bu nəzəriyyə əsasında yaradılan intellektual maşınların son nəticədə insanların taleyinə sahib çıxması təhlükəsi varmı?

– Bəli, belə bir təhlükə var. Əfsuslar olsun ki, elmlə ümumbəşəri əxlaq arasında uzaq bir məsafə yarandı. XX əsrin sonu XXI əsrin əvvəllərində elm çox böyük sürətlə irəli getdi, əxlaq isə tısbağa yerişi ilə yeridi. Ümumbəşəri əxlaq siyasətçilərin, məmurların, informasiya vasitələrinin, cəmiyyətin əxlaqıdır. Ona görə də, intellektual maşınlarla real insanlar arasında anlaşılmazlığın yaranması, robotların insanları əvəz etmək qorxusu var. Bu məsələ alimləri düşündürür...

– Bununla belə, robotların daha da kamilləşməsi üçün tədqiqatlar davam etdirilir...

– Bilirsinizmi, alim psixologiyası-söhbət əsl alimdən gedir-tamam fərqlidir. Elmdə fədailər çalışırlar, özü də maaş üçün yox. Alimin heç vaxt çoxlu pulu olmayıb, çünki ilk növbədə alimin pula ehtiyac hissi olmur. Bir ziyafətdə xanımı görür ki, Eynşteyn bərk dilxordur. Səbəbini soruşanda, deyir ki, bayaqdan bahalı qaş-daşlara baxıram, fikirləşirəm ki, onların puluna nə qədər laboratoriya açmaq olar. Yəni, alimin düşüncəsi tamam başqadır. Onları elmdən, tədqiqatdan uzaqlaşdırmaq mümkün deyil. İndi çox adam virtual həyatla yaşayır. Virtual dünya insani hisslərdən uzaqlaşmaq üçün yaradılmayıb ki? Alimlər bir mənəvi açar qoyur ki, burdan o yana keçmə. Amma insanın mənəviyyatı ağlından geri qaldığı, ümumbəşəri əxlaq elmdən uzaq düşdüyü üçün o açara məhəl qoyulmur.

– Sizcə, müasir elm nəyə can atır – dünyanın yaranma səbəbini tapmağa, yoxsa onu təzədən yaratmağa?

– Atom nüvə proqramı üzrə "Manhetten" layihəsində iştirak etmiş bir qrup Amerika alimləri "Qiyamət gününün saatı" adlı simvolik nəhəng bir divar saatı quraşdırıblar. Bu saatda gecə yarısı 12.00 qlobal nüvə fəlakət anını ifadə edir. İndi bu saat 11.55-i göstərir. Gecə





yarısına cəmi beş dəqiqə qalıb... Bu simvolik saatın böyük bir mənası var: yəni ay alimlər, dünyanı bu günə siz qoymusunuz. Amma dünyanın bu vəziyyətə düşməsində siyasətçilərin günahı alimlərdən çoxdur. Alimin öz dünyası var və hər halda onun ümumbəşəri əxlaqı başqalarından yüksək səviyyədə olur. Unutmayaq ki, bəşəriyyəti bütün dolaşıq vəziyyətlərdən siyasət, ədəbiyyat, sənət yox, məhz elm xilas edib.

– Elmin inkişafı dünyamıza kamillik, humanizm gətirəcək, yoxsa əksinə?

– ABŞ-da bu gün silahlı robot əsgərlər yaradılır. Amma onların hələ ağlı yoxdur, manqurtdurlar. Yaxın 20 ildə ağıllı, özü qərar qəbul edən robotlar yaradılacaq. Bu sahənin tədqiqatçılarından biri kimi deyə bilərəm ki, nəzəriyyəyə görə, son qərarı robot yox, insan verəcək. Amma insanın əxlaqı da dəyişməlidir. Bu baxımdan, mənfi cəhətləri ilə bərabər, qloballaşmanın üstün cəhətləri də var. Bəlkə o, ümumbəşəri əxlaqın yüksəlməsinə səbəb olacaq.

– Bizi hansı yeni elmi sıçrayışlar gözləyir?

– Bunu yalnız proqnoz şəklində demək olar. Mənim fikrimcə, ilk sıçrayışlar intellektual maşınlarda olacaq. Onlarla insanlar arasında ünsiyyətin təbii dildə olması hazırda alimləri çox düşündürür. Onda maşınları idarə etmək qat-qat asanlaşacaq. Bu dil isə daha çox qəlibləşmiş, yəni hamı tərəfindən başa düşülən ümumi dil olacaq. Mən yaxın 30-40 ildə bu ideyanın gerçəkləşməsini gözləyirəm. Digər tərəfdən, elmin alternativ yanacaq məsələsini həll edəcəyinə ümid edirəm. Dünyada iqtisadi bərabərsizliyin aradan qaldırılmasına yönələn yeni iqtisadi modelin yaranması növbəti sıçrayışlardan biri olacaq.

– Yerdə yeni dünyanın qurulması ideyası nədir: fərziyyə, təhlükə, ümid, yoxsa xaos?

– İnsanları qorxutmaq lazım deyil, amma yeni sivilizasiyanın yaranacağına mən heç şübhə etmirəm. Dəqiq vaxt demək çətindir, amma 40-50 ilə dünya tamam yeniləşəcək. Yeni dünya həm təhlükədir, həm də ümid və xaos. Çıxış yolu tapa bilməyən adamlar, yəni təhsili, elmi, texnologiyası geri qalan ölkələr təkrar neolitə qayıdacaqlar. Elmi potensialı və yaxşı universitetləri olan ölkələr yeni dünyada yaşaya biləcək.

– Bəs ərzaq, çörək, içməli su qıtlığı təhlükəsi nə qədər realdır?

– Bu təhlükə realdır. 2012-ci ildən sonra bizdə neftin artımı aşağı düşəcək. Dünyada neft, su, çörək uğrunda böyük müharibələr gözlənilir. Amma bəşəriyyəti həmişə çətin vəziyyətlərdən yalnız elm xilas edib. Mən ümid edirəm ki, insan zəkası alternativ yollar tapacaq.

– Azərbaycanın görkəmli alimi Xudu Məmmədovla yaxın dost olduğunuzu bilirik...

– Mən onu həmişə özümə örnək saymışam. O, çox az danışardı, amma hər sözü aforizm idi. Ölümündən üç gün qabaq mənə əlyazmasını gətirdi ki, sən bunları bir kompüterdə də yoxla, mən muğamla, səslə rənglərin əlaqəsini görürəm. Sən də bir yoxla görək, nənələrimiz hansı xalçanı hansı muğam üstə toxuyublar?! Mən onun dediklərini elədim və səslə rəngin, naxışların, ornamentlərin arasında güclü bir harmoniyanı müşahidə elədim. O, bütün bunları fəhmlə duyurdu. Xudu Məmmədova həsr etdiyim "Segahı görürəm" kitabımda bu məsələlərə toxundum.

– Dünya şöhrətli alim Lütfi Zadə elmi irsini, kitabxanasını, arxivini Sizə vəsiyyət edib. Niyə məhz Sizə?

– Bu, bir az çətin sualdır, niyəsini deyə bilməyəcəyəm. Onunla bir yerdə elmi nəzəriyyələr işləmişik. Amerikadan təzə qayıtmışam, Berkli Universitetində seminar aparırdım. Dedi ki, qeyri-dəqiq ehtimallarla hesablama nəzəriyyəsini işləsək, elm üçün çox faydalı olar. Onun mənə olan inamını, ərkyanalığını, doğmalığını həmişə hiss etmişəm. Mən vəsiyyət məsələsini bununla izah edirəm.

– Bəlkə azərbaycanlı olduğunuza görə məhz Sizi seçib?

– Düşünmürəm. Onun qəlbində Azərbaycana sonsuz sevgi var, Bakıda doğulub, burda məktəbə gedib. İnsan yaşlandıqca tədricən onda torpaqlaşma gedir, ona görə də doğulduğu torpağı arzulayır. İnsan torpağın onu özünə çəkdiyini hiss edir. Bu, bir həqiqətdir, amma gərək Zadəni yaxından tanıyasan. Onunla gərək öz dilində danışasan. Əyilmək, qalxmaq, başına dönməklə ona yaxınlaşmaq mümkün deyil. Səninlə söhbət etmək onun üçün də gərək maraqlı olsun.

– Qeyri-səlis məntiqə görə, istənilən məsələnin saysız-hesabsız çıxış yolu var. Qarabağı qeyri-səlis məntiqlə azad etmək olarmı?





– Bu, mənim ən yaralı yerimdir, gecə-gündüz məni düşündürən məsələdir. Qarabağın xilası çox ağır yoldur. Bu, qılınc və qələm yoludur. Konfliktologiya elmi bu gün ən çox inkişaf etmiş sahədir. Hələ 1989-cu ildə Qarabağla bağlı qeyri-səlis məntiq əsasında konfliktoloji model hazırlamışdıq. Mən düşünürəm ki, Qarabağın azad olunması üçün ilk növbədə institutlar yaradılmalıdır. Burada Amerika, Rusiya, İran və digər ölkələrin maraqları öyrənilməlidir. Qarabağı, ilk növbədə, beyin laboratoriyasında, masa arxasında qaytarmaq lazımdır. Bu da mümkündür, çünki qeyri-səlis məntiq nəzəriyyəsi Azərbaycanda inkişaf edib. Həmin institutlarda qəbul edilən qərarların tətbiq olunması üçünsə bizə qılınc lazım olacaq.

– Sizin müasir informasiya anlayışına münasibətiniz necədir? Bu xəbər bolluğunda ürəyiniz istəyən məlumatları oxuya bilirsinizmi?

– Bugünkü xəbər bolluğunu alimlərdən biri belə qiymətləndirib: "İnformasiya dənizində boğulduq, bir damla bilik üçün ürəyimiz gedir". Müasir dünyanın televiziya, internet, mətbuatında yer alan xəbərlərin insan beyninə yüklənməsi fiziki baxımdan çox zərərlidir. Əsl elm adamı, səviyyəli oxucu odur ki, bu bolluqdan lazımlısını qəbul edir. Gəlin görək, bugünkü mətbuatda bir alimlə müsahibəyə nə qədər tez-tez yer ayrılır? Alimlərin fikirləri nə qədər oxucunu maraqlandırır? Bu problem də artıq bəşəriləşib. İndi çox adam informasiya ilə məlumat anlayışını qarışdırır. İnformasiya məlumat deyil. Cəmiyyətin bol informasiyalı yox, bilikli adamlara ehtiyacı daha çoxdur.

– Rasional düşünən bir insanın, dəqiq elmlər üzrə tanınmış alimin dinə münasibəti də maraqlıdır...

– Mən dünyada elə bir alim tanımıram ki, Allahsız olsun. Söhbət elmi dərəcəsi olanlardan getmir, Nyuton, Eynşteyn, Zadə... Onların heç biri Allahsız olmayıb. Ümumiyyətlə, istənilən insanın dünyagörüşünün üç başlanğıcı var: Allah, insanın daxilindəki Mən və universitetlər. Söhbət yüksək bilik, səviyyə verən universitetlərdən gedir. Mənim inamım və imanım dinimdən çox yüksəkdir. Yanlış başa düşülməsin, dini etiqada tolerant yanaşıram, amma məndə qətiyyən fatalizm yoxdur. Allah məni yaradıb, mənə əxlaq, normalar verib, deyib ondan kənara çıxma. Mənim qəti fikrim belədir

ki, normadan kənara çıxan cəzalanır. Bizdə həmişə deyirdilər ki, Allahın barmağı olmur ki, adamın gözünü çıxarsın... Amma Allah insanı tarazlıqda yaradır və yaşadır, nəyisə sənə çox versə, bil ki, əvəzində nəyisə də alacaq, ona görə həmişə həddi gözləmək lazımdır. Allah rəhmət eləsin, Abdulla Şaiqin oğlu akademik Kamal Talıbzadə həmişə deyirdi ki, dədəm danışırdı, mən "Tülkü həccə gedir"i böyüklər üçün yazmışam, onu niyə uşaqlar üçün oxuyurlar, başa düşə bilmirəm...

– Vaxtınızı elmdən başqa daha nəyə həsr etməyi xoşlayırsınız, hobbiniz varmı?

– Vaxtilə şeirlərim çap olunub, indi publisistik yazılar yazıram. Hobbim isə kitab mağazalarında, internetdə saatlarla kitab axtarmaqdır...

*2008*





# Gülə-gülə, Nəsibə xanım...

Züleyxa, Cəhrə arvad, Qızbacı, Cənnət xala... və bir-birinə oxşamayan bu qadın orazlarının anası Nəsibə Zeynalova. Bu ölkədə uşaqdan-böyüyə hamı onu tanıyırdı. Şərqli qadınlara məxsus tipik cizgiləri, saç düzümü, geyimi də doğmaydı, elə səhnə görünüşü, yerişi-oturuşu da.

Uzun illər Musiqili Komediya Teatrının səhnəsində işi-gücü komik obrazları ətə-qana doldurmaq, qonaqlarını deyə-gülə, xoş üzlə yola salmaq olsa da, həmişə ciddiliyi ilə seçilib. İllər üz-gözünü naxışlasa da, səmimiyyətinə, koloritinə toxuna bilmədi. Beşgünlük dünya saçını sığallasa da, tağını, düzümünü dəyişmədi.

Sənət yoldaşları, səhnədəki tərəfdaşları onu "improvizə"lərin, yerinə düşən replikaların, mətnə yaraşıq verən əlavələrin ustası kimi səciyyələndirir. Həmişə göz önündə, səhnədə, saysız-hesabsız obrazlar aləmində olsa belə, ona söz qoşan, bəzək-düzək vuran tapılmadı. Bu isə az yaşı olmayan Azərbaycan mədəniyyəti, teatr sənəti tarixində nadir sayıla bilən bir gerçəklikdir. Nəsibə xanım bu hörməti təkcə gözəl ifasına, ustalığına görə qazanmadı. Onu qadınlar deyib-gülməyi xoşlayan bir bacı, kişilər adına artıq söz yaraşmayan mehriban bir qadın, oğullar istiqanlı ana, gəlinlər isə tələbkar qaynana kimi sevməyə alışdılar.

Nəsibə Zeynalovaya olan xalq sevgisi çox erkən həyat verdiyi obrazların sanbalına qarışdı. Heç vaxt da dəqiq bilməyəcəyik ki, biz bu aktrisanı oynadığı rollara görə bir belə sevmişik, yoxsa əksinə, Cənnət xalanı məhz Nəsibə Zeynalova canlandırdığı üçün hədsiz rəğbətlə qarşılandı.

Ondan ayrıldığımız bu günlərdə hərənin yadına aktrisa bir jesti, görkəmi ilə qayıtdı. Mən isə 1999-cu ilin yayında görüşdüyüm Nəsibə xanımı hələ də unuda bilmirəm. Canı heç onda da sözünə baxmırdı. Ən çox da ayaqları onu incidirdi. Onda ən böyük arzusu adını daşıyan nəvəsinin toyunu, Moskvada dünyaya gələn nəticəsinin

üzünü görmək idi: "Onları görüm, sonra ölüm. Bir can borcluyam, bir gün gedəsiyəm. İndi onun-bunun duasıyla ən çoxu bir-iki ay yaşayaram". Qazandığı xeyir-dua bir müddət də ona xəstəliklə mübarizədə yardımçı oldu, amma bu yaz, aprelin 20-də 88 yaşını tamamlamağa səbri çatmadı. Azərbaycanın rayonlarını qarış-qarış gəzən, getdiyi, gördüyü yerlərin heç birinə pis deyə bilməyən, hər yerdə hörmət-məhəbbət görən, Azərbaycanın gözəlliyinə tay seçməkdə çətinlik çəkən, özünə Vətənin bu səfalı yerlərini bir də görməyi arzulayan Nəsibə xanım bizim də yaxşı dostumuz idi:

"– Jurnalist qonaqlarınız çox olur?

– Çox.

– Yormurlar sizi?

– Sözün açığı, yorulmuram. Amma elə vaxt olur, beş-altı adam gəlir, hamısı da soruşur ki, necəsiniz? Elə bil aşağıda sözləşib çıxıblar yuxarı".

Ağrıdığını üzə vurmağı xoşlamasa da, yaşlandığına, həyat yoldaşının ayrılığına kövrəlirdi. Şəkillərə baxanda isə gözü dolub-boşalırdı. 1994-cü ilin mayında itirdiyi həyat yoldaşından sonra səhnəyə çıxmadı. Çox sevdiyi, saysız-hesabsız obrazlara həyat verdiyi Musiqili Komediya Teatrı ilə belə vidalaşdı. Şuxluğunu, gülüşünü də yoldaşı özüylə apardı. Gülüş itən yerə kədər qonar, deyiblər. Onun qocalmağı elə o may günündən başladı.

Ara-sıra teletmaşalara dəvət alsa da, Nəsibə xanım təsəllini oynadığı tamaşaların lentlərinə baxmaqla tapırdı:

" – Nəsibə xanım, lentlərinizə baxırsınız?

– Hə, baxıram.

– Baxanda nə fikirləşirsiniz?

– Tez qocaldım, vallah.

– Niyə tez qocaldınız?

– Heç özüm də bilmirəm, bir də gördüm ki, vay..."

Sənətə özünəməxsus bir ciddiliklə yanaşan, yıxılmaq-durmaqla alqış qazananları anlamayan, oynadığı obrazı hərtərəfli öyrənməyin tərəfdarı olan Nəsibə Zeynalova gözünün içinə deyilən tərifləri, xoş sözləri də eşitmək istəmirdi: "Qoy çıxım gedim, nə sözünüz var, onda deyərsiniz".





Ürəyində bir obraz qaldığını sözarası dilinə gətirdi: "Mən "Tufan"dakı rus qaynanasını elə oynayardım! Bizimkindən də pis bir qaynana alınardı, qismət olmadı".

Aktyorların əxlaqına, həyat tərzinə münasibətini isə lap Cənnət xalanın hökmüylə bildirdi: "Elə olur, kimsə evdəkini unudub səhnədəkinə uyur. Belə olmaz. Səhnədə hansı rolda olsan da, oynadın qurtardı. İstər kişi olsun, istərsə də qadın. Ailə qurandan sonra iki göz gərək iki gözə baxsın. Hara gedirsən, yoldaşınla qoşa get. Evdə qalıb darıxanın gözünə min şey görünər".

Həyat yoldaşından ayrı keçirdiyi bu on ili dava-dərmanın hesabına güclə yaşadı, onu bu dünyaya bağlayan tellər nə qədər güclü olsa belə, yenə də darıxdı. Milli Teatr Günümüzdə ruhu ən çox darıxdığı yoldaşının yanına tələsdi.

Gülə-gülə, Nəsibə xanım, haqq yolunuz, haqq dünyanız mübarək olsun! Dönüb bizim göz yaşlarımıza baxmayın, sizsiz darıxmağımız gözlədiyimizdən də tez başladı...

*mart – 2004*

# Tarixi Fərman

Sağlığında adamların doğum günündə yada düşməsi, ruha dönəndən sonra o günün unudulması təbiidi. Çünki onda ta doğum günü olmur. Dünyaya gələn günün yerini köçdüyü an, getdiyi saat tutur. Yaxınların, doğmaların anım günü adamı bir cür ağrıdır, tanıya bilmədiklərinin itki günü bir cür. Hər təkrarlanan o gündə ağırdan-ağır bir gerçəklik çiynini basır, ümidlərini geri darayır: onu yaxından tanımaq şansını itirmisən.

* * *

Bir vaxtlar bu xalqın Fərman adlı oğlu vardı. Demə, onun da bir dərd payı varmış. Tanrı onun görkəmini özü sahmanlamış, içini özünə tapşırmışdı. İçini azca da olsa yığıb-yığışdıra bildimi görən?

* * *

Nağıllardan, uşaqlıqdan onu böyük bir köç qoparır. Köç deyəndə uzaq yüzillərdəki altayların, hunların, türklərin böyük köçü yada düşür. Yox, bu köç yaxın günlərimizin bir türk köçüydü. Ata-baba yurdundan zorla ayrılma idi bu. 13 yaşlı Fərman göz yaşında boğulan doğmalarını görürdü, tut ağacları, hər gün oynadığı yerlər üçün darıxırdı, amma heç nəyi anlamırdı. Böyüklər dünyasının acı həqiqətləri uşaq aləminin şirinliyi ilə heç vaxt uzlaşmır axı.

* * *

Hər şey vaxta basır, vaxtsa heç kimlə hesablaşmır. Vaxt ötəcək, il-gün keçəcəkdi, bir gün duzlu-yaşlı bu misralar dilinə gələcəkdi:

Vedinin yanı dağlar,
Ürəyi, canı dağlar.
Burda bir el varıdı,
Siz deyin hanı, dağlar?!

Bu sancıların hardan gəlib onu tapdığını heç özü də bilməyəcəkdi.





* * *

Yüz il sel oya bilməz, bir gün qəm oyan yeri-deyirik. Bəlkə də elə bircə günün – o köç gününün kədəri taleyini yazdı. O gün boy-buxunlu, enlikürək, kövrək bir yazıçı dünyaya gəldi: Fərman Kərimzadə.

* * *

Bir uşaq yazıçı Fərman Kərimzadə ilə "Xudafərin körpüsü"ndə tanış olur.

"Balaca İsmayıl anasının əlindən tutub soruşur:

– Ana, görünən belə gömgöy o dağlar, dərələr, düzənlər ki var, ora nədir?

– Ərdəbil mahalı.

– Yox, – deyə İsmayılın qaşları düyünlənir.

– Bəs nədir?

– Vətən!"

O uşaq Azərbaycanı da sevir, Şah İsmayılı da.

"Hardasan, ulu baba, hardasan? Ya bizi yaratmayaydın, ya da öz ağlından bizə də pay verəydin. Sən dünyanın ən böyük hökmdarlarını əlində oyuncağa döndərmişdin. İndi mən, sənin nəvən bir tərəkəmə bəyinin əlində əsir-yesir qalmışam. Diril, başını qaldır, mənə də bir yol göstər".

O uşaq tarixi də öyrənir, tarixi əsərin nə olduğunu da.

"Dünya gözlərimdə bir qara axçadan da dəyərsiz görünür. Deyirəm, gör kimin yerinə kim gəlir. Ağac ağacdır, kəsirsən pöhrə verib, yenə həmin ağac olur. Meyvəsi, barı da həmin. Amma insan niyə belədir görən? Oddan kül törəyir".

Və... həkim olmaq istəyən şagird səkkizinci sinifdə fikrini dəyişir. Yazının sehrinə düşən o uşağın gözü hər yerdə kitabında şəklini gördüyü gur, buruq saçlı yazıçını axtarır.

* * *

"Çaldıran döyüşü"ndə bir də üz-üzə gəlirlər. Araya azacıq küsü düşür. Balacaya elə gəlir, böyük dostu bu hissəni bir az da zorla yazıb. Düzünü görən kimi özündən soruşmaq istəyir...

* * *

1988-ci ilin ağla gəlməyən, amma yadda qalan günləri idi. Qonşuların torpaq iddiaları Azərbaycanın hər yerində qəzəblə qarşılanır. Bu qəzəbdən heç də geri qalmayan uzaq dağ rayonuna Bakıdan qonaqlar – yazıçılar gəlirlər: Sabir Rüstəmxanlı və Fərman Kərimzadə. Sabir Rüstəmxanlı şəhərdən gələnə oxşayırdı, amma o yox.

Çöldəki dalğalar uşaqları özünə, müəllimlər isə içəri çağırırdı. Çölə qaçmaq istəyi o qədər güclü, içəri dartınma elə əzablı idi ki... Kömək üçün münasib ünvan gəzən gözlər şəhərliyə oxşada bilmədikləri adama tuşlanır:

"Bizə yol göstərmənizi xahiş edirik".

Fərman Kərimzadə dövrün ən möhtəşəm sayılan kürsüsündən dinir:

– Əgər uşaqlar bura gəlmək istəyirsə, qoyun gəlsin. Belə gündə biz onlara Mendeleyevi, Nyutonu öyrədə bilmərik. Bu, həyat dərsidir. Qoy gəlib dinləsinlər.

* * *

Yazı-pozu adamlarının göydə uçan quşlarla, mələklərlə qolboyun şəkilləri, təsvirləri... lənətə gəlmiş "Astra" siqareti olmasaydı! Bakıdan gəlmiş yazıçı Fərman Kərimzadəyə – anın müddətini unutmuşam, – çox baxdığımız yadımdadı. Qayğılı idi, hərdən danışırdı. Cibindən siqaret çıxarır – qutunu gördük, ən pisi odur ki, tanıdıq – "Astra". Bu qeyri-adi olmayan siqaret qutusu əlçatmaz yolları, şəhəri-şəhərliləri, şəkilli-təsvirli insanları, avtoqrafı bəy kimi imzalayan yazıçıları bir göz qırpımında adiləşdirdi. Bu dünyada hər şeyin daş kimi məişət xırdalığına necə çırpıldığını gördüm və heyfsiləndim. Sonralar dahilərin dişinin kirini sümürməsi məni heç də dəhşətə gətirmədi.





* * *

"Böyük dərdlərdən, bölük-bölük ağrılardan böyük oğullar doğulur". (Vaqif Bayatlı). Uşaqlıqdan onu tapan dərdlərdən Fərman Kərimzadə, içində əritdiyi ağrılarından isə "Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü" kimi tarixi romanlar doğuldu.

* * *

"– Kimi istəyirsiniz?

– Evin kişisini soruşarlar!"

Kinomuzun incilərindən olan "Axırıncı aşırım" filmindən hər dəfə bu sözü eşidəndə diksinirəm. Dostun, düşmənin qabağına duran torpağın, yurdun kişilərini birinci aradan götürüblər. Amma onların hətta boş yerləri də nəsə dedi. Yazıçılar o səsi, sözü eşidənlərdir. "Mən yalan vəd verə bilmərəm, söz dedim, gərək yerinə yetirəm" – deyən Abasqulu bəy, çubuğu ilə ocağın gözünü eşələyən Kərbəlayı İsmayıl, "nə hökumət, ə, hansı hökumət" – toplutüfəngli bir hakimiyyətə gülən Qəmlo Fərman Kərimzadəyə, Allah bilir, daha nələr deyib.

* * *

Yazıçı Fərman Kərimzadəni bu dünyada axtara-axtara istədim, Yazıçılar İttifaqına yollanam. İstədim, o nəslin sağ qalanlarını tapam. İstədim, dost dediklərini danışdıram. Amma eləmək istədiklərim dərhal adiləşdi. Azacıq kədərli səslə keçmiş zamanda danışan söhbətlərə nə qulaq asmaq, nə də yazmaq təzə olmadığı üçün marağını itirib. (Yəqin belə söhbətlərin dəhşətli dərəcədə ümumiləşdiyini sezmisiniz).

Tanıyanlardan onun haqqında eşitdiklərimdən bircə bu xatirimdə qalıb:

"– Xətti elə xırda, zərif idi ki, lap narın muncuğa oxşayırdı..."

* * *

Bir də yadigar səsi qalıb məndə. Vaxtilə "Azadlıq" radiosuna verdiyi müsahibədən bir parça. Bir vaxt qızı vermişdi: Olan-qalan yadigar səsi bircə budur. Alın...

* * *

Hər il mart ayı girər-girməz o, gözümün qabağına gəlir. Elədir, mart – bayramlar ayı həm də yazıçı Fərman Kərimzadəni itirdiyimiz aydır. Bir balaca rayonda, balaca bir süfrəni şəkərbura, paxlava ilə bəzəyən məktəbli qız "Azadlıq" radiosundan qəfil bir xəbər eşidir:

– Bu gün yazıçı Fərman Kərimzadənin ürəyi dözməyib...

Bu gündən neçə martın ötdüyünün belə fərqində deyiləm. Nə vaxt neçə yaşının ola biləcəyi də nə ağlıma gəlir, nə də hesablayıram. Bizim – cavanların yadında vaxtında tanıya bilmədiklərinin yalnız itki günü qalır...

***P.S.*** Demə, martın 3-ü də Fərman Kərimzadənin doğum günüymüş. Bu gün yadında olan Sabir Rüstəmxanlı belə bir yazıçını unutduğuna görə radionu, televiziyanı, mətbuatı, qəzeti – bir sözlə, bütün cansızları qınayır. Bu cansızlar o nəslin hələ canı olanlarının əlindədi. Sabir müəllimin yaşıdlarının adını belə tez unutmasına heyrətlənirəm.

*mart – 2000*





# Cavanşir Yusiflinin yeni formulu

"Mənə ədəbi tənqid lazım deyil" – bir ara üsyan havasıyla dolu belə fikirlər lap tez-tez səslənirdi. Amma təpədən-dırnağa pafosla silahlanan bu süni inqilabçıların dövrü əlində qələmi qılınc kimi oynadan tənqidçilər nəslinin ömründən də az oldu.

Təriflə başlayan, xırda qeydlərlə qurtaran yazılar, resenziyalarla nə ədəbiyyatı, nə də oxucuları qorumaq mümkün idi. İndi bu etiraf günahları sığortalamır. Boğazdan yuxarı bəyanatlar, üfürülən qəhrəmanlıqla da yeni ədəbiyyatı yaratmaq, formalaşdırmaq məntiqə sığmır. Çıxış yolu? Elə məsələ də bu yolun axtarışındadı. Çağdaşlarımızın yenilik üçün vurnuxmaları, yol araması ömürboyu yerindən tərpənməyənin ayağının olması qədər real, gerçək, həm də məntiqlidi. İlk baxışdan çağdaş ədəbi prosesimizdə tam səliqə-sahman hökm sürür: şairlər, naşirlər, ortaya çıxan kitablar, yazılan resenziyalar, sərbəst fikirli tənqidçilər...Çatışmayan nədir?

Daha orijinal cavab arxasınca dünya ədəbiyyatına, dahilərin gündəlik yazılarına, elmə baş vurmaq olar, amma tənqidçi Cavanşir Yusiflinin kitabı yolun lap kəsəsini göstərir. Ona qoşulub qaraqışqırıqsız "Ədəbiyyatda yaşamağın formulu"nu axtarmaq da asan deyil. Çünki bu bələdçi nə "mən ölüm"ü, nə də alveri bilir. Yersiz ürəyiyumşaqlığı isə təbiət kimi ədəbiyyat da bağışlamır. Ona görə tənqidçi rastına çıxanlarla insanlığın, cəmiyyətin yox, ədəbiyyatın qaydaları ilə davranır. Böyük ədəbiyyat milli fərqləri də yaxına qoymadığı üçün tənqidçinin azadlığı sonsuzdur: Folknerdən başlayıb, Mirzə Cəlilin komediyalarına qayıdır, təsvir vasitələrindən söz düşəndə, Füzulini yenidən xatırlayır, ondan da Əli Kərimə adlayır, bir də dönüb çağdaş ədəbiyyatımıza təzə gələn Aqşini görür. Bu gəzişmələrdə oxucu Amerika gerçəkliyi ilə (Folkner) Şərq faciəsinin (Mirzə Cəlil) arasında duruxub qalmır. Çünki onun əvəzinə ortada olan süni sədləri, mifləri tənqidçi çıxdaş edir. Öndə olan tənqidçinin belə açıq-aşkar görünən ləpiri üçün oxucu əslində

həmişə qəribsəyir. Mövzunun arxasınca ədəbiyyatı səyahət həvəsinə düşənlərdən fərqli olaraq, bu tənqidçinin bələdçiliyi sirlidir. "İlğım"dan çıxar-çıxmaz "İndi kimdən, nədən deyək..." soruşur, səbirlə çağdaşlarının xatirə portretini çəkib yenidən alaqaranlığa, "Qorxulu yuxular"a – Xose Orteqai-Qasset, Xorxe Luis Vorxes, Filipp Solyers, Byorn Poulsonun etiraflarına, tərəddüdlərinə dönür...

Kim istəyir mübahisə, kim də istəyir etiraf eləsin, tənqidçi isə mühitdaxili bu çəkişmələrə qarışmır. Mühit daxilinə hakimlik etmək tənqidçinin işidimi?

Bir də mühitdaxili çəkişmələrə ən yaxşı cavab elə "Ədəbiyyatda yaşamağın formulu"nu üzə çıxarmaq, yadından çıxaranlara, toxunulmaz miflərə xatırlatmaqdı...

*fevral – 2004*





## Məğlub etməyincə təslim olmayan...

"Ah, qadınlar, qadınlar" – deyincə bircə gün onların şıltaqlığına dözməyə çalışın. Nəyə görə? Onda lap əvvəldən başlayaq. Uşaq vaxtı nağıllarla hamı dost olur. Nağılların birində qoyulan sual məndən başqa yəqin çoxlarını əməlli-başlı silkələyib. Gərək ki, "Ağıllı qız"ın nağılıydı. Şanlı-şövkətli, həm də özünə güvənən padşah qızlarından soruşur ki, evi kim tikər: kişi, yoxsa qadın. Böyük bacılarından həmişə seçilən kiçiyi cavab verir ki, padşah sağ olsun, evi qadın tikər. Bunu eşidən padşah qəzəblənir, qızına neynir, bir yana qalsın. Amma təkcə padşaha yox, ilk anda elə çoxuna qəribə gələn bu cavab nağılın sonunda təsdiqlənir.

Nağılı uşaqlar oxusa da, nəticə böyüklər üçündür. Çünki cəmiyyətin, həm də özünə güvənən cəmiyyətin min bir sualları ilə üz-üzə duran böyüklərdir. Təkcə tikən yox, hər hansı evi, mühiti, cəmiyyəti alçaldan, ucaldan da qadındır! Qadın ölçüdür – mənəviyyatın və mənəviyyatsızlığın. Qadın nizamdır – ailənin və mühitin, enişin və yoxuşun. Çoxları dilimizdə cəmi beş hərfdən ibarət olan sözlə yanaşı gücsüz bir məxluq deməkdən özünü saxlaya bilmir. Qadınlar heç vaxt gücsüz məxluq olmayıb. Çünki qadın məğlub etməyincə təslim olmur. Qadına zəif məxluq da deyirlər. Amma yox, zəif də deyil. Anaya zəif deməyə adamın ən azı dili gəlmir. İncə, zərif məxluq... Hə, bu başqa məsələ. Ona görə yox ki, qadın gözəllikdir. "Qadınsız həyat günəşsiz kainat kimidir" – buna görə də yox. Qadın anadır. Qadın bacıdır. Qadın sevgidir... Yox, yox! Tapmadınız... Onun köksündə çırpınan qadın ürəyidir, qadın ürəyi!

İstənilən dövrdə məhv olan cəmiyyət birinci qadınları boğub. Qadağaların, qaydaların çoxu qadınlar üçün doğulub. Qadınların haqqı, hüququ ikinci dərəcəli məsələlərdən biri olub.

"Cəmiyyət hər tərəfdən bizim qadınların ağlına təzyiq göstərir. Onların ağlını puç və şikəst edir". Hind yazıçısı, Taqorun sözlərini bir-iki xalqın dünəninə yazmaq çətindir. Qadın hüquqsuzluğundan

tarixdə çox yazılar qalıb. Dünəni tarix yaşadır, tarixi də biz. Bu gün qadınları cəmiyyətin bütün təbəqələrində və işlərində görürük. Deyirlər, dünyada hamıdan güclü qarışqalardır. Qarışqa öz çəkisindən nə az, nə çox – düz iyirmi dəfə artıq yükə tab gətirir. Bəs adına zərif, incə dediyimiz qadın çiyinləri necə? Təxminən nə qədər yükü daşıya bilir?

Nənələrin özündənrazı bir gülüşlə danışdıqları əhvalat bu yerdə yada düşür. Qadın tayfası yığışıb bir gün Allaha gileylənir ki, qurban olum, ta bu qədər də zülm olmaz axı. Hər iş bizim boynumuzdadır. Üstəlik, uşaq dünyaya gətirməyi də alnımıza yazmısan. Barı, qoy bu ağrını kişilər çəksin. Allahın arvadlara yazığı gəlir, sözlərini eşidir. Vaxt-vədə tamam olanda kişilərin hay-həşirindən qulaq tutulur. Arvadları ha göz qaş edir ki, səsini içinə sal, kişilərə nə göz-qaş? Biabırçılıqdan xəcalət çəkən arvadlar yüyürür Allahın üstünə ki, qələt eləmişik, qurban olum, belə getsə, kişilərimiz el içində bizi xəcil edəcək. Qaytar ağrımızı özümüzə, qurban olum, kişilərdə güc hardadır, o boyda yükün altına girə. Kişilərin qışqırığından ayrı heç nə eşitməyən Allah arvadların yalvarışını eşidib sevinir. O gündən də arvadlar ta bir də Allaha şikayət etmirlər.

“Təbiətin qadınlara verdiyi ən ali mükafat ana adıdır”. Bu cümləni az qala hamı işlədir. Mükafatı belə yüküylə ölçülən, təbiət, cəmiyyət tərəfindən mükafatı belə yüküylə ödənən qadınları sakitcə öz işlərində-güclərində görəndə demək istədiyin bütün xoş sözlər, şirin, bərbəzəkli ifadələr elə adiləşir, gözdən düşür ki... Təbiətin, cəmiyyətin qadınlar üçün hazırladığı yüklərin içindən ən ağırını seçib ayırmaq ağlına gəlibmi?

Ağıllı adamlar deyir ki, sual vermə, sualların cavabı yox. Həyat həyatdır, bütün sərtliyi, gerçəkliyilə... Bu sərtliyə dözmək asan olmur. İçindən sınan, öyrəşdiyi zəif məxluq sözünə əyilən qadınlar da var. Bu yerdə Taqor başqa cür deyir: “Kişilər qadın zəifliyini görəndə dünya qadınlar üçün oyuncağa çevrilir”.

Dünya demişkən... Yerli-yersiz, bizim Azərbaycan qadınlarına xaricdən örnək götürməyi məsləhət görürlər. Ərəb ölkələrindən gələnlərin dediklərinə hələ də heyrətlənirəm. Demə, dünyada çox fərqli adətlər varmış. Xoşbəxt ailənin gələcəyi dünyaya gəlir və ...





ata, uşağına süd verən anaya qanunla süd haqqı ödəyir. Süd haqqını qadın da, qanun da ərdən tələb edir. İndi həkim-təbib bir yandan, qaynana-baldız da o yandan dirənib ki, uşağa süd ver! Ay balam, əvəzində bəs siz nə vəd edirsiniz bu Anaya? Bizim qadınların qulağı eşidən alqış da belə olur: “Allah qardaşını, yoldaşını saxlasın”.

Bəs, öz canı? – bu sualı isə heyrətlə əcnəbilər bizim adət-ənənəmizlə tanış olanda verir. Adətlərimiz nə qədər dəyişsə belə, hələ də öz canına and içən qız-gəlin yamanlanır: atanın, qardaşın canı, öləndə də adı and yerimizdir. Hələ də əzizini itirən kişilərə “başın sağ olsun” deyirik, qadınlarasa, “Allah qardaşına, yoldaşına, balalarına dəyməsin”. Əslində, ənənənin dəyişməyi çətin məsələdir. Bu gün az-maz dəyişmə də yalnız xarici görünüşdür, vəssalam.

Böyüklər deyir, dünyanın şah musiqisi körpə gülüşləridir. Körpələr özləri nə deyir? Ən gözəl – ana üzü, ən isti – ana nəfəsi, ən xoş – ana gülüşü, şah nəğmə – ana laylası. İllər keçdikcə bu ilkinlikdən nəsə dəyişir, bircə doğmalıqdan başqa. Bütün doğmalıqlar ana adı ilə bağlıdır. Ana torpaq, ana Vətən, qədim miflərdə Yer ana...

Yer üzündə hardasa ağlayan bir ana varsa, əzab var yer üzündə! Hansı bucaqdasa ağlayan bir qadın varsa, kədər var yer üzündə! Əzab, kədər, dərd qadın, ana adına yaraşmır.

Gözəllik, sevgi, doğmalığın yanındadı qadının əzəli yeri. Bu nizamı kim pozdu, təbiətin bu qaydasına kim qıydı, görən?

Güclü, qüvvətli, cəsur, mərd... kişilər. İlin üç yüz altmış beş günü şıltaqlığınıza dözən qadınların cəmi bircə gün nazını çəksəniz, nə olar? Vur-tut bircə gün!

Çünki sevginiz, ömür-gününüz, taleyinizdi qadınlar! Bəli, bəli! Bu yerdə qadınların şaqraq gülüşləri, mühafizəkar kişilərinsə ürəkdə razılaşıb dildə dedikləri sözlər aydınca eşidilir: “Çöpə güləndir, bu qadın xeylağı”.

*mart – 2000*

## Anar: "Ömrü bir qədər redaktə edərdim"

– Bu yubiley Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarın həyatında nəyi dəyişəcək? 70 yaş yazıçı üçün qorxulu deyil ki?

– Yubiley sözünü işlətmək istəmirəm, amma bu bir faktdır ki, doğulmağımdan artıq 70 il keçir. Bu tarixlə mənim həyatımda heç nə dəyişməyəcək, indiyəcən necə yaşamışamsa, həyatımın bundan sonrakı illərini də elə yaşayacağam. Ona görə də mən bu rəqəmə xüsusi əhəmiyyət vermirəm. Elə yazıçı var ki, 30 yaşında artıq qocadır, elə yazıçı da var ki, 70 yaşında hələ cavandır. Mən özümü bu yaşda hələ cavan yazıçı hesab edirəm.

– Azərbaycanda səfərdə olan Çingiz Aytmatov bir ağsaqqal tövsiyəsini bildirdi ki, kiminlə eyni vaxtda yaşamağı biz seçmirik: əgər biz hamımız eyni dövrdə yaşayırıqsa, deməli, bütün müasirlər bir-birinə lazımdır. Bəs Sizin dövrünüzə və müasirlərinizə münasibətiniz necədir?

– Təbii ki, vətəni və valideynləri adam özü seçmir. Bu, Tanrının yazdığı taledir. Müasirlərini də özün seçmirsən. Hər halda, mən öz müasirlərimdən çox razıyam. Azərbaycanda və ondan uzaqlarda da ən maraqlı insanlarla tanış olmuşam, ünsiyyət qurmuşam, bəzilərinə dost demişəm, bəziləri məni özlərinin dostu sayıblar. Ona görə də çox razıyam ki, məhz belə insanlarla bu həyatı bərabər keçirmişəm.

– Azərbaycan ədəbiyyatının bu gününü necə qiymətləndirirsiniz?

– Ədəbiyyat canlı orqanizmdir. İnsanın bir gün başı ağrıyır, evdən bayıra çıxmır, başqa gün çıxanda doğan günəşi görür, ona baxıb kefi kökəlir. Ədəbiyyat da belədir. Təzə nəşr edilən əsərləri oxumayan bəzi adamlar deyir ki, bu gün ədəbiyyatımızda heç nə yaranmır. Və ya əksinə, yeni bir əsəri bəyənən kimi deyir, ədəbiyyat inkişaf edir. Ədəbiyyatda uğurlu əsərlər yaranıb və indi də





yaranır. Keçmiş dövrlərdə də, bu gün də zəif, qrafoman əsərlər yaranıb. Bir canlı orqanizm kimi ədəbiyyatın da öz axarı var və bu axarın köpüyü də olur, təmiz, şəffaf, duru suyu da. Bir insanın əhval-ruhiyyəsinə görə ədəbiyyatı nə damğalamaq, nə də şişirdib göyə qaldırmaq olar.

– Azərbaycan dilinə tərcümələrin keyfiyyəti bu gün geniş müzakirə obyektinə çevrilib. Tərcümələrin səviyyəsi Sizi qane edirmi?

– Bütün tərcümələr eyni deyil, klassik tərcümələr də var, zəifləri də. Tərcümələrin hamısını bir qəlibə salmaq mümkün deyil, həm də mən xüsusi bu işlə məşğul olmamışam ki, konkret misallar çəkəm. Ara-sıra reklamlarda da bəzən çox səlis tərcümələrə rast gəlirsən, bəzən də elə dillə tərcümə edirlər ki, danışılan aydın olmur. Tərcüməçilərə gərək yaxşı qonorar verilsin ki, onlar həvəslənsinlər, çünki bazar iqtisadiyyatında bir çox amillər maddi meyarlarla ölçülür. Tərcüməçi bilsə ki, ağır işə girişib və bunun müqabilində aldığı qonorarla müəyyən müddət dolana bilər, onda bu işə həvəslə girişər. Qazancı qəpik-quruş olanda isə eyni vaxtda bir neçə işə can atır.

– Çoxdan gözlənilən və artıq ekranlara çıxan "Cavid ömrü" filmi birmənalı qarşılanmadı. Siz bu filmi necə qarşıladınız?

– "Birmənalı qarşılanmadı" fikrinə mən bir az təəccüblənirəm. Bu film Bakıda üç dəfə göstərildi, Naxçıvanda böyük zalda tamaşaçılara təqdim olundu və bu yaxınlarda Türkiyədə nümayiş edildi. Həmişə də tamaşaçılar tərəfindən böyük riqqətlə qarşılandı, hətta hönkürüb ağlayanlar da oldu. Kiminsə "filan aktyoru, filan aktrisanı bəyənmirəm" deməsi öz işidir, amma film birmənalı qarşılanıb, çünki yaxşı, maraqlı əsərdir. Ayrı-ayrı atmacalar var və bu film çəkilməmişdən əvvəl artıq qulp qoyulurdu.

– Niyə?

– Çünki ssenarisini mən yazmışam. Elə adamlar var ki, bütün həyatları boyu fikirləşirlər ki, mən səhər Anarı sancmasam, çörək yeyə bilmərəm. Bu onların peşəsidir, mən onları anlayıram. Onlara da bu tapşırıq verilib və tapşırıq da səylə yerinə yetirilir. O adamların adları da, yazıları da unudulacaq, film isə qalacaq. Mənim üzə çıxan bütün iri əsərlərimə qulp qoyulub. İlk hekayəmə – "Keçən

ilin son gecəsi"nə qulp qoyuldu, indi bütün dərsliklərə salınıb. İlk povestim "Ağ liman" çıxdı, dedilər ki, bu, Sovet həyatını təhrif edir. "Qobustan" jurnalı çıxanda "Kirpi"də karikaturasını verdilər və s. və i. Zaman bu əsərlərin dəyərini üzə çıxartdı, o fikirlərin müəlliflərini isə indi ailə üzvlərindən başqa heç kim tanımır.

– Gənclərin bir qismi elə hey Sizin bostana daş atır. Onlar Sizdən nə istəyirlər, axı?

– Onlar təhqir-böhtan yazmağa başlayandan, mən də bu suala cavab axtarıram. Bu gün Yazıçılar Birliyinin Gənclər Şurası var, "Ulduz" jurnalı gənclərin ixtiyarına verilib, xaricə səfərlər olanda gənclər unudulmur, əsərləri xaricdə çap olunur, imkan düşən kimi təbliğ edilir. Normal gənclərlə münasibətlərimiz də normaldır. Mən onları ədəbiyyatımızın gələcəyi kimi görürəm, onlar mənə çox hörmətlə yanaşırlar, sağ olsunlar. Bir para uğursuz adamlar da var, onlara nə deyəsən?

– Yaradıcılıq təşkilatları ilə bağlı qanun layihəsi Milli Məclisdə böyük diskussiyaya səbəb oldu. Bu məsələyə Sizin münasibətiniz necədir?

– Azərbaycanda yaradıcılıq təşkilatlarına, yaradıcı adamlara siyasətin əsasında rəhmətlik Heydər Əliyev durur. Bu, yaradıcı təşkilatlara dəstək, yaradıcı adamlara hörmət siyasətidir. Bunun əsasını Heydər Əliyev qoyub və bu gün İlham Əliyev də bu yolu davam etdirir. Bu siyasətin əleyhinə olanlar açıq desinlər ki, biz bunun əleyhinəyik. Bunu o adamlar deyir ki, rəsmi vəzifə tutur və bu siyasəti davam etdirmək onların bir növ vəzifə borcudur. Sözlərini açıq deyə bilməyənlər başlayırlar ki, Yazıçılar Birliyi niyə dövlət büdcəsindən maliyyələşməlidir? Ona görə ki, Heydər Əliyev Yazıçılar Birliyini dövlət büdcəsinə aid edib. Ona görə ki, Heydər Əliyev Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarını büdcəyə salmaqla yaşatdı. O, bunu elədiyinə görə böyük insan idi və onun davamçısı da bu yolu davam etdirir. Kim bu siyasətin əleyhinədirsə, açıq desin. Yalan fikirlər səsləndirirlər ki, guya Anar "Cavid ömrü" filminə görə 40 min dollar qonorar alıb. Ay hay! Haçan almışam bu qədər pulu? Halbuki mən bu filmə ömrümün neçə ilini həsr etmişəm. Ümumiyyətlə, əyri yolla pul qazananlar düz yolla





qazananlara həmişə nifrətlə baxır. Bu, qəribə bir paradoksdur. Yazıçının halal pulla qazandıqlarını qısqanırlar. Prezidentin fərmanı ilə kitablar 25 min tirajla çap olundu. Bir müəllif, o cümlədən mən bir qəpik qonorar almadıq. Niyə? Yazıçı hava ilə dolanır bəyəm? Bütün telekanallar filmlərimi göstərirlər. Onlar mənə bir qəpik ödəyirlər? Televiziya, radio, qəzetlərə müsahibə veririk, müxtəlif mövzulara münasibət bildiririk. Hansından qonorar tələb edirik? Dünyanın bütün ölkələrində yazıçılar müsahibələri qonorarla verirlər. Müsahibələrimə görə qonorar istəyirəm? İstəmirəm və bütün bunlar heç ağlıma da gəlmir. Amma kimlərsə oturub yazıçının qəpik-quruş qazancını hesablayır. Barı bir az insaflı olsunlar, çünki yazıçıların əksəriyyəti bu gün ən kasıb dolanan təbəqələrdəndir.

– Bəlkə yazıçılara qonorar ödənməsi daha doğru variantdır?

– Əlbəttə, bütün dünyada belədir. Deyirlər, dünyanın heç bir yerində Yazıçılar Birliyi yoxdur. Yalandır! Hər yerdə Yazıçılar Birliyi var, amma bu təşkilatın funksiyaları müxtəlifdir. Rusiya və Türkiyədə olan Yazıçılar Birliyi nə ad, nə də ev paylayır. Heç bir yazıçı da bu təşkilatdan maddi dəstək ummur. Amma bizdə vəziyyət bir az başqadır, biz imkanımız daxilində yardım göstərməyə çalışırıq. Əgər xaricdən misal çəkiriksə, onda bütün dünyada yazıçıların istənilən müsahibəsi, yazısından istifadəsi qonorar hesabına aparılır. Mən təkcə televiziya müsahibələrinin qonorarı hesabına milyoner ola bilərəm, amma biz bütün bunları təmənnasız edirik və bunu da xalqımızın, millətimizin, ədəbiyyatımızın inkişafı naminə edirik.

– Necə bilirsiniz, rus dili "ortaq türk dili" kimi işlənməkdə davam edəcək, yoxsa ortaq türkcəni yaratmaq mümkün olacaq?

– Bu, türklərdən asılıdır. Mənim böyük qardaş hesab etdiyim Çingiz Aytmatov, həm də başqa qonaqlar – qazaxlar, qırğızlar Bakıya gəlmişdilər. Biz onlarla rus dilində danışdıq. Qırğızlar danışanda mən iki-üç kəlmə başa düşürəm, elə onlar da belədir. Ona görə də mən illər boyu təklif edirəm ki, Türkiyə türkcəsi ortaq ünsiyyət dili kimi işlənsin. Başqa süni ortaq dili yaratmaq isə mümkün deyil. Biz Türkiyə türkcəsini çox aydın başa düşürük, qazax, qırğız, özbək və türkmənlər rus dilini unutmadan Türkiyə türkcəsini mənimsəsələr, bu dillə ünsiyyət yaratmaq olar. Bəziləri belə fikirləşirlər

ki, türkcəni öyrənmək, ruscanı ləğv etmək deməkdir. Elə deyil, rus dilində böyük ədəbiyyat, mədəniyyət var, bu dilin vasitəsilə də biz dünyaya çıxa bilirik. Eyni zamanda bizim Orta Asiyadakı qardaşlarımız Türkiyə türkcəsini öyrənməlidirlər ki, ortaq ünsiyyət vasitəsi kimi bu dildən istifadə edək.

– Anar müəllim arxayınlıqla "mən insanları tanıya bilirəm" deyə bilirmi?

– Yox, insanları tanımaq olmur. Bəzi insanların elə sifətləri olur ki, gündə bir şəklə düşür. Ümumiyyətlə, mənim insanlara böyük məhəbbətim var və həyatımda rast gəldiyim yaxşı insanlar pislərdən qat-qat çoxdur. Daha çox yaxşı insanlarla ünsiyyətdə olmuşam, dostluğum da onlarla olub, bu dostluqla da fəxr etmişəm. Müəyyən şərait insanı korlaya bilər, amma insanlıq xisləti şərə yox, xeyrə yönəlib.

– Ömrü təkrar yaşamaq mümkün olsaydı...

– ... Bəzi səhvlərimi təkrar etməzdim. Bu, mümkün olan bir iş deyil əlbəttə, amma əgər mümkün olsaydı, çox gözəl olardı. İnsan təzədən gənc olardı, bəzi səhvlərini təkrarlamazdı, bəzi məsələlərə daha çox vaxt ayırardı. Əgər təzədən yaşamaq mümkün olsaydı, insan ömrünü bir növ redaktə edərdi.

– Bir az da ədəbi qəhrəmanlarınızı yada salaq. Məsələn, romanı bu gün təzədən yazsaydı, Anar müəllim Təhminəni sonda yenə öldürərdi?

– İndi dünya çox dəyişib, düzdü, amma Təhminə kimi bir insan nə o cəmiyyətdə yaşaya bilərdi, nə də bu cəmiyyətdə. Əgər bu gün yazsaydım, sonda Təhminə yenə də ölərdi, bəli.

– Oqtayın tikdiyi günəş hamamının, İçərişəhərin axırı necə oldu?

– Günəş hamamının tikilməsinə Əsmər kinayə ilə yanaşır, amma İçərişəhərin dərdi yenə də bitməyib. Onda hay salırdıq ki, İçərişəhəri sökməyin. İndi də haray salırıq ki, İçərişəhəri tikməyin. İçərişəhərə yaraşmayan hündür binalar tikilir... O yerdə ki, pul hər şeyi həll edir, onda İçərişəhərin dərdi hələ bitməyəcək. Şəhəri, binaları sökənlər kimlədir? Xatirəsi olmayan adamlar. Xatirələri olan adamlar şəhərin hər küçəsinin, hər daşının qədrini bilir, cünki hər daş bir xatirə deməkdir.





– Bir çox yazıçı ötən dövrdə yazdıqlarına təkrar qayıdıb, onları yenidən işləyir. Sizin də belə bir fikriniz varmı?

– Var. Nəsr əsərlərimdəki bütün qəhrəmanlarımı bir yerə toplamaq, bu dövrə gətirmək istəyirəm. Onlar artıq qocalıb, uşaqları, nəvələri var. Bu qəhrəmanlar bizim müasir dövrümüzdə hansı problemlərlə rastlaşırlar, necə yaşayırlar? Dumanlı şəkildə mən onları görürəm. Görək, bu gördüklərimi nə vaxt işləyə, yazıya gətirə biləcəm...

– Ad günlərində kədərli olduğunu deyən Anar müəllim daha çox kimin təbrikini gözləyir?

– Nəvələrimin...

*mart – 2008*

# Əsli Şuşaya, surəti Opera və Balet Teatrına!

Çox da məşhur olmayan bir deyim var ki, əgər tamaşaçı, səhnə, dekorasiya varsa, aktyor yoxdursa – teatr yoxdur. Əksinə, tamaşaçı, səhnə və dekorasiyasız, bir adamın yolun ortasında yaratdığı gözəl oyun artıq teatrın olması, yaşaması deməkdir. Bütün bunların hamısının, yəni tamaşaçı, səhnə və gözəl aktyor ifasının olması isə əsl sənətdir! "Qarabağnamə"ni, bax, belə bir əhvalla gözləyirdim ki, görən səhnədə bu saydıqlarımın hansı ilə rastlaşacam: sadəcə teatrla, əsl sənətlə, yoxsa bunların heç biri ilə...

Tamaşaçılar ayaqla səs verir – bu baxımdan, Azərbaycan Dövlət Opera və Balet Teatrında dekabrın 15-nə təyin edilən səsvermə baş tutmuşdu. Elə belə də olmalıydı. Xatırladaq ki, Azərbaycan səhnəsində son operanın – Vasif Adıgözəlovun "Natəvan" operasının premyerası 2003-cü ildə keçirilib. Nəzərə alsaq ki, bizim bəstəkarlar hər gün opera yazmır, tamaşaçılarımız hər saat yeni opera tamaşasının premyerasına dəvət olunmur, özü də bu operanı Şəfiqə Axundovanın "Gəlin qayası"ndan uzun illər sonra qadın bəstəkar yazıb, onda bu anşlağı və marağı başa düşmək asandır. Və bir də ən əsas və vacib məqam – orada – diqqət mərkəzində görünən Qarabağdır...

...Səhnədə Azərbaycan opera sənətində ilk dəfə istifadə olunan vizual görüntülərdə Qarabağın gözəl vaxtları canlanır... Şuşanın ağacları göyə, adamları yerə meydan oxuyur... Qarabağın suyu axır, ocağı yanır, qız-gəlini toy-büsata hazırlaşır. Bir sadəlövh tamaşaçı kimi adam ürəyində yalvarır ki, təzəcə nişanlanan istəklilərin nigahı baş tutsun... Əslində bu gözəl dekorasiya və səhnə tərtibatı yalnız xoşbəxtlik vəd etsə də, operanın ilk akkordları sonrakı kədərli notlardan xəbər verirdi. Elə həmişə belə olur, kənarda oturan tamaşaçı ürəyində dinclik, əmin-amanlıq arzulasa da, orada-mərkəzdə hadisələr getdikcə dramatikləşir. Göy guruldayır, şimşək çaxır, çərxi-fələyin üzü dönür, dinc adamların evinə, ocağına, yurduna məzlum görkəmli





qonaqla birgə qan-qada gəlir. Eynən həyatda olduğu kimi, səhnəmizdə də Qarabağın toyu yasa dönür, bu yurdun üstünə qürub yox, qaramat çökür. Təzə bəy – Arif ürəyindən vurulur, Mələk soyuqda, dağda donur. Onların göylərdə xoşbəxt olması göstərilir, amma Göy bizim yer deyil. Yerimizdə isə, el-oba dağılır, camaat dağlara-daşlara düşür...

Librettonun ikinci aktı belə sona çatır. Düzdür, tamaşaçı çapan ağ atlını, balaca yumruqlarını düyünləyən igidbalanı gördü. Amma Qarabağın, Şuşanın qayıtmağını yox. Atalar üçdən deyib axı, ona görə də bu yerdə iddialı tamaşaçı müəlliflərdən üçüncü aktın yazılmasını tələb edir. Bu bir başqa məsələdir ki, bu üçüncünü aktı fantaziyanın gücü ilə də yazmaq olar, reallığın diktəsi ilə də... Amma əgər həqiqətən də, sənət adi həyatdan bir addım irəlidədirsə, onda Qarabağı öncə səhnəmiz, sənətimiz qaytarmalıdır, elə deyilmi?!

Yeri gəlmişkən, bu il iki dəfə Şuşaya "getdik". Molla Pənah Vaqifin 290 illiyində və "Qarabağnamə"də. Qalalıların aynabəndli, xalı-xalçalı, şəbəkəli evləri göründükcə, adamın ürəyi Şuşanı istəyir, bizim Şuşanı, öz Şuşamızı... Yayda bir qrup Azərbaycan ziyalısı Qarabağdan keçib Şuşaya getdilər. Borclu qalmaq istəməyən Azərbaycan qadınları Şuşaya "Qarabağnamə"ni göndərdilər. Nərgiz Paşayevanın librettosu əsasında Firəngiz Əlizadənin yazdığı, Cənnət Səlimovanın quruluş verdiyi, Gülbacı İmanovanın xormeysteri, Yulana Əlikişizadə və Tamilla Şirəliyevanın rəqslərin quruluşçusu, Məlahət İsmayılovanın konsertmeysteri olduğu "Qarabağnamə" ünvana yetişdi! Daha bir qeyd olunası məqam da budur ki, adi tamaşaçıdan fərqli olaraq, əsas rolların ifaçıları olan Əkrəm Poladov, Qərinə Kərimova, Əvəz Abdullayev, Gülnaz İsmayılova, Həsən Enami bu Qarabağ naməsini dönə-dönə oxuyub, hər sətrini, hər kəlməsini dönə-dönə götür-qoy ediblər. Alındı, dostlar, bunca həsrətdən sonra yola salınan məktubunuz bizim Qarabağa yetişdi!!!

Necə bilirsiniz, indi bu hansındandır, sadəcə teatr, əsl sənət, yoxsa heç biri?!..

*2007*

# Sərhəd dirəklərini uçuran səs

Qədim, çox qədim bir əfsanə var. Şirin zəngulәsi, həzin nəğməsi ilə məşhur olan bülbülün səsi-sədası gəlib saraya da çatır. Padşah bu nəğməni sarayda, öz taxt-tacında oturub eşitmək istədiyini bildirir. Meşə gözəli saraya gətirilir. Ayrı düşdüyü çəmənini, nəğmə qoşduğu gülünü, çiçəyini xatırlayan bülbülün bağrı qana dönür və oxuyur. Nəğməsi büllur sarayı titrədir, səsi qızıl dirəkli taxt-tacı sarsıdır, hamının bağrı kabab olsa da, onu susdurmağa heç kimin hünəri çatmır. Ağlayıb yüngülləşən bülbül kiriyir. Gözüyaşlı padşah ona yanaşıb: "Nə mükafat istəyirsən, dilə məndən", – deyir. Bülbüldən səs çıxmır. Padşah təəccüblənir:

– Necə? Məndən güzarına qayıtmağı da diləmirsən?

Bülbül dinir:

– Haqqım mükafatım ola bilməz, ey padşah! Azadlığım mənim haqqımdır. Əlimdən alınan andan onu diləmir, tələb edirəm. Mükafatımı isə artıq aldım. Nəğməkar üçün göz yaşından qiymətli nə mükafat ola bilər?

* * *

Heydər baba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə...

Günəş göylə bir olub yar soraqlayanda, təbiət özünə sığal vuranda, yerdəkilər telini yan darayanda o yada düşür. Şəkili gözümüzün qabağından getməmiş, səsi qulaqlarımızdan ötməmiş söz-söhbəti, xatirəsi dilimizdə şirin bir nağıla dönür:

Bu xalqın adına Rübabə deyilən bir nəğməkar qızı vardı...





* * *

Əzizim, bilən varmı,
Heç dərdim bilən varmı,
Ağlamaq peşəm oldu,
Göz yaşım silən varmı?

Elə bildik peşəsi oxumaqdı. Səsinə, nəğməsinə elə uymuşduq ki... Rübabə Muradova onu dinləyənləri sirli-sehirli qüvvə kimi tilsimləyir, ovsunun gücü ilə ayrı bir aləmə aparırdı. Hara? Dərdlərin böyrünə, yaraların üstünə, xoşbəxtlik üçün doğulmayanların aləminə, sənətin görünməyən bir yerinə, səsin xəlvət bir küncünə...

* * *

Gəlmişəm otağına,
Oyadam səni, Qaragilə.
Nə gözəl xəlq eləyib
Yaradan səni, Qaragilə...

Yaradan gözəl xəlq eləmişdi: göz-qaşı, yerişi-duruşu eynən xalqının qızlarına oxşayırdı. Tanrı seçmişdi onu... Di gəl, dərdin içindən onu götürüb qaçmağa kimsənin hünəri çatmadı...

* * *

Ürəkdə yara sızlar,
Dərd sızlar, yara sızlar,
Yaralının dərdini
Nə bilər yarasızlar?

Yanğısız sənət yoxdur – deyənlər bəlkə də haqlıdırlar. Həmişə şübhə edirik, dəqiqləşdirmək istəyirik: istedad necə yaranır? Nədənsə üstünlük çox vaxt böyük-böyük dərdlərin tərəfində olur. Bəlkə bu gerçəkliyi qəbul etməyə adi insan xisləti mane olur? Gündəlik həyata, güzərana asanlıqla uyuşan insan dərd-sər sözlərindən var gücü ilə qaçır... Dərddən qaçanların da öz istedadları doğulur, böyüyür, şöhrətlənir... Amma nisgildən doğulan talelər,

o talelərin oxuduğu nəğmələr dünyanı daha çox tutub. Hər nəğmə bir nisgildir, deyirlər. Həsrət nəğmələrinin nisgili isə dünyanın özündən də böyükmüş demə! (Bir dəfə bu sözləri şair Vaqif Bayatlıya deyəndə dərhal etiraz etdi: dünya çox xırdadır, həddindən artıq!) Dünyanın özündən böyük olan və ya onu həddindən artıq xırdaya çevirən nisgillə bu dünyada nəğməli bir ömür yaşamaq çox çətinmiş. Rübabə xanım belə yaşadı. Onun nəğmələri, nalələri gah yandırıb-yaxdı, gah özünə doğma bir yer tapanda yumşaldı, gah da duyan bir qəlbə axanda başı çəkənləri danışdı: Azərbaycandan, onun Güney-Quzey yarısından, bəxtini qarğayan Arazından, həyətlərindəki armud ağacından, ağacdan asılan yelləncəkdən, balaca çarhovuzdan...

* * *

Dərdi-fəraqə düşdü can, ahü fəğan içindədir,
Sən bu əzabü atəşi gör ki, bu can içindədir.

Gah Nəsimidən, gah Füzulidən, gah da Şəhriyardan oxuyub ağlayırdı.

Hamının gözü qabağında bir müğənni gündən-günə solurdu...

* * *

Səs var fikri azdırır, səs də var...

Rübabə xanımın səsi sərhəd dirəklərini yuyub aparır, o tayla bu tayı qovuşdurur, Arazı durulдurdu... Bircə gücü zamana yetmirdi. Dövrün dolanbac vaxtında Rübabə Muradova Quzeyli, Güneyli Azərbaycanın səsiylə oxuyurdu.

Bizim də ağlımıza gəlməzdi: bilməz idik ayrılıq var, ölüm var...

* * *

Başı qarlı dağlardan yol alan, sıldırım qayalardan dolana-fırlana iti sürətlə qaçıb böyük hövzələrə qovuşmağa tələsən dağ çaylarını görmüsünüzmü? Qarlı ucalıqda lal axan su hövzələrini birləşdirən dağ çayları su ömürlərinə qıymadan qıjıltıyla axıb gedirlər. Rübabə Muradova dünyanın gedişinə ağladı, xalqının taleyinə yandı, xalq





mahnılarımıza bir gün ağladı... Bir insan ömrünün harda, necə itdiyindən xəbəri olmadı.

* * *

"Heç kimlə işi yoxuydu. Heç nəyə qarışmazdı. Söz-söhbət, qirqiybət bilməzdi. Bir növ kişi kimi xasiyyəti vardı, amma elə kövrək idi. Danışanda, söhbət edəndə də deyirdin bəs ağlayır..."

Tanıyanların onun haqqında dedikləri bu qırıq-qırıq həqiqətlərdir. Bacısı Tahirə Muradova isə xatırlayır:

"O üzdəki evimizin ən çox xiffətini Rübabə çəkirdi. Niyə? Görmüşdü axı. Heç cür unuda bilmirdi. Təzə evimizi elə düzəltmişdik: Ağac, çarhovuz... Deyirdi, yox ey...

Mənə deyirdi ki, qaşların mənə oxşayır. Səsim olsa da, o vaxtı oxumurdum. Oxuduğumu görmədi o. Deyirlər, səsim də oxşayır..."

"Rübabə üçün darıxmışam..."

Xalq artisti Sara Qədimova isə sənət yoldaşını ondan soruşanda bu üç kəlməni dedi. Ayrı heç nə demədi. Amma sözünü dedi.

* * *

İntizar gözlərim,
Gözlədim, gəlmədin...

"Azadlığım mənim haqqımdır, haqqım mükafatım ola bilməz", – deyən nəğməkarın – əfsanədəki bülbülün haqqına, azadlığına çatıb-çatmadığını bilmirik. Bizim nəğməkarımıza gəlincə... O, ilk nəğməsi ilə mükafatını qazansa, ömrü boyu azadlığını tələb etsə də... Yanıqlı səsi, bənzərsiz nəğmələri ilə qazandığı mükafat haqqını əvəz eləmədi. Ömrü boyu qazandığı alqışlar, xoş sözlərlə yarası qaysaqlamadı. Heç nə, heç kim bircə yol Vətəni görmək arzusunun yerini vermədi.

Haqqını çox gözlədi, lap çox. Dünyadan köçüncə...

Nə yaxşı ki, sağlığında əbədiyyət nəğməsini oxumağa macal tapdı. Yoxsa dünyada, insanlarda etibar nə gəzir?..

*mart – 2000*

# Nə, hop? Hə, hop!

Tamaşaya həvəslə gedirsən. Lap elə belə – uça-uça, qaça-qaça... Ona görə də, irili-xırdalı bütün teatr səhnələrində qurulan tamaşaların ekspozisiyası bir-birinə çox oxşayır. Sonra süjet teatrların sayı qədər bölünür, parçalanır... Amma haracan dağılsa, yayılsa belə, yenə gəlib bir finalda qurtarır. Yox, tamaşanın finalı heç vaxt səhnədə dayanmır, tamaşaçının dalınca qarabasma kimi sürünür, qabağına işıq kimi yüyürür. Əsl final bax beləcə tamaşadan sonra hər tamaşaçının hansısa quru jesti, bir kəlməsi və ya uzun-uzadı təəssüratları ilə tamamlanır. Belə sonluq bəlkə də pərdə arxasında, səhnədə can qoyanların ürəyincə deyil, amma bu gerçəkliyə necə düzəliş eləmək olar? Axı, bu teatrdır!

Yarandığı gündən bəri qədim sinkretik sənət növü olan teatr tamaşaçı üçün qurulur. Üstündən illər ötüb. Dövrlər, zamanlar dəyişib. Dahilər, sənət fədailəri bir-birini əvəzləyib. Amma heç kim heç nəyi dəyişə bilməyib: Teatrsız tamaşaçı var. Amma tamaşaçısız teatr yoxdur!

Bütün bunların "Yuğ"un təqdim elədiyi "Hop? Hop!" tamaşasına nə qədər dəxli var? Bilmirəm, amma qəribə də olsa, Vaqif İbrahimoğlunun quruluşu, Cavanşir Quliyevin ritmləri ilə başlanan səhnədəki "hərəkətli namə"yə (pantomim məsxərə) baxarkən mən M.Ə.Sabir, onun "Hophopnamə"si yox, məhz teatr haqda düşünürdüm. Belə cilovsuz düşüncələrin qarşısına isə "Yuğ"çuların bu açıqlaması çıxır: "Böyük şairin irsinin "hərəkətli namə" janrında təqdimatı ilk baxışdan paradoksal görünsə də, üç məqsəd güdür:

1. Sabir fenomenini modern teatr düşüncəsi ilə anlamaq cəhdi.

2. Başqa dilli mədəniyyət nümayəndələrinə anlaşıqlı etmək zərurəti (teatrın səfərləri planlaşdırılır);

3."Yuğ" teatrının konseptual poetikasının predmeti, baxım bucağı və dil-ifadə vasitələrini zənginləşdirmək tələbatı".





Hə, deməli belə. Həmişə söz düşəndə tərcüməçilərimiz and-aman edirlər ki, onların günahı yoxdur. Azərbaycan klassiklərini başqa dillərə çevirmək mümkün deyil. Xüsusilə də, Füzulini və Sabiri. Haqlıdırlar. Amma gec-tez bu binəva dünya öz dahi övladlarını tanımalıdır axı? Əgər Füzuli və Sabir dünya dillərinə tərcümə olunmursa, qoy onda əcnəbilər zəhmət çəkib Azərbaycan türkcəsini öyrənsinlər. Ən azı, Füzulinin və Sabirin xatirinə. Görürsünüzmü, çıxış yolları var. Bir çıxış yolunu da mən indicə tapdım. Sən demə, birini də məndən qabaq Vaqif İbrahimoğlu tapıbmış. Baş yuğçu qərara gəlib ki, Sabiri bir ətək xərc çəkib yabançı dillərə çevirməkdənsə, onun səsini almaq daha əlverişlidir. Bax belə – Sabir dinmir, danışmır və onun hərəkətləri dünyanın bütün dillərinə asanlıqla çevrilir. Əgər Sabir əlini sinəsinə qoyursa irqindən, cinsindən, milliyyətindən asılı olmayaraq, bütün bəni-adəm dərhal anlayır ki, böyük şairin bu jestinin ardında hansı misra (şeir) gizlənir. Yəni "arizi qəmlər əlindən şişmiş idi qara ciyərim". Yaxud klassik şairimiz onun qarşısında fırlanan qadına diqqətlə baxırsa, ürəyinizə başqa şey gəlməsin. Deməli, Mirzə Ələkbər müti Azərbaycan qadının dərdini çəkir. Yəni:

Tacirlərimiz Sonyalara bənd olacaqmış,
Bədbəxt tükəzbanları neylərdin, ilahi?!

Şairin səhnədə əlini bir-birinə sürtməyinə də ayrı rəng vermək lazım deyil. Yəni... Yox, o, bu dəfə şeir demir. Öz balaca sabun sexindən təzəcə qayıdıb. Görünür, işləri pis getmir. Gördünüzmü, "Yuğ"un pantomimvari "Hop? Hop!"unun yüngülvari açması çox sadədir. Yoxsa, tamaşa vaxtı bəziləri elə hey baş sındırırdılar ki, görən Vaqif İbrahimoğlu burda nə demək istəyib. Bu aktyorlar cani-dildən nə oynayırlar belə? Bir kəlmə demək əvəzinə bu boyda tər töküb, əziyyət çəkib nə demək istəyirlər? Kor-kor, gör-gör. Vaqif bəy tamaşada heç nə demək istəməyib. Üstəlik Sabirə də, tamaşaçılara da susmağı məsləhət bilib. Əsas hərəkətdir. Yəni Hop? Hop!

...Sonda biz də eksperimentləri xoşlayan Vaqif İbrahimoğlunu bir ekspront suala qonaq elədik. Adətən, tamaşa haqda rəyi

tamaşaçıdan soruşarlar. Biz isə "hərəkətli namə"dən ayrılar-ayrılmaz rejissorun özünü tamaşaya qiymət vermək məcburiyyətində qoyduq. O da "mənim çox xoşuma gəldi", – dedi. Əsas insanın öz işindən zövq almasıdır. Vaqif İbrahimoğlunun öz Sabirindən xoşu gəlməyi elə mənim də xoşuma gəldi.

Bəs teatr? Axı o...

"Gözəl. Qəşəng. Mübarəkdir!" Teatrşünas İlham Rəhimlinin qiyməti mənim cilovsuz düşüncələrimin qabağına nida kimi çıxır. Bu sözləri onun deməyinə inanmırsınız? İnanın, teatrda belə-belə işlər çox olur...

*fevral – 2003*





# Qürbətdən pay tutan şair

Qürbətdə dərdlər gördüm –
sözlüklərdə adı belə olmayan.
Qürbətdə namərdlər gördüm –
sözlüklərdə adı belə olmayan...

Misralara hopan qürbətin havası adamı üşüdür, diksindirir. Ömründə bir yol ayağını Vətəndən uzağa qoymasan da, bu qorxulu qəriblik həyatı sənə tanış gəlir...Görən niyə belə olur? Bu əlahəzrət "sirr" bizə hardan baxıb gülümsəyir? O, insanın varlığında gizlənib, yoxsa sözün içində? Bu cavabsız, ritorik sualları Tofiq Abdinin yenicə çıxan kitabı hardansa tapıb bircə-bircə üzə çıxarır. Hisslər bu şairi istədiyi səmtə yönəldir, o da ağlı-məntiqi unudub adına görünməz deyilənlərin dalınca düşür. Elə ona görə də Tofiq Abdinin qürbət şeirlərini İstanbulda yazması inandırıcı görünmür. Axı, o nə vaxt öz yerində-yurdunda-yuvasında olub? Doğrudanmı, bu şairin qəribliyi 1993-cü ildə başlayıb? Məntiq "hə" deyir, amma...

"Atası Ərdəbildən Azərbaycanın bir cənub rayonuna gəlmiş Məhərrəm adlı bir kişinin üçüncü uşağı ..." Kitabın cildində özü haqqında belə yazır. Hələ Ərdəbildən gəlmələri bir yana, yazdığı bu qısa ömürlüyündə də özünə gendən baxır. Yerə-yurda nə qədər qərib olsa da, elə bu baxışı ədəbiyyata nə qədər doğmadır?!

...İndi qərib bir axşamın
can verən saatında
mən bu şeiri yazıram
qürbət ağırlığında
bu tavanın altında...

Ədəbiyyatımızda hər vaxt elə düşməyən, ona görə də özünə asan yer tapan bu dəli-dolu qəriblik Tofiq Abdinin şeirlərində, nəsrində, publisistikasında üzə çıxdı. Əslində o, Vətən dediyi bir

yurdun paytaxtında da qərib kimi yazırdı, ayaq qoymadığı hansısa doğma yer üçün, hardasa uzaqlarda yaşayan tanış adamından ötrü qəribsəyirdi. Eynən Füzulinin məşhur misralarında olduğu kimi, qərib olduğu üçün də, qürbət onu tapdı. Həmişə gözəgörünməz hisslərlə oturub-durmaq olmur. O, taleyin yardımı ilə qürbəti gerçəklik kimi yaşadı. Amma gerçəkliklə ilğımın sərhədini tapan kimi yenə də itirdi:

...gördük ki, bu şəhər tanımır bizi
bəlkə tanış olaq, gözəlim Bakı...

Əslində isə imzası bir neçə – Tofiq Məhərrəmoğlu və ya Tofiq Abdin – olsa belə, onu Bakı da, paytaxtdakı ədəbi-mədəni mühit də çoxdan tanıyır, yaxşı tanıyır (Bütün bunların gerçək olduğuna hamını inandırmaq üçün Azərbaycanın qonorarla dolananlarının qeydlərinə, ünvanına dediklərinə də kitabında yer eləyib. Kim bilir, bəlkə də bu uzun illəri Bakıda yaşamasına elə ən birinci özünü inandırmaq istəyir, ona görə?). Harda yaşamasından – istər İstanbulda, istərsə də Bakıda – asılı olmayaraq, bütün günü yazır, oxuyur, çörəkpulu qazanır, çörəkpulunu dağıdır, yetdiyinə yetir, yetmədiyinə gendən söz atır, qocaya baxır – uşağa baxır, yaşayır... Qərib kimi? Yox, Tofiq Abdin kimi! “İstanbul notları. Onlar bir vaxtlar yazıblar. Bakı ritmləri” – Tofiq Abdinin yenicə işıq üzü görən kitabı belə adlanır. Kitabın adı da, içi də özünə oxşayır, Tofiq Abdini xatırladır. İndi deyin görüm, belə şair kitabını axırıncı dəfə nə vaxt görmüsünüz?

*avqust – 2004*





## Arif Əmrahoğlu: “Ədəbiyyata heç kim cavabdeh ola bilməz”

– Həmişə adama elə gəlir ki, yaradıcılar üçün ən uğurlu fəsil yaz, yay, qış yox, məhz payızdır. Şair, yazıçıların sevimli payız fəsli görən tənqidçilərə də düşürmü? Təbiətin sındığı, adamların kövrəldiyi bir vaxt onların da ürəyi yumşalırsa, onda hansı ədəbi uğurdan danışmaq olar?

– Hər fəslin öz xüsusiyyəti var. Bu özünəməxsusluğun hər insana bu və ya digər dərəcədə təsiri elmi şəkildə də təsdiqlənib. Amma payızdakı tənhalıq adama çox tez təsir edir. Ona görə təbiətin bu müdrik, kövrək fəslinin yaradıcılara xüsusi təsir göstərdiyinə əminəm. Payızda yazdıqlarımla başqa bir fəsildə yazdığım yazı arasındakı fərqi özüm də hiss eləyirəm. Payızda yazılan yazılarda kövrəklik, yazda yazılan yazılarda nikbinlik çox olur. Elə mövzu var ki, onu təkcə payızda yaza bilərsən.

– Özünüzü bir peşəkar, yoxsa ovqat adamı sayırsınız?

– Peşəkarlığın köməyi ilə asanlıqla yazıya çevrilən mövzular var, amma mən özümü ovqat adamı hesab edirəm. Çünki on illər ötsə belə, hələ də yaza bilmədiyim mövzularım var. Yazını başdan-ayağa görməyincə, yaşamayınca, əvvəlin-axırın görmədən oturub əlimə qələm almaram. Bir də, ən çox yazmaq istədiyim yazını da dərhal yaza bilmirəm. Məsələn, Səttar Bəhlulzadədən çoxdan yazı yazmaq istəyirəm, amma o yazını hələ də yazmamışam. Bu yazı Səttar Bəhlulzadənin üzündəki qırışlardan başlamalıdır, amma sonrasını hələ görmürəm. Məhəmməd Hadi haqqında bir yazıya da çoxdan hazırlaşıram. Bu mövzular hələ içimdə bişir...

– Onda Siz sifarişlə şedevr yaratmağın mümkünlüyünə inanmazsınız...

– Baxır, sifarişə. Desinlər ki, sənə bu qədər qonorar veririk, otur yaz – bu, başqa söhbətdir. Bir də var, redaksiya ilə danışıb, ona

müntəzəm, eyni vaxtda yazı göndərəsən. Düzdür, bu halda da qrafikdən kənara çıxmamaq üçün bəzən özünü məcbur etməli olursan, amma belə sifariş çox vaxt müəllifə kömək eləyir. Əgər səmimi olsaq, əslində bütün yazılar bu və ya digər mənada sifarişlə yazılır. Bir az obrazlı desək, hər hansı yazı bir tanışın, dostun sifarişi olmasa da, ən azı ürəyin, için tələbi ilə yazılır.

– Bəs tənqiddə?

– Tənqiddə sifarişlə uğurlu bir yazının alınmasına elə də inanmıram.

– Yaradıcılıqla planlaşdırma olur?

– Bəlkə də, bu baxımdan mən tənqidçilər, ədəbiyyatçılar arasında ən səliqəsiz adamam. Özü də elə bil planlaşma mənə düşmür. Planlaşdırdığım yazıları yaza bilmirəm. Hətta namizədlik işimdə də belə oldu. Planlaşdırmışdım ki, çox tez qurtarım, amma gec qurtardım. Pis ədəbiyyata görə yerli-yersiz tənqidçiləri qınayanları başa düşmürəm. Onda mən də şairləri qınayıram ki, niyə ədəbiyyatımızda zəif şeirlər var. Axı, yaranan əsərlərə, ədəbiyyata heç kim cavabdeh ola bilməz. Bir də heç kim əlinə qələm alıb pis yazı yazmağı arzulamır. Hamı yaxşı yazmaq istəyir. Amma kim buna nail olur? Tənqidçi müəyyən mənada ya şeir, ya nəsr yazmağın daşını atan yaradıcı bir insandır. Buna görə də mənə elə gəlir ki, planlaşma təkcə mövzu ilə bağlı ola bilər. Məsələn, elə bir mövzu olub ki, onu gecə yuxuda görmüşəm, oyanıb o yazını yazmışam.

– Bəlkə yaradıcılıqda da tənbəl adamlar var...

– Vallah, mən özümü çox işlək bir adam sayıram. Günün üst-üstə neçə saatını işləyirəm. Özü də bu işləmək təkcə yazmaq deyil. Mütaliə eləyirəm, tərcüməylə məşğul oluram, düşünürəm...

– Bəs bir tənqidçinin başqa tənqidçinin işıq üzü görən kitabına münasibəti necə olur?

– Tənqidçi əsərdə olan yaxşı və pis tərəfləri əyani şəkildə göstərməli, oxucusunu, hətta müəllifi də inandırmalıdır. Mənə elə gəlir ki, tənqidçi şairin və yazıçının nöqtə qoyduğu yerdən yazmağa başlamalıdır. Çünki şair, yazıçı bir aysberq yaradır, üzdə olan qat hələ hər sözü demir. Şair, yazıçı alt qatı oxucuya göstərsə, bu çox primitiv alınar. Müəllifin nəzərdə tutduğu, amma oxucusunun gözünə





görünməyən tərəfləri tənqidçi açmalıdır. Bu alt qata varmaq tənqidçinin borcudur. Bu işləri görmək əvəzinə dahiyanə bir görkəm alıb yazılanları tənqid etmək, nəsihət, məsləhət vermək əslində heç kimə lazım deyil. Yaxşı bir fikir var ki, şeir haqqında yazmaq şeir yazmaqdan çətindir. Təəssüf ki, belə tənqidçilər həmişə az olur.

– Sizin professor Yaşar Qarayev haqqında yazınızı oxuyub təəssüfləndik ki, tənqidçi Arif Əmrahoğlu "vaxt sərvətdir" stolüstü yazını unutmasa belə, hərdən gərəksiz yazıları oxumalı, onlara gərəkli cavab yazmalı, kimlərisə saatlarla dinləməlidir...

– Elə məsələlər var ki, ona fikir bildirməmək olmur. Bütün bunları mən özümçün bəzən vaxt itkisi sayıram. Hətta Yaşar müəllim kimi "vaxt sərvətdir" sözlərini yazıb stolumun üstünə qoymaq istəyirəm. Amma ziyalı gərək sözünü, mövqeyini bildirsin. Bu baxımdan mən çox səbirsiz adamam.

*oktyabr – 2002*

## “Ömür bivəfalıq etməyəydi kaş!..”

Sinnim cavan deyil, orta çağlıdı,
Həyam gəlin kimi ağ duvağlıdı,
İlhamım, ürəyim saza bağlıdı,
Amma hər nadana çalan deyiləm.

Bax, elə belə, eynən özü yazdığı kimiydi – orta yaşlı, üzündə abır-həyası, kürəyində ürək verdiyi telli sazı, bu obraza da heç uyuşmayan bir zabitəsi-ədası...Demə görmədim, elə beləydi Aşıq Mahmud Ələsgəroğlu. Əli saz, dili söz tutanların heç biri ilə onu dəyişik salmaq olmazdı. Səsi də sənətinə, dünyagörüşünə, həyat tərzinə oxşayırdı, ifası da – köhnə kişilər kimi oxuyurdu. Bu təzə ulduzlar kimi efirə, ekrana hər dəqiqə üz tutmağı da yoxuydu. Nəfəsi elə bil boğazından yox, çox-çox uzaqlardan gəlirdi. Ustad avazıyla doğulub-böyüdüyü Şamaxı torpağının, Şıxzərli yurdunun, Şirvan aşıq məktəbinin adət-ənənələrinindən seçmələr oxuyurdu. Özü də tarixiydi, nəfəsi, sözü də. Ona görə saz da bu aşıqdan bir sirr saxlamırdı: “Sazı sinəmə basan kimi axtardığım şeiri tapıb özü mənə verir”. Bəs sazı köksünə basıb nə axtarırdı? Aşıq Mahmudun saz-söz sərrafı olduğunu çoxdan bilirdik, amma onun klassik aşıq ədəbiyyatının incəliklərini qoruyan şeirləri axtardığı, qələmə aldığı özündən sonra üzə çıxdı. İşıq üzü görən “Ömür bivəfalıq etməyəydi kaş...” kitabında toplanan şeirləri də Aşıq Mahmudun səsi, nəfəsi, ifası kimi əzəli, qədimdi. Sağlığında onları üzə çıxarmaq, dost-tanış, qəzet-jurnal arasında yaymaq istəməyib. Sazının qulağına pıçıldadığı misraları indi özündən sonra Anar Mahmudoğlunun tərtibatı, Məhərrəm Qasımlı və Sərxan Xavərinin redaktorluğu ilə oxuculara təqdim olunur. Şirvanın aşıq yaradıcılığının bütün ənənələrini, təsvirlərini qoruyan şeirləri ilə yanaşı, kitabda müəllifin ömrünün əbədiləşən anlarına da yer ayrılıb. Bu əbədiləşən anların da yurd-yuvası yoxdu: bir yanda Daşkənd görünür,





o yanda Berlin. Bir tərəf Pirquludu, o tərəf Qobustan...Dostlar da ki, maşallah, şair Musa Yaqub, yazıçı Mövlud Süleymanlı...

Ey gidi dünya, heç belə aşığın da sazını əlindən almaq olar? Amma Mahmud Ələsgəroğlu da hər faniyə, ötəriyə dil tökən deyildi. Tutduğundan beşəlli yapışanlardan fərqli olaraq, elə hey dinib belə deyirdi:

Yaxşı-yaman qanmayana,
Düz söz qeylü-qal görünər.
Axirəti anmayana,
Fani dünya bal görünər.

Ömür möhləti erkən qırılsa da, vidalaşmağı lap naqəfil olsa da, aşıq axır sözün qabaq deyə bildi. Özündən sonra qoyub getdiyi bir dünya ilə fürsət tapıb bəri başdan halallaşdı, vidalaşdı da:

Sənlə ötüb gəncliyimin xoş anı,
Ötkəmli, hünərli vaxtlarım hanı?
Getsə də burdadı Mahmudun canı,
Salamat qal, salamat qal, salamat!

*fevral – 2004*

# Allahın əsir mələyi

*Əzizim balabanı,*
*Asta çal balabanı.*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?*

Günahımızdan keç, necə deyim – özüm səni bağışlaya bilmirəm. Belə ana-balalıq olar? Gün göylə bir olan kimi hamı varını-yoxunu yığıb qaçır anasının üstünə. Biz də dilucu dəvətə gül olub bitirik onların böyrünə, çatdığımız yerdə də qonaq kimi qısılırıq künc-bucağa... Heç deyirsənmi, hamının balası gəldi, bəs mənim balam hanı?

Nə dirimiz diridəndir, nə də ölümüz öləndən. Ayağı üstə getməyəni çiyni üstə aparıb verirlər olub-qalanının, öz doğmasının qucağına. Bir yol deyirsənmi, harda öldünüz, harda itib-batdınız?

Bu gözlü çıxanlar kirimirlər: "Qaçqınlar belə geyinir, belə ev-eşik qurur..." Dinmirsən ki, onları paltarsız, ev-eşiksiz dünyanın hansı vaxtı görmüşdünüz elə? Taleyin, ömrün-günün acığına min-bir əziyyətlə başa gələn bu tikililər gendən görünür. Amma yanıb-yaxılan ürəklərin bir udum hava arzusundan xəbər tutan yox. Qoyub gəldiklərindən yaxşısını tikənlərə elə gəlir, hər şey ocaqla başlanır. Ocaq oldumu-başına bütün itənlər yığılacaq, "Alazan"ı qapısına buraxmayan arvadı, postda papirosunu söndürməyə macal tapmayan balası da dədə ocağını tapıb, tanıyıb qayıdacaq. Gedənin qayıtmağı olurmu?

Bir ömür yaşayıb bir dünya dua eləyən bu Yerin ağsaqqalı, yarısının da atası indi-indi haqq yoluna gəlir, ürəyi Polşanı istəyir. Barı Papa indi bizim dərdi anlayırmı? Dünyanın bu vaxtında, zamanın təzə yüzilində, təzə erasında doğulduğu yerə gedə bilməyənlərin, ən əzəli, ən insani bir haqqı əlindən alınanların ürəyini bu məşhur Allah adamı heç olmasa indi oxuya bilirmi? Bütün bunları





görmürsə, duymursa, onda çağdaş sivil, təzə dünya ta hansı əyrisini düzəldir belə?

Təzə doğulanlar nə düzür, nə düzəldir – bilmirik, amma söz dədələr deyəndir: düz düzdə qalır. Düzük, düzdəyik!

Azərbaycanın birləşməsi, həmişə də bir olması üçün Şah babamız neçə yüz il öncə Araza bir bənd salıb – Xudafərin! Di gəl, bu körpünün də taleyi tərsinə düşüb. Tale deyilsə, onda ayrılıq bu Xudafərinin bir tərəfindən niyə buz kimi elə hey asıla qalıb? Bir ucunda buz qırılan kimi o tayı soyuyur. Uşaq vaxtı Dirili Qurbaninin məzarının başına dolanıb üzü Güneyə dönəndə üşüyürdük, indi gözümüzün Xüdafərindən Quzeyə baxması üçün qapı-qapı düşməli, gəzməliyik...

Gözümüzün görəcəyi onsuz da bir vaxt gördüyü deyil. Bizim Kürd Əmiri, Qorxmaz Bayramovu, Xurşudu... əcəl aldı, yer gizlədi. Hərəmizin ürəyi boyda olan Vətəndən amma bir tük də əskilməyib – orda Xurşud dayı yenə şipşirin nəfəsi ilə qara zurnanı dindirir, suların ən durusu yenə Çinardan axır, Qurban Təpə təzə təbiət qurbanlarını başına yığır. Ziyarətin buz papağı hələ də ərimir, Araz dəliliyin yerə qoymur, Hacı Qaraman ocağı əl tutmaqdan yorulmur... Ürəyin torpağını işğal eləməyə hansı düşmənin gücü yetər?

Cəbrayıl – Allahın əsir mələyi, Azərbaycanın işğal ərazisi, Xudafərinin bu tayı... O vaxt peyğəmbərimizə vəhy gəlib ki, cənnət anaların ayaqları altındadır. Səndən ayrılalı, iki dünyanın ikisində də ayağının altını axtarırıq... Hələ tapdım deyən tapılmır-eşidirsənmi?!

*avqust – 2002*

# Nəsrimizin "Balıq-adam"ı

Nəsr yazmaq həmişə çətin olub. Doğrudan da, uzun müddət "birinci cümlə" axtarışına çıxmaq, onu tapandan sonra da saatlarla yerində oturub davamını düzüb-qoşmaq, yüzlərlə nöqtə-vergül-qoşa nöqtə qoymaq asan iş deyil. Elə ona görə də anadan şair doğulanlardan fərqli olaraq, nəsrə gələnlər getdikcə azalır. Şeiri ilhamın, verginin, hissin-həyacanın ayağına yazmaq olar, amma nəsr fəhləlikdir! Dünən də beləydi, bu gün də. Sabahın bu aksiomaya təzə bir "nırx" qoyacağı da hələ inandırıcı görünmür. Bu gün az qala hamının özünü bəy saydığı bir vaxtda belə fəhləlikdən – nəsr yazmaqdan qorxmayanlar barmaqla sayılır. Son vaxtlar (müsəlmanın dünəni), daha doğrusu, ötən yüzilin 90-cı illərindən ədəbiyyatımıza gələn Elçin Hüseynbəyli fəhləçilikdən utanmayanlardan inadkarlığı ilə seçilir. Nəsr onu hansı cığıra yönəldirsə, gözünü qırpmadan özünü ora vurur. Daşlıqdan, tikanlıqdan, çil-çamurdan ürpənməyən yazıçının inadkarlığı ədəbiyyatın da xoşuna gəlir, deyəsən. Ilin-günü bu vaxtında sözlə evcik quranlara ədəbiyyat da həsrət qalıb, oxucular da. Ona görə Elçin Hüseynbəylinin bir-birinin ardınca işıq üzü görən istər hekayələri, istərdə də pyesləri maraqla izlənilir. Ilk nəsr kitabını – "Rəqs edən oğlan"ı cəmi bir neçə il əvvəl oxuculara təqdim eləyən yazıçının artıq ikinci nəsr toplusu ədəbi ictimaiyyətin ixtiyarına verilib. O vaxt biri "Rəqs edən oğlan"ın ədasını bəyənmədi, başqası danışığına dodaq büzdü, əslində isə bu "ən böyük və ən gözəl məğlubiyyət" elə hamının ürəyindən oldu. Tənqidçilər təhlil üçün obyekt, yazarlar döyüşmək üçün rəqib, oxucular da vaxtı öldürmək üçün həmsöhbət tapdılar. Bu da o! Sadəlövh olduğu qədər ağıllı, reallıqla çox yaxşı yola gedən, sentimentallığından utanmayan nağılçımız indi də "Balıq-adam"a dönüb. Ona qoşulanları gah "Tut ağacı boyunca..." çəkib aparır, gah "Qurdun sərgisi" ilə tovlayır. Kefi kökələndə, ona qulaq asanı görüb həvəslənəndə də təzə nağılına başlayıb and içir.





And içir ki, ondan başqa heç kim belə "Mehriban cəllad"ı, "Kələ"ni, "Dahi"ni görməyib. Özünə, nağılına inanan bu "kənd uşağı"nın söhbətlərinə gah gülə-gülə, gah nostaljiylə, gah da həsrətlə qulaq asırsan, elə təzəcə deyilənlərə inanmaq istəyirsən ki (elə həvəslə danışır, ona şəkk gətirmək də olmur), göydən üç alma düşür.

Səhnələr, qəhrəmanlar tanış olsa da, nağılçının gücü heç kimin eşitmədiyi sözləri eşitməyi ilə də yox, onları qələmə almağı ilə ölçülür. "Rəqs edən oğlan"dan "Balıq-adam"a çevrilən Elçin Hüseynbəyli bu dəfə daha səmimi, daha koloritli, daha şirindillidir. Ürəyi bir az da yumşalıb, xatirələrin göz yaşı bir az da çoxalıb. Bu nağılçının xatirələrinin dadını-duzunu yoxlamaq, yalan-gerçəkliyini axtarmaq istəyirsinizsə, yolunuz bir az uzun olacaq. Axı, onun yeni kitabı iki romanı ilə başlayır. Yolunuz qısa olmasa da, darıxmağa vaxt olmayacaq, əsası yol yoldaşını seçməkdir. Təkcə dost-qardaş yox, elə yazıçı da yolda tanınar. Bunu bilmirdiniz? Bəs onda niyə nasirlərin sayı həmişə saylarından da az çıxır?..

*aprel – 2004*

# Burzu Əliyev: "Ukraynada Azərbaycan Qafqazın lideri kimi tanınır"

Dosye: *Burzu Xanqulu oğlu Əliyev 1965-ci ildə Azərbaycanın Ağdam rayonunda anadan olub. 1993-cü ildə Kiyev Politexnik İnstitutunun informatika və hesablama maşınları fakültəsini, 1999-cu ildə Kiyev Magellan Akademiyasının Beynəlxalq Biznes Məktəbini bitirib. Beynəlxalq iqtisadçıdır. Ukraynanın "ACME" şirkətinin maliyyə departamentinin rəhbəri vəzifəsində çalışıb. 2008-ci ilin 13 fevralında Ukraynanın yanacaq və energetika nazirinin müavini təyin edilib. Ailəlidir, iki övladı var.*

– Ukraynaya nə vaxt köçmüsünüz?

– 1983-cü ildə bu ölkəyə hərbi xidmətə gəldim. Daha sonra burda qalıb, ali təhsil almağa qərar verdim. Sonra təyinat aldım, işim, karyeram oldu, ailə həyatı qurdum. Bir də gördüm ki, artıq ukraynalıyam. Hər halda, bu, bir alın yazısıdır.

– Karyeranıza necə başlamısınız?

– Burda tələbə vaxtından işləmişəm. Vaqonlardan yük boşaldırdım, çünki yaxşı oxuduğum kimi, yaxşı da geyinmək istəyirdim. İnstitutu bitirəndən sonra isə ixtisasım üzrə ən müxtəlif vəzifələrdə çalışmışam. Deyə bilərəm ki, öz sahəmdə peşəkaram. Mən Ukrayna torpağına ayaq qoyandan özümü bu ölkənin vətəndaşı saymışam. Sevinirəm ki, müstəqil Ukraynanın ilk vətəndaşlarından biri də mən olmuşam.

– "Bizim Ukrayna" Partiyasına nə vaxt qoşulmusunuz? Prezident Viktor Yuşşenko ilə şəxsi tanışlığınız varmı?

– Prezident Viktor Yuşşenko ilə qiyabi tanışam, mən onu təbii ki, dövlət başçısı kimi tanıyıram, o da mənim iş adamı olduğumdan xəbərdardır. Mən hələlik heç bir partiyanın üzvü deyiləm, amma "Bizim Ukrayna" Partiyası ilə çoxdan əməkdaşlıq edirəm.





– Vəzifəyə təyinatınız necə gerçəkləşdi? Bu postu Sizə kim təklif etdi?

– Ötən il parlament seçkilərində "Bizim Ukrayna Xalq Özünümüdafiə" Blokundan namizədliyim irəli sürülmüşdü. Parlament seçkilərindən sonra bu blok hazırkı baş nazir Yuliya Timoşenkonun partiyası ilə parlament seçkilərindən sonra koalisiya yaratdı və yeni hökumət qurdu. Mənə də yeni hökumətdə təmsil olunmaq təklif olundu və razılaşdım.

– Nazir müavini kimi Ukrayna ilə Azərbaycanın daha da yaxınlaşması üçün hansı addımları atmağı düşünürsünüz?

– Ukrayna və Azərbaycanın xalqları bir-birinə çox yaxındır. Ukrayna o ölkələrdəndir ki, Azərbaycana münasibəti birmənalıdır. Üstəlik, GUAM çərçivəsində bu ölkələr sıx əməkdaşlıq edir. Azərbaycan Dövlət Neft Şirkətinin Ukrayna ərazisində neft emalı zavodunun tikilməsi ideyası çox müsbət qarşılanıb. Mən 21 departamentə məsulam. Bu, olduqca ağır yükdür. Bircə onu deyə bilərəm ki, Ukrayna-Azərbaycan hökumətlərarası əlaqələrinin inkişafında əlimdən gələni edəcəyəm.

– Prezident Yuşşenko Qara dəniz regionu ölkələrinin əməkdaşlığında "dondurulmuş münaqişələr"in həllinin vacib olduğunu bildirib. Belə münaqişələrdən biri də Dağlıq Qarabağ müharibəsidir. Siz bu münaqişənin həllini necə təsəvvür edirsiniz?

– Azərbaycan regionda xüsusi çəkisi olan ölkədir. Şərqi Avropada bu ölkə Qafqazın lideri kimi tanınır. Müasir dünya iqtisadi inkişaf dünyasıdır. Azərbaycan məhz bu yolu tutub. Azərbaycan iqtisadi cəhətdən gücləndikcə onun ordusu da güclənəcək. Bu baxımdan, Azərbaycan prezidentinin apardığı siyasət doğrudur, mən onun mövqeyini dəstəkləyirəm.

– Azərbaycanla bu gün əlaqələriniz necədir? Vətəndə dostlarınız varmı?

– Azərbaycanın bütün vətəndaşları mənim dostlarımdır. Təyinatımla bağlı məni təbrik edən bütün soydaşlarıma təşəkkürümü bildirirəm. Doğma Vətənimlə bağlı bütün informasiyaları izləyirəm. Evimdə Azərbaycan telekanallarına baxmaq imkanım var. Dünya Azərbaycanlılarının I qurultayının nümayəndəsi, II qurulta-

yının fəxri qonağı olmuşam. Azərbaycanın iqtisadi, siyasi inkişafı məni çox sevindirir.

– Eşitdiyimizə görə, muğamı çox sevirsiniz. Evdə, maşında daim muğama qulaq asırsınız...

– Görünür, bu sevgi mənə doğulduğum torpaqdan keçib. Muğamı dünya musiqisinin incisi sayıram. Sevmədiyim muğam ustası yoxdur, hətta Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən muğam müsabiqələrinin bütün proqramlarını izləyirdim. Unudulmaz xanəndə Səxavət Məmmədovun bütün ifalarını toplu halında nəşr etmək fikrim var. Bu, Səxavətin 55 illik yubileyinə bir hədiyyə olacaq. Azərbaycan ədəbiyyatı ilə də maraqlanmağa vaxt tapıram. Bir vaxtlar Bəxtiyar Vahabzadənin şeirlərini əzbər bilirdim. Hazırda Qulu Ağsəsin "Toçki" şeirlər kitabını oxuyuram. Buradakı həmkarlarıma da onun kitabını paylamışam.

– Sizin Ukraynada yüksək vəzifəyə təyinatınız iki ölkənin münasibətlərində və enerji sektorunda hansısa müsbət dəyişikliklərə səbəb oldumu?

– Təyinatım hər iki ölkədə rəğbətlə qarşılansa da, buna qısqanclıq edənlər də tapıldı. Dəyişikliklərə gəlincə bir çox ikitərəfli layihələrin gerçəkləşməsi üçün danışıqlar aparılır və qarşıda perspektiv var.

– Ukrayna müxalifətinə münasibətləriniz necədir, Viktor Yanukoviçlə tanışlığınız varmı?

– Viktor Yanukoviçlə tanışlığım yoxdur. Hazırda Ukrayna hökumətinə müxalif mövqedə olanlara da birmənalı şəkildə düşmən kimi yanaşmıram. Hökumətin bütün uğurlarını heçə endirən müxalifətçilərin mövqeyi ilə razılaşmasam da, onların arasında da Ukraynanı həqiqətən sevən adamlar çoxdur. Siyasi mövqeyindən asılı olmayaraq, Ukraynanı sevən, onun mənafeyi naminə çalışanların hamısına hörmətlə yanaşıram. Eyni zamanda, dəfələrlə bildirmişəm ki, bugünkü hökumət nümayəndələri arasında da tez-tez mövqeyini dəyişən və başqa maraqlara qulluq edənlər var. Bütün bunlar isə Ukrayna hökumətinin vahid komanda kimi fəaliyyətinə imkan vermir.





– Qafqazda baş verən siyasi prosesləri iqtisadi layihələr üçün təhlükə hesab edirsinizmi?

– Qafqazda yaşanan gərginlik zamanı dinc vətəndaşlar arasında ölən və yaralananlar, ərazidə dağıntılar olsa da, kəmərlərin təhlükəsizliyi qorundu. Ona görə ki, bu iqtisadi layihələrdə ABŞ başda olmaqla hegemon dövlətlər təmsil olunur. Kiminsə bu layihəyə qarşı çıxması, kəmərin təhlükəsizliyini pozması dünyaya meydan oxumaq olardı. Əlbəttə, Rusiya maraqlıdır ki, Xəzər dənizi hövzəsinin neft və qazının Avropaya nəqlinin mərkəzində dayansın. Ukraynanın təklif etdiyi "Bəyaz axın" layihəsində isə belə mərkəzçi qüvvə yoxdur.

– Ukrayna ilə Azərbaycan arasında hansı layihələrin həyata keçirilməsi nəzərdə tutulur?

– Biz maye qaz layihəmizi təklif edirik. Eyni zamanda, Odessa-Brodı neft kəməri layihəsi ilə bağlı danışıqlar davam etdirilir. Azərbaycanın Qafqazdakı aparıcı mövqeyi danılmazdır. Bu ölkə tarixən bölgədəki siyasi-iqtisadi layihələrin mərkəzində olub, bu gün də belədir. Mən Azərbaycan mətbuatını və televiziyasını müntəzəm izləyirəm. İmkan olduqca vətənimi ziyarət edirəm. Gördüyüm mənzərə belədir: abadlıq, inkişaf və siyasi sabitlik. Azərbaycan güclü inkişaf edir, iqtisadi-siyasi baxımdan güclənir. Azərbaycanın da Avropaya inteqrasiya yolunu tutması faktdır. Sevinirəm ki, aparılan uğurlu siyasi xətt sahəsində bu faktdan başqalarını qıcıqlandırmaq məqsədi ilə istifadə olunmur.

*2008*

# Məcnunun monoloqu

...Biz bu həyatda kirayənişin kimiyik, hamımızın son mənzili bir qarış torpaqdır. Çox vaxt torpaq bizimdir deyirik, amma torpaq insanın ola bilməz. Gec-tez biz torpağın oluruq. Bu yay muğamımızın ən nəhəng sütunu olan Yaqub Məmmədovu itirdik. Allah ona təbii bir səs, istedad vermişdi. Bu səsi, ifası ilə son nəfəsinə kimi xalqına xidmət edən ustad sənətkarı son mənzilə yola salmağa gəlməyi çoxları unutmuşdu. Yaqubdan böyük oxuyanımız vardı? Amma mən onun dəfnində böyük sənətkarlardan, tanınmış sənət yoldaşlarından Arif Babayevlə Canəli Əkbərovu gördüm. Yay mövsümü olduğu üçün bəlkə istirahətdə olanlar çox olub? İstəmirəm, kimsə fikirləşsin ki, Mənsum İbrahimov bu suallarla sözü hara çevirir, düzü, kimin harda olduğunu deyə bilmərəm. Amma o dəfn mərasimində, sənətkarını son mənzilə yola salan sənətsevərlərin arasında Yaqubun yaşdaşlarının yeri görünürdü. Bu son tale, belə axır hamını gözləyir. Amma hər doğulan, hər oxuyandan Yaqub Məmmədov olmaz. Beləlləri hər vaxt doğulmur...

* * *

Ciddi sənətkarlar ad almaq, reklamla ucuz şöhrət qazanmaq üçün çalışmırlar. Onlar uşaqlıqdan bağlandıqları, sehrinə düşdükləri sənətə bir xidmət göstərmək istəyirlər. Bu təmənnasız xidmətin xalq, dövlət tərəfindən qiymətləndirilməsi hər sənətkarı sevindirir. Adam zəhmətinin hədər getmədiyini görəndə sevinir. Bu dövrdə şouların baş alıb getdiyi bir vaxtda ciddi sənətin, sənətkarın qiymətləndirilməsi sevindirici haldır. Əslində, bu sərəncamlar muğamımızın, xalq mahnılarının qorunub saxlanmasına xidmət edir. Həm də bizdən sonra gələn nəsil əsil sənətə, sənətkarlara qiymət verildiyini görür. Sənət bir nəsillə qurtarmır. Mənə dərs veriblər, mən də can-başla öyrədirəm. Sənəti qorumağın, yaşatmağın ayrı yolunu mən bilmirəm...





* * *

Müharibə apardığımız bir vaxtda dövlətdən elə hey nəsə istəməyin əleyhinəyəm. Bir də görürsən deyirlər ki, dövlət bayağı musiqiləri niyə qadağan eləmir? Mənə elə gəlir ki, qadağa sistemi çıxış yolu deyil. Senzurayla biz heç nəyə nail ola bilmərik. Sadəcə olaraq, tamaşaçıya seçim ixtiyarı vermək lazımdır. Bayağı musiqiləri, ara müğənnilərini gecə-gündüz təbliğ edən, onların arıqlamağından, kökəlməyindən danışan özəl kanalların günahından gərək mətbuat işçiləri, ziyalılar danışsın. Qəzet səhifələrində hay-küy salan ziyalıların çoxu övladlarının toyuna beləlləri çağırırsa, dövlət neyləsin?

***

Gözümüzü açıb muğam gördüyümüzə, onunla tərbiyə olunduğumuza görə biz muğamı çox sevirik. Amma bugünkü nəsil küçə mahnıları ilə tərbiyə olunur. Oriyental rəqsləri kim tapır, necə üzə çıxarır, niyə yayır? Belə rəqs eləyənlərin xalqımıza, sənətimizə dəxli yoxdur axı! Keçmişdə kef məclislərində şahların tək-tük belə oynayanı olub. Yaxşı ənənələri heç götürmürük, üzr istəyirəm, belə göbək rəqslərini nə tez günümüzə gətiririk? Özü də bu rəqslər Türkiyədə qadağan olunub. Amma bizdə keçən il bir nəfər idisə, bu il çoxalıb, bəs gələn il onların sayı nə qədər olacaq? Efirdən yayılan təbliğatla hələ formalaşmayan qızları yoldan çıxarırlar. Qız-gəlinlərimizin əsir olan vaxtı bizə bu göbək rəqsi lazımdır, yoxsa vətənpərvərlik musiqiləri, milli marşlar?

* * *

Sənət adamları barış elçiləridir, mən də haqqın, sülhün tərəfdarıyam. Savaşlar dünyanı dağıdır, parçalayır, könülləri yaralayır, sənət adamları birləşdirir, yaraları sağaldır... Əbədi müharibə yoxdur! İstəmədən qatıldığımız bu müharibə də nə vaxtsa qurtaracaq, amma mənəviyyatımıza vurulan zərbələr bizə çox baha başa gələcək. Çünki mədəniyyət üçgünə-beşgünə yaranmır. Bir ucdan xalq mahnılarımızı dəyişib guya aranjiman edirlər. Guya belə daha asan başa

düşülür. Yüzillərdir yaşayan “Apardı sellər Saranı”, “Qarabağın maralı” bu günün özündə də eşidənin ürəyini ələ alır. Bu aranjimanla əslində mahnılarımızı pis günə qoyurlar. Muğamı həmişə ruhu olanlar sevib. Ruhun ifadəçisi olduğu üçün də muğam bəşəri bir musiqidir. İndi hamını düzəlişsiz-filansız əsl xalq sənəti maraqlandırır. YUNESKO-nun xəttiylə muğamlarımızı tədqiq eləyən fransız qonağımız Jan Dürinq bizim dildə çox gözəl danışır, xalq sənətimizə pərəstiş edir. Əgər bizim musiqini fransız tədqiq eləyirsə, dilimizdə dinləyirsə, onda xalqın yaratdığını kimin üçün dəyişirik?

* * *

Muğamın altı min il yaşı var, o dəbdə olan bir mahnı deyil ki, unudulmağından qorxaq. Bu mahnılar xalqın ruhuna hopub, özünə əbədi bir yuva qurub. Bu mahnılar unudulmazdır, amma kimlərinsə repertuarında onlar unudula bilər... Efirdə, ekranda xalq mahnılarımızı unutmaqla elə bil milli ənənələrimizi, Qarabağımızı bizə unutdururlar. Qarabağ bizim sənətin səs muzeyi idi. İndi o torpaq yoxdur. Elə bilirəm, muğamımızın tacı oğurlanıb. Qarabağsız bu gün muğamımız da yetim qalıb. Üzeyirin, Xanın, Cabbarın ruhu narahatdır, havada da özünə yer tapa bilmir. Gözəl səs üçün biz birinci Allaha, ikinci torpağa borcluyuq. Muğam hər cəhətdən nümunədir, özü də muğam ağlaşma yox, fəlsəfədir. Muğam ən adi insanları da düşündürür. Muğam ruhun təntənəsidir. Ona görə də ruhu olmayan muğama qulaq asa bilmir.

* * *

Özümdən heç vaxt razı qalmıram. Axşam tamaşada oxuduğumu səhər oturub fikirləşəndə bəyənmirəm. Təbii, yaradıcılıq insanın ovqatından asılı olur. Əzbərçi uşaqlara oxşayan sənətkarlar da var. Həmişə kökdə olur, elə bir axarda oxuyurlar. Məşq öz yerində, amma mən çərçivəni xoşlamıram. Çərçivədən qaçanda hər dəfə nəsə təzə bir şey yaranır. “Leyli və Məcnun”un elə səhnələri olub ki, mən özümü bir çəkisizlikdə hiss etmişəm. Onda hara getdiyimi,





nə elədiyimi heç bilmirəm. Allah Üzeyir bəyə rəhmət eləsin. Məcnunun paltarını hər geyinəndə, mənə bir həyəcan gəlir. Bu həyəcandan yorulmaq nədir, inanın ki, “Leyli və Məcnun”dan doymaq olmur. İlk baxışda iki gəncin sevgi əhvalatı kimi görünən bu əsərdə Füzuli fəlsəfəsi ilə Üzeyir musiqisi bir-birinə qovuşub sirli bir sənət yaradıb. Bizi səhnəyə aparan, tamaşaçıları səhnənin ətrafına toplayan bax, bu ovsundur. Bu möcüzə ifaçını da, tamaşaçını da Məcnuna çevirir...

*avqust – 2002*

## Son yazı

Əsgərova Salatın Əziz qızı. 16 dekabr 1961-ci ildə Bakıda doğulub. 1984-cü ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirib. Jurnalistikaya həvəs göstərib, müqavilə ilə "Bakı" qəzetində, sonra da "Azərbaycan gəncləri" qəzetində çalışıb. Qarabağ problemi, Azərbaycanın bütövlüyü uğrunda mübarizə son dövrdə yazılarının başlıca mövzusuna çevrilib.

9 yanvar 1991-ci ildə Qarabağ bölgəsinə növbəti ezamiyyət zamanı həlak olub.

Bu qısa cümlələrə, quru faktlara dönə-dönə göz gəzdirirəm... Soyuq bir qış günü doğulub, bir qış günü də dünyamızdan ayrılıb... Cəmi 30 il yaşayıb... Amma ömür təkcə üst-üstə yığılan illər deyil...

* * *

– Həmişə tələsirdi, məni də 6 yaşında məktəbə qoymuşdu ki, qoy tez getsin məktəbə... Mən 1984-cü ilin 5 iyununda doğulmuşam. Anamı itirəndə 7 yaşımın içində idim. Onunla bağlı xatirələrim 5-7 yaşımı əhatə edir, ondan əvvəl yadıma gəlmir...

– Nəyi xatırlayırsınız?

– Bir ara kitabxanada işləyirdi, məni özü ilə aparmağı yadıma gəlir... İki diktafonu vardı, biri gümüşü, o biri qara. Deyirdi ki, qaranı sənin üçün saxlayıram... Mənim də jurnalist olmağımı istəyirdi...

– Bu qara diktafon da Sizin taleyinizi jurnalistikaya yazdı?

– Jurnalist olmaq istəmirdim. Mən həkiməm. Jurnalistkaya lap təsadüfən gəldim...

– İndi ən qaynar nöqtələrdə görünməyiniz, son İsrail-Fələstin münaqişəsi ilə bağlı reportajınız da adi təsadüfdür?

– Bilmirəm...

– Ananız cəbhə bölgəsində həlak olub. Bu fakt heç qorxutmur Sizi?

– Düzü, adam cəbhəyə gedəndə ölüm haqqında heç düşünmür...





* * *

Bunu Ceyhun deyir, bir vaxt Salatın Əsgərovanın 7 yaşlı balası, indi həmkarı olan Ceyhun Əsgərov xatırlayır ki, anası həmişə tələsirdi...

O tələsirdi! Yazmağa, yaradıcılığa, Azərbaycan mətbuatında öz yerini tutmağa tələsirdi. Dərddən qaçmağa yox, dərdləri azaltmağa çalışan bu gənc, yaraşıqlı qadın öncə cəmiyyətin sosial çağırışlarına tələsirdi... Amma adamı torpaq da çağırır! Bu çağırışdan can qurtarmaq üçün iş-gücün, ev-eşiyin, gündəlik qayğıların arasında başını gizlədənlər də var, özünü aldatmağa gücü çatmayanlar da... O özünü aldada bilmədi, eşitdiyi səsin arxasınca birbaşa Vətənin sərhədinə qaçıb, balalarını nakam qucaqlayan torpağa həyan olmaq istədi. Ağı deyən yaralı torpağından eşitdiklərini yazıya gətirdi, işğalla üz-üzə dayanan Azərbaycanın həqiqətini, dinc əhalinin, qocaların, anaların, uşaqların haqq səsini yazıya çevirməyə, üzə çıxarmağa, yaymağa tələsdi...

Tələsdiyindən ezamiyyətinə də vaxtından əvvəl yollanır... Yox, Salatın ölümə getmirdi, Qarabağa gedirdi. Adına əsgər deyilən bu oğullar da Ölüm üçün yox, təpədən-dırnağa qədər silahlı düşmənlə üz-üzə qalan, əliyalın, köməksiz, doğma Qarabağ uğrunda döyüşürdü, amma hamı çaşqın idi. Gözümüzün qabağında nə baş verdiyini heç özümüz də anlamırdıq: illərlə yanaşı yaşadığımız ermənilər ta Azərbaycan vətəndaşı olmaq istəmirdilər. Onlar Ermənistan vətəndaşlığını arzulayır və... özləriylə torpağımızı aparırdılar. Bəli, bəli, adı daşınmaz əmlak olan Torpağı ermənilər Ermənistana daşıyırdılar... Qarabağımız azalırdı, azaldıqca da bizdən uzaqlaşırdı... Cəbhə bölgələrinə ardıcıl səfərlərində Salatın bunu duyurdu, ona görə də tələsirdi, hiss etdiklərini, gördüklərini, eşitdiklərini mətbuata gətirməyə, bizi – soydaşlarını xəbərdar etməyə, SOS-u səsləndirməyə, Azərbaycan həqiqətinə göz yuman Dünyanı silkələməyə, diksindirməyə tələsirdi... 1991-ci ilin yanvarında Laçına ezam olunmuşdu, ayın 9-da isə Şuşaya tələsirdi... 1991-ci ilin 9 yanvar günü Laçın-Şuşa yolunun 6-cı kilometrliyində, Qaladərəsi kəndi yaxınlığında jurnalisti mühafizə edən rus hərbçiləri ilə birgə Şuşaya tələsən maşın Ermənistan silahlı qüvvələrinin mühasirəsinə düşür və hamısı güllələnir...

* * *

"Yadımdadı... 6 yaşım vardı. Nənəgildəydik, baham anama hirslənmişdi, qışqırırdı... Deyirdi ki, getmə, müharibədi... Anam da dirəşmişdi ki, gedəcəm! Mən getməyim, o getməsin, bəs kim getsin? Nənəm gördü ki, babam bacarmayacaq, məni öyrədirdi ki, qoyma getsin, buraxma ananı... O evdən çıxanda ağlaya-ağlaya qapıda dayandım ki, qoymuram, getmə... Məni tovladı ki, gələndə sənə onu alacam, bunu alacam, qorxma, tez qayıdacam...

...Həlak olduğunu həmin gün bildim... Evə adamlar yığışmışdı... Qəzetdə şəklini görüb başa düşdüm...

İndi xatırlayıram ki, ölümündən sonra onun əl çantasını bizə gətirib verdilər. Bloknotunda qeydi vardı ki, mən bir maşın tapıb gələcəm. Ola bilsin ona teleqram göndərib. Rus polkovniki ilə müsahibəyə tələsirmiş. İndi düşünürəm ki, bəlkə elə bu görüşü əngəlləmək üçün ona belə bir pusqu qurulub..."

* * *

Salatın Əsgərova rus zabiti Oleq Larionovdan müsahibə almağa tələsirdi. Dünyanın sonuna getmirdi, Əfqanıstana, İraqa, Fələstinə... getmirdi, Şuşaya gedirdi... Öz Şuşamıza, öz yurdumuza. Niyə ağlına ölüm gəlməliydi ki?

Onu tanıyanın-tanımayanın təəssüfü, kədəri heç nəyi dəyişmədi... Biri "kaş tez qayıdaydı", digəri "kaş heç getməyəydi..." dedi... Onun niyə qayıtmadığını bilmirəm – bu, terrordu, taledi, çərxi-fələkdi...

Amma niyə getdiyini anlayıram. İnanın (dostlar bilir), adamı yazı özünə sarı elə bir güclə çəkir ki, ona qarşı dayana bilmirsən. Ataya, anaya, balaya... lap həyata qarşı da dayana bilirsən, amma YAZIya qarşı yox. Bunu bütün yazanlar bilir. Dünyanın hər yerində yazanlar belə yazır. Gendən baxanda birinə parlaq, digərinə anlaşılmaz görünən jurnalistika əslində elə budur: ölə-ölə yazmaq, yaza-yaza ölmək! Hələ heç bir jurnalist bu taledən sağ çıxmayıb! Nə olsun ki, birimiz 25 il yaşayırıq, o birimiz 30, 35...75 il...

Salatın Əsgərovanın Bakı-Laçın-Şuşa yazısı yarımçıq qaldı... Son yazısını özü yaza bilmədi... Əgər bu dünyada bütün yazıları Yazı adamları yazsaydı, onda yaşamağa nə vardı ki...





* * *

"Bir dəfə Gəncəyə getmişdik, bahalı vazalar satılırdı, nadinc uşaq idim, qəfil əlim dəydi, sındı, 3500 rubl dəyərində idi. Mənə bir kəlmə də ağır söz demədi. Vazın dəyərini hər ay anamın maaşından çıxırdılar..."

* * *

"Kitab oxumağı sevirdi. "Kitab oxumayan insan yaxşı insan ola bilməz"– deyirdi. Onun dünyagörüşünü kitablar formalaşdırmışdı, bu dünyagörüş də onu yaradıcılığa gətirdi...Həkim ailəsində böyüsə də, texniki fənlər üzrə təhsil alsa da, mütaliəsi, yazıya, yazılana aludəsi onu yaradıcılığa cəlb edirdi...Əvvəl sosial mövzulu yazılara üstünlük versə də, sonra Qarabağ müharibəsi, onun səbəbləri, əsgərlərin vəziyyəti, cəbhə bölgəsində yaşayanların qayğıları onun yazılarında əks olunurdu..."

* * *

...Jurnalist Salatın Əsgərova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Yaxınlığında qətlə yetirildiyi kəndə adı verilib... Getməsək də, görməsək də, bilirik ki, Qarabağda bir Salatınkənd var...

Yazını hazırlayanda "ELS" Araşdırmalar Mərkəzinin milli qəhrəmanlarımız barədə məlumatı da diqqətimi çəkdi: Azərbaycanın 209 Milli Qəhrəmanı var. Onların arasında ikisi qadındır: Salatın Əsgərova və Gültəkin Əsgərova. Çoxları onları bacı bilir... Biri yaralıların-xəstələrin, digəri cəmiyyətin SOS-larının arxasınca yüyürdü və... Taleyi eyni olan Əsgərova bacıları anaydı, hərəsinin bir balası qaldı...

* * *

Ceyhunla-həmkarımla söhbətim çətin olur: onun üçün danışmaq çətindir, mənim üçün soruşmaq. Sağollaşanda mənə elə gəldi ki, 25 yaşında bir cavanla yox, 19 il anasını gözləyən bir uşaqla söhbət etmişəm... Və qeyri-ixtiyari soruşuram:

– Ananı... yuxuda tez-tez görürsən?

– Yox, heç görməmişəm. Anam heç yuxuma girmir. Corc Buşdan Səddam Hüseynəcən hamı yuxuma girib, amma hələ bir dəfə də olsun onu yuxuda görməmişəm...

*2009*





# Unutmaq çətindi, gözəlim, səni...

Hər hansl sahədən söz düşəndə dünyagörmüşlərlə cavanların bir məqamda fikri üst-üstə düşür: əsas istedaddı! Bəli, bu sirli, gözəgörünməz, heç bir çəkiyə, ölçüyə slğmayan anadangəlmə qabiliyyətlərin əsas şərt olması yaşından asılı olmayaraq, hər kəsə məntiqli görünür. Elə ona görə də bu bircə kəlmə – istedad sözüylə bütün mübahisələrə yekun vurulur. Amma həyatın reallığı, gerçəklik sözdən-söhbətdən çox fərqlidir, orda ortaya çıxan çətinlikləri dəf etməyə təkcə istedadın gücü yetmir. Belə də deyəndə, sovet dövründə yaşayanlar etiraz edir, razılaşmır, nostalji hisslərinə qapılıb ötən-keçən anları yada salırlar: bizim vaxtımızda belə deyildi, ölçülər başqaydı. Mübahisə eləmək yersizdir, çünki bu fikir də nəsilləri bir-biriylə ortaq məxrəcə gətirir ki, indi sənətin yolları çox hamarlaşıb. Hətta bu yollar o qədər hamar olub ki, istedadsızlar da çətinlik çəkmədən irəliyə, önə keçə bilirlər. Onlar irəli keçir, möhkəmlənir, əsil sənət yolçuları isə bu süni tıxacdan, tünlükdən adlaya bilməyib yarıyolda qalırlar. Ya da mübarizənin mənasızlığını görüb taleyi dəyişməyə, çar-naçar ayrı yol axtarmağa başlayırlar. Başı taleyinə düzəliş eləməyə qarışan və beləcə səhnədən itkn düşən neçə sənətkarımız var bu gün? Çətin sualdır, onların sayını oturub xatırlamaqla tapmaq, bilmək olmur. İtkiləri qəfil bir xatirə, təsadüfi görüş yaddaşa qaytarır. Lap elə Yaqut Abdullayeva kimi...

Allah rəhmət eləsin hamısına, bir vaxt Şövkət Ələkbərova, Niyazi, Gülağa Məmmədov, Əbülfət Əliyev bölgələri gəzib-dolaşıb istedad, səs, bir sözlə sənətlərinə layiqli davamçı axtarırmışlar. Azərbaycanın ucqar bir rayonu olan Cəbrayılda da Yaqut Abdullayevanı bəyənib sənətə, oxumağa, dərs almağa, müəllim görməyə dəvət eləyirlər. Ustadların sözünü eşidib o da böyük ümidlərlə taleyini, həyatını incəsənətə bağlayır...

İllər öz işini görür, o da özünün: bir-birlərinə əsla mane olmurlar. Səsiylə xalq mahnılarını, segahları lentə yazdırır, xalq da onun mahnılarını ürəkdən, yanıqlı bir səslə, dədə-baba qaydasıyla oxuyan bu xanəndəni erkən bəyənir, ekranda-efirdə yolunu gözləyir...

İllər bir-birini əvəzlədikcə xalqın zövqü, fikri dəyişməsə də, sənətdə aləm bir-birinə qarışır... Bir də onda baxıb gördük ki, təkcə mahnılarımız, muğamlarımız yox, elə sənət adamları, sənət ölçüləri də improvizə olunub, sintez edilib. Dövrün, zamanın, sənətə təzə gələnlərin improvizə havaları Yaqut Abdullayevanın sümüyünə düşmədi, oynaya bilmədi, ona görə də meydandan könüllü bir qırağa çəkildi. Deyə bilərsiniz ki, Mədəniyyət və İncəsənət Universitetində dərs demək, cavanlara muğamları, xalq mahnılarını öyrətmək meydanın qırağı deyil. Qıraqdır, özü də səhnənin, sənətin, mikrofonun, səsyzma studiyalarının, tamaşaçı auditoriysının lap qırağı...

Bizim şou-biznes əhlindən və ya onlara qol-qanad verənlərdən kimsə bu yerdə etiraz eləyə bilər ki, sənətdə hər kəsin öz yeri var. Biz Yqut Abdullayevaya heç vaxt heç bir pislik eləməmişik, onun səsinə, sənətdəki yoluna qarşı çıxmamışıq. Amma belə deyil. Sənətə gələn hər istedadsız özüylə yeni danışıq üsulu, ekrana-efirə yol tapmaq qaydası, telekanalların musiqi proqramlarının cavabdehləri ilə dil tapmaq mexanizmi gətirdi. Onların təqdimolunma yolundakı bu sintez üsulları ciddi sənət adamlarını çaşbaş saldı, geri qaytardı. Bir vaxt ustadları Yaqut Abdullayevaya belə "çoxbilmiş" olmağı öyrətməmişdilər, ona görə də vaxtilə davamçı kimi ortaya çıxardıqları səhnənin yolundakı çağdaş maneələri keçə bilmədi.

"Biz o vaxt sənətə oddan keçib gəlirdik, indikilər isə xalıxalçaların üstündən adlayıb gəlirlər"– Yaqut Abdullayeva fikrini bircə cümlə ilə bildirməyə çalışıb duruxur...Onun yerinə isə hərdənbir dövlət televiziyasının gecənin bir yarısında efirə verdiyi "Xalq mahnıları" arasındakı "Nar ağacı, nar çiçəyi" mahnısı dinir. Arada vaxtilə lentə alınan bir-iki xalq mahnısı efirə verilir, hərdən də hansısa tədbirlərdə bir ağız oxumağına şahidlik edirik...

Qir-qiybətlə arasının yoxluğu isə mətbuata yolunu bağlayır. Dinməz-söyləməz müğənni jurnalistlərin nəyinə lazımdır? Gileylənmək? Onunku səsdir, fürsət düşən kimi giley-guzara vaxt itirməyib "Sarı bülbül"dən oxuyur, "Yar gəldi", "Unutmaq çətindi, gözəlim, səni" deyib həzin, kövrək səsiylə özünə, tamaşaçılarına təsəlli verir...

*iyun – 2004*





# Elçin: "İllər məni dəyişdirməyib"

– Hər yubiley insanın bir növ özü ilə hesabatı deməkdir. Bu gün Baş nazirin müavini vəzifəsində çalışan yazıçı Elçin 65 yaşın hesabatına hazırdırmı?

– Əslində, bu 65 rəqəmindən heç xoşum gəlmir, amma əlbəttə, vaxt öz işini görür. Mən bu yaşa qətiyyən yubiley kimi baxmıram. Amma hər ildönümünün də yekun olması bir həqiqətdir. Mən də gördüyüm və görmək istədiyim işlər haqqında düşünürəm və son bir ilin hesabatın aparanda yazı-pozu baxımından ömrümün bu ilindən razıyam. Bu bir ildə 3 pyes yazdım, onlardan biri – "Arılar arasında" Akademik Milli Teatrda tamaşaya qoyuldu, ssenarim əsasında çəkilən "Hökmdarın taleyi" filmi tamamlandı. Bu 65 ildə yazdığım əsərlərin əksəriyyətinin daxil olduğu 10 cildliyim nəşr olundu. Bu cildlərə daxil olan əsərlərin 80 faizi sovet dövründə yazılıb. Mən o dövrdə yazdıqlarımın nöqtəsinə-vergülünə toxunmadan oxuculara təqdim edirəm və bundan daxili fərəh hissi duyuram. Deməli, bu illər boyu mən ideologiyaya yox, ədəbiyyata xidmət etmişəm. İnsan yaşlandıqca gənclikdə ağlına gəlməyənləri düşünməyə başlayır. Amma elə insanlar da var ki, onların hissiyyatında bir sabitlik var. Mən də özümü o adamlardan hesab edirəm. Sırf hissiyyat baxımından illər məni dəyişdirməyib.

– Azərbaycan ədəbiyyatının və ədəbi mühitinin bugünkü mənzərəsi necədir?

– Ədəbi mühitin vəziyyətini ədəbi proses müəyyən edir. Deyə bilmərəm ki, Azərbaycanın çağdaş ədəbi prosesi məni qane edir. Hardasa 10 il əvvəl Azərbaycan ədəbi tənqidini və ədəbi prosesini çox kəskin tənqid edirdim və məndə bir bədbinlik vardı. Həmin bədbinlik hissi bu gün məndə yoxdur. Bugünkü ədəbi proses məni ən çox kəmiyyət etibarı ilə qane etmir. Yəni əgər bu gün 5 istedadlı tənqidçi fəaliyyət göstərirsə, 15 nəfər də istedadsız, ədəbiyyatı başa düşməyən, hiss etməyən, ədəbiyyatdan xəbərsiz adamlar bu ədəbi prosesdə iştirak edirlər. Ona görə də çağdaş ədəbi mühitimizdə çox ciddi savadsızlıq mövcuddur və bu çox pisdir. Ola bilsin ki, bugünkü

ədəbi mühitdə sağlam ədəbi mübahisə və ədəbi mücadilə çatışmır. Amma narahatlıq doğuran əsas məqam odur ki, bugünkü ədəbi mühitdə savadsızlıq üstünlük təşkil edir.

– Bəs ədəbi prosesdəki bu savadsızlığa yol açan nədir, istedadsızlıqmı?

– Savadsız, mütaliəsiz, dünyadan bixəbər insanların ədəbi prosesdə iştirakı çox pisdir, amma istedadsızlıq bir adamın yazıçı olmayacağına qarantiyadır. Əgər insanın istedadı varsa, bu fakt özözlüyündə hələ yüksək bədii təfəkkürün qarantiyası deyil. Ədəbiyyat adamı üçün istedadla bərabər dünyagörüşü, savad, düşüncənin miqyası da vacib şərtdir.

– Müsahibələrinin birində özünü "xoşbəxt oxucu" adlandıran Elçin müəllimin "xoşbəxt müəllifləri" kimdir? Doğrudanmı, Siz yalnız imzaya görə kitabları oxuyursunuz?

– Mənim kitabxanamda çox sevdiyim, səhifələrinə bələd olduğum kitablar var. Hərdən mənə elə gəlir ki, o kitablar da məni yaxşı tanıyır. Mənim üçün çox böyük yazıçılar var və hərdən mənə elə gəlir ki, onlar başqa bir dünyadan, sivilizasiyadan gəliblər. Lev Tolstoy təkcə bədii zövqümün formalaşmasında yox, ümumiyyətlə, həyatımda, taleyimdə böyük bir rol oynayan şəxsiyyətdir. Mən həmişə deyirəm ki, dünyada nə qədər yazıçı varsa, bir o qədər də yaradıcılıq psixologiyası və dünyada olan oxucu qədər də oxucu hissiyyatı var. Azərbaycan nağıllarını neçə yaşımda oxuduğumu xatırlaya bilmirəm. Dəqiq bilirəm ki, "Koroğlu" dastanını oxuyanda hələ məktəbə getmirdim.

– Azərbaycan yazıçıları qırğız yazıçısı Çingiz Aytmatovun Nobel mükafatına namizədliyini irəli sürüblər. Biz nə vaxt öz yazıçımızın bu mükafata namizədliyini irəli sürəcək, onu dəstəkləyəcəyik?

– Nobel mükafatı ilə bağlı Azərbaycan ədəbi prosesində son vaxtlar bir ajiotaj var. Əvvəla, Nobel mükafatı dünya miqyasında təsdiq deməkdir, amma bu mükafat ədəbiyyatın, bədii təfəkkürün meyarı deyil. Ötən il ilk türk yazıçısı Orxan Pamuk bu mükafata layiq görüldü, amma ondan qabaq elə Türkiyənin özündə nə qədər layiqli böyük yazıçılar vardı?! Orxan Kamal, Nazim Hikmət, Yaşar Kamal... Təəssüflər olsun ki, bizim əsərlərimiz sistemli şəkildə müxtəlif dillərə tərcümə oluna, dünya miqyasına çıxa bilmir. Bizim əsərlərimiz, əsasən rus dilindən dünya dillərinə tərcümə edilir. Əsərlərin birbaşa Azərbaycan dilindən dünya dillərinə tərcüməsi faktı çox azdır. Bu, çox ciddi məsələdir. Bəlkə də mənim bu fikrim bütün həqiqəti ifadə etmir, amma Azərbaycan dilində yazan yazıçının tərcümə olunması, dünya miqyasına çıxması asan olmur. Digər tərəfdən, bu da faktdır ki, kiçik bir ölkə olan İslandiyada island dilində yazan Laksnes Nobel mükafatına layiq görülüb.





– Siz hansı Azərbaycan yazıçısını Nobel mükafatına layiq bilirsiniz?

– Bizim ədəbiyyatımızda kifayət qədər yüksək səviyyəli yazıçı və şairimiz var. Amma konkret ad çəkmək istəməzdim. Söhbət Azərbaycan ədəbiyyatından gedirsə və Nobel mükafatı XX əsrin hadisədirsə, onda mən çox istərdim ki, bu mükafata Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir layiq görüləydi.

– Bəlkə türk yazıçısının bu qədər gec Nobel mükafatı almasının bir səbəbi də elə konkret ad çəkə bilmədiyimizdən irəli gəlir?

– Müasir Azərbaycan ədəbiyyatının Nobel mükafatına layiq olan xeyli nümayəndəsi, məsələn, İsa Hüseynov-Muğanna, Anar, Əkrəm Əylisli və başqaları var. İsa Hüseynovun Azərbaycan ədəbiyyatındakı xidmətlərini mən xüsusi ilə qeyd etmək istəyirəm. Yazıçıları müqayisə etmək doğru deyil, amma Çingiz Aytmatov "Cəmilə"sini yazanda, İsa Hüseynov da öz gözəl povestlərini yazırdı və onun bu povestləri nəinki Aytmatovun əsərlərindən zəif idi, hətta bədii siqləti etibarı ilə daha yüksək idi. Amma "Cəmilə"ni Fransanın böyük yazıçısı və kommunisti Lui Araqonun həyat yoldaşı Elza Triole orijinalda oxudu, sonra Araqon onu tərcümə etdi və "Bu, mənim məhəbbət haqqında oxuduğum ən gözəl əsərdir" deməsi ilə Çingiz Aytmatov bir növ dünya miqyasına çıxdı. Biz İsa Hüseynovun povestlərini vaxtında tərcümə eləyib dünya miqyasına çıxara bilsəydik, heç şübhəsiz ki, indi o da dünya şöhrətli yazıçı idi.

– Ədəbi nəsillər, müasirlər arasında qəribə bir ədəbi qısqanclıq var. Sizcə, bu nədən yaranır?

– Ədəbiyyat söhbəti və ədəbiyyatdan kənar söhbət anlayışı var. Ədəbiyyat söhbətində nəsillər arasında bir-birini başa düşməzlik,

anlaşılmazlıq olub. Mənim özüm də şəxsən belə bir mərhələdən keçmişəm, yəni cavan vaxtlarımda özümdən əvvəlki nəsli bəzən başa düşə, qəbul edə bilmirdim. Ədəbiyyat söhbəti çərçivəsində fərqli baxışları, münasibətləri başa düşürəm, amma ədəbiyyatdan kənar söhbətləri izləmirəm və onlar mənim üçün maraqsızdır. Belələrinin olması da bədbəxtlik deyil, faciə odur ki, onların artıq öz oxucusu yaranıb. Belə müəlliflərin səviyyəsində olan oxucu auditoriyası, bütövlükdə götürdükdə Azərbaycan ədəbiyyatı oxucusunun səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Biz daha çox böyük, istedadlı, yaxşı yazıçı sözlərini işlədirik, amma eyni sözləri oxuculara da aid etmək olar. Həqiqətən də, istedadlı, yaxşı, savadlı və əksinə istedadsız, savadsız oxucu da var. Ədəbiyyatda oxucunun kim olması vacib şərtdir.

– Bəs sanballı ədəbiyyat nümayəndələrinin xırda giley-güzarlarını, bir-biri haqqında incikliklərini mətbuata çıxarması nəyə xidmət edir? Doğrudanmı, bu qeydlər də ədəbiyyat naminə çap olunur?

– Mən nələri nəzərdə tutduğunuzu başa düşürəm. Nəzərə alaq ki, yazıçı da insandır, onun da sırf insani emosiyaları var. Belə söhbətlər bizdən əvvəlki nəsillərdə də olub. Əslində ədəbiyyatla anti-ədəbiyyat həmişə qoşa addımlayıb. Hətta bəzən elə dövrlər olub ki, bizim bugünkü dövrümüz kimi, anti-ədəbiyyat kəmiyyət etibarı ilə ədəbiyyatdan qat-qat çox olub. Amma ədəbiyyatın siqlətinin ağırlığı ondadır ki, o həmişə istedadın çiynində irəli gedib. Anti-ədəbiyyat dövründən, zamanından bir addım qabağa atıla bilməyib.

– Sizin "Sarı gəlin" hekayəniz də daxil olmaqla, ümumiyyətlə, Qarabağ mövzusunda yazılan əsərlərimizin dünya miqyasında təbliğindən razısınızmı?

– Təəssüf ki, biz tariximizlə bağlı təbliğat aparmağa gecikirik. Bəli, bizim ən böyük çatışmayan cəhətimiz odur ki, özümüz deyib-özümüz eşidirik. Qarabağ haqqında televiziyada, mətbuatda çıxış edirik, hiddətlənirik, mütəəssir oluruq, amma dünyanın xəbəri yoxdur. Qarabağ həqiqətlərindən dünyaya danışmaq lazımdır. Həqiqət – şəhidlərimiz, müharibənin nəticələri, köçkünlərimiz onsuz da bizim gözümüzün qabağındadır.

– Azərbaycan teatrlarında sizin müxtəlif mövzulu pyesləriniz səhnələşdirilir və oynanılır. Bəzən deyirlər ki, məhz vəzifənizə görə teatrlar Sizin pyeslərə geniş yer verir...





– Əlimə qələm alandan bəri belə gülünc "obıvatel" söhbətlərini həmişə eşidirəm. 24 yaşımda yazdığım namizədlik dissertasiyamı müdafiə edəndə də Moskva Ali Attestasiya Komissiyasına anonim məktublar yazılmışdı ki, bu dissertasiyanı İlyas Əfəndiyev yazıb. Atam da deyirdi ki, dissertasiya yazmaq həvəsi olsaydı, elə özü üçün yazardı də... Məgər Elçin vəzifəyə gələndən sonra yazıçılığa başlayıb? Hansı vəzifədə olmasından asılı olmayaraq, Elçin ilk növbədə yazıçıdır.

– Azərbaycanda yaradıcı təşkilatların fəaliyyəti, büdcədən maliyyələşdirilməsi diskussiya mövzusuna çevrildi. Siz bu təşkilatların fəaliyyətini müasir dövrdə necə görürsünüz?

– Şübhəsiz ki, yaradıcı təşkilatlar sovet dövründən qalma bir şeydir. Əgər biz o dövrdən qalan bütün təşkilatlarla vidalaşmalı olsaq, onda gərək bütün universitetləri bağlayaq, çünki Bakı Dövlət Universitetindən başqa qalanları Sovet dövründə yaranıb. Mən hesab edirəm ki, Azərbaycan Yazıçılar İttifaqının qorunub saxlanması böyük nailiyyətdir və bu məsələdə Anarın, Fikrət Qocanın və digərlərinin böyük rolu olub, onları alqışlamaq lazımdır. Mən bu işin içindəyəm. Ona görə dəqiq bilirəm ki, Yazıçılar İttifaqı, xüsusən onun ədəbi orqanları fəaliyyətini tamam dayandırmaq məcburiyyətində idi və Heydər Əliyevin şəxsi iradəsi nəticəsində Yazıçılar Birliyi büdcədən maliyyələşdi. Bu da nəşrlərin müntəzəm fəaliyyətini və təşkilatın qorunub saxlanmasını mümkün etdi.

– Dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilində, latın qrafikası ilə nəşr olunması da ədəbi mühitdə birmənalı qarşılanmadı. Deyirlər, yeni, modern ədəbi nümunələr bu siyahıdan kənarda qalıb?

– Dünya ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunan və kiril qrafikası ilə nəşr edilən əsərləri çağdaş Azərbaycan oxucusundan kənarda qalmışdı. Onlar böyük bir tirajla yenidən Azərbaycan oxucuna qaytarıldı. Bu, çox mühüm bir hadisədir. Bu siyahıda dünyada qəbul olunan ən məşhur şəxslərin əsərləri yer alıb. Əgər kimsə unudulubsa və ya növbəti mərhələyə qalıbsa, bu, görülən bütün işə kölgəyə salmağa əsas vermir.

*may – 2008*

# Şuşaya ölüb gedən...

Əzizim, balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Adamı torpaq da çağırır. Böyütdüyü balasını o da oxşayır, boy-buxununa, yerişinə-duruşuna baxır, səsinə qulaq asır... Doğmasından ötrü torpaq da darıxır, hay gəlməyəndə, ta dözə bilməyəndə onun da bağrı çatlayır. Torpaq doğmalarının hamısını səsləyir, amma onun səsini hamı eşitmir. Gündəlik qayğılar, iş-güc, dərd-azar hərənin üzünü bir səmtə çevirib. İndi sürətli xəbərlərlə dolu gün adamın başını elə qatır ki, köksündəki ürəyin də səsini eşitmirsən. Amma torpaq da darıxır, torpaq da çağırır axı...

Ay dərdim,
Sevinc əkdim, vay dərdim.
Kürəyimi dağa söykədim,
Dağ da dedi: vay dərdim.

Hər yetənə özünü sındırmayan Şuşa necə ildir dərdini dağlara danışır. Dağ da ağırlığından nə durub gələ, nə də dinib bir kəlmə deyə bilir. Gündən-günə boşalan yollardan təzə xəbər-ətər gözləyir... Əslində nə Şuşa, nə də şuşalılar günü bu gün də baş aça bilmirlər ki, bu ayrılıq haradan, necə, niyə gəlib ortalığa düşdü. Əvvəlcə onlar Şuşasız yaşayacaqlarına inanmadılar. Sonra Şuşasız ölməyi yaxın buraxmaq istəmədilər. Vaxtilə Şuşada yaşamağı arzulayanlar nə qədər idi? İndi Şuşada ölməyi arzulayanlar ondan ikiqat, üçqat çoxdur. Bu arzusuna kimlər çata biləcək, ilahi?

Ürəkdə yara sızlar,
Dərd sızlar, yara sızlar.





Yaralının dərdini
Nə bilər yarasızlar?

Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Nizami Bəhmənovun ürəyi dözmədi. Bir an sonra yetişən həkim yardımına, Qarabağın taleyi ilə bağlı iclas keçirməyə, Şuşasına qovuşmağa hövsələsi çatmadı. Həsrət adamın ürəyini bax belə oyur. Belə ürəklə yaşamağı Allah heç düşmənə də qismət eləməsin...

Axşamlar, ay axşamlar,
Axşam yanar ağ şamlar.
Yerli evinə gedər,
Qərib harda axşamlar?

Müsəlman adətinə görə, torpaqdan yaranan, ona görə də təkrar torpağa qayıdan insanın məzarı torpağa qarışmalıdır. Yəni müsəlman qəbrinin xüsusi fərqləndirilməsinə, çəpərlənməsinə gərək görülmür. Əski və dini inanclarımıza görə, ana torpağa qovuşan insanın gor evi bir müddət sonra tamam torpağa qarışmalı, başqa sözlə, insan yenidən torpağa çevrilməlidir. Torpaq günahları gizlədən, sirləri örtən, bütün izləri, nişanları itirəndir. İndi dünya çox dəyişib, amma hələ də yad yerdə öləni min bir xərcə, əziyyətə baxmayaraq, gətirib öz torpağına tapşırırlar. Dünyasını bir anda dəyişən Nizami Bəhmənov harada torpağa tapşırıldı? Əslində, bu da ritorik sualdır, yəni cavab almaq məqsədi ilə verilməyib. Çünki düz 16 ildir nə əlimiz, nə ölümüz, nə də dirimiz Şuşaya çatır...

*2008*

# Vaqif Bayatlı Odər: 1994-1998

Həyatda uduzmayan adamlar var. Doğulur, ömürlərini sağa-sola xərcləyir, ürəkləri istədiyi kimi özlərini dağıdır və... qəfil də baş götürüb qaçırlar. Onlar heç nə uduzmurlar, sadəcə, heç-heçə qurtarırlar. Amma uduzan var! Uduzanlar var...

* * *

Bu sətirləri heç nəylə, hətta heç kimlə hesablaşmayan, amma hamıdan "haqq-hesab alan" Vidadi Məmmədovun adına bağışlamışdım. Bu gerçəkliyi isə mənə Vaqif Bayatlı Odər başa salmışdı. Yox, yox, sözlə, izahla heç nə deməmişdi, amma başa salmışdı. Necə?

* * *

"Gör neçə ildir burda işləyirəm. Çox şeyi təzələdim, xeyli işlər gördüm. Dəhşətli dərəcədə yorulmuşam. Gedim azca dincəlim, sonra şeirlərimi, yazılarımı yığım, toplayım... Mən biləni bir kitablıq olmalıdı, amma hardadır, heç özüm də bilmirəm. Görmək istədiyim hələ o qədər işlər durur ki... Mən başa düşə bilmirəm, nə var axı pessimizmə qapılmısız? Çıxıb getməyimdə təəccüblü, qəribə nə ola bilər, mənə aydın deyil. Çox mənasız şeylərə vaxt ayırırsız. Mən gedirəm, heç nə dəyişmir, arada gələcəm, görüm neynirsiz... Sizi incidib eləyən olanda deyin mənə. Heç nədən çəkinib eləməyin..."

O, Teleradiodan, Beynəlxalq Radionun direktor kürsüsündən "yaşılköynək oğlan" olanda getdi. Biz, xüsusən də cavanlar həmişə geyiminə, yerişinə, sözünə, qeydlərinə, görkəminə, səhərlər 11-12-dən sonra işə gəlməyinə, hirsinə, hətta köynəyinə, şərfinəcən öyrəşdiyimiz Vaqif Bayatlı Odərin gedişini kirimişcə müşahidə eləməkdən başqa heç nəyi bacarmadıq.





* * *

Tələbə vaxtı, iş axtardığım aylarda bir gün məni radioya yönəltdilər. Ora mənim üçün Mövlud Süleymanlı və Vaqif Bayatlının işlədiyi yer idi. Elə oldu, onların işlədiyi yerdə işlədim. Nə vaxtacan? İşdən çıxdığım günə kimi.

* * *

"Mən Cəbrayıldan deyiləm ki... Mərcanlıdanam. Özü də hardan olmağın mənimçün zərrəcə dəxli yoxdur. İstedadsız, boş, mənasız, tənbəl adamları sevmirəm. Ciddi işlərlə məşğul olun. Mən təsəvvür edə bilmirəm bu cavanlar boş-boşuna niyə vaxt itirirlər? Jurnalist ya yazar, ya danışar, ya da harasa ora-bura qaçar. Heç nəyi bacarmayanda, elə ora-bura qaçın, başa düşürsüzmü məni?"

Yox, o vaxt Vaqif müəllimi heç cür başa düşə bilmirdik. Daha doğrusu, onu asanlıqla qəbul eləmək olmurdu. Bizimçün o, qeyri-adi, qəribə bir insan idi. Rast olanda heç doyunca müşahidə eləyə bilirdik ki, bilək nə deyir, nə demir...

* * *

– Vaqif müəllim, istəyirəm, təzə bir veriliş açım. Hər şey, hətta süjetlər də hazırdır. Qalıb bircə ad. Neçə gündür ad fikirləşirəm.

– Nə qalıb, ad? Biz indi hardayıq? Onda adın qoy "Pilləkən", "Nərdivan", "Daş", "Dəmir"... Ad son dərəcə mənasız, boş bir şeydir. Ad o qədər şərtidir ki, başqa yerdə olsaydıq, mən sənə daha maraqlı, təzə adlar deyərdim. Mənasız şeylərə vaxt itirirsiniz...

* * *

– Səni hamı bəyənir nəsə... Mənimçün maraqlıdır, gətir bir yazını baxım görüm...

– Vaqif müəllim, Rübabə xanımdan (Muradova) təzə yazım var. Amma sözləri yarımçıq yazmışam. Xəttim də elə qarışıqdı, icazə verin, çap...

– Eybi yox, eybi yox. Mənim oxuya bilmədiyim insan yazısı yoxdur dünyada. Aha, normal cümlələrdir...

“Səs var, fikri azdırır...” – maraqlı şeydir, özünüzdü, çox yaxşı, mənim heç ağlıma gəlməyib. Görüm, sonra nə yazmısan? “Səs də var, yeni fikir yaradır, üsyana çağırır...” – bunu hardan tapıb yazmısan? Boş və mənasız, yersiz kommunizm, sosializm şüarlarıdır. Çox mənasız fikirlərdir. Normal cümlələrdir, amma boş və mənasız fikirlərdir. “Dünyanın özü boyda kədər” – Belədi, hə?

– Bəli.

– Siz necə düşünürsüz? Bəyəm, çox böyük yük-zaddı bu? Dünyanın özündən böyük kədər ola, yenə maraqlı olardı. Heç o da çətin deyil, təzə sözlər tapın. Təzə, lap təzə...

Bildim ki, bircə cümləm, onun da yarısı Vaqif müəllimin xoşuna gəlib – “Səs var, fikri azdırır”.

Pis olduğumu görəndə... “Elələri var, ömür boyu yazıb-yaradır, içindən bircə cümlə də çıxmır. Bir yazıdan yarımçıq bir cümlənin çıxması böyük şeydir, təbrik edirəm səni”, – dedi.

* * *

– Siyasətçilərdən, siyasətlə maraqlananlardan nə soruşardınız, Vaqif müəllim?

– Dünyanın ən gözəl çiçəyi olmaq istərdinmi? İstərdinmi, səni də qoxlasınlar, səni də sevsinlər?..

* * *

– Nə olub?

– Vaqif müəllim, plaşım qalıb içəridə, qapını bağlayıb gediblər...

– Nə olsun?

Gözümü döyəndə Mövlud müəllim köməyimə yetdi:

– Yaxşı, gəl görüm, necə olub axı? Bu soyuq gündə, yağışlı havada neyləyəcəksən? Vaqif, sən də gəl.

Kövrəlmiş adam neyləyər, ağlamsındım:

– Qapını bağlayıb gediblər... Yekə-yekə adamlardı, tay demirlər...





– Siz nə görübsüz axı, elə hey gileylənirsiniz, mənasız sözlərlə şikayətlənirsiniz... Bizim başımıza gələnləri yaşasaydınız, necə olardı?

– Vaqif...

– Yox ey, Mövlud müəllim, bunlar o qədər acizdi, mən başa düşə bilmirəm. Mənim yazımın ortasından xətləri qoyurdular, nə incimək, nə küsmək... Böyük iş olub...

– Vaqif, sənə nə olub, sakit ol.

Mövlud müəllim onu, elə məni də sakitləşdirəndən sonra Vaqif müəllim dedi:

– Dur, gedək otağıma. Qalx, qalx, cəld ol görüm... Sənə dedim ki, geyin. Bax belə, gör nə qəşəng yaraşır. Al, bu pulu da (min manat o vaxt az pul deyildi).

– Yox, çoxdu. 250 manat verin, bəsimdir. Sabah qaytaracam. Bəs siz?

– Mən idmançı adamam. Qaça-qaça gedəcəm. Özüm elə çox vaxt belə gedirəm. Şərfimi bürüyəcəm boynuma, qaçacam.

Yolda təsadüfən diktorumuzla rastlaşdıq. Qayıtdıq, qapını açıb plaşımı geydim. Bir də gördüm Vaqif müəllim plaşla gödəkçənin rəngini tutuşdurur:

– İkisi də eyni rəngdədi – boz. Nahaq soyundun. Elə onunla gedəydin gərək. Düzdür, bəzi yerləri bir az çirk kimi görsənir, amma mənim xoşuma gəlir. Sizə də yaraşdı...

* * *

– Əkrəm Əylislinin cümləsidir: “Dünyada elə şeylər var ki, onları yalnız şeirlə demək olur”. Hətta şeirlə deyilə bilməyən nələrsə varmı?

– Hər nədirsə, onu şairdən gözəl heç kim deyə bilməz. Şairin deyə bilmədiyi heç nə yoxdur bu yer üzündə.

* * *

– Sizi heç yormayan nədir?

– Çox şey. Sevgidən yorulmuram, yaşamaqdan yorulmuram, dünyanın ən gözəl dili olan danışdığımız türkcənin gözəlliyindən

yorulmuram. Bu dilin ən əlçatmaz yerlərinə şeirin misralarıyla toxunmaqdan ləzzətli heç nə yoxdur mənimçün.

Ərəb-fars sözləri görəndə hirslənirdi:

– Tez, tez, türkcəsini tapıb yazın.

– Ay Vaqif müəllim, axı karvan, sarvan... sözlərinin türkcəsini necə tapaq?

– Mən bilmirəm, universitetdə sizə nə öyrədiblər? Nə qədər acizsiniz?

Hər sözün, hətta türk sözlərinin də türkcəsini axtarmaq sevimli işimizə çevrilmişdi.

Bir dəfə iş otağını yığışdırırdıq – iməcilik idi. Qəfil görünən tarakanı hay-küylə məhv elədik. Yadımıza düşdü ki, Vaqif müəllim olsaydı, deyərdi:

– Qızlar, qoçaqlar, bu nə səs-küydü belə?

– Tarakan öldürmüşük.

– Tarakan? O nədi... Tez, tez, türkcəsini tapıb deyin görüm, nə öldürmüsüz?

* * *

– Pərəstişkarları növbəti prezident seçkilərində Vaqif Bayatlı Odərin namizədliyini irəli sürsə, geri durmazsız ki?

– Mən çoxdan prezidentəm, öz-özümün prezidentiyəm, həm də qara fəhləsiyəm. Mənim ölkəmin qara fəhləliyi sizin dediyiniz prezidentlikdən çox-çox yuxarıdı. Görün indi, prezidentliyi nə boydadı?!

O, özünün prezidentidir, şeirin qara fəhləsi. Bu ədəbiyyatın da qəribə tərsliyi var: qara fəhlə olmayanı ömürboyu prezidentliyə yaxın qoymur!

O, çərçivəsiz bir adamdır, şeirimizin sal qayası! Bu ədəbiyyatın çoxdankı tərsliyi başındadır: xırdalığı, xırdaları içində saxlamır.

O, peyğəmbərdən sonra doğulan şairlərdən biridir, amma şeirdə yağışdan sonra görünən göy qurşağı! Bu ədəbiyyatın rəngi rəngdən seçməsi, dadı-duzu tanıması var.

...Bir də ədəbiyyatın saydığı, yuxarı başa adlatdığına ildən-gündən, ömürdən-taledən zaval yoxdur, deyirlər.





Bu küsüb gedən illərin acığına altıları, yeddiləri... qoşalaşdırın, Vaqif müəllim. Sonra? Təklər, tənhalar yiyəsinin işi-gücü elə qoşalaşdırmaq, birləşdirmək deyilmi?

* * *

Hamının başı bu dünyada yaşamağa, gün-güzəran qurmağa qarışanda o, sevgi dilini öyrənirdi. Ona görə də indi sevgiylə danışanları da hamıdan yaxşı başa düşür.

Danışırdılar ki, o, hər şeyi duyur – görüşdən gələndə də, xəlvət nəsə yazanda da...

Hə, elə idi. Sonralar mən də anladım.

* * *

– Təbrik edirik, Vaqif müəllim, "Ən gülməli ölü" kitabınızın ayağı sayalı olsun. Çox gözəl idi.

– Çox sağ olun. Mən özümün, kitabımın, orda olan hər sözün, kəlmənin, hərflərin, nöqtənin, vergülün adından sizə təşəkkür edirəm.

* * *

"Necə yəni, oxumağa bir şey tapmırsız, necə yəni darıxırsız? Gedin, Dostoyevskini, Ənvər Məmmədxanlını oxuyun!"

* * *

– "Biz torpaqlarımızın 80 faizini azad etdik, qaldı 20 faizi". Vaqif Bayatlı Odər, Bakı şəhəri, 1993-cü il. Sonra?

– O səksən faiz azad olunmuş torpağın o iyirmi faiz əsir torpağı sevməyini istəyirəm! O sevgi o iyirmi faizi də xilas edəcək.

* * *

Ondan incidiyimi heç cür xatırlaya bilmirəm. Onu incitdiyimi də deyə bilmərəm. Amma bir dəfə...

Əlli illiyini keçirirdi, səhv eləmirəmsə. Bir kitab təqdimatında görüşdük, yaşını bir də təbrik etdik:

– Vaqif müəllim, istədik evinizə gələk.
– Mənim evim yoxdur.
– Bəs harda olursuz?
– Göylərdə.
– Ora nəylə gedib-gəlirsiz?
– Mələklər aparıb-gətirir, özüm gedirəm.
– Ora gələ bilmərik yəni?
– Nə bilim?
– Nə olardı, siz ordan göstəriş verərdiz, bizi də yanınıza gətirərdilər...
-Sss... sakit olun, görək nə deyirlər.
Bu vaxt Əkrəm Əylisli üzünü çevirib çağırır:
– Vaqif!
– Bəli, bəli – deyib dərhal irəli sıçrayır.
Göy adamının böyüyə hörməti bizi utandırdı.

* * *

Vaqif Bayatlını gördüyüm gündən bu günə kimi yadımda olanları yazmaq istədim və yazdım. Ad günü? Bilmirəm, nə dəxli var. Adamlar haqda yazıları ürəyimiz istəyəndə yazmalıyıq. Quru-quru rəqəmlər, yubileylər, üst-üstə yığılan illər çox mənasız şeylərdir... Yox, bu yazı xatirə də deyil. Şair Vaqif Bayatlı Odərin çoxumuzdan artıq yaşayacağını bilə-bilə mən özümü aldada bilmərəm.

* * *

Cəmiyyətlə uzlaşmaq, uyuşmaq insanın dəyişməyən əbədi problemlərindən biridir. Amma elə adamlar var ki, onlar heç vaxt uduzmurlar... Ətrafa uyuşsalar da, uyuşmasalar da... Cəmiyyətlə uzlaşsa da, uzlaşmasa da... Onlar heç nə uduzmurlar, amma uduzan var... Uduzanlar var. Uduzanlar bu qədər çox olmasaydı, uduzmayanları qınamazdıq, öz qəliblərimizə sığışdırmazdıq... Heyif, çox heyif ki, biz hamını hazır insan modellərinə sığışdırmağa çalışırıq...

*oktyabr – 1999*





## Yeni tamaşa: bu dəfə “Arılar arasında”

“Mən uşaqlarımı çox istəyirəm, onlar da məni, bəs onda həyat niyə qüssəli olur?” Xalq yazıçısı Elçinin personajının dilindən səslənən insanın, sənətin bu əzəli, əbədi sualına indiyədək yüzlərlə cavab verilib. Amma bu cavablar və insanların gündən-günə dəyişən həyat tərzi adamların arasında özünü tək-tənha hiss edənlərin sayını azaltmır ki, azaltmır.

Akademik Milli Dram Teatrda premyerası keçirilən “Arılar arasında” tamaşasının qəhrəmanlarının hərəsi bir cür tənhadır. Adamlar arasında özünə qulaq yoldaşı, sirdaş tapmayan Baba (Nurəddin Mehdixanlı) dağların qoynunda dinc, sakit həyat qurub. Onun yalqızlığı dərhal görünsə də, şəhərdə yaşayan doğmalarının tənhalığı məhz arıların arasında üzə çıxır. Dincəlmək üçün dağların qoynuna üz tutan ailənin arzu və ümidlərini arılar və insan cəmiyyəti yox, özləri alt-üst edir.

Əslində təklik və tənhalıq mövzusu Elçinin yaradıcılığında, xüsusən dramaturgiyasında mühüm yer tutur, amma “Arılar arasında” görünən insan tənhalığı bir başqadır. Əgər “Qatil”də insanın psixoloji sarsıntıları daha qabarıq görünürdüsə, “Arılar arasında” daha çox cəmiyyətin iç üzü, astarı açılır. Baba hər addımbaşı onu arı kimi sancanlardan, başqa sözlə, “insan zəhəri”ndən qurtulmaq üçün dağlara çəkilib. İnsan üzü görmədiyi, səs-küylü şəhər həyatından ayrıldığı üçün mənəvi rahatlıq tapıb. Qısamüddətli olsa belə, məhz belə bir rahatlığa qovuşmaq arzusuyla qızı, kürəkəni, nəvələri arıların arasına, yəni təbiətin qoynuna (saf, duru bir məkana) gəlirlər. Burada bir ailənin üzvlərinin bir-birindən nə qədər uzaq olması üzə çıxır. “Məni gərək arı sancsın? 35 ildir ki, məni sancırlar...” Bu sözlər personajın incikliyi ilə yanaşı, insan cəmiyyətinin, Azərbaycan ədəbi mühitinin təbii mənzərəsini canlandırır. Kimdir quzuların kəsilməsinə etiraz edənlər, gözəl, poetik cümlələrlə ətrafındakıları humanizmə çağıranlar? Hadisələrin dramatik inkişafı gözəl

sözlərin həqiqət olmadığı və ya həqiqətin gözəl sözlərlə ifadə edilmədiyini üzə çıxarır. Bu insanın və cəmiyyətin simasıdır: heyvanların kəsilməsinə etiraz edən sentimentallar quzu kababının ləzzətindən doya bilmirlər! Sözü ilə əməli tərs mütənasib olan insanlardan üz çevirib "içək arıların sağlığına" demək olar, amma arılar aləminin (bir başqa dünyanın, şəraitin, arzulanan irreal məkanın və s.) ədaləti də mütləq deyil. "Pətəkdəki bütün arılar Ana arıya qulluq edir, amma qocalanda onu öldürüb təzəsini seçirlər". Bu da örnək gətirilən arı sədaqəti, arı fədakarlığı, tez-tez misal çəkilən arı ailəsinin monolitliyi! Ona görə də, Ana arının portreti yarımçıq qalır, bütövləşə bilmir, çünki o da qatildir. "Məgər insanların özləri bütövdür?" – arının bu sualında azacıq improvizə ilə cavab da var: çəkilən, əbədiləşən insan portretləri də yarımçıqdır! Bu həqiqətdən qaçmaq, insanlardan küsmək-incimək çıxış yolu deyil. Ona görə də Baba yenə də insana sığınır, həyatını dayə ilə birgə davam etdirməyə qərar verir. Həyat da elə budur – arıların (insanların) sancmağı, küləyin əsməyi, bir şüşə şərab, küsüb-barışmaq, xoşbəxtlik axtarışları...

Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluşunda, xalq artisti Firəngiz Mütəllimova, əməkdar artist Cəfər Namiq Kamal, Mətanət Atakişiyeva və başqalarının ifasında canlanan bu müasir həyatın dramatikliyindən çox, adiliyinə alışmışıq. Cavanların özlərindən əvvəlki nəslin bostanına daş atmasına, "əhədi kəsilən atların güllələnməsi" və ya Ana arının qocalanda öldürülməsi həqiqətinə, eləcə də insanların arı kimi sancmasına Məşədi İbad demişkən, bir növ adətkərdə olmuşuq. Bəlkə ətrafımızda baş verənləri "Həyat budur!" təsəllisi ilə seyr etmək vərdişindən qurtulmağın, nələrəsə asanlıqla adətkərdə olmağımızın səbəbini axtaraq? Bəlkə bu səbəblərin varlığını və ya əksinə, yoxluğunu özümüz üçün dramatikləşdirək? Yəni, doğrudanmı, insan arı kimi sancmasa və ya onu arı kimi sancanlara dözməsə, ölə bilər?!

Həyatdan fərqli olaraq, dramaturgiya qəfil, gözlənilməz döngələrdir, birindən qurtulan kimi, yoluna o biri çıxır, başqa sözlə, tamaşaçıya nəfəs almağa aman verilmir. "Arılar arasında" isə yetərincə düşünməyə, "həyat nədir" sualına verilən cavabları xəyalında saf-çürük etməyə imkan var. "Həyat nə çox pis, nə də çox yaxşıdır"





(G.D.Mopassan), "Bütün xoşbəxt ailələr bir-birinə oxşayır, bədbəxtlərin hərəsi bir cür bədbəxtdir" (L. Tolstoy) qənaətləri yada düşür. "Arılar arasında"kı təhkiyə və təsvir, hekayəçilik, üstəlik mövzunun çağdaşlığı və aktuallığı müəllifin dramdan daha çox, məhz publisistikadan ötrü darıxdığını deməyə əsas verir. Yəni geyim (forma) bədənə (məzmuna) münasib seçilir. Bu baxımdan, hekayə, publisistika, dram, tragediya üçün seçilən mövzular ilk növbədə bir-birindən fərqlənir. Əslində roman və ya povest əsasında çəkilən filmlərin, qoyulan tamaşanın adətən zəif alınmasının əsas səbəbi də elə budur.

"Arılar arasında" Firəngiz Mütəllimovanın aktyor plastikası, Cəfər Namiq Kamalın simasında dalğın, qətiyyətsiz kişi obrazı, gənc qızın ağırlıq qaldırma yarışlarında qalib olmaq iddiası ilə müasir qızların çiyinlərinə ağır yük götürməyə can atması, Nurəddin Mehdixanlının yaşa dolması faktı və s. və i. göründü. Rejissorun it-pişiyi XXI əsrdə tamaşaçıya oyuncaqlarla təqdim etməsi isə bir tamaşa və ya tapmaca idi. Əgər personajlar it-pişik əvəzinə onların oyuncaqlarına quluq etmələri ilə təsəlli tapırlarsa, həqiqətən də vay onların halına, yox əgər rejissor qəhrəmanların heyvanlara qulluq etdiyini göstərmək üçün səhnəyə bu oyuncaqları gətiribsə, onda...

*aprel – 2008*

## Şamil Süleymanov: "Mən kinoda ölmək istəyirəm"

– Sizcə, Kino günündə Azərbaycan kinosundan danışmağa, müsahibə verməyə daha çox kimlərin haqqı çatır?

– Mən Azərbaycan kinosunda 35 il yol gələn Baladadaşı oynamışam. Tamaşaçı məni bu ilk rolumla qəbul edib. Mən öz yerini bilən adamam, heç kim tapılmayanda kinodan danışmağa mənim də haqqım çatır. Amma bilirəm ki, kinomuzda sanballı adamlar, adlar var: Rüstəm İbrahimbəyov, Fikrət Əliyev, Oqtay Mirqasımov, Fəxrəddin Manafov, Xamis Muradov, Vaqif Mustafayev...

– Amma kimlərinsə adı həmişə kölgədə qalır...

– Mən 1973-cü ildə "Baladadaşın məhəbbəti" filminə çəkilsəm də, kinostudiyaya 1977-ci ildə işə götürülmüşəm. Həmişə özümə dərd edirdim ki, qocalandan sonra nə edəcəyəm, kim məni filmə çəkəcək? Amma bu gün çəkiliş meydanındayam, kamera qarşısındayam, ən böyük xoşbəxtlik də budur.

– Çağdaş Azərbaycan rejissoru dünya səviyyəli film çəkməyə hazırdırmı, yoxsa onların da yeni məktəbə, əlavə təcrübəyə ehtiyacı var?

– Kino kollektiv sənətdir. Hər çəkiliş qrupu bir ailə deməkdir. Rejissor aktyoru balası kimi sevməyəndə sənət əsəri yaranmır. Əgər film tamaşaçının xoşuna gəlirsə, bu, ilk növbədə rejissorun uğurudur. Biz aktyorlar əslində rejissorun artıq fikrində yaratdığı bir aləmi canlandırırıq. Bizim "Oskar"ı qazanan Rüstəm İbrahimbəyovumuz var. Həmin Rüstəm İbrahimbəyov özünün ali rejissor kursunu açıb, ora xaricdən böyük sənətkarları dəvət edir, onlar cavanlara təmənnasız dərs keçirlər.

– Bu gün Azərbaycan kinosunun ən böyük problemi nədir?

– Kinomuzun çatışmayan cəhətlərindən danışsaq, uzun bir siyahı alınar. Nəyimiz var, onu da desək, yenə eyni vəziyyət yaranar. Problemsiz sənət yoxdur. Ona görə də mən həmişə deyirəm: nə





yaxşı ki, bizim kino sənətimizin problemi var və onları həll etməyə indi gücümüz çatır. Düzdür, hələlik avadanlıqlar köhnədir, amma yenilənir. Bu gün işığımız yanır, başımıza yağış dammır, amma son vaxtlara qədər buna həsrət idik. Köhnə vaxtlardakı kimi artıq direktor studiyaya qalxır, nazir çəkilişə gəlir, kinostudiyada aktyorlar ora-bura qaçır. Təsəvvür edirsinizmi, biz bu həyat üçün nə qədər darıxmışdıq... Bəlkə də bunlar qəribə görünür, amma kino bizim bu həyatımızdan başlayır. Kino həm də fabrikdir, yəni kino yaradılmır, məhz istehsal olunur.

– Doğrudanmı, kinonun taleyini maliyyə müəyyənləşdirir?

– Başqa sənətləri deyə bilmərəm, amma kinoda maliyyə həlledicidir. Düzdür, böyük maliyyəni heçə endirmək, cüzi vəsait və böyük əziyyət hesabına uğur qazanmaq da olar. Kiçik maliyyə ilə gözəl ekran əsəri yaratmaq mümkündür, amma onu heç kim tanımayacaq. Atalar sözümüz var, yetim quzudan qoç olmur, yəni film çəkməklə iş qurtarmır, xərc çəkib onu festivallara aparmaq, beynəlxalq səviyyəyə çıxarmaq, reklamını təşkil etmək lazımdır. Bütün bunları isə maliyyə həll edir.

– Sizin belə bir fikriniz var ki, "rolun böyük-kiçiyi yoxdur" deyənlər qoy böyük rolu mənə versinlər. Sizi indi hansı filmə, necə rola dəvət edirlər?

– Fikrət Əliyevin çəkdiyi "Ölüm növbəsi" filmində baş rola çəkilirəm. Bakı həyatından bəhs edən bu filmdə mən sevənlərə arxa-dayaq oluram. Adətən aktyorlar tamaşaçını çaşdırmaq, bəlkə də özünütərif məqsədilə deyirlər ki, çəkiliş vaxtı gecələr yatmadıq, gündüzlər dincəlmədik. Başa düşmürəm, yuxusuz çəkilən filmin nə keyfiyyəti? Mən çəkiliş vaxtı gecələr daş kimi yatıram. İnanın, elə hamı belə yatır. Və ya götürək rol məsələsini. Danışan deyir ki, rolun böyüyü-kiçiyi yoxdur, aktyorun böyüyü-kiçiyi var. Mən 35 ildir bu sənətdəyəm, hələ görməmişəm ki, bir aktyor böyük roldan imtina etsin. Hələ heç kim deməyib ki, mən epizodik rola çəkilmək istəyirəm, o böyük rolu Şamilə verin.

– Belə qeyri-səmimi söhbətlər nədən yaranır, aktyor özünü əlçatmaz göstərmək istəyir, yoxsa sənətini?

– Şair şeir yazanda öz hissələri ilə təkbətək olur, amma bu, o demək deyil ki, ömrü boyu heç kimi dindirib-danışdırmasın, deyib-gülməsin. Aktyor səhnədə, çəkiliş meydanında aktyordur. Müsahibə verəndə, danışanda, söhbət edəndə rol oynamaq, aktyorluq etmək nəyə lazımdır? İnsan bütün ömrünü artist kimi yaşasa, dəli olar. Bir ara ədəbiyyatımızda kənd həsrəti ilə şeirlər yazılırdı, guya onları kəndə getməyə kim qoymurdu ki? Kənddən ötrü darıxan bilet almaq əvəzinə, oturub şeir yazırdı. Belə şeirlə ədəbiyyat yaratmaq nə qədər gülüncdürsə, "gecə yatmadıq", "çəkilişdə atdan yıxıldıq", "yağışa düşdük" söhbətləri ilə də kino haqqında təsəvvür yaratmaq istəyi o qədər yersizdir.

– İndi incəsənətin bütün növləri pafosla, ritorika ilə vidalaşır, bəs müasir kinoda vəziyyət necədir?

– Sənətdə pafos xırda məsələ deyil. Başdan-başa pafos, təmtəraq olan Uilyam Şekspirin dramaturgiyası niyə məhv olmur? Füzulinin şeiri niyə bu gün də sevilir? Deməli, söhbət pafosdan yox, günün əsas meyarının tapılmasından gedir. Bu günün də öz pafosu var, biz hələ onu tapa bilməmişik. Əvvəlki dövrlərin pafosu tapılıb, onun nə olduğunu bilirsən, ədəbiyyat, sənət, kino da bunu əks etdirib. Bəs bu günün tələbi, müasir sənətin meyarı nədir? Bir gün gələcək, bu meyarlar tapılacaq, amma sonra yenə köhnələcək. Çəkilən kinolara indi mən dədəmin köhnə paltarları kimi baxıram. Onları geymirəm, amma heç nəyə dəyişmərəm də.

– Aktyorların rejissor pultunun arxasına keçməsinə münasibətiniz necədir? Sizin film çəkmək arzunuz yoxdur ki?

– Adam yaşlandıqca məktəbin, təcrübənin, peşəkarlığın nə olduğunu daha yaxşı anlayır. Rejissor elə bir sənətdir ki, onu bir-iki günə mənimsəmək, tələsik öyrənmək olmaz. Rejissor məktəb keçməkdir, ustad dərsləri almaqdır. Açığı, mən rejissor olmaqdan bir az qorxuram. Birdən çəkdiyim film çox zəif alınar – hələ bu qorxudan çıxa bilmirəm, ona görə də belə fikrim yoxdur.

– Bəs ssenari yazmaq necə, ürəyinizdən keçirmi?

– Çoxuna elə gəlir ki, kinosenari yazmaq asandır. Yaxşı yazıçı, şair, dramaturq olmaq hələ yaxşı kinosenarist olmaq demək deyil. Kinosenarinin öz tələbləri var, o, rejissor qədər filmi görməlidir. Bizdə isə belə deyil. Hamı kinosenari yazmağa can atır, heç nədən də çəkinmir.





– Son Azərbaycan filmlərindən hansına baxmısınız və ümumiyyətlə, kinolara tamaşa etməyi xoşlayırsınızmı?

– Baxdığım son film Oqtay Mirqasımovun "Günaydın, mələyim"dir. Bu filmdə mən də çəkilmişəm. Kino işçilərinin müsahibələrdə tez-tez təkrarlamağı xoşladığı məşhur aktyorların adlarını mən də bilirəm, o aktyorların ifasından xəbərim var, amma kinolara baxmağı sevmirəm.

– Deyirlər, kinoda əsas məsələ yadda qalmaqdır...

– Elə buna görə də kinoaktyorlarda bir növ "yadda qalmaq xəstəliyi" yaranıb. Yadda qalmaq üçün aktyor kamera qarşısında yersiz, artıq hərəkət edir, adi sözləri uzada-uzada danışır, gözlərini müxtəlif şəklə salır, mənasız replikalar artırır. Elə buna görə də məqsədi yadda qalmamaq olan bir rol oynamaq istəyirəm. Yadda qalmaq üçün aktyorun canfəşanlığı çox vaxt yadda qalmaq xatirinə yadda qalmaqla nəticələnir. Amma kino təbiiliyi sevir.

– Kinoda millilik nədir, onu aktyor yaradır, yoxsa rejissor qurur?

– Filmdə ata-oğulun bir yerdə namaz qılması hələ onun dini film olması demək deyil. Eləcə də tez-tez kadrda aftafa, ləyən göstərməklə kinonu milliləşdirmək olmaz. Azərbaycan qızını mini yubka geydirib avropalaşdırmaq və ya əksinə, qıza milli paltar geydirməklə onu milliləşdirmək mümkün deyil. Bu stereotiplərdən uzaqlaşmaq lazımdır. Paltarının balağını dizdən yuxarı və ya dizdən aşağı olması xanımın ağıllı-ağılsız, milli-dünyəvi olması demək deyil. Xüsusən, kinoda belə effektlər işə yaramır. Kino Allahın varlığını sübut edən sənət növüdür. Heç kim bu barədə danışmaq istəmir. Cavan Şamil Süleymanov, gənc, gözəl Həmidə Ömərova filmdə nə qədər gözəl olsa da, ruhsuzdur. Bu gün 53 yaşında Şamil Süleymanov, artıq yaşa dolan Həmidə xanım bu baxımdan daha gözəldir, daha canlı və maraqlıdır. Nə yaxşı ki, kino hər şeyi göstərə bilir, bircə ruhdan başqa, yəni kinodakı insanın ruhu yoxdur. Mən kinonun bu aləminə vurulmuşam. Bu da Allahın bir möcüzəsidir ki, ruhsuz kino insanların ruhuna, mənəviyyatına təsir göstərir. Kinonun sirri elə budur.

– Kinoda məhz hansı rolu oynamaq istərdiniz?

– Kinoda ömür boyu arzuladığım rolu mənə indi veriblər. Mən kinoda ölmək istəyirəm. Özü də bir dəfə yox, bir neçə dəfə ölüm səhnələrini oynamaq istəyirəm. Bəlkə bu ölüm səhnələrinin biri elə gerçək oldu? İndi çəkildiyim "Ölüm növbəsi" filmində məni öldürürlər. Çoxdankı arzuma indi çatıram, axır ki, məni kinoda öldürürlər. Mən kinoda bir qoçu obrazını yaratmaq istəyirəm. Savadlı, məlumatlı, amma bir anda uf demədən adamları öldürən bir qoçu. Hələ ki, bu obrazı oynamaq mənə qismət olmayıb.

– Kinoda mənfi rolu oynamaq asandır, yoxsa müsbət? Aktyorlar mənfi rol oynamaqdan niyə çəkinirlər?

– Mənim bu günədək 3-4 mənfi rolum olub. Onu da oynayandan sonra dostlar dedi ki, belə rollar oynama, sənə yaraşmır. Mənfi rola görə aktyoru sevməmək, onun şəxsiyyətində də mənfilik axtarmaq cəhdi yanlışdır. Müsbət rollar oynayan elə aktyorlar tanıyıram ki, daim mənfi obrazlar yaradan aktyorlardan qat-qat pis insandır. Məsələn, "Dədə Qorqud" filmində Yalıncığı oynayan Əli Haqverdiyevə həyatda hamı birtəhər baxırdı. Amma mən aktyorların arasında ondan yaxşı, ləyaqətli, gözəl insan tanımıram. Əli opera artisti idi, orada da ona mənfi rollar tapşırılırdı. Ona görə də elə bir istedadlı sənət adamını bu gün hamı oynadığı rollarına görə, bir növ mənfi emosiyalarla xatırlayır.

– Operatorlar həmişə gözəl, yaraşıqlı aktyorlarla işləmək istəyirlər. Bu ənənə kinoda indi də davam edirmi?

– Operatorun və rejissorun axtardığı gözəllik xarici yaraşıq deyil, yerində olan aktyor artıq gözəldir. Əslində onların məqsədi məhz yerində olan aktyoru axtarıb tapmaqdır. Kinodan doymaq olmur, bilirsinizmi, niyə? Evində çörəkpulu olmayan aktyor gəlir çəkilişə, qrimlənir, geyinir, milyoneri oynayır. Fincanı vurub sındırır ki, qəhvə yenə də tünddür! Və ya heç kimə gücü yetməyən, bir adamın yanında sözü ötməyən əlində silah oynadan bir killeri oynayır... Bütün bunlar isə bir insan ömrünün içində, bizim həyatımızda baş verir. Allah hamıya bu həyatı yaşatmır, amma aktyor belə ömür yaşayır.

– Kinodan yadınızda qalan maraqlı hadisələr, əhvalatlar...

– Mənim aləmimdə əfsanəvi kinoaktyor olan Həsən Turabov bir dəfə çayxanada üzünü mənə çevirib tapşırdı ki, Şamil, qaç, kinostudiyadan, stolun üstündən mənim mətnimi gətir. Dedi, çayı süzdü stəkana, yəni mən bu çayı içənədək gəl. Mən də o vaxt cavan idim, bu yolu bir olimpiyaçı sürəti ilə yüyürüb mətni götürüb, geri qayıtdım. Qaça-qaça bircə onu fikirləşirdim ki, mən bu mətni tez aparım Turabova verim, o mənə bir kəlmə desin və mən sabah institutda hamıya danışım ki, dünən kinoaktyorlarla oturub çay içirdim, Həsən Turabov idi, mən idim... O gündən uzun illər keçsə də, yadımda qalan ən gözəl kino xatirəsi budur.

*avqust – 2008*

# Xocalı – faciələrimizmn anası

*Göz yaşında çimən dünya,*
*Üzün-gözün təmizdimi?*
*Qalanların yaddaşında*
*Ölənlərin əzizdimi?*

***Ramiz Rövşən***

Eh, dünya, dünya... hara gedirsən, hara çağırırsan, hara aparırsan bizi? Haradır yolun, dünya? Susursan. Gör, bir nə soruşuram, dünya. Bu tökülən qanlar, günahsız qurbanlar, haqsızlıq, qəddarlıq, zülm... Kimindir bu günahlar, kim çəkəcək cəzaları? Dinmirsən. Barı eşidirsənmi? İnsan səsini eşitmir, kardır dünya! Kardır dağlar, düzlər, daşlar!

Xocalı – Qarabağın bir parçası. Böyüklüyünə, əhalisinin çoxluğuna görə şəhər adı verilmişdi ona.

Xocalılar – Qarabağın ermənilər yaşayan kəndləri ilə qonşuluq edən Azərbaycan türkləri.

Qarabağ uğrunda ermənilərin məlum torpaq iddiası – Xocalı dözür.

İddialara baş qoşulmayanda dönür olur baş ağrısı – xocalılar dözür.

Baş ağrıları ötüb keçmir, hədə-qorxulara çevrilir – xocalılar torpaqlarından əl çəkə bilmir!

Vəziyyət get-gedə ağırlaşır – xocalılar illərlə min bir əzab-əziyyət bahasına qurduqları ev-eşiklərindən soyuya bilmir...

Qaşınmayan yerdən qan çıxaranlar hər zaman doğulur. Bu zamanın qan çıxaranları qaşınmayan yer tapırlar – Xocalı!

Gün seçirlər – Fevralın 25-i.

Vaxtlarını təhtəlşüur olaraq anlayırlar – gecə!





* * *

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni-rus hərbi birləşmələri güclü silah, texnika ilə qəflətən Xocalıya hücum edir. Və... Əliyalın, dinc camaatı körpə, qoca, cavan, qadın demədən qanına qəltan edir. Bir yandan dizəcən qar, çovğun, şaxta – qışın ən sərt günü, bir yandan da silahlı ordu, amansız yağı, od, atəş. Yollar bağlı, əllər yalın... O gecə qar üstünə qan yağırdı... Qırğın! Bir millətin, bir xalqın soyqırımı. Əsrin ən dəhşətli insan qırğını. Aman yox, bağışlanan yox...

* * *

Bağışlanan – qərbədir elə deyilmi? Nə idi günahı xocalıların və niyə bağışlanmırdılar, görəsən? Yaşadıqları torpaq – dədə-baba yurdu Qarabağ! Xocalı-Qarabağ torpağı. Qırılanlar xocalılar, azərbaycanlılar. Qıran erməni-rus əsgəri. Niyə belə qırıblar onları? Bu, Xocalı faciəsindən xəbər tutanların dilinə gələn ilk sual oldu.

* * *

Vətən, Vətən... Zamanın heç bir zəhərli oxu səni yalamadan ötmədi. Bir dərddən də yan keçmədin. Yaxanı kim tanıtdı dərdə? Nə illah edirsən, əl çəkmir səndən. Ağlına gəlməyənləri başın çəkdi. Demə, əsrin ən böyük faciəsi də sənin qismətində imiş. Qarabağın məğrur Xocalısı dünyaya qanlı Xocalı kimi səs salacaqmış.

* * *

Torpağı, yurdu seçilən balalarına görə tanıyıblar. Bunu tarix çox görüb, adamlar da çox eşidib. Yurdu möhtəşəm sənət, mədəniyyət abidələri ilə, dağı, düzü, gözəlliyi ilə tanıyıblar. Bu da artıq adiləşib. Xocalını anaların, uşaqların eşidilməyən harayını udan gecəsi ilə, qana boyanan günü ilə, qırğını, dəhşətli faciəsi ilə tanıdılar. Tarix də çaşmışdı, adamlar da.

* * *

Ölüm ayağında bir inqilabçıdan soruşurlar: "Axı, bu azadlıq nədir ki, ondan ötrü canından keçirsən?" O gülümsəyir: "Bircə onu bilirəm ki, azadlıq hər şey deməkdir, hər şey".

Anlamını tapıb dillə deyə bilmədiyimiz o sözdən ötəri başımız çox çəkdi, lap çox. Oyunun qaydalarını, bu oyunda hansı şeytanın hansı anasının barmağı olduğunu bilməsək də, bir gerçəklik aydındır: xocalılar azadlıq qurbanlarıdır. Çünki imperiyaların qanla qurulduğu və qanla dağıldığı çoxdan məlumdur.

* * *

Xocalı – faciələrimizin anası. Dil deyib doyunca ağlaya bilmədik səni. Balaların qoydu ki... Bir-birinin dalınca düzüldülər.

Şahidsiz, sənədsiz olsa belə, bütün cinayətlərdə polis işçilərinin söykəndikləri bir gerçəklik var: hadisə yerində ən ehtiyatlı cinayətkarın da izi qalır. O iz hansısa bir xəfiyyə işçisinin gözünə dəyir. Cinayətkarların izi gec-tez özlərinə qarşı çevrilən fakta dönür. Tarix də belə faktları çox görüb, insanlar da. Tarixin qanunauyğunluğundan başqa, dünyagörənlərin də inamı var: bu dünyada hər dərisi soyulan öz ayağından asılır.

* * *

Xocalı faciəsinə bu gün verilən hər hansı siyasi, hüquqi, psixoloji... qiymətlərlə faciədən zərrə qədər də olsun əskilməyəcək. Elə ona görə yalnız faciənin iştirakçısı olan, sağ qalan xocalılara baş çəkdim. "Hər yandan tökülüşüb qırdılar bizi. Qəflətən atəş başladı. Hara gəldi qaçırdıq. Biz meşəyə yaxın idik. Kəndin başından bir nəfər də sağ çıxmadı. Hamını qırdılar, hamını..." Daha heç nə deyə bilmirlər. Nə desinlər? Göz yaşları içində elə hey təkrarlayırlar: "Nə idi günahımız axı?"

Mənə ox kimi tuşlanan sualları cavablandırmağı bacarmıramsa, sualı necə verim?





Balaca Pərviz yaxın gəlir: "Qayı yaya-yaya qaçıydıq. Məni qayla süyüyüydüləy. Yeyiyə bilmiydim. Hamını qıydılay". "R" deyə bilməyən balacadan bircə bu sözü soruşa bildim: Pərviz, sizi kim qırırdı?

– Eyməniləy, yuslay. Uşaqlayı niyə öldüyüydüləy?

* * *

Cavab ver, tarix. Cavab ver, zaman. Cavab verin, insanlar. Qanlı, qarlı günlərdə ayaqyalın, başıaçıq qaçıb canını qurtara bilən, bu gün isə universitet yataqxanasının soyuq küncündə dərdin, həsrətin sığal çəkdiyi Həsən dayı, Kazım qardaş, Almaz bacıya, o vaxt üç yaşı olan Pərvizə nə deyək? Necə deyək ki, günahınız nə idi?

* * *

Yazırlar ki, Braziliyanın Makat adlı bazarında insan əzaları satılır və sifariş qəbul edilir: "Mənə 14 yaşlı qız ürəyi lazımdır..." Təsəvvür edirsinizmi?! Nə istəyirsən, insan? Ən zərif sənət, mədəniyyət əsərini, abidəsini yapan da insan, qandan, göz yaşından doymayan, ən qəddar canlı da insan, insan...

1992-ci ilin fevralından, Xocalı faciəsindən illər keçir. Allah cəmi dünyasını dəyişənlərə rəhmət eləsin! Bu sözlərdən sonra yazıya nöqtə qoymaq olardı. Əgər... Əgər bu faciə təsadüfən olsaydı. Əgər bu, terror, qətliam olmasaydı...

İnsan qanında əl-üzünü yuyanlar, barı təmizlənə bildinizmi?

***P.S.*** Bu dünyada otun, suyun, torpağın, otağın, yatağın... da yaddaşı var deyir şairimiz. Bəs adamlar? Adamların necə, yaddaşı varmı?

***P.P.S.*** Sinoptiklərin verdiyi xəbərə görə, fevralın 24-dən başlayaraq, Azərbaycan ərazisində havaların kəskin soyuyacağı gözlənilir. Onsuz da fevralın axırı üşüyürük, yaman üşüyürük...

*fevral – 2000*

# Mərkəzi poçtxanaya məktub

Heç nə, heç nə adamın özündən asılı deyil. Nə yazmaq, nə də yazmamaq. Niyə yazıram sualına verilən cavablar əslində yüz cür yalandan başqa bir şey deyil. Niyə yazdığımızı bilmədiyimiz kimi, haçan nə yazacağımızı da bilmirik. Bu yazı əslində çoxdan yazılır.

Bir gün qabağımı kəsəcək ölüm!
Zərrəcə eynimə gəlmir ölməyim!
Elə utanıram, gələsən, gülüm,
Sənin ayağına dura bilməyim!

Bu utancaq misraların yazıldığı gündən başlanır bu yazı. Di gəl, hər yazılan yazının üzünü tezcək köçürmək olmur. Nəyi isə gözləyirsən. Nəyi?

Günlər ayları, aylar illəri qova-qova axırı namərd etdi. Ağla gəlməyən vaxtda, namərd bir gündə mərdliklə üzə çıxdı bu yazı.

* * *

Şahmar adı gələn kimi hamı soruşur, hansı? Ədəbi-mədəni mühitimizdə üç çinarımız vardı. Heç birini qoruya bilmədik. Heç özləri də qorunmaq istəmədilər. Zamanın küləyi – qarı, boranı – tufanı, həsrəti-möhnəti çinarlarımızı erkən yıxdı. Biri yıxılınca qalanının boynuna sarıldı, ayırdı, təklədi, üçünün də axırını gördü dünya. Şahmar Hüseynovu, Şahmar Ələkbərovu, Şahmar Əkbərzadəni – yazıçımızı, aktyorumuzu, şairimizi əlimizdən qəfil qopardı dünya. Görünür, Tanrı da ruhların təmizini, bəndələrin dincini istəyir.

* * *

Əkbərzadənin "Heç Şahmar adlı da şair olar?" gileyini eşitmişdim. Amma...





Dağ başında arxa bilib qar qarı,
Zirvələrə yaxın qoymaz baharı.
Şahmarlardan seçən olsa Şahmarı,
Bu dünyanın qara daşı göyərər.

Bu Şahmarı seçməmək çətin idi. Adamların arasında boy-buxunlu, gur səsli, qıvrım saçlı, ötkəm bu köhnə kişini, yazanların içində "Ədəbiyyatda şair Bəxtiyar qalacaq, Şahmar yox" – belə ürəkli şairi necə görməyəsən?

Tutulub göylərin qaşı-qabağı,
Dindirə bilmirəm şahid qovağı.
Soruşa bilmirəm ayrılıq çağı
Arxamca gözləri dolanım hanı?

Təəssüf, heç kimin yox, elə özünün kölgəsi çox vaxt belə həzin-həzin danışan kövrək ürəyi gizlətdi. Yenə təəssüf, bu ürəyi ürəyincə dinləyə bilmədik. İstər həyatda, istər ədəbiyyatda hay-küylərin içində belə zərif, incə səslər həmişə itib-batır. Hər cür yüksək – alçaq səsə hazır qulağımız ürəyin səsini heyif ki, hələ aydın eşitmir...

* * *

Belə deyirlər, qadını yaradandan sonra Allahın dincliyi yoxa çıxdı. Şairlər isə Tanrının heyrətini əlindən aldı. Canlı-cansız, ruhlu-ruhsuz aləmin dilini elə doğulan kimi bilən şairlər "əl aparıb qan gətirdi". Hər sözün ipini, hər olar-olmazın niyəsini axtaran bəndəmi olar? Bu qədər suala cavabmı var?

Olarmı təcili teleqram verim,
Qönçə balaları solan güllərə?
Öpüş sovqatım var, necə göndərim,
Çörəkli çöllərə, barlı çöllərə?

Bu misralarda göz önünə gələn təkcə poetik lövhələr deyil. Əslində bunlar dünyanın mizanının sındığı, əyildiyi yerlərdi. Onu şair bizim də, Tanrının da yadına salır. Əslində dünyaya sığmayan

bir şairin bir anlıq bəndə olan vaxtı yazdığı bu misranı bəndəliyimizi anlayanda zəif, gücsüz bir səslə pıçıldayırıq. Bizim bəndəliyimiz haracandır? Onun bəndəliyi isə çox sürmür və... "Dünya bu şairin də üstündən yol elədi" (V. Bayatlı). Dünən də beləydi, bu gün də belədi... Bununla belə, yola dönənlərin yolunda bitən təzələr daha tərs, daha inad, daha ərköyün uşaq olurlar!

* * *

"Dünya sənin, dünya mənim, dünya... heç kimin. Şahmarın da çox sevdiyi bu misraları yazıb dayanıram. Dünya... heç kimin. Şahmarın ölümü böyük Məmməd Arazın bu fikrini bir daha mənim üçün təsdiqlədi. Kövrəldim. İçimdən gizilti keçdi. Şahmar yoxdur. Sabah biz də olmayacağıq. Bəs qalan nədir?"

Bilqamısdan, Dəli Domruldan, kimdən kimdən, sonra bu sualı indi də Polad Bülbüloğlu verir. Tanrı eşidir, Tanrı görür. Yüz illər, min illər ötsə də, görür ki, insan – onun yaratdığı Allaha qul olur, amma bəndəliyinə yox. Bilqamısın güclə ələ gətirdiyi həyat çiçəyini ilan yeyə, Dəli Domrul vuruşub-döyüşüb uzağı iki can artıq qazana bilər. Amma olumlu-ölümlü dünya haqda deyilənlərin, yazılanların, öyüd-nəsihətlərin heç biri insanın ipini yığmır, əlini soyutmur, ruhunu kiritmir. İnsandan insana, insandan dünyaya qalan da elə bu dönməzlik, ölməzlikdir.

Bir utanc qurumu qurardım hökmən,
Əgər olmasaydı məni qınayan.
Yerlərdən, göylərdən utanıram mən,
Utanım yerinə, ay utanmayan!

Şairin taleyi misraların ömründən asılıdır. Başqa heç nədən yox.

* * *

Dəfələrlə onunla görüşə bəhanə tapdım, nəzərdə tutduğum neçə-neçə müsahibənin, söhbətin, yazının ilkin variantını fikrimdə hazırladım. Di gəl...





Qollu-budaqlı bir yeddi arxa dönəni olduğunu eşitmişdim. Babalarını yaxşı tanıyan Şahmar Əkbərzadənin özü "Şəcərə"də danışmaq istəmişdi. Araya şeirləri düşdü. Dedim, azca ötsün...

Çəlləkdə böyük ədəbiyyat yaratmaq arzusunda olanlardan əlim üzüləndə bir dəfə də "babaların sizə əmanət etdiyi Vətən hanı?" – deyib qapısına getmək istədim sözün əsl mənasında vətəndaş şairimizin. Yenə araya təzə yazdığı şeirlərin çapı düşdü. Dedim, azca ötsün...

Ötən ilin bu vaxtı, yayın çıxhaçıxında jurnalistikanın problemləri ilə bağlı qəzet üçün material hazırlayırdım. Çağdaş media kapitanlarını axtaranda telefon kitabçasında Şahmar Əkbərzadə adının qarşısında olan 39-la başlayan nömrələri yığdım. Dəstəkdən eşitdiyim yorğun kişi səsini tanımadım:

– Bağışlayın, "Mədəniyyət" qəzetinin redaksiyasıdır?

– Xeyr, "Mədəniyyət" qəzetinin baş redaktorunun evidir. Buyurun, eşidirəm sizi.

– Salam, Şahmar müəllim,– deyib duruxdum. Onu baş redaktor kimi axtarırdımmı? Əslində niyə onu axtardığımı heç bilmirdim. Şairlə qəzetçiliyin dərd-səri ilə bağlı danışmaq istəyirdimmi? Hər halda ona belə dedim.

– Özümü nəsə bir az yaxşı hiss eləmirəm. Qızdırmam da var, deyəsən. Danışa bilmirəm nəsə. Bunu deyib duruxdu. Gileylənməyə öyrəşməmişdi, yoxsa elə darıxırdı, bilmədim. Dərhal sezdiyim əzginliyini aradan götürmək istədim:

– Keçmiş olsun. Bəs deyirlər, şairlər heç nədən qorxub eləmir.

– Yox, qorxmuram. Amma elə bil təzyiqim də qalxıb. Yəqin ondandır.

– Bağışlayın, sizi rahatsız elədim.

– Yox, sən bağışla. Adamı axtaranda sevinir. Sən belə elə, sabah, sabah olmasa da o birisi gün işə zəng vur, nə qədər sualın var, cavab verim. Oldumu?

Onun səsindən istər-istəməz adama keçən narahatlığı özümdən qovub qəsdən başqa fikirlərə ayaq verdim: danışmaq istəmirdi, yəqin ona görə xəstəyəm dedi. Nə olub xəstədir? Maaşallah, div kimidir. Amma ürəyim telefonun o biri üzündə qalmışdı.

Bu söhbətimizin tarixi ömürlük yadıma yazılıb: 30 avqust. Bir gün sonra eşitdiyim xəbərlə şair sözünü doğrultdu. Demə, çoxlarının həsəd apardığı boy-buxun, görkəm də aldadıcı imiş. Nə sabah, nə də o birisi gün iş yerindən onun səsi gəlmədi. Suallarım əlimdə qaldı. Neçə dəfə sizi axtardım, hər dəfə şeirləriniz macal vermədi, Şahmar müəllim. Heç nə təsadüfi deyilsə bu həyatda, onda sizin səcərəniz, söhbətiniz, müsahibəniz, hətta sualları eşitməsəniz belə, cavablarınız da elə şeirlərinizdir:

Ona qəhmər durmaq, əl tutmaq çətin
Baharım elə bil payıza döndü.
Qanım elə qaçdı, sirim-sifətim
Ağappaq ağarıb kağıza döndü.

Ağac dönməliydi dümağ varağa,
Eh, onun qədrini kim biləcəkdir?
Göylərə baş çəkən bu ucalığa
Bəlkə də birisi əl siləcəkdir!

Sabah da, sabah yox, o birisi gün də şairin səsini kəsə bilməyəcək. Tanıyanların qulağına onun gur səsi hələ çox gələcək. Sabahkı balalar isə kövrək, incə nəfəsi ilə onu seçəcək, tanıyacaqlar.

* * *

Hələlik isə... Yayla payızın sərhədindən hələ bir il uzaqlaşmışıq. Bu bircə ildə iki kitabı işıq üzü görüb. Dağ boyda adamın ürək boyda kitabı elə özündən sonra çıxa bilərdi. Arzusunda olduğu bu cırtdan kitabının adını vaxtilə da özü qoyub: “Sev məni”. Bir də “Şahmar dünyası”. Bu kitabın hər səhifəsində görünən Şahmar hamıdan bütöv, hamıdan diri, hamıdan gümrahdır.

* * *

Bu bir il hələ heç kimə onun yoxluğunu inandıra bilməyib. Amma xatirə danışmağı heç özü də bacarmırdı. Aydın Məmmədovun özündən başqa yaxın dostlardan hamının iştirak etdiyi yubileyində





onun kövrəldiyini, ən əsası dinməzliyini gördüm. Söz verildi, amma o tutulub qalmışdı. Deyəcəyi ən tutarlı sözün, ən isti kəlmənin Aydın boşluğunu doldura bilməyəcəyini bilə-bilə nə desin axı? Yerdən ona ürək verdilər, “Mərkəzi poçtxana”nı yadına saldılar. Azca duruxub, sonra şeiri oxudu. Amma könülsüz, amma inamsız, amma ürəksiz.

* * *

Özü görən bildimi, şair Şahmar Əkbərzadəni soruşanlar, onsuz darıxanlar, sözünü, ürəyini vaxtında özünə çatdırmağa macal tapmayanlar sabah, ya da sabah yox, o birisi gün suallarını toplayıb cavab axtaranlar, hələ çoxları bu misralara təkrar-təkrar üz tutacaq, ağ kağız üstündə qaralan postxanadan kömək umacaq:

Mərkəzi poçtxana, əlac et yenə,
Havayı düşməyib buraya yönüm,
Pənah gətirmişəm könlümü sənə,
Bir gör neynirsən, gözünə dönüm.

*sentyabr – 2001*

## Həsənağa Turabov: “Tamaşaçılar çox dəyişib...”

– Teatr Xadimləri İttifaqı son illər iri miqyaslı tədbirlər keçirir, sənətin dirçəlməsinə çalışır. Amma sənətsevərlərin, sənətçilərin arzuları daha çoxdur. Bəs bu ittifaqın imkanları, gücü haracandır?

– Teatr Xadimləri İttifaqı bütün aktyorların evidir – bu sözü dönə-dönə təkrarlayıram. İstəyirəm ki, siz mətbuat işçiləri üçün də bura bir doğma ocaq olsun.

– Sənətsevərlərin bu ocağına dövlət büdcəsindən vəsait ayrılırmı?

– Xeyr. Bu ocağın dövlətə dəxli yoxdur, biz ictimai təşkilatıq. Bütün tədbirləri, layihələri özümüz gerçəkləşdiririk. Ona görə gücümüz yetən tədbirlərə dəstək veririk.

– Teatra qayıtmaq, Ağa Məhəmməd Şah Qacar obrazını oynamaq istəyinizi demişdiniz...

– Bəli. Rejissor Vaqif İbrahimoğlunun hazırlayacağı bu tarixi tamaşanın araya-ərsəyə gəlməsi, məşqlərinin başlanması üçün bir xeyli maddi vəsait tələb olunur. İnşallah, gələn il bizdən asılı olmayan çətinliklərin düzələcəyinə, bu işimizin alınacağına inanıram.

– Səhnəni, elə sənəti də yaxşı tanıyan Həsənağa Turabov çağdaş teatr aləmində hansı proseslərin getdiyini müşahidə eləyir?

– 20 il bundan qabaq gözəl sənətkarlarımız Mehdi Məmmədov, Adil İsgəndərov, Tofiq Kazımov dünyalarını dəyişəndən sonra sənət cavan nəslin öhdəsində qaldı. İndi onlar çox peşəkar rejissor, aktyor olublar. Mən bax, bu yeni rejissor nəslinə, onların peşəkarlığına güvənirəm.

– Amma teatr sinkretik sənətdir...

– Bəli. Ona görə də birinci yerdə dramaturgiya dayanır. İkinci rejissor işidir, üçüncü aktyor, dördüncü yeri rəssamlar, beşinci yeri bəstəkarlar tuturlar. Bu beş şərt – lotereyanın uduş nömrələri kimi bir-birini tamamlayanda böyük teatr sənəti yaranır. Yəni, çox dəyərli, qiymətli bir tamaşa səhnədə görünür və bütün sənətsevərlər udur.





– Onda bu gün bizim sənətimizdə bu beşlikdən ən çox hansı axsayır?

– 60-cı illərdə əgər İlyas Əfəndiyev Azərbaycan teatrına gəlməsəydi, ümumiyyətlə, bizim bu sənət növü olmayacaqdı. Bu sözümün dəqiqliyinə tamamilə əminəm və təkrar edirəm ki, nə yaxşı İlyas Əfəndiyev teatra gəldi. O vaxt teatrda rejissor Tofiq Kazımov olmasaydı, İlyas Əfəndiyevlə bir yerdə onların duetləri yaranmasaydı, bu gün yaxşı heç nə olmayacaqdı. Əgər bu iki tarixi şəxsiyyət olmasaydı, başda Həsənağa Turabov olmaqla bir çox aktyorların bağlandığı, boy atdığı teatr ocağı da qalmayacaqdı. İnanıram ki, təzə peşəkar rejissorlar öz ustadlarının işini davam eləyə biləcəklər. Bu gün teatrımızda Anarın, Elçinin əsərləri oynanılır. Düzdür, mən Elçinin heç bir pyesində iştirak etməmişəm, amma o, mənim ən çox sevdiyim bir dramaturqdur.

– Təcrübənizin sayəsində yəqin tamaşaçıları da tanıya bildiniz.

– Tamaşaçılar indi çox dəyişib. Qabaq qəribə bir tamaşaçı modeli vardı. Mən səhnəyə çıxanda salona baxırdım – zal Azərbaycanın ən gözəl çəmənliyinə, çiçəkliyinə bənzəyirdi. Qadınların geyimi ilə, tamaşaçıların üzlərində bir xoş təbəssümlə... Səhnə elə bil təbiətin qoynunda qurulmuşdu, hara baxırdınsa, gözün gözəllik görürdü. İndi bu gözəllik yoxdur – təsəvvür edirsinizmi? İndi zalda əyləşənlərin, tamaşaya gələnlərin üz-gözlərindən yorğunluq yağır. Səhnədən baxanda tamaşaçının hansısa ağır bir işdən gəldiyi görünür. Bax, bu yorğunluğu görməyi dünyanın heç bir aktyoruna arzulamazdım.

– Bəs belə ovqatlı tamaşaçı səhnədən nə istəyir?

– Bizim gözəl aktyorlu, tamaşaçılı günləri ömrümün ən xoş anları kimi xatırlayıram. İndi tamaşaçıların əziyyəti səhnədəki aktyorlara da təsir eləyir. Yəni görürsən ki, tamaşaçı səninlə görüşə dincəlib gəlməyib, teatrı istirahət üçün seçməyib.

– Bəs nəyə gəlib?

– Düşünmək üçün harasa getmək istəyirlər, amma hara? Sarayda düzənlənən tədbirlərin qiyməti adi tamaşaçı üçün çox bahadır, ora hamı gedə bilmir. Ona görə saraya gedənlər yenə əvvəlki kimi gözəl geyinir, bəzənir, amma teatra gələnlər yox. Onlar düşünmək üçün teatrın kürsüsünü seçirlər.

– İndi avropalıların xarakterinə daha çox uyğun olan psixoloji teatrın bizim ruhumuza uyğun olmadığını deyənlər gün-gündən çoxalır.

– Hüseyn Cavidin bütün dramları tamaşaçılara doğmadır, istər "Şeyx Sənan"ı, istərsə də "İblis"i olsun. Bu tamaşaların seyrçiləri heç vaxt az olmayıb. Amma bu gün əksinə, tamaşaçını zorla güldürmək cəhdi yanlışdır. Lağlağıyla səhnənin ətrafına tamaşaçı toplamaq olmaz. Ona görə İlyas Əfəndiyevli, Tofiq müəllimli günlərimizi unuda bilmirəm. O illəri ömrümün, teatrımızın, sənətin ən gözəl günləri kimi xatırlayıram.

– Bəs çıxış yolu nədir? Şəxsiyyətlərin doğulmasınımı gözləyək?

– Dövr yetişməlidir. Okeanda, dənizdə dalğanın qabarmağı, bir də çəkilməyi olur, eləmi? Teatr da belədir – qabarma, çəkilmə dövrünü yaşayır. Böyük sənətkarlar dünyasını dəyişəndə dalğa səngiyir, onların yerini təzələr tutur – qabarma başlayır. Artıq o təzələr yetişiblər, beş-on il arası sənətin qabarması hökmən görünəcək. Teatr sənətimizin çox-çox yüksəklərə qalxacağına inanıram.

– İdmançının ulduzu tez sönür, deyirlər. Yəni onlardan uğur çox tez üz döndərir, çox zaman öyrəndiklərini xərcləməyə fürsət belə tapmırlar. Aktyorları necə, yaş qorxudurmu?

– Baletdə yaşlandıqca qalmaq çətindir. Çünki səhnədə olmaq üçün çoxlu enerji, qüvvə tələb olunur. Dram aktyorları üçün də səhnədə olmaq asan deyil. Amma biz səhnəni yaşlandıqca yox, sağlamlığı itirdiyimizə görə tərk eləməli oluruq. 70 yaşlı aktyor əgər sağlamdırsa, hələ səhnə də onun olacaq, tamaşaçı alqışı da.

– Bəs illər ötdükcə səhnənin adiləşməyi necə, olurmu?

– Yox! Aktyor bir rolu hər gün eyni cür oynamır. Dünən oynadığı dünənki təcrübənin, ovqatın məhsuludur, bu gün isə bir başqa. Ona görə səhnə də, tamaşaçı da, qazandığın alqışlar da hər gün təzə olur, lap təzə...

*noyabr – 2002*





# ANAR

...Ona verilən ən çox suallardan biri adının yozumuyla bağlıdır. Əslində bu adı belə də yozmaq olar:

**A**VANQARD
**N**AĞILÇI
**A**VTORİTET
**R**ASİONAL

Anara münasibət iki cürdür: onu sevənlər və sevməyənlər. Amma Anarı bu ölkədə tanımayan yoxdur, Anarı sevənləri iki yerə bölmək olar: anlayıb sevənlər, anlamadan valeh olanlar. Amma onu axıracan dərk eləyən, sinirə bilən cəmi 3-5 dostu var.

Anarı sevməyənləri şərti olaraq və bəlkə də qeyd-şərtsiz min yerə bölmək olar. Bəziləri onu R.Rzanın oğlu olduğuna, bəziləri də Rəfibəylilər nəsli ilə tarixi ədavətlərinə görə sevmirlər. Kəndçilər şəhərli, bakılılar göyçaylı, siyasətçilər nasir, ədəbiyyatçılar Yazıçılar Birliyinin sədri olduğuna görə və... göz-götəti sevmirlər.

Bütün bunlar on il, iyirmi il qabaq da belə idi, indi də elədir. Bu illər ərzində Anarı sevənlər və sevməyənlər arasındakı tənasüb gah artıb, gah da azalıb. Anarsa dəyişməyib. Dünənəcən belə idi, bu günsə Anar dünənkinə oxşamır. O, bir az əsəbi görünür. Hər xırda replikaya, qəzet eyhamına, hər qələmin ucu boyda jurnalistə acıqlanır, mətbuatda, ekranda, efirdə onların cavabını verməyə can atır. Verir də! Sonra... Bu cavablara yeni cavablar doğulur, yeni emosiyalar yaranır... Bir sözlə, ona yaddan çıxmağa heç cür imkan vermirlər. Hətta ünvanına yönələnləri sükutla qarşılamağı da işə yaramır – buna da rəng vurulur, bəzənir, üstündə işlənir...

Arxayın olun, Anar müəllim, müasirləriniz sizdən heç sizsiz də əl çəkməyəcək. Hədəfdə həmişə istedad durur. İstər cavanlıqda, istər ixtiyar vaxtında, istərsə də dünyasını dəyişəndə. Bizdə yalnız güclülər mühakimə olunur.

* * *

– Bir gənc jurnalistin tanınmış yazıçı ilə görüşə gedərkən keçirdiyi hisslər sizə doğmadır. Maraqlıdır, bəs Anar müəllim bir gənclə söhbətə hansı hisslərin təsiri ilə razılıq verir?

– Çox şadam ki, gənc bir jurnalist mənim fikirlərimlə maraqlanır.

– Bir gənclə söhbət üçün qəribsədiyiniz vaxt olurmu heç?

– Vallah, qəribsəməyə imkan olmur. Jurnalistlər mənə o qədər müraciət edir, müsahibə götürürlər ki, darıxmağa ta vaxt qalmır.

* * *

Bu yaradıcılar həmişə ilkin təsəvvürümüzü alt-üst edirlər. "Ya olduğun kimi görün, ya göründüyün kimi ol". Yox, onlar nə göründükləri, nə də olduqları kimidir. Hərdən adama elə gəlir ki, onları tanımaq üçün gərək yazısına bələd olasan, yazdıqlarını yaxşı-yaxşı öyrənəsən. Yox, bəyəm onlar təkcə öz yazılarını yazırlar?

Axı min-bir əziyyətlə qurduqları lağımla özləri ürəyimizə yol çəkir, əllərinə düşəni gətirirlər, axı, özləri bizi axtarır, tapır, çağırır, sonra da qəsdən azdırır, çaşdırırlar... Bəlkə bu da bir oyundur? Şüurların, hisslərin, duyğuların, enerjilərin oyunu!

Bəlkə yaradıcılıq elə allahlıq, allahlıq elə yaratmaqdır? Onda Yaradan bu dünyadan – dərddən, kədərdən, sevincdən, adamlardan – nə istəyir?

* * *

– Söhbət etdiyiniz gənclər haqda təəssüratınız necə olur?

– Bütün gəncləri eyni cür səciyyələndirmək olmaz. Elə cavan var, görürsən, həqiqətən yaradıcılığınla maraqlanır. Elə suallar qoyur ki, sən də həvəslə cavab verirsən. Eləsi də olur, quş qoymaq üçün gəlir. Və ya məlum şeyləri soruşur. Heç mənimlə görüşmədən də o suala cavab tapa bilər.

– Gənclikdə bütün gözəlliklərlə qoşa elə bir zərərli cəhət varmı ki, Siz bizim ondan uzaq olmağımızı diləyirsiniz?





– Cavanların bəzilərində gördüyüm bir təhlükə var. Bu da yekəxanalıqdır. Özlərindən əvvəlki nəsillərə yekəxana, təkəbbürlü münasibətdir. Bu əvvəlki nəslin gördüyü mühiti, şəraiti bilməməkdən irəli gəlir. Dünyadan xəbərləri yoxdur və bu günün icazə verilmiş cəsarətindən ağına-bozuna baxmadan istifadə edirlər. Ümumən, mən gənc jurnalistlərdə daha kəskin söz demək arzusunu müşahidə edirəm ki, bu da yaxşıdır.

– Dediyiniz yekəxanalığı, lovğalığı bütün dövrlərin gəncliyi üçün xarakterik hal hesab edənlər də var...

– Gəncliyin o qədər xarakterik xüsusiyyətləri var ki... Niyə elə pisləri götürüb yaşadaq? Gəncliyin xüsusiyyətləri arasında güclü enerji, biliklərə yiyələnmək ehtirasının çox olması, fiziki imkanların artıqlığı, daha çox görmək, müşahidə etmək imkanı var... Bu cəhətləri mən daha qabarıq görmək istəyirəm. Özü də bir müşahidəm var: insan qabiliyyəti çox olanda daha təvazökar, az olanda isə daha yekəxana və təkəbbürlü olur.

* * *

"Əgər adamlar başa düşsəydilər ki, beşmərtəbəli binanın altıncı mərtəbəsi də ola bilər, onda nə vardı ki..."

(*"Beşmərtəbəli binanın altıncı mərtəbəsi"*)

Biz klassikləri yalnız yaratdıqları ilə tanıya bilərik. Əslində onları şəxsən tanımaq şansını bir kərə itirmişik – dünyaya gələndə! Amma hər nəslin bir səadəti də olur – müasirlərinə bələd olmaq, onlar haqda subyektiv qərar vermək. Bu subyektiv hökmlər nəsildən-nəslə ötürülür, yaradıcıların özləri, şəxsiyyətləri haqqında söz-söhbətə, rəvayətə, əfsanəyə çevrilir... Xalq öz şifahi ədəbiyyat yaradıcılığını bu gün də yaradır, bu ənənələri indi də yaşadır. Bu baxımdan, seçilən hər müasir yeni bir əfsanədir. Yaradıcı ömürlüyünü bütün şəffaflığı ilə ortaya qoysa belə, bu əfsanə yaranır. Yarananın gözəlliyi gözləri qamaşdırır, amma qapamır, dilləri qurudur, amma suallar səngimir: Bəs yaradan? Hamı onu axtarır. Yaradanı tanımaq, qavramaq istəyir. Müasirlərə müxtəlif rakursdan yanaşma da bu qavrama istəyindən, onu axıracan tanımaq, duymaq arzusundan yaranır.

* * *

– Cəmiyyətdə axına qarşı üzmək həmişə çətindir. Millətçilik havasında bəşəri söz demək, kosmopolit bir dünyada milli təəssübkeşlikdən danışmaq asan olmur. Bu günün tendensiyası necədir?

– Əksinə, son on ildə milli hisslərlə bağlı təmayüllər daha qabarıqdır. Sovet dövründə milli hisslərdən bu qədər danışmaq mümkün deyildi. İndi hamı danışır. Ümumi tendensiya kimi bu, çox yaxşıdır. Çünki hər kəs öz keçmişini, tarixini mənimsəməli, bilməlidir. Amma bunun o biri tərəfi də var. Başqa xalqlara etinasızlıq, mədəniyyətlərə soyuqluq halı pisdir. Öz milli dəyərlərini sevmək heç də başqa xalqa qarşı olmaq deyil.

– Milli kök və yaradıcılıq mütləq bir-birini tamamlamalıdır?

– Yaradıcılıqda milli köklər vacibdir. Çünki milli dəyərlərə arxalanmadan, xüsusən ədəbiyyatda ana dilinin şirəsini duymadan yazmaq, yaratmaq çox çətindir. Ancaq milli adət-ənənələrdən bir addım kənara çıxan kimi, "yoldan çıxmısan" deyənlərlə razı deyiləm.

* * *

"Kim bilir? Bəlkə də... Bəlkə doğrudan da belədir. Bəlkə varlığın izahsız Vaxt düzümündə İndi yoxdur, yalnız Keçmiş və Gələcək var: Olmuşlar artıq olmuş, Olacaqlar hələ olacaq, onların – Arxadaqalanla İrəlidəkinin – rastlaşdığı yer, toqquşduqları nöqtə isə mövcud deyil..."

(*"Sizsiz"*)

* * *

– İstedadlı adamlar bir-birinin varlığına yalnız sevinə bilər, deyirlər.

– Həqiqi istedadlardan söhbət gedirsə, belə də olmalıdır. Yaradıcı rəqabət də, yaradıcı yarış da olmalıdır. Yaradıcı adamlar bir-birinin uğurunu görəndə ilk növbədə sevinməli, sonra "çalışım, bundan yaxşısını yazım" deməlidirlər. Sağlam fikir budur.

– Yaşın və sənətin elə həddindəsiniz ki, sizə aşağıdan yuxarı baxanlar var. Buracan gəlməyin və hələ dözməyin də öz faciəsi varmı?





– Faciəsi yox, çətinliyi var. Amma mən sizin ifadə ilə razı deyiləm ki, mənə aşağıdan yuxarı baxanlar var. Hesab edirəm, heç kim mənə nə aşağıdan yuxarı, nə də yuxarıdan aşağı baxmalıdır. Çünki hər ikisində bir köləlik əlaməti var. İnsanların bir-birinə münasibəti bərabər olmalıdır. Siz jurnalistsiniz, mən yazıçı. Siz mənə hörmət edirsiniz, mən də sizə. Biz bir-birimizə niyə aşağıdan yuxarı, ya əksinə baxmalıyıq?

– Yolu başacan gəlməyin faciəsi yox, çətinliyi var, dediniz və elə bil dərhal da ötüb keçdiniz. Bu çətinlikdən niyə heç danışmadınız?

– Çətinlik bir deyil, iki deyil... Sovet quruluşu, senzura, Azərbaycan dövrünün özünün şəraiti...

* * *

"...Çöl dünyamızdan içəri dünyamıza gəlmək istəyən hər yeni insanı, ideyanı, təəssüratı sərhəddə, çək-çevirə salırıq, yüz ölçüb, bir biçirik – bu gələn kimə, nəyə bənzər? Casus kimi, çuğul kimi gəlir – içərimizi ələk-vələk edib bizi "aləmə demək" üçün? Pozucu kimimi gəlir – içərimizdə tikdiklərimizi, qurduqlarımızı dağıdıb tar-mar etmək üçün? Yaxud gələcək söhbətlərinə, qeybətlərinə yem axtaran, qida gəzən yüngülməcaz bir maraqlı kimimi?"

(*"Sizsiz"*)

Gendən qapalı adam kimi görünür...

Ağlına gələn hər bəhanənin ətəyindən tutub qapısını döymək olmur...

Hər vaxt müsahibəyə razılıq vermir...

Söhbətə asanlıqla razılıq versə belə, bu görüşün vahiməsi adamı basır...

Adamı nəzakətlə dinləyir, suallara birnəfəsə cavab verir...

Ovqatını gizlətməyə çalışır...

Sentimental adamdır, amma hazırcavablığı, rasional düşüncəsi ilə bunu gizlətmək istəyir...

Şeirlərini çox gec üzə çıxardı – amma onun şeir yazmaması qəribə olardı...

Sözü sözdən ayırsa da, özünü sözdən ayırmağa əli gəlmir...

Ən yaxın dostu Yazıdır. Bu dostluğu sədaqətlə qoruyur...
"Özümə münasibətim pis deyil, xüsusilə başqalarına baxanda". Onun üçün yazıçı-dramaturq, publisist-rejissor, tənqidçi-etnoqraf, deputat-sədr-qorqudşunas, oğul-ata Anar yoxdur. Sadəcə Anar var.

* * *

Bəlkə də yazıçımız bu yazını oxuyub təəccüblənəcək, bəlkə də bir oxucusu hansısa sualına cavab tapmadığına görə təəssüflənəcək. Sualların daha dəqiq cavabları Anarın nəsrində toplanıb.

Və sual demişkən, Anar müəllim, hələ də soruşurlarmı, "torpağı əkməsən qorumağa, qorumasan əkməyə dəyməz" sözləri Dədə Qorqudundur, yoxsa Sizin?

*noyabr – 2001*





# Günaydın, mələyim, kino başladı...

"Biz heç nə eləyə bilmədik... Mən tək qalmışam..." Oqtay Mirqasımın yeni – "Günaydın, mələyim" filmi bombardmanda güclə eşidilən bu kəlmələrlə başlayır. Milli kinomuzun daha bir müharibə kadrı ekranda canlanır: qan içində olan səngərlər, əli silahlı şəhidlər və gözünü doğmalarına, ekranın bu üzündən ona baxanlara dikib Vətənə borcunu canı ilə ödəyən zabitin son sözləri: "Məni bağışlayın..." Qırıcıların səsi qulaqlardan itməmiş kino sehri ilə həyatın sonundan başlanğıca, ölümdən həyata qayıdırıq. Müharibə həyatından uzaq bir dünyanın simvolu olan körpə beşiyi! Onu görməyinə nə qədər sevinsən də, körpənin kadra təsadüfən düşmədiyinə kədərlənirsən... Müharibə dinc dünyanın bu sevimli qəhrəmanını atasız, yiyəsiz, sevincsiz və qanuni sənədsiz qoyub. Demə, onun döyüşə tələsən atasının rəsmi nikaha girməyə vaxtı olmayıb!

Bir-birini əvəzləyən ziddiyyətli kadrlar, getdikcə dərinləşən dramatizm və tək qalan Anaya (Ayan Mirqasım) dikilən nəzərlər... O, yaşamalı, qucağındakı balasını yaşatmalıdır. Amma necə? Bax bu sualla da tamaşaçı filmin heç də müharibə mövzusundan bəhs etmədiyini anlayır. İlk kadrda canlanan bombardmandan yan ötüb mənəvi müstəviyə keçən hadisələrin axarı bizi adi şəhər həyatı ilə qarşılaşdırır. Əslində, ekranda görünən personajların hamısının prototipləri tanışdır: insan taleyi ilə aşıq-aşıq oynayan müdirlər, qadın qüruru və ləyaqəti anlayışına, analıq hissinə gülməyi gələn həmkarlar, aclığın, kimsəsizliyin sınağından xəbərsiz qonşular, danışmağa həmişə söz tapan tanışlar...

Ekranda görünən bu simaları tanımaq asandır. Bu tanış sifətlərdən yorulduğumuzu görən müəllif bizi gerçək həyatda fərqinə varmadığımız biri ilə tanış edir: "Ədalət deyilən şey yoxdur, uydurmadır. Şəxsən, mən onu görməmişəm. Ədalət yoxdursa, onu axtarıb tapmaq da mümkün deyil. Bilirsən nəyə görə? Ona görə ki, hərənin öz ədaləti var".

Məhz belə bir qəhrəmanın Azərbaycan kinosuna gəlişini həmişə arzulamışıq. Məsələ rasional düşüncədə, ağıllı, humanist fikirlərdə deyil, əsas məsələ bu sözlərin kimin dilindən səslənməsidir. Dərdini götürüb din xadiminin yanına gələn, onunla bölüşdüyü bir-iki kəlmə ilə təsəlli tapanları dünya kinosunda yetərincə izləmişik. Nədənsə milli kinomuza gələn din təmsilçiləri kömək əvəzinə, həmişə real vəziyyətdən sui-istifadə edirlər. Elə bu baxımdan da, ədalət axtaran qadının bir vaxt kəbinlərini kəsən kişinin yanına gəlməyini də məhz müsəlmanlara xas bir təlaşla izləyirsən və bir din xadiminin tənha qadına ürək-dirək verməsinə sevinirsən. Amma bu sevinc də uzun çəkmir, rəsmi Allah adamının – Axundun "Mən tələsirəm, bacı, sözün varsa, bizim bağbana de, mənə çatdırar" deməsi ilə yanıldığını anlayırsan. Bəlkə də elə qapısına gələn Allah bəndəsini dinləməyə vaxt tapmayan belə Axunddansa, kiməsə adi sözlə dayaq olmağa çalışan bağban olmaq daha yaxşıdır! Ağıllı olduğunu xüsusi tonla göstərmək cəhdini çıxmaqla, Abbas Qəhrəmanovun ifasında yadda qalan bağbana bu yalanı bağışlayırsan.

"Axı bu heyvanxanada nə görmüsən, niyə qaçıb canını qurtarmırsan?" Bu "heyvanxana"da cəmiyyətin daim göz önündə olan təbəqəsinin mənəviyyatı əks olunur. Adət etdiyimiz kimi, səhnədə yox, bu dəfə səhnə arxasında onların necə məharətlə cilddən-cildə girməsinə tamaşa edirik... Səhnədə böyük məmnuniyyətlə tənha Ana obrazını yaratmağa hazır olan sənətkarlar onun prototipinə "salam" deməyi belə özlərinə yaraşdırmırlar... "Filmin qəhrəmanı əvvəl müəllimə idi, sonra ssenarini dəyişib onu aktrisa etməklə dramatizmi bir az da dərinləşdirmək istədim" deyən rejissor haqlıdır. Əslində, bir anda yüz sifətə düşənlərin fonunda Səhnə də qarışıq düşür. İnsanların nə vaxt səhnədə, nə vaxt ondan kənarda olduğunu da axtarmaq, tapmaq, bu anlayışların haçan, harada nisbiləşdiyini də düşünməli olursan...Aktyor-İnsan anlayışlarının arasında çaş-baş qalan və onlarla mübarizədə gücsüzlüyünü anlayan Mədinə bircə bunu deyə bilir: "Siz Allahdan qorxmursunuz?" Allah neyləsin axı, sevə-sevə yaratdığı bəndəsi əzəldən belədir: daş öz ayağını yaralamayınca, onun necə bərk olduğuna inanmır ki, inanmır...





Rəsmi nikahsız ana olan Mədinə dünya ədəbiyyatının ən gözəl obrazlarından biri olan Gombulu xatırladır. Gi De Mopassanın eyni adlı hekayəsinin qəhrəmanını da heç kəs yaxına qoymur. Amma Vətəninin müdafiəsində yaralanan əsgərə kömək üçün heç kim irəli durmur, ona təkcə cəmiyyətin daim qəzəblə baxdığı qadın yardım edir. Bu misal zaman və məkan anlayışının nisbiliyini, Yerin balaca dünya olduğunu göstərir. Başqa sözlə Əxlaqla Əxlaqsızlığın sərhədləri heç vaxt gözlə görünməyib. Müasir dünyamızda isə bu sərhədlər bir az da çox qarışıb. Dini dünyagörüş dünyanın "Ol!" kəlməsi, yəni sözlə yarandığını, elmi nəzəriyyələr insanın formalaşmasında səsin, ünsiyyətin əsas olduğunu önə çəkir. "Günaydın, mələyim" mənəviyyatın – dünyanın ən böyük dayağının laxladığını və ictimai statusundan asılı olmayaraq, hər kəsin həyatının təhlükədə olduğunu əyani göstərir.

Adətən, soyuqqanlı kimi qəbul etdiyimiz alimlər də artıq bu təhlükədən danışırlar... İnformasiya Texnologiyaları sahəsinə külli miqdarda investisiya yatıran, dünyanın ən varlı adamı Bil Qeys də mövcud kapitalizmi "vəhşi kapitalizm" adlandırır... İqtisadçılar da dünyanın nicatının yeni iqtisadi modeldə olduğunu bəyan edirlər... "Toxun acdan xəbəri olmaz" aksiomu ilə daha yaşamaq olmur. Artıq hər kəs bir-birindən asılı olduğunun fərqinə varmalı, dünyada balanslaşdırılmış inkişafın, iqtisadiyyatın, siyasətin yaranmasına çalışmalıdır. Yoxsa... Onu heç kim bilmir. İlk baxışdan qəribə görünsə də, insanların addımbaşı pozulan mənəvi haqları, toxun ac qonşusundan xəbərsizliyi bu nəhəng dünyanı uçurumun kənarına dirəyib...

Amma Ayan Mirqasımın olduqca sadə və səmimi üzü, doğma jestləri, yerinə düşən aktyor plastikası tamaşaçını mələklərin başqalarını da xilas edəcəyinə, dünyanın düzələcəyinə inandırır. Bir qadının, bir ananın, pisliklərə yaxşılıqla cavab verməyə çalışan bir mələyin gülümsəməsi ilə dalğalanan dövlət bayrağı daha əzəmətli, əsgər marşı, nizami ordunun yürüşü daha təntənəli görünür... Yəqin biz kinonu elə buna görə sevirik, çünki kino bəlkə də çox uzaqda olan bir gilə işığı ekranda bizə lap yaxın göstərir!

İki ilə yaxın vaxt və dövlət vəsaiti hesabına çəkilən, Oqtay Mirqasımın ssenari müəllifi və rejissoru olduğu 100 dəqiqəlik film. Bəsti Cəfərova, Fuad Poladov, Telman Adıgözəlov, Şamil Süleymanov, Bəxtiyar Xanızadə, Cəfər Namiq Kamal, Qurban İsmayılovun canlandırdığı fərqli personajlar... Düzü, filmdə Fuad Poladovun yaratdığı obrazın kimliyi anlaşılmır. O kimdir? Ürəyində hələ sevgiyə yer saxlayan varlı adam, yoxsa cəmiyyətdən küsən məşhur sənət adamı? Hər halda ürəyi ilə personasını, maddi imkanını tarazlaşdıra bilməyən bir kişi obrazının ekran həlli yarımçıq görünür. Onu da etiraf etmək yerinə düşər ki, rejissor işi uğurlu ideya və ssenaridən xeyli geridə qalır...

"Kino sadə iş deyil. Problemlər çox tez unudulur, yadda yaxşı xatirələr qalır..." Rejissor bu fikrində haqlıdır, dünyanın balaca bir modelini yarada bilən filmin çatışmayan tərəfləri arxa plana keçir və unudulur. Odur ki, günaydın, mələyim, xoş gəldin...

*oktyabr – 2008*





# Bizim Məmməd müəllim...

...Hüseyn Əfəndi, Mətləb Nağı, Adil Qaçayoğlu! Dərhal nidanı qoymaqla Azərbaycan jurnalistikasında əvəzsiz xidmətləri olan bir nəslin vədəsiz yarpaq tökümünün qarşısını almaq istəyirsən ki, Məmməd müəllim qoymur. Nöqtə-vergül dəlisi Adil müəllimdən fərqli olaraq, durğu işarələrini sevməyən, hecayla heç arası olmayan Məmməd Nazimoğlu nidanı bir göz qırpımında aradan götürür: "Bunların hamısı adamın diqqətini yazıdan ayırır. Əsas sözdür, onu tapıb yazmaq lazımdır, işarəni redaktor, korrektor tapıb yerinə qoyacaq. Tapmazlar da, canları sağ olsun, kim harada nəfəs almaq istəyər, vergülünü qoyub nəfəsini alar. Hamı bir deyil axı, biri tez-tez nəfəs alır, biri heç nəfəs almır, bəlkə düz demirəm?" Özü gülməsə də, qəfil, gözlənilmədən dediyi bir kəlmə ilə bax beləcə hamını asanlıqla güldürərdi Məmməd müəllim. Bu qəfil xəbərlə hamını sarsıdıb, gendən bizə baxıb özü indi gülür bəlkə? Dünyanın deyiləndən də artıq faniliyinə, ölümün qəfilliyinə, bu qədər səbrli ola-ola belə hövsələsizliyinə, Yerdə 50 nədir, heç 49-u da tamam etmədiyinə... Yer demişkən, bir ara ANS-də kosmosdan xəbər verirdi, onda hansısa tədbirdə rastlaşdıq. Soruşdu ki, haralardasan, heç görünmürsən, dedim, Məmməd müəllim, biz Yerdəyik, siz Göydə, ta necə rastlaşa bilərik ki? Gülümsündü: "Əsl jurnalist Yerdən yox, Göydən də xəbər verməlidir, gərək camaat bilsin ki, oralarda nə var, nə yox". Bir az hal-əhvaldan sonra qayıtdı ki, vallah, baxdım gördüm, Yerdə yazmadığım ta heç nə qalmayıb, adam nə qədər yazı yazar?! Haqlıydı, Məmməd müəllim bütün günü yazırdı. Biz onunla "Şans"da bir yerdə işləmişik. Səhər saat 10-da gəlirdin, görürdün Məmməd müəllim yazır, 9-da gəlirdin, görürdün yenə yazır... Söhbət eləyə-eləyə, çay içə-içə, gündəlik planlaşma apara-apara, yazı oxuya-oxuya, hətta yazı yaza-yaza da... Vərəqin birində köşəsini başlayırdı, yorulanda keçirdi qəzetlərin son səhifələrini yumorla bəzəməyə, ordan da yorulanda adlayırdı şən şeirlərə... Şairlərimizdən

bir narazılığı vardı: "Nə qədər ölüm-itimdən yazmaq olar, hərdən də bir şən şeir yazsınlar, oxuyub feyziyab olaq. Vallah, vaxtım yox-dur, ha istəyirəm ki, dizimi qatlayım bir-iki nümunə yazım, olmur". Xoşuna gəldiyi yazını təriflməyi də vardı: "Oxudum, yaxşı şən şeir idi". Özü isə xırda xətlə, səliqə ilə, tez yazırdı, istəsə, köşəsi 10 dəqiqəyə hazır olardı. Soruşanda ki, bunu necə yazdınız, cavabı hazırıydı: "Mən professionalam axı!" Ayrısının dilində bu sözlər başqa cür səslənərdi, amma Məmməd müəllimin yox. Bilirdin ki, o, ürəyində yazısının 10 dəqiqəyə hazır olmasına da, başqalarının hey-rətinə də, professionallığına da gülür...

...Bilərziyimi itirdiyimə görə dilxor idim, hərə bir cür təsəlli verirdi. Məmməd müəllim yaxınlaşıb "yaxşı oldu, itdi"-dedi. Başımı qaldırıb təəccüblə üzünə baxdım, qayıtdı ki, ona görə nəvən-nəticən arasına qırğın düşə bilərdi, indi ürəyin arxayındır: qızıl olma-yandan sonra nə dava-dalaş? Yaxşı adam həmişə sülhün tərəfində dayanar, məktəbdə bizi belə öyrədiblər...

...Onların hərəsi bir məktəb idi, qapıları yaman tez bağlandı. Gənclərin bu məktəbdən nə isə öyrənməyi hələ bir yana, sizsiz mətbuat, qəzetçilik maraqsızdı, ...Hüseyn Əfəndi, Mətləb Nağı, Adil Qaçayoğlu!!! Araya vergül düşməsin deyə Ramiz Əsgər, İlqar Həsənov, İlham Abbasov... ha çalışdılar, amma Məmməd müəllim öz yazısını da köşələri kimi birnəfəsə yazdı: O, professional idi axı!

Və.. nə yaxşı ki, bu dünyada belə professionallar azdı, yoxsa Yerdə heç adam qalmazdı ki...

*2008*





# Məmməd İsmayıl: "Mən Tanrıya uydum"

– Yollar hələ yormayıb sizi?

– İstanbuldan uçdum Moskvaya, Moskvadan getdim Sankt-Peterburqa, ordan da yenidən qatarla Moskvaya qayıtdım. Rusiyaya Puşkin günlərində iştirak etmək üçün getmişdim. Peterburqda zaman elə bil dayanıb. Moskvada isə əksinə, hərəkət gördüm. Ərazilərin, məkanların da bədbəxti, xoşbəxti olur. Ordan da Bakıya döndüm.

– Türk elləri yerindəmi?

– Hə, çox şükür, Türk elləri yerindədir. Açığı, mən məcbur olub Türkiyəyə getdim... Nə yaxşı ki, getdim. Getsəm belə, Azərbay-candan bir damcı olsun ayrılmamışam. Yeni şeirlər, yeni fikir, əhval yaratmaq baxımından Türkiyənin əvəzi yoxdur. Birinci, orda mə-nim vaxtımdır, hər zaman məni kökdə saxlayır. İkinci, Tanrının bir işarəsinin də su olduğuna inanıram. Su elə zamandır, axıb gedir, bulaq baxa-baxa qalır. Çıxıram. Dardanel boğazına baxıram: su tıxa-nıb, darıxır, gözləyir. Bütün boğazlar dənizə açılır. Sulara baxıram... Havaynan, suynan salam göndərirəm. O axan suynan, o gələn salam-nan qovuşuram Azərbaycana... Həyatdan nəyi istəmişəm, onu almı-şam. Amma istəyim var-dövlət qazanmaq olmayıb. Özünütəsdiq olub, toxum cücərtmək olub...

– Mən sizinlə ilk dəfə söhbət etsəm də, müsahibələrinizi oxu-muşam. Düzü, həmişə jurnalistləri qınamışam. Onlar da şair kimi danışır, suallar da misralara oxşayır.

– (Gülür). Siz məni qınamayın eyy... Nə onlar günahkardır, nə mən...

Nə sən günahkarsan, nə mən günahkar.
Belə yazılıbdı yazı başa düş.

– Onda barı deyin, həmsöhbətinizi hara aparırsız belə?

– Mən yağmaq istəyən bulud kimi gəlirəm bura. Bir çoxları maska geyir, sonra da, Əli Kərim demişkən, unudur çıxartmağı. İnsanlar var ömür boyu elə yaşayırlar. O görkəm – ciddi, təmkinli,

o forma yaxına kimsəni qoymur. Bir də var, şairin özü. Vecinə deyil, torbasında dəni olan bir əkinçidir, toxumdan səpir şuma... Jurnalistlə özünün arasında sərhəd qoymur, artıq o, həqiqətə varıb. Heç nəyi gizlətmir, açır, danışır. Məni dinləyə bilən adamları görüb danışıram – indi, bilirsiz, belə adamlar nə qədər azdır?

– Bizim də dinləyə bildiyimiz adamlar çox azdır.

– Bu gün adamlar bağlarından, maşınından danışır, öyünür... Biz niyə ölümsüzləşə bilmədik? Ağaclar soyunanda, biz geyinirik, onlar geyinəndə soyunuruq. Tarazlıq itdi, təbiətlə bizim aramızda sərhədlər yarandı. Allah da əl götürdü, dedi, gedin, nə istəyirsiz edin, mən sizinlə hesabımı sonra çəkəcəm.

– Deyirsiz, ağaclar soyunanda biz geyinirik... Belə olur ki, şairlərlə realistlərin söhbəti tutmur. O, təzad deyil, gerçəklikdir axı.

– Yox, bu, imitasiyadır. İnsanlar bir zaman təbiətnən iç-içə yaşayıblar. Paltara ehtiyac olmayıb heç. Elə yer var qış olmur... İnsanlar olduqları yeri bərkitməyə sonralar başlayıb. Din sərhədləri kəskinləşdirdi, birimiz şimala çəkildik, birimiz qərbə, şərqə... Özümüzdən yeni şablonlar yaratdıq...

– Deyəsən, bu il sizdə 60 olur.

– Hə.

-Yada salan yoxdur?

– Nə ehtiyac var? 60 yaşım noyabrda tamam olur. Düzü, mənim üçün ağırdır. Mən boz-bulanıq zamanda bir çox ağlına, zövqünə inandığım adamların yazıq, yaman gününü gördüm. Yazısına, şeirinə inandıqlarımın şeytana uyub cilddən-cildə, üzdən-üzə düşdüyünü gördüm. Mən yazıçı kimi Əkrəmi nə qədər sevirəm... Amma bir vaxtlar haqqın dərgahına məktub yazan adam gərək hər kəsdən daha yaxşı biləydi ki, şeytanın qılığı aldadana kimidir. Aldatdı, qurtardı. Bu şeytan birinə şöhrət donunda görünür, birinə qadın, birinə içki... Gəlir, sərxoş edir, yıxır küçənin ortasına, sonra da çıxıb gedir.

-Bəs Əkrəm Əylisli ilə aranızda bir sərinlik, dava...

– Telefonla danışdıq. Xəstəni ağacdakı tək yarpağa göz dikdiyini bilib o yarpağı tikirlər, bərkidirlər... Əkrəm bir çoxları üçün o yarpaq idi! Tək bircə adam... çoxdur, az deyil.





– Adamların aldanmağından, şeytana uymağından danışdıq. Bəs Məmməd İsmayıl bu illər boyu nəyə uydu?

– Açığı, maraqlı sualın cavabı da çətin olur. Ömrüm boyu yalana qalib gəlməyə çalışmışam. Bu, dəhşətli dərəcədə çətindir. Mən elə evdə yaşamışam, orda pəncərə əvəzinə bircə baca olub. Ordan içəri o bacanın özü boyda bir işıq düşürdü. Uşaq vaxtı iməkləyirdim, tutmaq istəyirdim o işıqdan... Yapışdığım o işıq məni düz Tanrı dərgahına apardı. Elə bilirəm, Mən Tanrıya uydum.

– Bəlkə bu da bir aldanışdır?

– Yox. Heç vaxt.

– Şeytan hansısa üzüynən, cildiynən heç aldatmadı sizi?

– Aldada bilib... Aldadıb.

– Sizi də?

– Hə. Amma xəcalət gətirə biləcək bir şəkildə məni aldada bilməyib. Mən içinə sadiq bir adamam. Deyə bildimmi? Dünyada yalan danışmayan insan yoxdur. Yalanlardan xilas olan insan xoşbəxtdir.

– Ana Yasada müəyyən qadağalar var. Məsələn, dindarlar haracan sərbəstdirlər. Bəlkə söz, yazı adamları üçün də müəyyən qadağalar yaradaq? Onlardan normal, ölçü-biçili adam düzəltmək cəhdimizdən də biryolluq əl çəkək...

– İşarənizi başa düşdüm.

– Daha doğrusu, yazı-pozu adamlarını addımbaşı inandıqları aldanışlardan qoruyaq.

– Sizin, mənim seçmək imkanımız yoxdur. Onu yalnız Allah edə bilər.

Seçilən bəndədi
seçən Allahdı,
sən kimi seçirsən,
sən kimi, xalqım?

Allah özü bilər... Yazıçıları da sözün içindəki Tanrıya tapşıraq. Qoy seçən Allah olsun, bir də zaman. Biz qarışmayaq...

*iyun – 1999*

# Uzaq ada

İlk baxışdan yazmaq çoxuna asan gəlir: “yazmağa nə var” deyirlər. Amma yox, çətindir yazmaq. Özü də çox çətin. Ona görə yox ki, kimdən, nədən yazacağını bilmirsən. Əsas məsələ nə deməyindədi. Gözəl sözlərin həqiqət olmadığı, həqiqətin gözəl sözlərə sığınmadığını bilə-bilə zamana nə deyəsən? Bu dəfə də yüzillərin yazı-pozu tarixi axırda qələmin inadını qırır: Dünya nə çox pis, nə də tamam yaxşıdır. Bu bircə cümlədən başqa, ədəbiyyat tarixinin gücü heç nəyə çatmır.

Ürəyim yol çəkir bir gözə dönüb
Yollar da tərs kimi uzanıb, gülüm.
Yuxumdan hər gecə ilxılar keçir
Bilmirəm nə olub, haradan bilim?

Belə getsə sınar quşların səsi
Dənizin də səsi günbəgün batar.
Yubanma, əzizim, gəl qurtar məni.
Arxadan dərd çapır qorxuram çatar.

Halıma yanan gərək
Səsin düşəndə yada.
Ötən günləri qoru
Yaxşı bax, vermə bada.
Ayrılıq bir dənizmiş
Sən uzaq, yaşıl ada.

* * *

Bu dünyadakı rahatlıq üçün Allah bizdən heç nəyi əsirgəməyib – nəyinsə az-çox olduğundan savayı, həyatda hər şey var. Amma adamlar ümumi olanı bəyənmirlər. Ona görə hərə öz evini, həyətini, yeməyini, suyunu, odunu... ayırır. İnsanın ağlı nə qədər çox inkişaf





edirsə, o qədər bölür, payını seçir. Sürətli inkişafın axırı dağların, dəniz və okeanların bölünməsinə gətirib. Bu dünyanı insanlar həqiqətən tamam paylaşdırıblar. Bircə havamız eynidir. Təkcə havanı bölə bilmirik hələ! Əslində bu da görüntüdür. Havamız da bölünüb – nə vaxtdan? Bu bolluqda hərə öz havasını axtarandan və udandan!

* * *

Bu havanı axtarmaq əzablıdır, amma axtardığını tapmamaq daha artıq dərəcədə əzablıdır. Bu havadan ötəri Turqenev çöllərə düşdü, Hüseyn Cavid Sibirə. Puşkin özünü Dantesə öldürtdü, Lorka “nemes”ə. Hüqo varını itirdi, Qoqol ağlını... Göz-görəti əzablardan qurtulmağın yolu bircədir – ümumiliyə uyuşmaq, hamıya oxşamaq. Uyuşmayanların, hamıya oxşamayanların da bir yolu uzanır. Bu yola 60-cı ildən bizim Vaqif Səmədoğlu da qoşulub. O, atmosferdən öz payını ayıra, bu payla da ruhunu, ürəyini, ciyərini ovuda bilir. Onun hava adasının altı nədir – bilmirik. Bura torpaqdır, sudur, meşədir, yoxsa... Görmürük oranı. Vaqif Səmədoğlu adasının yalnız havasını duyuruq. Bu adadan bizim göyümüzə hərdən çağa, hərdən də qos-qoca buludlar gəlir. Bu buludlar bir deyib, beş tökür.

Ya gec, ya tez bilirəm,
Bilirəm gün gələcək,
Əllərimdən ümidlər
Çıxacaq əlcək-əlcək...

Buludların hamısı torpaqdan cücərir. Bu buludunsa gözü hələ də yerdədir:

Yer altının yer üzlüyü,
Sınıq-sınıq,
Qırıq-qırıq
Qalxır üzə,
Qalxır bizə...

Bu bulud göyümüzlə hərdən görüşə tələsir, hərdən də evinə küsülü gedir:

Yağışın əlindən qaçıb bir küncə,
Dayandıq üzümüz qibləyə sarı.
Yenə tapılmadı payız gəlincə
Bağlı ümidlərin itmiş açarı...

* * *

– Bu köhnə dünya, təkcə göy üzü, qərib talelər, darıxan adamlar, nakam ömürlər... Köhnələri mən saydım, keçək təzələrə...

– Əslinə qalsa, hər şey təzədir: od da, alov da, su da, həyat da... Allah da hər doğulan insan üçün yenidən başlanır. Köhnə dediyimiz həm də təzədir. Bu, təzəliyin faciəsidir. Hər doğulan insan üçün təzə dünya başlanır və yer üzündə bu təzədən köhnə olan heç nə yoxdur.

– Bəs əbədi xoşbəxtlik axtarışımız nədir?

– İnsanın xoşbəxtlik axtarması təbiidir, bu xoşbəxtliyə sakit, normal durumda can atırsa – yaxşıdır. Amma təəssüf ki, insan xoşbəxtliyi bütün tarix boyu qılınc yolu ilə qoruyub saxlamaq istəyir. Bu, düzgün deyil. İnsan təbiətinə uyğun olmayan, Allaha qarşı günah saydığımız əməllərə əl atır. İnsan bu həyatın hər üzü – zülmət və işığı ilə barışmalıdır. İnsan bilməlidir ki, əbədi xoşbəxtlik axtarışının özü Allaha qarşı olmaqdır. Əbədi xoşbəxtlik istəyi həmişə qana, gərəksiz inqilablara gətirib çıxarıb. Mən həyatı necə var, eləcə qəbul edirəm.

– Bəs onda 60-cı illərdə güclənən xüsusilə "uzaqlar, ey uzaqlar..." nidası nəydi? Bu, hər şeyi olduğu kimi qəbul etmək idimi?

– Uzaqlar niyə bizə xoş gəlib? Ümidlərinə görə. Bircə şeyi bilmək lazımdır: uzaq ona görə uzaqdır ki, sən orda yoxsan. Bu gün haçansa mənimçün ağlasığmaz olan bir yerə gedib çıxsam, anlayacağam ki, ora uzaq deyilmiş.





* * *

Hardasa uzaqlarda insan ayağı dəyməyən bir ada var. Bu adanın materialı bir qat göydür, bir qat yer. Ona görə gah Yerə sarı dartınır, gah Göyə sarı uzanır. Gah üzü Yerə elə dolur ki, deyirsən damcıdır, indicə qopacaq. Gah Göyə elə baxır, deyirsən şardır, indicə uçacaq. Qopmada-uçmada olan bu adadan bizə elə hey pıçıltılar göndərilir:

Hər gün nəyisə gözləmək,
Ömür-gün dirəyimdir.
Mənim sevinc, məhəbbət yox,
Ayrılıq çörəyimdir...

Hərdən də səslərin üzü dönür, hay-küy salır:

Çiçək dərmək istəyirəm,
Dəniz görmək istəyirəm.
Mən də bir az bu dünyada,
Ömür sürmək istəyirəm.

Bu adadan bizə sarı hərdən kədərli, hərdən də sözlü küləklər əsir:

Gedirəm yenə də qayıtmaq üçün,
Ömür evə dönüb – ev birotaqlı.
Hara üz tutasan, hara qaçasan?
Dünya da bağlıdır, qapı da bağlı.

* * *

– Niyə ədəbiyyat da insanı olduğu kimi yaxına qoymur?

– Ədəbiyyat o deyil ki, mütləq insanın qəhrəman olduğunu deyəsən. Əsl ədəbiyyat yəqin ki, problemi belə qoyur: insan necə olmamalıdır? Özü də vacib deyil ki, yazıçı hökmən qəhrəmanlarını sevsin. Mən "Bəxt üzüyü"ndəkilərin heç birini sevmirəm, amma yazmışam.

– Çoxluğun içində bir üçlüyü ayırdılar – Ramiz Rövşən, Vaqif Səmədoğlu, Vaqif Bayatlı. Həmişə darıxan Vaqif Səmədoğlu bir üçlüyün arasında darıxmır ki?

– Qətiyyət darıxmıram. Kimsə bizim adları çəkir, kimsə də Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza deyir. Bizim adı hallandıranlar bizim poeziyanı sevənlərdir. Amma başqalarını sevənlər də var.

* * *

Ya qarın yuvasında, ya da yağışın arasında bir ada var. O adadan bizə şehli məktublar gəlir. Adsız-ünvansız bu məktublar kimdəndir, kimədir? Bizdən niyə gizlənir, nəyi gizlədir? Dərdi nədir, əlacı nə? Ora özümü gedib, qovubmu salıblar? Niyə təklənib, niyə təkdir? Ora isti yerdirsə, bəs onda bu səs adamı niyə titrədir? Yerdəsənsə, yerini de, göydəsənsə – qatını. Tənhalığın əlindən toplaşıb alaqmı səni?

Gəlməyin bura, gəlməyin,
Yormayın ümidinizi,
Ayaqlarınıza heyfiniz gəlsin.
Orda qalın,
Gündüzlər çiçəklərə,
Gecələr ulduzlara baxın,
Unudun buraları, unudun...

O adadan bizə belə məktublar gəlir, birdən də arası tamam kəsilir...

* * *

– Doğrudanmı, ədəbiyyat tərbiyə edir?

– Şübhəsiz. Amma genetik baxımdan daxilən tərbiyə olunmağa hazır olan şəxsi. Ədəbiyyat tərbiyəçi deyil, onun insana təsirinə belə yanaşmaq, əlbəttə, yanlışdır. Min illərdir ədəbiyyat deyir qan tökmə, yaxşı ol... Lev Tolstoyun "Hərb və sülh" romanı var – o dahiyanə romandan sonra iki dünya müharibəsi olub!





* * *

O qərib adadan gələn səsi təkcə biz eşitmirik. O səslər hər yana şəpələnib. Görən, bu səslər, dualar bizim yanımızdan Allahacan qalxıb, yoxsa ordan buracan düşüb? Bilmirik, amma bu duaları eşidirik:

Bütün dinlər
Allahın deyil,
Allaha yalvaran dilənçi dilidir...

Allah bu bəndənin dualarını da tamam başqa cür eşidir, avazını da. Elə Allah olduğu üçün də hamısını udur. Hələ ona qalsa, gözü həmişə üstündə olar. Amma neyləsin, bəndə öz orbitindən elə tez-tez çıxır, onu harda axtarsın, necə gəzsin? Bu dünyanı onun gözündə necə dəyişsin?

İlahi,
Hansı dildə yalvarım sənə?
Bir dua yetər,
Yoxsa sənə də
Ağız açmaq gərəkdir dönə-dönə?

* * *

– Belə baxanda maraqlı ömür yaşayırsınız: musiqinin, sözün dilini bilirsiniz, dram əsərlərinin müəllifisiniz...

– Dram dediyinizə görə təşəkkür edirəm, hamı komediya deyir. Mən komediya yazmıram.

– Amma yenə darıxırsınız...

– Deməzdim darıxıram. Gün ərzində gülən, sevinən vaxtlarım daha çoxdur. Şair kimi darıxıram. Ədəbiyyatda çox darıxan adamam. Nə bilim, məni insanların, bəşəriyyətin taleyi çox düşündürür. Bədbin adam kimi görünmək istəməzdim, amma düşünməli məsələlər çoxdur.

* * *

O, bu dünyanın suallarını axtarır, yoxsa nidasını – bilmirik. Amma şair Vaqif Səmədoğlu ədəbiyyata qanı qaynayan yox, bulud kimi dolan vaxtında gəldi. Göyümüz də bu buluda öyrəşdi, yerimiz də. Göy üzümüz bir olsa da, indi "bizim" sərhəddən o üzə adlayıb. Bu dünyanı nə dualar, nə də məktublar dəyişmir – bildiyinəmi görə? Yoxsa yağışın əlindən künc axtarır? Arxadan dərd çapır bəlkə? Yoxsa:

Bu dünya, dədəm demişkən,
Gah boşalar, gah dolar.
Dünyadan küsmək günahdır,
Hərdən incimək olar...

Dünya ilə barışdan sonra indi torpağın bu buludu Yerdə özünə yuva axtarır. Qoy axtarsın. Təki tapsın.

Onlu-onsuz hardasa uzaqlarda bir ada var. O adadan millət vəkili Vaqif Səmədoğluya də sözlü məktublar gəlir:

İndi orda rahat yaşa,
Buralardan arxayın ol,
Bura yenə həmən yerdir,
İki söyüd, bir tozlu yol...

* * *

Yazmaq asan deyil, çətindi, özü də çox çətin... Dünya nə qədər silinsə də, hələ də təmiz deyil, çirklidi, çox çirkli. Formasiyaların hamısı bir nağıldı, zaman heç dəyişmir, həmişə qoluzorludu...

Amma neyləyəsən, yazmamaq da olmur!

*noyabr – 2001*





# Diş

*Hüseyn Əfəndiyə*

Tələbə vaxtı sözün içində olduğumuza inanmaq üçün dərnək yaratmışdıq. Böyükləri – tanınmış ədəbiyyatçıları da dərnəyə çağırır, bizim çıxışlarımıza qulaq asmağa təhrik edirdik. Varlığımızı sübut etmək üçün hər şeyə hazır idik: günlərlə çalışıb-əlləşib terminli, elmi, bədii çıxışlara hazırlaşırdıq. Müəllimlərimiz elə heyrətlənmişdilər ki... Hər şey yaxşı alınırdı, əgər dekanımız Nizami Cəfərov olmasaydı. Daha doğrusu, onun dedikləri: "A bala, elə bilirsiz, nə dediyinizi bu oturanlar başa düşdü? Lap başa düşdülər, nə olsun. Hamı qulaq asacaq, çıxıb gedəcək. Baş sındırıb nə qədər elmi, terminli, bədii danışsaz da, heç bir tərpənmə-zad olmayacaq. Noolar söz olanda, sözün də gərək dişi batsın, çeynəsin, hərdən qopartsın... Əlinizdən heç nə gəlməyəndə onda dişinizi qıcadın".

Dərnək də dağıldı, o terminli, elmi, bədii yazılar və çıxışlar da... Qalan həqiqət idi: Dişli ol! Dişsiz olsan, səni çeynəyəcəklər, didəcəklər, həzm eləyəcəklər. Bütün bunları anlamaq üçün sözsüz ki, başın da olmağı vacib şərtdir. Başı olmayan həzm prosesinin lap son mərhələsində də taleyə, qismətə, yazıya inanaraq qalır. Özünü başlı sayanlar taleylə oyuna başlayır: həzm olunmamaq üçün yollar axtarır. Sözlərini siyasətə, vəzifəyə, kürsüyə, sövdələşməyə girov qoyanlar, özlərini xüsusi statuslu kəslərlə dəyişənlərin də məramı aydındır: sağ qalmaq, həzmdən qurtulmaq.

Həzmdən qurtulanda da didilməkdən, damağa-dodağa çırpılmaq əzabından yaxa qurtarmaq olmur. Ən dişsiz də yumşaq tikələri ağzında ora-bura çırpmaqdan ləzzət alır axı.

Burda da ilahi bir nizam var: dişli heç olmasa dişlinin yeminə dönür. Yoxsa hər yetənin...Qabaqlar gəlin köçən qızlara güngörmüşlər deyərdilər: əsas dildir, dilin olsa oturub yeyəcəksən. Amma bu dəfə nənələrimiz yanılıblar. Çünki yemək üçün dişin olması

birincidir. İstəyir gəlin olsun, istəyir... Bu gün hər yazını oxumurlar. Gərək dişləyən yazı olsun ki, Azərbaycan oxucusunun diqqətini çəksin. Bu qəzet çoxluğunda hər qəzeti də heç saymırlar. Gərək dişini ona-buna, ora-bura qıcadan qəzet olsun. Nə ədəbiyyat, nə poeziya... Dişi olan şair, yazıçının hər yerdə, hər vaxt çörəyi də olur, hörməti də.

Kəsəsi, 2000-ci ilə az almış cəmiyyətlə məsləhətləşəndən sonra dünya həkimləri kəşf eləyiblər: Diş insanın əsas üzvüdür. Ürək yox ha! Amma sözün ən gözəli kimi, xəstəliklərin də ən dişlisi ürəkdən gəlir. Deyirəm axı, Əfəndi evinin uşağını hər yoldan ötən dişləyə bilməzdi. Amma xəstəlik də, xəstəxana, diaqnoz, həkim, xəstə və hətta diş də sözdür. Ulularımız: "Kim ki öz yerində, sözündə dişiylədi, ona zaval yoxdur" – deyib. Bir də deyiblər ki, unutmayın, sözə sığınan adamların sözdən ayrı heç nəyi, heç yeri də yoxdur. Elə isə, Dişli çərçivə, üç hərfli sözlər, düzlən! Farağat! Olmadı! Sizə farağat durmaq yaraşmır...Ürək kimi...Eləmi, Hüseyn müəllim?

*dekabr – 1999*





# Əlibala Hacızadə: "Ürəksiz heç nə yazmamışam"

*Ay gidi dünya demirəm, çünki dünyanın işi, gücü, vəzifəsi insanla çəkişmək, onu yormaq, əldən salmaqdır. Heç insan da yazıq deyil – dünyanın qucağını boş qoymağa ürəyi gəlmir, amma taleyinə də yiyə durmur, beşgünlük ömrünü necə gəldi sovurur, sevir-sevilir, deyir-gülür, yetdiyinə yetir, yetmədiyinə bir daş atır, ürəyi istəsə hələ qocalır da...*

*Kitabları əldən-ələ gəzən Əlibala Hacızadə bəxtəvər yazıçıdır, oxucuları bir sözünü iki eləməyib: Hamı könüllü ona qoşulub "İtkin gəlin"i axtarıb, Əfqanıstan çöllərində ötüb-gedən "Əfsanəsiz illər"-dən sonra axırda sakitcə "Ayrılığın sonu yoxmuş"a inanıb, arada "Təyyarə kölgəsi"nə sığınıb, "Vəfalım mənim" sözünə kövrələ-kövrələ "Dünyanı tanı"yıb...*

– Səksəninci illərin sonunda kitablarınız min, milyon tirajla işıq üzü görürdü. Yeni yüzildə milyardlarla kitabınızın işıq üzü görəcəyini gözləyirdiniz, amma...

– İndi tirajı mindən yuxarı olan heç bir kitaba rast gəlmirəm. Yüz minlərlə kitabına öyrəşən müəllif kimi, başa düşmürəm ki, beş yüz kitabı kimə bağışlamaq olar. Bu təzadlı vəziyyətə mən belə deyirəm ki, kitabın kitabı bağlanıb.

– Uzun müddət xaricdə yaşamısınız. Yad ölkələrdə yazıçıya münasibət necə idi?

– İstər Əfqanıstan, istərsə də İranda yazıçı çox hörmətlə qarşılanırdı. Özü də biləndə ki, mənim kitablarımın tirayı minlərlə olur, bu hörmət bir az da artırdı. Çünki xaricdə kitab çapı həmişə başqa cür olub. Əvvəl nəşriyyatlar kitabı cəmi 500-1000 nüsxə çap edirlər. Əgər satılsa, onda yenə çap olunur. Bizdə isə kitabı hələ də oxucuya görə yox, müəllifin hörmətinə, vəzifəsinə görə çıxarırlar. Ona görə də kitablar tökülüb qalır. Özü də qəribədir, kitabı oxumayanlar həmişə hay salırlar ki, bizim kitabların oxucusu hələ yetişməyib. Ta demirlər

ki, Nizamini, Füzulini başa düşən oxucu öz müasirini qavraya bilmədiyinə görə yox, qəbul eləmədiyinə görə almır.

– Kitablarınızın belə sürətlə oxunmasını, oxucuların sizi bir belə sevməsini özünüz necə izah edirsiniz?

– Bu suala, ona görə çox cavab axtarmışam. Görünür, ürəksiz heç nə yazmamışam. Oxucuyla görüşmək, söz demək istədiyim vaxt əlimə qələm almışam. Yazmağı qarşıma bir məqsəd kimi qoymamışam, ürəyim dolu olanda yazmaq istəmişəm. Bəlkə oxucular elə bu səmimiyyəti bəyənirlər, deyə bilmirəm. Görüşlərin birində oxucum da soruşmuşdu ki, sizi niyə böyükdən balacaya kimi hamı bəyənir? Yəqin məni hamı ona görə çox istəyir ki, mən də hamını necə var eləcə, olduğu, göründüyü kimi çox istəyə bilirəm. Oxucularla həmişə bir yerdə oluram, onlar güləndə sevinirəm, kədərlərinə şərik çıxıram, sevənlə bir yerdə sevirəm, atılanla atılıram, güllələnənlə güllələnirəm...

– Həmişə bir yerdə olduğunuz oxucularla indi niyə ünsiyyətiniz əvvəlki kimi alınmır? Axı elə indi də onlarla bir dövrdə yaşayırsınız, bir tikə çörəyi onlar kimi çətinliklə qazanırsınız...

– İqtisadiyyat, maddiyyat oxucuları kitabdan ayırır. Axı, uşaqlar ailə başçısından hər gün yemək gözləyirlər. Atasından yemək istəyən uşağı kitabla kiritmək olmur. Kitabla oxucu arasında uçurum belə yaranır. Amma oxucu kitab oxumayanda mənim də sözüm ürəyimdə qalır. Məcbur olub arada sözlərimi, ürəyimdə olanları jurnalistlərlə bölüşürəm.

– Qəhrəmanların taleyi sizin əlinizdə olur, yoxsa yazı, qələm küllü-ixtiyar sahibidir?

– Finalı, sonluğu görməsəm, bircə cümlə də yaza bilmərəm. Ona görə romanlarımı bəzən illərlə düşünürəm, hər obrazın saçından tutmuş gözünün rənginə qədər bütün xüsusiyyətlərini içimdə yaşadıram, öyrənirəm. Kitabı bütün bunlardan sonra başlayıram.

– "Ayrılıq var sonu şirin vüsaldı, ayrılıq var sonu yoxmuş, ay aman" – Əfqanıstan ayrılığının da sonu olmayacaq?

– Qayıdandan sonra dəfələrlə dəvətlər olub, amma həmişə etiraz eləyirəm. Düzü, ikinci dəfə qürbətə düşməkdən yaman qorxuram. Əfqanıstanda bir dəfə elə həsrət çəkmişəm ki, o yerlərə təkrar





qayıda bilmirəm. Həm də qəribədir ki, heç vaxt insan cavan olanda sağlamlığın, gözəl olanda yaraşığın, doğma torpağın üstündə olanda Vətənin qədrini bilmir. Amma onların əsl dəyərini itirəndən sonra anlayır. Mən də torpağın istisini qürbətdə duyurdum. Ailə-uşaq yanımda olsa da, qəribliyə dözə bilmirdim. Bir dəfə kövrələndə bu misraları az qala birnəfəsə yazdım:

Ömrünün gülləri bükdü boynunu,
Əsdi, yaman əsdi, yelli qürbətin.
Başıma dağlar tək qar ələndi, qar
Gəzdi saçlarımda əli qürbətin.

Həsrətdən quzutək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək.
Yağ-bal yedirtsə də, ögey ana tək,
Zəhər tuluğudu dili qürbətin...

– Amma qürbətdən Azərbaycana Əfsanəni, Elməddini gətirdiniz. Bu əfqanların taleyinə vaxtilə bütün Azərbaycan ağladı. Bəlkə oxucuları təkrar kitaba, o illərə qaytarmaq üçün arada Əfqanıstana baş çəkəsiniz?

– Hərdən ürəyim bugünkü Əfqanıstana getmək istəyir. Ola bilər ki, arada gedim, amma uzun müddətə yox. Məndən, bir ayrı yazıçıdan asılı olmayaraq, oxucular gec-tez kitaba qayıdacaqlar. Çünki kitabsız yaşamaq mümkün deyil. Kitab oxucunun təkcə vaxtını almır, həm də onu təkmilləşdirir, dəyişdirir. Ona görə ən zəif kitab da böyük məktəbdir. Ən azı, yazı qaydalarını oxucuya öyrədir.

– Hərdən adama elə gəlir ki, heç kinosuz da yaşamaq olmaz. Kino, çağdaş texnika gözünüzə ədəbiyyatın başdaşı kimi görünmür ki?

– Bu gün kino da getdikcə zənginləşir, təkmilləşir. Amma kino da kitabdan, ədəbiyyatdan qidalanır. Ona görə, kinonun ədəbiyyatı öldürməsinə inanmıram.

– Deyirlər, şair yaşı ötüb keçəndən sonra bir də şeir yazmaq olmur. Bu iri romanlardan sonra təzədən yaradıcılığın əvvəlinə, şeirə qayıda bilərsinizmi?

– Hamıya elə gəlir ki, mən ədəbiyyata şeirlə gəlmişəm. Amma mən birinci dram yazmışam, sonra şeirə keçmişəm. Şeirdən də

nəsrə adladım. Bir şair yaşının olduğunu mən də eşitmişəm, belə tez-tez deyirlər. Amma mənim yaradıcılığımda şeirlə nəsr həmişə paralel olub. Roman yaza-yaza, qəfil kövrəlmişəm. Görmüşəm, bu yazdığım şeirdir. Ona görə çox vaxt romanlarıma o şeirləri daxil eləmişəm. Hər yaşın öz yazısı var, şairlik cavanlıqda olur, deyirlər. Bircə onu deyə bilərəm ki, 50 il bundan əvvəl yazdığım şeirlərin bir misrası yadımdan çıxmayıb.

– Musiqiyə bu qədər asan gələn şeirləriniz niyə bəstəkarların diqqətini çəkmir?

– Zeynəb Xanlarova, Brilliant Dadaşova oxuyur. Oxuyanların çoxu da heç adımı çəkmirlər. Mən də heç hara getmirəm, müəllif hüquqlarımı tələb eləmirəm. Şeirdir, xoşuna gəlir, qoy oxusun. Sənətlə bağlı olan bir işə məhkəmə ilə əncam çəkilməsinə ehtiyac görmürəm.

– İndi hərə adını bir cərəyana yazır. Bir vaxt romanları əl-əl gəzən, indi də təzə bir "Möcüzə"yə başlayan Əlibala Hacızadə özünü hansı cərəyanın nümayəndəsi sayır?

– Mən realist ədəbiyyatı xoşlayıram. Amma özümü realizmlə romantizmin ortasında, qarışığında görürəm. İdeal həyat, ideal dövran olmadığı üçün yazıçı gərək insanı hərtərəfli göstərə. Neçə yüzillərdir ki, insan üzü kamilliyə gedir, amma hələ də kamil insan yoxdur. Çünki hər cəmiyyətin, hər rejimin nöqsanı var.

– Ədəbiyyatın nöqsanı nədir?

– Heç vaxt realist sovet ədəbiyyatı adlı bir ədəbiyyat olmayıb. Başdan-başa yalan üzərində yazılan bu əsərləri realist yox, riyalist ədəbiyyatın nümunələridir. Böyük, realist ədəbiyyat başı ulduzlarda, ayağı yerdə, zibillikdə olan insanı təsvir eləyir. İnsan həmişə belə olub. Onu başqa cür, əl-ayağını da göydə təsvir eləyəndə riyalist ədəbiyyat yaranır.

– Sizinlə görüşən, avtoqraf istəyən oxucular yəqin daha çox gün-güzərandan gileylənirlər. Onları necə sakitləşdirirsiniz?

– Məni özünə doğma hesab eləyən adamlar çoxdur. Görəndə də hamı öz dərdini danışır. Təkcə gün-güzəran dərdini yox, oxucularım ən gizli, intim sirlərini də mənimlə bölüşürlər. Heç nəyə gücüm yetməsə də, onları axıracan dinləyirəm...

*2003*





# Rolsuz aktyorlar...

"Teatr səhnəsi şahmat taxtasına, aktyorlarsa fiqurlara oxşayır". Necə yəni? Razılaşmayanlar haqlıdır, çünki Nazim Hikmət dramının personajı da bu hökmlə barışmır: "Mən fiqur yox, aktyoram!"

Aktyor – qədim bir peşədir. Çağdaş dünya bu peşə sahiblərini, onların köməyi ilə təzə bir sənət nümunəsini tanıdığı üçün ömür boyu əski yunan mədəniyyətinə borclu olacaq. Düzdür, şərqdə çox tez-tez xalq oyunları, məzhəkələr oynanılırdı. Özü də bu oyunbazlar ətrafa yığılanları çox məharətlə ağlada, güldürə, əyləndirə bilirdilər. Amma bütün bunlar hələ teatr olmadığı kimi, adamı ağlada, güldürə bilənə də heç kim aktyor demirdi. Teatrın bütün bu oyunlardan, məzhəkələrdən fərqini Aristotel dəqiqliklə yazıya alıb tarixə adlada bildi. Amma filosofun heç ağlına gəlməzdi ki, onun sevəsevə təsvir elədiyi sənətin daşıyıcıları, böyük ideyaların carçıları adamları, tamaşaçıları dərhal güldürmək üçün yarışacaq və bu yarışı udmaq üçün görünməmiş bir canfəşanlıq yapacaq, təlxək-klon-aktyorun bir-birinə oxşaması üçün dəridən-qabıqdan çıxacaqlar...

Bu nöqtələrin yerinə asanlıqla həmcins cümlələr yazmaq olar, amma təəssüf ki, bu uzun giriş nə televiziya proqramlarında Azərbaycanın xalq artisti Arif Quliyevin qaraçı havasına əyilə-büzülə oynamasının, nə də minlərlə tamaşaçının gözünün qabağını alır. Hamı baxır, hamı görür ki, bir teatrın aktyoru özündən yüz hoqqa çıxarır, yıxılır, fırlanır... Uşaqlar uğunub gedir, rejissorlar, ssenaristlərsə bəxtəvərcəsinə gülümsəyirlər. Çox yaxşı! Onsuz da eksperimentlərini heç harda sınaqdan keçirə bilməyənlər indi kütləvi şəkildə yazıq, yiyəsiz sənətin canına darışıblar. Bəs bizim xalq artistinə nə olub? Bəyəm Arif Quliyev aktyorun kimliyini, televiziyaya, səhnəyə nə üçün çıxmalı olduğunu hələ də tapa bilməyib? Bu sualın təsdiqlə cavabı heç ağla sığmır. Yaxşı, onda ölkənin xalq artistini televiziya ilə araya qoyub oynatmağa, tamaşaçını ona güldürməklə günəmuzd qazanmağa kimin haqqı çatır? Hünəri yazmaq olmaz, çünki hünərlərini görürük!

Bir müsahibəsində xalq artisti Tariyel Qasımovun "niyə televiziyada görünmürsünüz" sualına cavabı qısa oldu: "Məni bir dəfə televiziyaya səhnəcik oynamağa çağırdılar. Gəlib oynadım, sonra qonorarı soruşanda dedilər yoxdur, olmayacaq. Mən də sakitcə dedim ki, xahiş edirəm, onda bir də məni bura çağırmayın. Sağ olsunlar, çağırmırlar". Bu sözləri deyən Tariyel müəllimin bir ayrı dünyadan gəldiyi yox, sadəcə Dərbəndə çox bağlı olduğu göz qabağındaydı. Çünki bizim ölkənin səhnəsində, ekranında, efirində indi zamanın yox, zəmanənin tamaşaları oynanılır. Məsələn, "Şam ağacı əhvalatı" kimi orijinal bir tamaşanı başqa heç harda görmək (göstərmək) olmaz. Bəsit bir ssenari öz başına kimləri yığmayıb: Səyavuş Aslan, Arif Quliyev, İlham Namiq Kamal... Ekranda xalq artistləri, aktyorlar və yüzcür-mincür oyunlar var, amma rol yoxdur. Rolsuz da aktyor olar? Əslində bizim xalq artistlərimiz zorla oynadıqları, görünmək istədikləri bu səhnədə bircə kəlmə deyirdilər: "Olmaz!" Bəs onda niyə onlar belə gülünc oyunların – buna lap müasirlər şou deyirlər – qəhrəmanı olurlar? Ssenarinin onları tamaşaçı qarşısında pis vəziyyətdə qoyduqlarını yoxsa özləri bilmirlər? Belə düşünmək sadəlövhlük olardı. Ən azı, yaxşı məktəb və təcrübə keçdiyi üçün onların hər biri sənətin nə olduğunu, aktyorun kimliyini, amma rol yerinə nə oynadıqlarını da çox yaxşı bilirlər. Bu sözlərlə isə İlham Namiq Kamal oynadığı rolun yox, daha çox nəsildaşları olan aktyorların faciəsini pıçıldayır: "...bu xatadan da belə qurtardıq".

Kütləvi paylanan xalq artisti, əməkdar artist, əməkdar incəsənət xadimi fəxri adları kaş ki, sənətdə baş alıb gedən bu xataların üstünü örtəydi! Amma ortaya bir xəta da çıxır: bizim fəxri ad daşıyanlarımızı türklər başqa sözlə – dövlət sənətçisi, – deyə çağırırlar, onları əlavə haqlar, üstünlüklərlə ayırırlar. Bizim fəxri adından başqa heç nəyi olmayan dövlət sənətçiləri isə hamının gözü qabağında nəinki qaraçı, adı-ünvanı olmayan hər çalınan havaya qol götürüb oyun çıxara-çıxara oynadılır... Biz də tamaşa edirik, əylənirik, fürsət düşəndə bülbül kimi ötürük: "Sağ ol, sənət!"

Bəlkə də belə yaxşıdır, çünki "mən aktyoram!" – çığıran Nazim Hikmət personajının axırı heç yaxşı qurtarmır, acından ölür.

*yanvar – 2003*





# BDU: Bizim Dövlət Universitetimiz

Bir Şərq kəlamında deyilir: "Hər şey yoldan başlayır". Həyat bu kəlamı dəfələrlə təsdiqləyir, insansa eşidir, öyrənir, görür ki, ömür də yoldur, həyat, tarix, ənənə, yaddaş da. Yolu itirsə, heç Günəş də evinə qayıda bilməz. Payızın ilk ayı yaddaşımız bizi günümüzə gətirən yolun başlanğıcına, keçmişə aparır. "Keçmişə hörmət – mədəniliyi vəhşilikdən fərqləndirən əlamətdir". Belə düşünən Puşkin də, dövrlə mübarizəyə qalxan mütərəqqi ziyalılar da unutmurdular ki, keçmiş təkcə xatirələr yox, həm də mənəvi irsdir. Gələcək yalnız möhkəm kökü olan keçmişin üzərində qurula bilər.

Azərbaycan dramaturgiyasının banisi, rus ordusunda xidmət etdiyinə görə "rusofil" kimi indinin özündə də haqsız tənqidlərə məruz qalan ustad Mirzə Fətəli Azərbaycanın gələcəyini ilk növbədə maarifçilikdə, dünya xalqlarının ən yaxşı yazılı abidələri ilə tanışlıqda və müsəlman şərq ölkəsinin, həmçinin insanlığın nicatını dinlərüstü bir idraka tapınmaqda görürdü. Şərqin ucuz ehkama, bəzən isə dünyagörüşünü buxovlayan bir sensora çevrilmiş tapdalogiya fəlsəfəsindən gen qaçmağa çağıran Axundov cəhalətdən çıxış yolunu maarifçilikdə axtarır, ümidini savadlı gənc nəslə bağlayırdı. Onun Füzuliyə olan tənqidi münasibəti əslində şairə sayğısızlıq yox, təqlidçiləri yeni dövr ədəbiyyatına, mədəniyyətinə çağırışı idi.

Bəlkə də bütün bunlardan sonra Azərbaycan Demokratik Respublikası dövründə bünövrəsi qoyulan Bakı Dövlət Universitetinin "ömürlüyü"nə adlamaq oxucuya qəribə gələcək. Amma dünənsiz bu gün olmadığı kimi, sələfsiz də xələf yoxdur. Şərqin qocaman və nüfuzlu ali məktəblərindən sayılan BDU-nun tarixini araşdıranda istər-istəməz bir sualla rastlaşırsan: Azərbaycanda bənzəri olmyan bu tarixi ali məktəb nəyin varisidir? Əslində, bu sualda yerində olmayan bircə söz var – "nəyin" yox, kimin. Bakı Dövlət Universiteti qəribə də görünsə, Mirzə Fətəli Axundovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyervin, Mirzə Ələkbər Sabirin... varisidir.

Bəs, bütün xristian dünyasını elmi ilə heyrətə gətirən şərqşünas alim Mirzə Kazım bəy? Bəs, astronomik fikirlərini, elmi qənaətlərini dünyanın hələ də sinirə bilmədiyi Ömər Xəyyam, onun xələfi Nəsirəddin Tusi, dünya poeziyasına, ictimai fikir tarixinə ağalıq edən şair, filosoflarımız?

Keçmiş haqqında, nailiyyətlərimiz, səhvlərimiz, faciələrimiz haqqında həqiqət yarımçıq olanda millətin gələcək yolu bağlanır. Səhvlərimizin, faciələrimizin də tarixini anmalıyıq, uğurların, qələbələrin də. Çünki tarix təkcə quru rəqəmlər, ölü hadisələr yığını yox, həm də enerji mənbəyidir. Milli irsimizi tarixin tozlu küncləridən arayıb, axtarıb tapıb aydınlığa çıxarmaq hər birimizin az qala vətəndaşlıq borcudur. İllər uzunu tariximizlə bağlı çox şey ideoloji yasaqla möhürlənib. Türkdilli xalqlar, Yaxın və Orta Şərq dünyasında birinci cümhuriyyət – Azərbaycan Demokratik Respublikası, dünyəvi təhsilə söykənən Bakı Dövlət Universitetinin açılması faktı da ağlasığmaz təhqirlərlə üzləşib. Universiteti bolşeviklər və mütərəqqi əhval-ruhiyyəli rus alimləri yaradıb – belə düşünənlər, kitablardan bu sözləri əzbərləyənlər hələ unutmağa çətinlik çəkənlər tapılır. Teatrı, kinosu, incəsənəti, elm ocağı olmayan, yalnız ərazi, əhali, ordu və bir neçə simvola söykənən hər hansı ölkə heç vaxt dünya tarixinə imza ata bilməzdi. Xəritədə özünə yenicə yer eləyən Xalq Cümhuriyyətinin yaxın, uzaq ölkələr tərəfindən tanınmağında, etiraf olunmağında onun siyasi kursu ilə yanaşı, dünya mədəniyyətinə inteqrasiya cəhdi də önəmli yer tuturdu. Təsadüfi deyil ki, BDU-nun intellektual bazası Rusiya və qərb ölkələrində yüksək təhsil almış mütəxəssislərə hesablanmışdı. Onların yandırdığı bu təhsil ocağı ənənəvi Şərq universitetlərindən fərqli olarq məscidlərə yox, dünyanın adlı-sanlı akademiyalarına işıq salırdı. Bu ocağın işığı o qədər gur idi ki, onu, hətta dinsiz Şura hökuməti də söndürməyə ürək eləmədi. Üstündən illər ötəndən sonra biz ötən əsrin ən şərəfli tarix səhifələrindən bu sözləri oxuyuruq:

1919-cu il sentyabrın 1-də ADR-in parlamenti Bakı şəhərində universitetin təsis olunması barədə qanun qəbul elədi. Bu, tariximizdə olduqca mühüm hadisə idi. Dövr nə qədər qarışıq olsa da, ədəbi-mədəni mühit, ictimai fikir bu qanuna biganə qalmadı.





Ziddiyyətlərə baxmayaraq, aparılan müzakirələr səmərəli oldu. "Yeganə çıxış yolu tezliklə Avropanın ən zəngin dillərindən birində universitet açmaqdır. Yaşadığımız şəraitdə bizim üçün belə bir dil rus dilidir. Heç bir şübhə yoxdur ki, nəticə etibarı ilə bu universitet Azərbaycan dövlətinə və Türk mədəniyyətinə xidmət edəcəkdir". Maarif naziri Rəşid xan Kaplanovun bu sözləri təkcə maarifçilərin mübarizəsini yox, həm də dövrün ağır şəraitini bizə xatırladır. Parlament tərəfindən təsdiq olunan qanun Bakıda dörd fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət dövlət universitetinin təsis edilməsini nəzərdə tuturdu. Komissiya yekdilliklə V.İ Razumovskini darülfünun rektoru, tarixçi, publisist N.A.Dubrovskini tarix-filologiya, professor İ.İ.Şirokoçqorovu tibb fakültəsinin dekanı seçdi.

1919-cu ilin sentyabrın 15-də universitet komissiyasının son iclası oldu. İclasda Müvəqqəti Şura və universitet İdarə Heyəti yaradıldı. 1919-cu il noyabrın 10-da universitet Şurasının birinci iclası oldu. Və nəhayət 1919-cu il noyabrın 15-də universitetdə birinci dərs günü elan edildi. Rektor V.İ. Razumovski yazırdı: "Azərbaycan öz ali maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni çıraq yandı. Bu böyük, tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edirdik". BDU-nun tələbələri və azad dinləyiciləri arasında bu adları oxuyuruq: Abbasov Həsən Əhməd oğlu, Ağayev Nəcəf Hacıimam oğlu, Ağabəyov Yusifbəy Məmmədbəy oğlu...

Bu gün BDU-nun intellektual potensialı ölkəmizi sərhədlərdən çox-çox uzaqlarda tanıdıb və tanıdacaq. Bir çox göstəricilər üzrə dünyanın qabaqcıl ali məktəbləri sırasına daxil olan, onlarla rəqabət aparan BDU-nun hazırda fakültələrinin, kafedralarının, tədris, elmi-tədqiqat laboratoriyalarının, professor, elmlər doktoru, tələbələrinin sayını demək artıqdır. Və hər il abituriyentlərin yarıdan çoxu sənədlərində məhz bu universitetin adını qeyd edir...

Universitetin əsasını qoyanlar indi haqq dünyasındadır, BDU bu dünyada!

Onun ilk məzununun kim olduğunu bilmirik, amma BDU-nu hamı tanıyır!

İndi ölkəmizdə onun onlarca “həmkarı” var, amma BDU ən azı tarixinə görə təkdir!

Doğrudan da, hər şey yoldan başlayır. “Bizdən sonra gələnlərə salam olsun!” – deyib hər möhnətə, çətinliyə dözənlərin xeyir-duasını fərəhlə alır, hər payızda isə yolumuzda yananlara salam yollamağı özümüzə borc bilirik...

*sentyabr – 2001*





## Rasim Balayev: “Məni axıracan danışmağa qoymadılar”

– Həyat, həyatdı – mübarizəsi, qələbəsi, ağırlığı, ehtiyacı var. Dünya da köhnədi – vuruşmaları, savaşları, çarpışma və toqquşmaları var. İnsan da elə insandı – haqqı, xalqı, arzuları, hökmdarları var. Necə oldu kamil insan?!

– Çətin sualdır. Kamil insan, məncə, ictimai, formasiya ilə bağlı deyil. Yəni biz hansı cəmiyyətdə yaşayırıqsa, ona uyğunlaşırıq. Odur ki, mən bugünkü kamil insan haqqında söz deməyə çətinlik çəkirəm. Kamil insan var, çox təəssüf ki, onların sayı azdır. Bu gün cəmiyyətə, məişətə baxanda görürsən ki, insanlar elə bil bu vəziyyətlə, iqtisadi durumla bağlı olaraq tam tənəzzülə gedirlər. Açığı, bu gün küçəyə, camaat içinə çıxanda məni fikir götürür. İnsanların bir-birinə münasibəti, hörmətsizlik... 1918-ci ildə Demokratik Respublika yarandı, sonra bolşeviklər zəbt etdilər, sonra repressiya illəri gəldi.. Deməli, səhər kim tez durub o birini satırdısa, o sağ qalırdı. Satqın yaşayırdı. Biz kimə pərəstiş etdik? Pavlik Morozov atasını satdı, biz də onu qəhrəman saydıq. Odur ki, mənə elə gəlir ki, bugünkü bəlalarımızın çoxu keçmişdən gəlir.

– Sənətdə xırda obrazla böyük aktyor da olmaq olar, baş rolun ifaçısı kimi kölgədə qalmaq da. Deyilmiş sözdür, razısınızmı?

– Ola bilər.

– Elə isə, hərdən sizə elə gəlməyib ki, tamaşaçılar aktyor Rasim Balayevi yox, baş qəhrəmanları, talesiz, nakam obrazları sevib?

– Yox. Bu obrazları seviblər. İnsanlar o qədər naqis hərəkətlər görüb ki, vətəninə, amalına vurğun adamları görəndə diksiniblər. Yəni mənim oynadığım rollar özünü sevənlər deyil. Düzdür, yalnız özünü düşünən obrazları da oynamışam. O nakam obrazları, baş qəhrəmanları görəndə hamı düşünüb ki, beləleri də var. Belələrini isə hamı sevir.

– Sizin sənətdəki rollarınız – Nəsimi, Beyrək, Əziz, Cəbi... bir növ dilini dinc qoymadıqlarına görə müxtəlif təzyiqlərlə qarşılaşıblar: dara çəkilib, yox edilib, aradan götürülüb... Oynadığı obrazların faciəli taleyi Rasim Balayevə elə bil liberallıq öyrədib.

– Vallah, mənim bu ictimai-siyasi hadisələrə bir vətəndaş münasibətim, şəxsi fikirlərim olub və var. Amma hərdən az qalıram ki, lap siyasətə qoşulum, sonra... Siyasətçi olmaq böyük bir sənətdir, peşədir, yoldur. Xüsusi təcrübə, talant tələb edir. Hər adam siyasətçi olmur, olursa da çox gülünc vəziyyətdə görünür. Sənətdə də belədir, ədəbiyyatda da... Bacarmadığı işə girişən gülünc görünür və uduzur. Siyasətdə uduzmaq isə sənətdəki kimi deyil. Siyasətdə uduzanın həyatı, mənliyi, hörmət-izzəti sual altına düşür. Siyasətdə təqib var, həbs var. Odur ki, bütün bunlara qarşı siyasətdə hər gediş ağıllı, məntiqli, ardıcıl, düşünülən olmalıdı. Mən özümü belə keyfiyyətli siyasətçi hesab etmədiyimdən, siyasətlə məşğul olmaq fikrindən daşınmışam.

– Kinemotoqrafçılar İttifaqının baş katibi vəzifəsi Rasim Balayevin sənətdə oynadığı iri, yoxsa epizodik roldur?

– Mən deyərdim ki, epizodik roldur. Bu vəzifəni mənə təklif edəndə şərt qoydum ki, çəkilişim olur, səfərim olur, aylarla başım qarışır. Dedilər ki, bu, ictimai birlikdir. Mənim vəzifəm də çinovniklik deyil. Kino işçiləri yığışırıq, dərdləşirik. İnanın, mən burda oturmuşam, elə darıxıram... Aparat qarşısında, çəkiliş meydanında özümü daha rahat hiss edirəm, nəinki bu rahat otaqlarda.

– Son illər uğur qazanan məlum filmləri çıxsaq, Azərbaycan kinosunun vəziyyəti heç ürəkaçan deyil. Doğrudan, hanı Azərbaycan kinosu? Bəlkə, heç siz də bilmirsiz?

– Hanı bizim elmimiz, hanı bizim səhiyyəmiz, hanı bizim iqtisadiyyatımız, hanı bizim sənayemiz, hanı... Eləcə də mədəniyyətimiz. Hamısı bir-biri ilə bağlıdır. Vaxt var idi, senzuradan çəkinirdik, amma çox şeylər demək istəyirdik. Di gəl, Moskva qoymurdu. Sonra quruluş dağıldı, biz də elə bil başsız qaldıq. Heç kim pul vermir. Eşitmişəm ki, elə zavodlar var, onları dayandırmaq olmaz, dayansa, təzədən işə düşməsi üçün xeyli xərc lazımdır. Bizim sənət də elədir. Zəncirin





ucunu itirdin, vəssalam. Bizim kinostudiyada 1200 işçi vardı, necə yığmışdılar onları – hamısı nadir adamlar idi. Pul olmadı, iş olmadı, hamı da dağıldı. Çoxu elə fikirdən xəstələndi, öldü...

– İqtisadiyyatın boz üzü?

– İqtisadiyyat deyil, axı, bu. Pul qazanmaq istəsək... Kinodan gəlirli heç nə yoxdur. Sponsorlar olur, amma mən onlarla işləməyi sevmirəm. “Quran”da yazılır ki, sağ əlin verdiyini sol əl bilməməlidi. Sponsorlar pul verib film çəkdirirlər, başa vururlar, hədlərin aşırlar. Hacı Zeynalabdin Tağıyev yoxdu indi. Neçə belə film olub – elə rəftar edirlər ki... Sənət nədir, sənətçi kimdir – bunu bilməyənə nəyi başa salasan. Beləsi qaba rəftarla film də çəkdirəcək, sonra kaseti alıb otağına da qoyacaq.

– Rejissorlar necədir?

– İstedadlı rejissorlar var, amma maliyyə, pul... Film çoxlu pul deməkdir. “Titanik”ə 600 milyon dollar xərclənib!

– Artıq neçə dəfədir “darıxıram” sözünü təkrar edirsiz...

– Mən səliqə-səhmanı sevən adamam. Bu pozulanda dəhşətli dərəcədə darıxıram. Bu gün, ümumiyyətlə, cəmiyyətimizdə harmoniya pozulub. Yaradıcılıq da cəmiyyətin içində...

– Gendən baxanda hər şey gözəl görünür, əslində...

– Söhbət qarın toxluğundan getmir. Mənən acıq hamımız. Biz mənən sarsılmışıq. Sənət belə, cəmiyyət elə... Küçədə uşaqları görürəm, adamın üstünə yüyürür – bunu al, onu al. Hanı bu polis işçiləri? Qabaqlar bir uşaq görəndə sorğu-sual başlardı... Bu gün maşın üstünə tullanan, o tindən bu tinəcən bir adamın dalınca qaçan uşaqlar kimdir? Millətimizin gələcəyi. Bu uşaqlar sabah küçədə, cəmiyyətdə “təcrübəli” nə olacaqlar? Potensial cinayətkardı bu uşaqlar. Halbuki, bu uşaqlardan ötrü, bu gələcək üçün insanlar qurban gedib, zülmlər görüb, başı qovğalar çəkib... Senzura bir xırda detaldan ötrü başımıza elə oyun açırdı...

– Hökmdarın, cəlladın qarşısında susmayan bir obraza həyat vermisiz. O ucalıqdan baxanda müasirlərimiz çox miskin görünürmü? Olubmu ürəyinizdə hökmdarın sözünü təkrarlayasınız – “hanı sizin kəlamınızın qüdrəti?”

– Mən nə iqtidaram, nə də müxalifət. Mən sənət adamıyam. Elmsiz, sənətsiz hara gedirik?

– Hələ tələbə ikən baş rola görə diri-diri dərisi soyulan Rasim Balayev 55 yaşın hədəfinə tuş gəlib. Filmdən yaxşı qurtardınız, bəs bu hədəfdən necə?

– Ümumiyyətlə, sənət adamları həmişə söz-söhbət hədəfinə çevrilib. Dedi-qodular, şayiələr... Mən sakitəm. Özüm özümü yaxşı tanıdığımdan narahat deyiləm.

– Oynadığı qəhrəman roluna görə aktyora da qəhrəman kimi baxanlara, səhnədən dediyi sözlərlə ona müraciət eləyənlərə necə baxırsınız?

– İnsan musiqi alətinə oxşayır. Əgər düzgün köklənibsə, həmişə ondan soruşulan suallara da ətraflı cavab verir. İnsanın çətin bir problemi varsa, onda sualları başdan eləyir. Sualına məndən cavab istəyənləri görəndə sevinirəm. Yoldan keçən hər adamla maraqlanmırlar ki? Trafaret cavabları xoşlamadığım üçün mən də onların hər sualına düşündüyüm kimi cavab verməyə çalışıram.

– Zamanın aktyora münasibəti də dəyişibmi? Yoxsa onlar hələ də həlledici söz sahibi olaraq qalıblar?

– Bizim peşə səhnə və ekranla məhdudlaşır. Bəziləri həyatda da artistlik eləyir, olduğu kimi görünə bilmirlər. Səhnədən, ekrandan kənarda mən özüm olmağa çalışıram. Təbii, aktyorluq və insani keyfiyyətlər fərqli anlayışlardır. Amma bir adamda həm gözəl cəhətlər, həm də istedad olsa, lap yaxşı olar.

– Böyük sənətkarlar və böyük şəxsiyyətlər. Onların arasında niyə həmişə bərabərlik işarəsi qoymaq olmur?

– Adətən, böyük insanlar böyük şəxsiyyət olurlar. Bəzən sənəti, istedadı çox yüksək olanların insan kimi keyfiyyətləri çox aşağı olur. Görünür, gendən, qandan gəlmə xüsusiyyətlər də var. Gözümüzün qabağında sənətə dünən gələnlər məsələlərə ötkəm münasibət bildirirlər. Heç olmasa, "məncə", "mənə görə" desinlər

– Bir az tanınan, yaşlanan aktyorların ürəyi rejissor pultu istəyir. Rejissorluğa başlamaq fikriniz yoxdur ki?

– Rejissorluq mənə təklif olunur. Amma mən rejissorluğun çətinliyini anladığım üçün bu təklifə razılıq vermirəm. Ömründə kino çəkməyən birdən-birə 10-15 hissəli serial çəkir. Mən onların cəsarətinə həsəd aparıram. Balaca uşaqlar həmişə oddan yapışırlar. Tutmasan, gedib odda yanar. Kino görməyənlərin rejissorluğa can atması da buna oxşayır.





– Aktyorların xatirələri də çox maraqla oxunur. Ələ qələm almaqla aranız necədir?

– Xatirələri yazmaq istəyimi yavaş-yavaş hiss edirəm. Çünki elə hadisələr var ki, onu təkcə mən bilirəm. Dünyanın məşhur sənət adamları, başıma gələn hadisələr, çəkilişlərdən kənarda baş verənlər haqqında müəyyən xatirələrim var.

– Xatirələrin bir yaxşı tərəfi də var. Başqalarını tanıtdıqca, oxucu üçün özün də büsbütün açılırsan.

– Bəli, elədir. Xatirə yazmaq fikrim var. Amma hələ hazırlaşıram.

– Bəlkə idarəetməni sevmədiyiniz üçün rejissorluğa razılıq vermirsiniz?

– Rejissorluqda idarəetmə, təşkilatçılıq var. Amma gərək bütün əsəri başdan ayağa kimi görə biləsən. Bəzən teatr rejissorları kino çəkirlər. Halbuki, kino ilə teatr tamam ayrı-ayrı sənətlərdir. İndi elə hamı kino çəkir, çünki istedadlı adamlar qapı-qapı düşüb pul axtarmırlar. Lazım olan pulu istedadsızlar çox rahat tapa bildikləri üçün kinonu da onlar çəkirlər.

– Dünyada yaşayan həmkarlarınızın həyatında olan ən adi hadisələri mətbuat, cəmiyyət diqqət mərkəzində saxlayır. Rasim Balayevin yubileyi, ad günləri mədəni mühitin diqqət mərkəzində olurmu? İlk rolu oynayanda nə arzulayırdınız, başınıza gələn nə oldu?

– Vaxtında kifayət qədər filmlərə çəkildiyim üçün indi, bu yaşda elə bir peşmançılıq keçirmirəm. Bu rolları, çəkilişləri uğurla davam elətdirmək olardı, amma 1988-ci ildən üzü bəri durğunluq dövrüm başladı. Təcrübəmin artdığı bir vaxtda, 40 yaşımda uzun müddət işsiz qaldım. Arabir çəkilişlər oldu, amma onlar mənim rollarımın davamı deyildi. Həm tarixi, həm müasir mövzulu çox obrazları yarada bilərdim. Bax, buna heyifsilənirəm. Elə bil, bu dünyaya çoxlu sözüm vardı, məni axıracan danışmağa qoymadılar.

– Rasim Balayev sözünə Nəsimi, Beyrək, Babəklə başladı, bəs davamında kimlər olmalıydı?

– Kinoda elə bir vəziyyət yarandı ki, mən indi konkret bir rol adı çəkə bilmirəm. İlk rolumla mən sözümü deməyə başladım, amma sonra sözümü kəsdilər. Ona görə ürəyimdə narahatçılıq var. Amma ümidimi tamam üzməmişəm, sözümü axıracan demək üçün hələ imkan gözləyirəm...

*avqust – 2002*





# Şimali Azərbaycanın cənubu

...Yayın isti günlərindən biri açılar-açılmaz yol bizi Azərbaycanın cənubuna dost-doğma bir diyarla ilk görüşə aparır. Bir yandan gün, bir yandan da dilsiz-ağızsız, imansız yol adama od qoyur. Bakıdan, şəhərin gurluğundan ayrıldıqca adamın ürəyi atlanır. Torpaq qolları – yollarıyla adamı elə hey özünə sarı dartır. Yol da bizi götürüb aparır, təkrar təbiətə qaytarır. Qopduğun, ayrıldığın, hərdən də saya salmadığın təbiətə. Bu çöllərin yeganə ağasıdır o. Yanıb-yaxılan yaşıllar, susuzluqdan cadar-cadar olmuş torpaq, suyu quruyan yataqlar ağanın, külli-ixtiyarın sərt qanunlarının qurbanlarıdı. Asfalt yolun kənarıyla uzanan xəndək, deyilənə görə, ceyranlardan ötrü qazılıb. Təbiətin gözəlləri öz sərhədlərini aşıb tez-tez asfalta çıxırmışlar. Bundan ötəri, onları qorumaq üçün insanlar özləri ilə təbiətin arasına daha bir süni sədd çəkiblər. Yol uzandıqca təbiətin qurbanları arxada qalır. İrəlidə isə Kürdür. Kürsəngi kəndinin adını xatırlayıb qorxa-qorxa Kürə baxırıq: səngimək nədir, Kür lap sürünür ki... Susuzluqdan fəryad qoparan bu çöllər bizi cənuba, fikir-xəyal isə Qarabağa aparır. Ayağını bərk vuranda göz yaşını saxlaya bilməyən torpaqlarımız indi gör kimin nazını çəkir? Tək bircə kərə Qarabağı görənlər bilir ki, elə yeri öz xoşuna heç kim qaytarmaz. O ki ola ermənilər.

Salyan, yol qırağı kəndlər, Biləsuvarın kiçik rayon mərkəzi də arxada qalır. Yolun qarşısını kəsən ağ duman kimi görünən Talış dağları yaxınlaşmır ki, yaxınlaşmır. Az keçmiş Minaytəpəyə çatırıq. Hündürlüyü nə qədər olsa yaxşıdır? Soruşan olsa, görmədim deməyinə dəyməz – bir qarış. Təpəni keçib Cəlilabada yetirik. “Nə var, nə yox?” sualına yerlilərin cavabı hazırdı: “Toy-toya qarışıb”. Yayın oğlan çağı da heç toy olar, özü də belə isti yerdə? Toyun vaxtı payızdı axı, deyirlər. Yerlilər söz altda qalmır: “Toy ayrı nə vaxt olasıdı? Taxılı yığmışıq, şükür Allaha, satdığımızı satmışıq, qalanı da qalıb. Camaatda hələ pul varkən, xeyir işi yola vermək lazımdır.

İndi bizdə toy vaxtıdır. Hər gün toydayıq". Toy demişkən, subayların gözü qırılmasın, amma burda yerli adət-ənənəni gözləyib ailə qurmaq, evlənmək çox çətindir. Qız, oğlan toyları ayrı-ayrılıqda olur. Xərci oğlan evi çəkir, bu öz yerində. Zülm məclisi yola verməkdir. Qız toyunda günorta kişi, axşama isə qadın məclisi qurulur. Sonra oğlan adamı qız evinə paltarkəsdiyə gəlir. Gəlin üçün bəzənən xonçalar gətirilir, özləri isə toya gedirlər. Bəy bir-iki saatdan sonra təzədən gəlir, geyinib hazırlaşan gəlini qız toyuna aparır. Başqa vaxt ayrıca oğlan toyu da keçirilir, axırda gəlib gəlinlərini aparırlar. Qonağı olduğumuz toyda qız adamlarının gözü gələnlərin üzündə qalmışdı. Demə, bəyi hələ heç kim görməyib, heç gəlin də. Əlində gül içəri girən oğlanı yaxınlarından hesab etsələr də, demə bəy özüymüş. Bəli, inanmasaq da, qədim adətlər bu sadə insanların yaşadığı bir cənub şəhərində hələ də qorunur. Özünəməxsus adətlərə gəlincə, deyəsən, gəlin-qaynana problemi burda elə də üzdə deyil. Gəlin-qaynata, gəlin-qayın münasibətlərindəki pərdəni isə aradan ötən illər hələ də qaldırmayıb. Burda gəlinləri qızlardan başyaylığı ayırır. Kəndlərdə daha güclü olan bu ənənədən gəlinlər əsla gileylənmirlər: "Yaylıq başımda durub, mənə neynir? Ərli qadının başı bağlı olar". Günün altında yanıb-yaxılan qadınların iş-gücü başından aşır: ev-eşik, biş-düş, mal-heyvan, bağ-bostan, oğul-uşaq... Onlar evi tərtəmiz yığmağı, çörəyi təndirə yapmağı, süddən pendir tutmağı xoşlayırlar.

Dolanışıqları görən necədir? "Əvvəl pis idi. Bu günə şükür. Camaat bir-iki ildi özünə gəlir. O da torpağın hesabına". Adam başına verilən torpağı həvəslə əkib-becərirlər. Niyə də həvəslənməsinlər, axı yeganə qazanc mənbəyidir. Burda bir həkimlər, bir də müəllimlər maaş alır. Qalanları gözünü torpağa dikib. Ədalətsizliyi yerli idarəetmənin adına yazırlar: "Qanun var, torpaq bölünsün. Çox yaxşı, torpağı şəhərdən gəlib bizimçün bölməyəcəklər ki. Özümüzünkülər pisdir. Vergi adı ilə iki gündən bir başımızın üstünü kəsirlər". Bununla belə, şükürləri dillərindən əskik olmayan yerlilər sovet hökumətini daha yaxşı hesab edirlər. "O vaxt qanunlar pis idi, adamlar yaxşı. İndi qanunlar yaxşıdır, adamlar pis". Təndir başında çörək yapan gəlinbacıdan bu sözləri eşidəndən sonra başqa sözə





ehtiyac qalmadı. Özü də azca duruxub qolçağını soyundu, sonra əllərini qoşalayıb "bu isti zindan haqqı düz deyirəm", – dedi.

İşıq kəndlər üçün ən böyük problem olaraq qalır. Gündə bir saat işıq olanda sevinirlər. Ümidləri Allahın gününədir. Bu isti havada soyuducudan şkaf kimi istifadə edən gəlinlərdən sərin qatıq, ayran istəməyimizə peşman olduq. Gətirdikləri ürəklərincə olmadığından pərtliklərini gizlədə bilmədilər. Bəli, bu yerlərdə saat əqrəbləri üzü keçmişə işləyir. Hamı gün batanda yatır, gün çıxanda qalxır. Uşaqların yaxın dostu ceyrandan gözəl at (belə deməyimiz heç ürəklərini açmadı: Ceyran gözəldi ki?), istidən tükü tökülən itdir. Bir də...

Kitab kənd uşaqlarının hələ də ən sevimli dostu olaraq qalır. Oxuduqları kitabları bir-birinə ötürür, təzələrini alıb evə gətirirlər. Qız istəyən cahılları çəpər qırağında, təzə bəyləri evin küncündə, böyük-kiçik gözündən qıraqda, külfət sahibi olanları isə qızmar günün altında tapmaq olar. Dağ kəndlərindəki qız-gəlinlərin geyimkecimin mühafizəkarlığı ilə seçilsə də, rayon mərkəzində eynən paytaxtımızdakı demokratiyadır. Yəni kim nə istəyir geyir, deyən özüyçün deyir. İslam Respublikası ilə qonşu olan bölgədə din əski dayaqlarını elə də qoruya bilməyib. Düzdür, yaşlıların çoxu namaz vaxtını keçirmirlər. Amma bu sözləri orta və cavan nəslə aid etmək olmaz. Hamını din, Allah yox, mövhumat birləşdirir. Burda xəstələnəni hələ də birinci mollaya aparırlar. Uşaqların paltarlarının üstündən aydınca seçilən duanı böyüklər içəridən taxırlar. Allah xofundan çox camaat bəndə şərindən ehtiyat eləyir. Bədnəzərdən, nəhs gündən, pis nəfəsdən qorunanların son ümid yeri ağır seyidlərdir. Hər kəlməsi ilə neçə-neçə evə, ailəyə ürək dincliyi bəxş edənlərin yeri cənnət olsun, yoxsa bu göyün-yerin altında adamlar kimsəsizliyə dözməzdilər. Bir kəlmə xoş sözə möhtac olan adamlara isə təbiət ildən-ilə codlaşır. İlan ilində ilan bağ-bostanı, çölü-düzü başına alıb. Adamlar Allahın gününün altına, heyvanlar otlağa qorxa-qorxa çıxır. Nə qədər qorunsan da, bəla qurbansız ötüşmür. Adamlar cavan bir qız uşağının ilanın güdazına getdiyindən yana-yana danışırlar. Gürzə çalan qızı həkimə çatdırsalar da, həyatını xilas edə bilməyiblər. Deyirlər, zəhəri birbaşa damarına axıdıb, ona görə əlac olmayıb. Tez-tez görünən, üzə çıxan su ilanlarını, koramalları

balaca uşaqlar da tanıyır. Görəndə heç qorxmurlar da. Amma zəhərliləri üzə qəfil çıxır, xatasız da ötüşmür. Cadar-cadar olmuş torpaq elə bil bir ucdan ilan balalayır. Çöllük bir yana, heç həyətə də çıxmağa ürək eləmirlər. Dağ kəndləri xüsusilə təbiətin bu acı zarafatından əziyyət çəkir. Hamı soyuqları, qışı, bu qorxunc heyvanın az-az rast gəlindiyi zamanı arzulayır. İlanın hikkəsindən, günəşin hirsindən adamlar məhsuldan, bardan çoxdan əllərini üzüblər. Olan-qalanı çoxdan yığıb toplayıblar. “Bu ilin xiyar-pomidoru da tez sovuldu. İsti aman vermədi, suya da ki, əl yetmədi”. Ona görə heç nə yoxkən bostanın urusunu yığırlar. Tağ üstündə tək-tək yemiş, boranı gözə dəyir. Onların da ömrü bir-iki günlükdü. Onsuz da yaşıllığı kasad olan bu yerdə hər yer bomboz görünür. Tək-tük, arabir gözə dəyən, özü də min-bir əzab-əziyyətlə boya-başa çatan meyvə ağaclarını çiçək vaxtı dolu vurduğundan başları boşdu.

Ümid balaca kolluğu xatırladan nar ağaclarınadı, onların da başında tək-tük barı görünür. Yenə Allah torpağa versin. Nə qədər olmasa, adamları dolandırır, acından ölməyə qoymur, üstəlik pis güngüzəranın da əlindən alır: “Allah, bu torpağı, onun barın-bərəkətin bu günahkar bəndələrinə çox görmə”. Bu, dünyagörmüşlərin yalvarışıdır. Balacalarsa başqa cür dua oxuyur: “Ay Allah, sən dayımı, bizi sevindir. Atamın, dayılarımın əmilərimin cibin pullu elə. Heç kimi yaddan çıxarma, hamını yaxşı elə...”

Bunu Allaha pıçıldayan Zeynəbdir. Dualarınla boya-başa çat, balaca!

Təzədən yol əlindəyik, indi də bizi geri qaytarır. Bu dəfə yola çıxan kimi adam darıxır. Artıq isinişdiyin adamlardan, torpaqdan ötrü...

*avqust – 2001*





# Aşıq modelyer axtarır

*Bülbülü xar ağladır,*
*Aşığı yar ağladır,*
*Fələyin insafı yox,*
*Məni zar-zar ağladır.*

Zaman sənətin əzəlini yaradanları nə vaxt aşiqə çevirdi, bəxtidönüklərin qəmindən özünə pay çəkən xalqımız onları necə aşıqlaşdırdı, heç birimiz bilmirik. Düzünü bircə və təkcə özü bilir. Aşıqlar müqəddəsləşdikcə adları xalqla qoşa çəkildi... Düzdür, bizə çatınca o miflər artıq qırılmaqda, aşıqlar da olan-qalan hörmətlərini itirməkdə idi. Amma əski dövrlərin aşığı böyük ideyaların carçısı, bir çox funksiyaların daşıyıcısı olub. Birincisi, mifoloji təriqətə qulluq etdiyinə, ikincisi, hərbi gücü yaratdığına, ordu ilə bərabər döyüşlərə qatıldığına, üçüncüsü isə etnoqrafik xüsusiyyətləri daşıdığına görə türk aşığı həmişə sayılıb-seçilib. Sonrakı dövrlərdə də dövlətin, hakimiyyətin bu funksiyalara ehtiyacı vardı. Bəs niyə aşıqlar bu öncüllüyü itirdilər? Bu seçilməni ötən əsrin ortalarına kimi gətirən aşıqlar nəyə görə sonralar tamam gözdən uzaq, könüldən qıraq düşdülər? 30-cu illərdə onlara az da olsa qiymət verilirdi: partiyaya, komsomola isti-isti həsr olunan şeirlərin hesabına qurultayları keçirilir, adları-sanları yüksək tutulur, arabir mükafatlandırma da olurdu. Ən başlıcası, xalqın arasında bizim ozanların hələ sözü ötürdü. Dövran yavaş-yavaş bu ağsaqqallığı da əllərindən aldı. Bəs özləri niyə razılaşdılar?

Döyüş vaxtı öndə gedənlərdən oldular. Şah İsmayıl Xətainin dövründə əyinlərində hərbi geyim, əllərində saz meydana atıldılar. Düzdür, o vaxta qədər də müharibələrdə onların səsinin və sözünün gücündən bir qayda olaraq istifadə olunub, amma səfəvilərin vaxtında qızılbaşların aşığa hörməti bir başqaydı. Aşıqların hərb meydanlarında görünməsi yavaş-yavaş geyimlərini də dəyişdi.

Zaman keçdikcə onlar geyimlərini qoruya bilməsələr də, hərbi funksiyalarını itirmədilər. Elə bu döyüş ovqatı da onların əyninə hələ də çıxara bilmədikləri Stalin paltarı geydirdi. O siyasətin istədiyi aşıqları dövlətin işinə və içinə qatmaq idi. Xalqın ruhuna yaxın olan bu sənət sahiblərinin də dövlətçiliyə asan və tez uyuşması əslində qandan, candan gəlməydi (Ona görə bu gün Leninə, Stalinə qoşulan misralara görə bizim aşıqları qınamağımız haqdan deyil.). Yaxşı, o rejim də yıxıldı, dövlət də. Di gəl, biz hələ də Stalini ölməyə, paltarını da köhnəlməyə qoymuruq ki, qoymuruq. Əgər söhbət həmin hərbi ovqatdan gedirsə, aşıqlarımız niyə mili ordunun geyimində olmasınlar ki? Və ya sovet geyimi ilə hansı vətənpərvərlik çağırışı uyuşur? Bu məsələ görən kimisə narahat edirmi? Deyəsən, yox. Ayağına bir yekə çəkmə geyinən də var, başına hər ölçüdə papaq oturdan da. Pal-paltara gəlincə, problem lap tündləşir. Aşıqları tapmaq əsla asan olmasa da, bu problemlə kimin necə yollaşdığını öyrənmək istədim. Aşıq Əhməd Sadaxlı paltarını təzə tikdirib: “O Stalindən qalma geyimlə tamam vidalaşdım. Mən o formanın qəti əleyhinəyəm. Amma çəkmə ilə papaq hökmən gərək qalsın. Çünki əzəl də elə xrom çəkmə geyilib, üstdən də bir yüngülünadına məst də deyiblər, qondarxat da... Özümə təzə, boğazı düyməli köynək tikdirmişəm, rəngi də azca yaşıla çalır. Qırmızı, göy, yaşıl ot rəngi bizdə həmişə sevilib, müqəddəs bilinib”.

Aşıq Gülabı Xındı Məhəmmədoğlu isə adicə kostyum geyinir: “Mən aşıq oğluyam. Gözümü açıb onların geyimini elə görmüşəm. Bizim dədə-baba geyimimizi nəyə görə dəyişək ki? İndi deyirlər, əynimizə çuxa geyək. Gözümüz ona öyrəşməyib axı? Mən ansamblda işlədiyimə görə elə həmişə kostyumda oluram”.

Professor Məhərrəm Qasımlının fikrincə, aşıqlarımız bir az müasir geyinsələr daha yaxşı olar: “Yoxsa, Aşıq Əhməd çıxır səhnəyə, təzə nəsil onu qəbul eləmir. Demirəm aşıq qalstuk vursun, amma elə çəkmə geyməsi də artıqdır”. Adı rəhmətlik şairmiz Hüseyn Arifin adıyla yanaşı çəkilən Aşıqlar Birliyi 1991-ci ildən Mədəniyyət Nazirliyinin tərkibindən çıxıb ictimai təşkilat kimi fəaliyyət göstərir. Nə dövlətin, nə nazirliyin bir qəpiyini görən bu təşkilata rəhbərlik eləyən Zümrüd Əsgərovaya görə, əslində bizim aşıqlarımız





çuxa-əba geyinməlidirlər: “Bu geyim məsələsi hazırda bizi də çox düşündürür. Yaxın günlərdə xaricə bir qastrolumuz var, ora Stalinin paltarını aparmaq istəmirik. Gərək modelyer tapıb məsləhətləşək ki, bizim aşıqlar nə geyinsinlər. Nəyin bahasına olur-olsun, o köhnə geyimdən əl çəkməliyik. Əlinə milli alət alanın əynində milli də paltarı olmalıdır”.

Aşıq gördüyün çağırar. İndi qəlfeyi şalvar tikdirən kim, quzu dərisindən papaq sifariş verdirən kim... Yəni doğrudan dədə-baba yazıçımızın, el aşığının əyninə nə geyməsinin bizə dəxli yoxdur?! Aşıq, halın necədir? Soruşmaq nə lazım, hər şeyi göz görür, ağıl da kəsir. Aşıqlar etiraf eləsələr, heç boyunlarına almasalar belə aydındır ki, toyların çal-çağırlı rəqsləri aşıq sənətini arxa plana salıb.

Ey gidi dünya, bir vaxtlar aşıqlar səni özünə meydan seçmişdi... Aşığın, pəhləvanın yerinə indi meydan sulayanın kimdi? Zamanın havası-küləyi, yağışı-qarı aşıqlara gen meydanı dar eləyib. Bu gün onlar yarmarkaları, bazarları, vağzalları bir tikə çörək xatirinə dolanırlar! Hamımız durub baxırıq ki, görən axırı necə qurtaracaq – gülməli, yoxsa ağlamalı?

*yanvar – 2002*

## Sabir Abdullayev: "Mən sənətin gücündən arxayınam"

– Azərbaycanda bir ailədən iki oxuyanın olmasına tez-tez rast gəlinir, amma bir evdən üç xanəndənin üzə çıxması nadir hadisədir – Vahid-Sabir-Cabir Abdullayevlər. Sizdən başqa belə üçlük varmı?

– Mən biləni, bizdən başqa bir də Məmmədov qardaşları var. Səxavət-Əliyar-Fehruz. Bu qardaşlarla qəribə bir tale oxşarlığımızı da görürəm. Vahid bizim böyük qardaşımız və sənətə gəlməyimizin səbəbkarı oldu. O, cavan, həm də fəxri ad almadan dünyasını dəyişdi. Baxmayaraq ki, nəinki əməkdar, xalq artistinə də layiq idi. Səxavət də Məmmədovların böyüyü idi. O da cavan və fəxri adsız dünyadan köçdü. Abdullayevlərin ilk fəxri adını Cabir aldı. Məmmədovların da kiçiyi, yəni Fehruz əməkdar artistidir. Biz ortancıllar – Əliyarla mən sıraviyik.

– 2007-ci ildə 50 illik yubileyiniz münasibətilə Sizə ad verilməsi ilə bağlı bir sıra müraciətlər oldu. Artıq 2009-cu ildir, hələ də Sizi təqdim edəndə sadəcə "oxuyur Sabir Abdullayev" deyirlər. İfası "Qarabağ xanəndələri" qızıl diskinə düşmüş bir sənətkarın hələ də fəxri ad almamağı qeyri-adi görünür...

– Azərbaycanın birinci xanımı, millət vəkili və muğamımızın hamisi Mehriban Əliyeva xalq musiqisi tarixində analoqu olmayan işlər görüb. Onun tərtib etdirdiyi "Qarabağ xanəndələri" qızıl diskində qardaşım Vahid Abdullayevlə bərabər mənim də ifam yer alıb. Bu layihədə iştirakım mənim üçün böyük fəxrdir. Fəxri ada gəlincə, 25 ilə yaxındır müxtəlif təhsil ocaqlarında, o cümlədən Asəf Zeynallı adına Musiqi Kollecində muğam dərsi keçirəm. Azərbaycan musiqisini 20-ə qədər ölkədə təmsil etmişəm. "Qızıl fond"da xeyli ifalarım var. Tələbələrimdən fəxri ad alanı, beynəlxalq muğam müsabiqələrində fəxri yer tutanları da az deyil. Güllü Muradova ilk dəfə dərsimə gələndə balaca uşaq idi. Ona Lökbatan musiqi məktəbində dərs demişəm, hazırda Asəf Zeynallıda yenə mənim sinfimdə oxuyur. Bunların heç birini də fəxri ad üçün eləmirəm. Amma, əlbəttə, dövlətin hər bir qayğısı sənətçiyə qol-qanad verir, o cümlədən əməkdar artisti, xalq artisti, Prezident mükafatı və s.





– Muğamı öyrədib qurtarmaq olurmu?

– Yox, çox çətindir. Elə bilirsən ki, tamam öyrənmisən, birdən ortaya ayrı guşə, təzə şöbə çıxır. Adını tapırsan, özü yoxdur. Xeyli axtarandan sonra tapırsan, deyirsən ki, hə, bax, bunu bilmirdim. O boyda Seyid Şuşinski deyib ki, muğam bir dəryadır, heç bilmirəm ordan bir qaşıq götürmüşəm, ya yox. Muğam həqiqətən dəryadır, onu öyrənməyə, bu sənəti mükəmməl bilməyə bir ömür bəs eləmir. Biz də özümüzü atdıq bu oda, geri çəkilmək də olmur.

– Deyirlər, hər ifaçıdan müəllim, hər müəllimdən də ifaçı olmur. Hər ikisi ilə məşğul olmağa Siz neçə imkan tapırsınız?

– İndi ifaçılar çoxdur. Amma hər ifaçı müəllim olmağı bacarmır. Bizim bəxtimiz gətirdi ki, rəhmətlik Nəriman Əliyev müəllimimiz oldu, o öyrətdi, biz də öyrəndik. Uşaq vaxtı Cabbarın köhnə lent yazılarını həvəslə, diqqətlə dinləyirdik. O vaxt eşitdiyim ifa indi də qulağımdadır. Uşaq vaxtı çox az oxumuşam, marağım əvvəl idmana idi: sonra musiqi təkrar özünə çəkdi məni.

Amma deyim ki, mənim az tanınmağıma əsas səbəb elə müəllimliyim olub. Əsas enerjini uşaqlara, tələbələrimə vermişəm. Bəzən də elə olub ki, kiminsə üzündən kanallara ayaq qoymamışam.

– Bəlkə bu Abdullayevin də taleyinə müəllim olmaq, muğamları məhz belə yaşatmaq yazılıb?

– Heç ağlıma gəlməzdi ki, nə vaxtsa müəllim olacağam. Amma bu sənəti seçməyimin əsas səbəbkarı böyük qardaşımız Laçın oldu. O vaxt Vahid Asəf Zeynallı adına Musiqi Texnikumunda dərs deyirdi, tanınmış ifaçı idi. Xanəndə olmağımı o istəmirdi, deyirdi ayrı sənət seç, aydın məsələdir ki, bu yolun çətinliyini bilirdi, ona görə. Amma Laçın qardaşım direşdi ki, yox, Sabir xanəndə olsun. Onun sözüylə mən də sənətə gəldim.

– Hər halda bu bir tale idi. Bu taleylə indi razısınız?

– Sözsüz ki, sənətə gəlməyim, əziyyətlə öyrəndiklərimi bu gün hövsələ ilə cavanlara öyrətməyim taleyin işidir. Hərdən adam yorulur, deyirsən ki, vəssalam. Amma tale imkan vermir. Bu taleyimdən narazı deyiləm, çox şükür. Əsas odur ki, işimiz var, azdan-çoxdan səsimiz var, gözəl ailəmiz var, övladlarımız var...

– Övladlarımız bu sənəti davam etdirirmi?

– Oğlum Fərid Asəf Zeynallı adına Musiqi Kollecinin tar sinfində oxuyur, xalq artisti Ağasəlim Abdullayevin tələbəsidir. Əslində qızlarım da yolumu davam etdirirlər, hər ikisi müəllimdirlər.

– "Zabul segahı"nı çox gözəl ifa etmisiniz. İndi bu yaşda "Zabulu" təkrar yazdırsanız, 10 il əvvəlki ifanıza nə əlavəniz olardı?

– Muğam sənəti belədir ki, dünən oxuduğunu bu gün bəyənmirsən. Çünki hər an üzü peşəkarlığa doğru gedirsən, muğamda təzə nə isə öyrənirsən. Mən Zabulu pis oxumamışam. Amma indi onu yəqin ki, bir az başqa cür oxuyardım. Allah Üzeyir bəyə rəhmət eləsin ki, o qoymadı ki, muğamı notla oxuyaq. Notla oxusaq, indi hamı bir-birinə oxşayardı. Bu sənət belədir ki, yaxşını heç kim demir, amma xırda səhvini hamı dönə-dönə qeyd edir. Bu gün Zabulu daha sanballı oxuyaram.

– Hər xanəndənin sevimli segahı, muğamı olur, deyirlər. Siz hansı muğamı lentə yazdırmaq istərdiniz?

– İnşallah, mən "Humayın"u lentə yazdırmaq istəyirəm. Biz qarabağlılar daha çox segah oxuyuruq, hərə bunu bir cür yozur. Bu muğamı yazdırmaqla istəyirəm deyəm ki, biz muğamları bilirik. Nə olsun ki, daha çox segah oxuyuruq? Segahlardan isə orta segah ürəyimə yatır. Bu, segahların ən qədimidir.

– Muğamı oxumaq asandır, yoxsa öyrətmək?

– Elə ikisi də çətindir. Dərsdə 5 uşaq yaxşı oxuyub, biri pis oxuyanda adamın bütün əhvalını pozur. Birinin yaxşı zənguləsini də eşidəndə elə bil dünyanı sənə verirlər. Kəsəsi, mən dərslərdə canımı qoyuram, ta bilmirəm, düz eləyirəm, yoxsa yox.

– Bir müəllim kimi muğamın sabahını necə görürsünüz? Yeni nəsillərin improvizə arzuları, aranyiman həvəsləri bu qədim sənəti də dəyişdirəcəkmi?

– Bilmirəm, muğam inkişaf edəcək, ya yox, amma elə ifaçılar var ki, onlar heç vaxt geri qayıtmayacaqlar. Muğam yaşayacaq, amma Xanın oxuduğunu heç kim oxumayacaq, heç kim Cabbarın ifasının yerini verməyəcək. Mən sənətin gücündən arxayınam. O, təsadüfi adamlardan özünü qorumağı bacarır.

*2009*





# Sözdə pauza

...Bu mart yazıçı, Mövlud Süleymanlı təzə bir onilliyi yaşamağa başladı. Ömür qəfil kəsilsə də, nə yaxşı bir anda yığıla bilmir. Bəxti çağırıb-buyurmaq, taleni yazıb-pozmaq, qisməti dəyişmək – düzəliş eləmək, deyilənə görə, əlimizdə deyil. Amma ömrün illərinin yığılması, günlərin bircə-bircə toplanması adamın özü olmadan heç cür alınmır. Bu oxşar həyat tərzi fani dünyanın beşgünlük qonaqlarının hamısını bir araya gətirir. Əvvəl biz onu, sonra da zaman bizi qabağına qatıb qovur. Mövlud müəllimin bu qaçaqaç-qovhaqov dünyasında yükün ağır görüb illərin ağzına tulladığı nəydi, özüylə təzə onilliyə gətirdiyi nə?

* * *

"Ədəbiyyat xalqa xidmət edir", "Mən yazdıqlarımla xalqımın sözünü deyirəm..." Boğazdan yuxarı olduğu kimi, bu təqdimatların hamısı həm də ürəkdən yuxarı sözlərdir. Elə ona görə də ötən yüzilin ədəbiyyatı gah sonsuz ehtiram, gah da bir üsyan havasıyla xatırlanır. Əslində insan ömrü kimi ədəbiyyat tarixi də anlarla hesablanır. Bu anların diktəsi bir ayrıdır – indi oxucular aldana, yaradıcılar aldada bilmir. Belə vaxt ədəbiyyatda durğunluq başlanır – fikri əla canqurtarma yoludur. Amma bizim yaşadığımız rejimdən – xalq hakimiyyətindən qurtulan kimi ədəbiyyatımızda etiraflar başlandı: mən duyulmaq istəyirəm, kim məni duya bilir? Əslində nə özünü, nə də oxucusunu aldatmaq istəməyən müəlliflər üçün ədəbiyyata ən kəsə yol özünü yazmaqdan başlayıb. Ədəbiyyata özünü gətirənləri cəmiyyətin, dövrün nə istəməsi o qədər də maraqlandırmır. O, özünü danışır, özünü yazır. Duyulanda alqış qazanır, başa düşülməyən kimi aləm bir-birinə qarışır. Alqışların elə bir səs-küyü olmur, amma qarışıqlıq çox xaotik olduğu üçün tez yayılır. Yəqin ona görə Mövlud Süleymanlı daha çox "Dəyirman"çı kimi tanınır. Halbuki, o, ədəbiyyatımıza öz "Köç"üylə gəlib, "Dəyirman"dan diri çıxıb, əlini şeirdən

çəkib, dilini nəsrdə uzadıb, sözdə gülün-çiçəyin ətrini, itin-pişiyin hənirini tapıb... Az deyil. Kəndini-kəsəyini yadırğamayan bir yazıçı bütün bunlara arxayınlıqla bəsimdir deyə bilər, amma Mövlud Süleymanlı yox. Bir vaxt onu duyanı əliçıraqlı axtarırdı. Asan olmasa da, çox tez axtardığını tapdı, amma... Özünü danışıb qurtara, sözünü tamamlaya bildimi?

* * *

– Hər gün yazıram, görürsənmi bu dəftəri, bax... İçimdə bir səs ulayır, yazacağam onu. Axıracan yazmamaq ağırdı. Mən əvvəl şeir yazırdım. Ramizi özümdən üstün bildim, elə ona görə də nəsrə keçdim. Ordakı əvəzsiz yerimdən ləzzət almaqdan gözəl nə var?

– Bir vaxt şeirdən nəsrə keçmisiniz, indi təzədən bir də şeirə qayıdırsınız?

– Elə deyil. Hər şey ayrı cürdü... Mən yaxşı yaşamışam, elə dostlarım da yaxşı yaşayıb, anam da, oğlum da... Şair gərək yaxşı yaşasın. Ac şair olmaz, xəstə, zəif olmaq nədi? Şair güclü, sağlam olmalıdı, aldanmayın heç nəyə. ...

* * *

Həmişə bizə elə gəlir, yazıçı yazıda daha səmimi olur, nəinki danışıqda. Bəlkə əksinədir, yazıda sözlərin ipini yığmaq daha asan olur, nəinki ağızda? Cavab axtarmayaq, yaşamağın hər bir canlı üçün əsas olduğunu Mövlud Süleymanlı acıqla da deyə bilər, ağılla da, heç birinin də ürəyə dəxli yoxdur. O, son illəri bir başqasının həyatı kimi yaşasa, ədəbiyyata gendən-genə göz qoysa, nəsildaşlarının saf-çürük olunmasına qarışmasa, təzə dahilərin meydan sulamasına, cəng çağırışlarına baş qoşmasa belə, sözdən ayrı düşmədiyinə inanır. Mövlud Süleymanlı niyə yazmır, ədəbiyyatda, cəmiyyətdə baş verənlərə niyə qarışmır, başını niyə duayla qatır – bu atüstü qeydləri, işarələri də oxuyur, boşluğa verilən sualları da eşidir. Qarşı tərəfdən bir səs çıxmadığı üçün tənqidçilər, jurnalistlər bu yazıçını özünə tapşırırlar.





* * *

– Bir dəfə danışmaq istəyəndə suallarına cavab yazaram.

– Nəsə danışmaqdan qaçırsınız. Sizin üçün ya danışmaq çətindi, ya yazmaq asandı?

– Niyə? Danışmağımdan ötrü darıxanlar çoxdu. Xoşları gəlir. O – həvəsdi, ilhamdı; elə yer var, danışmaq istəyirəm, elə şey var yazmaq. Hər halda, yazmaq daha yaşarıdı.

* * *

Görünür, ədəbiyyatın qabarması, çəkilməsi yox, insanın əbədi həyat arzusunun artan-azalan vaxtı olur. Amma bu yazının yaşarı olması o qədər ömürləri puç, şikəst elədi ki... Yazının yaşarı olması çoxunun əlini də yazıdan soyutdu. Qələmdən ürkənlərə heç kim, heç nə kömək eləyə bilmir, hətta istedadları da. Bəs tənqidçilərin gözü hara baxır? Bir vaxtlar hər nəslin ədəbiyyata öz tənqidçisi ilə gəlməsi bəlkə də nəyisə dəyişə bilərdi. Amma bu nəsil tənqidçiliyinin əl əli yuyar, əl də üzü prinsipi ilə nə ədəbiyyatı, nə yazıçını, nə də dostu qorumaq olur. Bu illər ərzində Mövlud Süleymanlı arabir dünyasını dəyişən dostları xatırladı, imkan, vaxt tapan kimi Tanrını harayladı, gah üzü keçmişə dayandı, gah da yolun sabahına adladı...

* * *

“Mən hər şeyi maraqlı yazmışam, adi bir avtoqrafı da. Sözümdən arxayınam. Ədəbiyyat haqda düşünmürəm, məni düşündürən yazmaqdır”. Yazıçıların çoxu əllini aşandan sonra yazdıqları haqda arxayın danışmağa başlayırlar. Bu yaxşıdır, yoxsa pisdir-proqnoz vermək çətindir, amma Mövlud müəllim bir az gecikib. 60-da özünə inamı artıb. Bəlkə elə əvvəldən beləymiş, dilinə indi gətirir? Bunu da özündən soruşmaq lazımdır. Əgər bizə cavab verməsə, qoy özü özünə bir cavab versin. Hərdən adama elə gəlir ki, M.Süleymanlı çoxdan özünə sual vermir, özü də adına ədəbiyyat deyilənin də sualla başlayıb sualla qurtardığını bilə-bilə. Ədəbiyyatın borcu cavab yox, sual axtarmaqdır. Yazarın şedevri ustalıqla ovlanan bir sualdır,

başqa heç nə. Suala doğru bir balaca cəhd belə istedadın duruluğu, cavaba sarı ən yüngül dartınma belə populizm, qəhrəmanlıq həvəsindən başqa heç nə deyil. Bəlkə elə buna görə də həyatdan fərqli olaraq ədəbiyyatda ağılla istedad həmişə tərs mütənasib olur. "Hər şey başqa cürdü". Bəlkə Mövlud müəllim də elə belə demək istəyir?

* * *

Səhər 8-9 arası, yol üstündə. Səhər saat 10, telestudiya. Saat 12, radio, sədr müavininin otağı. Günorta saat 2, yenə telestudiya. Axşam saat 6, yenə radio. Gecə saat 10, yenə sədr müavininin otağı. 10 ildən çoxdur ki, belədir.

"Dəyirman" öz işindədir, "Köç" geri qayıdır, "Şeytan" dünyanı başına götürüb. "Bulaq" ta elə çağlamır, daha heç kim "Günah duası" yazdırmır...

Mövlud Süleymanlı efirdə nərildəyən, fışıldayan işçidən səsin nə olduğunu soruşur, nəfəsini tanıdıqlarının sözünü kəsmir...

"Diqqət! Danışır Bakı!"

"Diqqət! Mövlud Süleymanlı susur!"

10 ildən çoxdur ki, belədir. Radioda pauzaya görə adamı işdən çıxarırlar, bəs ədəbiyyatda Mövlud müəllim? Bəs ədəbiyyatda?

***P.S.*** "Azərbaycan" jurnalının builki birinci sayında M.Süleymanlının "Quru kəllə" hekayəsini oxumasam, bəlkə də bu yazını yazmazdım. Mənə elə gəldi ki, Mövlud müəllim bu kiçik nəsr parçası ilə sükutu pozmaq istəyir. "Quru kəllə"nin ayağı sayalı olsun. Səs öz yerində, amma sözün efirinə çıxmağın da vaxtı çoxdan çatıb...

*aprel – 2003*





# Yaşar: "Mən hekayələrimi yəhudi kimi yazıram"

*"Ulduz"da peyda olan "Canavar"ın "Divar" kimi "Oğul"lara "Rahatlıq" vermədən "Qocalar"ın "Dəfn"i üçün nə artıq, nə əskik düz yeddi "Tabut" düzəltdirməsi yadıma düşdü. "Canavar" canavar deyil ki, qorxub-çəkinim, başladım onu ədəbiyyata gətirəni axtarmağa...*

*Onu çox axtarmadım, çünki ədəbiyyatı kənardan müşahidə eləsə də, lap yaxında oturub. Gündə yüz yol dəyişən bəyanatların hamısını eşitsə də, cavab vermir. Qəzetdə oturub sakitcə ili-günü, vaxtı-zamanı kəsib-doğrayır.*

*Redaktə bir yana, imza qoymaq söhbəti olmasa, dediyinə görə gündə neçə də yazı yazar. Hə, Yaşarın hələ imzasının üstündə əsdiyi vaxtdır. Xoşbəxt dövrdür, indi vaxtın özü, ədəbiyyat da onun üstündə əsir...*

– Deyəsən, "Ulduz"da görünən "Canavar" birinci elə sizi kənara itələdi?

-Əslində, mən indi də kənara çəkilmişəm. Yazıçıların bir çoxunda bəlkə də xoşbəxtlikdən qramofanlıqla istedad üst-üstə düşür. Amma mənim çox yazmaq xəstəliyim yoxdur. Düzdür, hekayələrimi oxuyana elə gəlir ki, mənim bir xeyli iri həcmli əsərlərim var. İçimdə oturan redaktorun yazıçıdan üstünlüyü yazdıqlarımın çoxunu çapa buraxmır. Lap dəqiqləşdirsək, "Canavar"dan yox, "Tabut"dan sonra uzun müddət susdum.

– Bir ara "525-ci qəzet"də görünən köşələriniz də tez yoxa çıxdı. Bəlkə hansısa diqqət, alqış gözləyirdiniz – görmədiniz, yoxsa əksinə istədiyinizi çox tez qazanıb doydunuz...

– O köşələr "Yolsuz yolçular"la başlayıb "Nağıl bitdi" ilə qurtarırdı. Bu sıradan olan təxminən iyirmi yazıma köşə yox, mən esse deyirəm. Düzü, gündəlik qayğılarla bağlı hələ heç nə yazmamışam. Ona görə, o köşə yazılarını hətta nəsrvari poeziya

adlandırardım. Bir qəribə əhval kimi o yazılar yarandı, sonra da "Nağıl bitdi" ilə tamamlandı.

– Qəzetçiliyin şairə, yazıçıya çox mane olduğunu deyirlər.

– Həqiqətən, jurnalistika yazıçıya çox mane olur. Hələ gündəlik mövzularda yazmaq bir yana, adicə redaktənin özü yazıçıya mane olur, onu kütləşdirir. Çünki yazıçı redaktə ilə məşğul olduqca özünün yazı vərdişini unudur, dəyişir.

– İstedadlı adamı heç harda alqışla qarşılamırlar. Qırx yaşında hələ də sizi gənc yazıçı kimi təqdim edirlər. Günah kimdədir, siz bu adı üstünüzdən götürmək istəmirsiniz, yoxsa ilk baxışdan öləziyən kimi görünən ədəbi mühit yazıçı adını çox asanlıqla təsdiqləmir?

– Mən incəsənətin bütün sahələrinin şoulaşmağını qəbul eləyə bilirəm, çünki bütün bu sahələr cəmiyyətin çaldığı hava ilə oynayır. Amma ədəbiyyat cəmiyyətin bütün tələblərindən, çaldığı havalardan yüksəkdə durur. Di gəl, bu gün istər cavan, istərsə də yaşlı nəsil bir-birlərini söymək, tərifləməklə ədəbiyyatdan çox, ədəbiyyatətrafı sənətə xidmət eləyir. Ona görə də indi ədəbiyyat adamlarının elədikləri şou-biznes müğənnilərinin davasını da üstələyib. Mən nəsilləri üz-üzə qoymuram. Çünki elə hər iki nəsildən olanlar bir-birlərini yerli-yersiz qınayırlar. Bu gün bizim ədəbiyyatda söhbət ancaq bu müstəvidə getdiyi üçün mənə gənc yazıçı deyilməsindən narahat deyiləm. İndi "Yüz il tənhalıqda" səviyyəli roman yazılsa da, bu hirs-qəzəb içində səs-küy doğurmayacaq. Amma həmişə olduğu kimi, heç nəyə qarışmadan ciddi ədəbiyyatla məşğul olanlar da var.

– Hər halda, o ciddi ədəbiyyatla məşğul olanlar da oturub heç "Yüz il tənhalıqda"nı yazmırlar.

– Yazılan bədii əsəri hamının hay-küylə qarşılaması dövrü keçib getdi. İndi heç Nobel mükafatçısı olan yazıçını da hamı tanımır. O biri tərəfdən, biz nəsrlə nəzmi ədəbiyyat adıyla birləşdirsək də, poeziyanın yanında nəsrimiz südəmər bir uşaqdır. Əslində, bizdə nəsr Mirzə Cəlildən başlayır. Ona görə də poeziyamızın öz məktəbi, ənənəsi olsa da, ənənəsiz nəsrdən şedevr gözləmək möcüzəyə inanmaqdır. Orta səviyyəli əsərlərimiz isə həmişə yazılır, dünya ədəbiyyatı ilə müqayisədə bizim yazdıqlarımız elə də zəif görünmür.





– İndi iki-üç termin əzbərləyən sonra özünü bu cərəyanların Azərbaycandakı varisi elan eləyir. Siz özünüzü harda görürsünüz, yoxsa nəsildaşlarınız sizə bir boş yer qoymayıblar?

– Bu "izm"lərlə məşğul olan adamların yaşları ilə heç cür uyuşmayan iddiaları məndə qəribə bir ironiya yaradır. Çünki qırx yaşında yazıçı artıq özünü tapır. Orta məktəbdə oxuyanda mən də hansısa kitabı oxuyub sonra bir tanınmış yazıçıdan soruşurdum ki, sən filan kitabı oxumusan? "Yox"-eşidəndə elə bil dünyanı mənə verirdilər ki, onun bu kitabdan xəbəri yoxdur, amma mən oxumuşam. Yeniyetməliyə xas olan bu xüsusiyyəti hamı keçirir, sonra da yavaş-yavaş unudur. Postmodernizm əsrin əvvəllərində daha çox dəbdə olub. İndi təzədən bu cərəyanlara qayıtmaq bugünkü poeziyamızı bir də qəzəl dövrünə qaytarmaqdır. Ədəbiyyatdakı proseslər isə gərək öz təbii axarı ilə getsin. Bir də, lap elə postmodernist ədəbiyyat olsun, biz niyə Məhəmməd Füzulinin və ya Mirzə Fətəlinin üstündən xətt çəkməliyik ki?

– Yeri gəlmişkən, yazı vərdişləriniz necədir?

– Yazıçı ömrü yaşamağa indi vaxtım yoxdur. Şair istənilən vəziyyətdə, istənilən yerdə şeir yaza bilər, amma yazıçılıq belə deyil. Yazıçılıq öküz qoşulan arabaya oxşayır. Gərək bütün günü bu arabanın arxasınca düşüb gedəsən. Ona görə yazıçılıq həm də eqoist bir sənətdir. Hərə öz ömrünü yaşayır, amma yazıçı öz ömrünü seçilmək iddiası ilə başqalarına da göstərir. Yazıçı gərək sutkanın 24 saatı öz fikirləri ilə qalsın. Mənim təxminən belə səkkiz ayım olub. Demək olar ki, bütün hekayələrimin hamısını da elə bu dövrdə yazmışam. Sonra qəribə bir vərdişim də var – gecələr yazıram. Kiminsə oyaq olduğunu biləndə yaza bilmirəm. Bir də mən hekayələrimi qururam. Amma elə qururam ki, onun quramalığı hiss olunmasın. Ona görə, bəri başdan hekayələrimin nə ilə başlayıb qurtarmasını bilirəm.

– Belə planla işləməkdə qəribə heç nə görmürsünüz?

– Əsl postmodernist kimi, hekayələrimi hissə-hissə yığıram. "Zarafat" hekayəsində təxminən dörd-beş fənddən istifadə etmişəm. Bütün sirlərimi açdım, deyəsən. Əslində, yazıçıların hamısı qurama işlə məşğul olur. Amma cərrah tikişi kimi gərək yazıçının da fəndləri

mümkün qədər gözə az görünsün. Ən böyük faciəmiz odur ki, bizdə çox işlək olan fəndlərin hamısı göz qabağındadır. Biri nöqtə qoymur, biri böyük hərflərlə yazır... Mən yazdıqlarımın qeydini aparmıram, çünki qeydlərlə işləmək istəmirəm. Amma mən yazmaq istədiyimi qabaqcadan beynimdə oxuyub sonra vərəqə köçürürəm.

– Bəs bu köçürmək istəyi hansı ehtiyacdan doğur?

– İstəyirəm ki, mənim oxuduğumu bir başqası da oxusun. Yüzlərlə maraqlı həyat yaşayan adamları tanıyıram. Amma onlar bu keçirdikləri həyatı qələmə almırlar. Qələmi ələ götürmək isə seçilmək, tanınmaq iddiasından yaranır.

– Şairlərin məhdudlaşdırdığı dünyanı nasirlər elə hey dartıb uzadırlar. Sizin dünyanız nə boydadır?

– Getdikcə özümə məhdudiyyətlər qoyur, reallıqla irrealıq arasında olan sərhədləri pozuram. Dəqiq ölçülərini bilməsəm də, mənə elə gəlir ki, öz səddimi "Rahatlıq" hekayəmlə qoymuşam. Mənim dünyamın sərhədi ora kimidir. Mən gələcəkdə nə yazsam, yenə dünyamın o sərhədinəcən gedib çıxacağam.

– Eşitdiyimə görə, media kuboku uğrunda futbol oyununda qol vuranda şair Ramiz Rövşən "mən o top vuran oğlanın qardaşıyam" – deyib. Adətən, Yaşarı Ramiz Rövşənin qardaşı kimi təqdim edirlər. Bu təqdimatı öz xeyrinizə futboldan başqa daha harda dəyişə bilərsiniz?

– Mən gücüm çatanı yazıram. Yəqin ki, bizim ömrümüzün sonuna kimi hamı elə belə deyəcək: Yaşar – Ramiz Rövşənin qardaşıdır. Ramiz də başqa cür deyir ki, Yaşarın hekayəsini oxuyub tərifləmək istəyən də qardaşım olduğunu biləndə susur. Deyir, Ramizin qardaşıdırsa, gərək yaxşı yazsın.

– Kitabınıza "Yeddi" adı vermisiniz...

– Təsadüfən. Amma sonra bu ad çox hallandı ki, yeddi rəng, səs, hekayə...

– Adətən, nasirlər balaca bir hadisəni böyüdürlər. Bəs siz niyə mövzuları, hadisələri güclə gətirib bir süjetin ətrafına, bir hekayənin içinə yığırsınız?

– Çünki mən sıxılmış nəsri daha ciddi ədəbiyyat sayıram. Folknerin, Markesin istənilən romanının bir abzasından roman yazmaq olar. Bir az iddialı çıxmasın, bizim ədəbiyyatda heç kim sıxılmış





nəsr yazmır. Əslində süjet ədəbiyyatda yüzüncü dərəcədədir. Mən insanın kritik vəziyyətini, psixoloji obrazını yaradıram. Finalda da süjeti tullayıram.

– Bəs dil bu sırada neçənci yerdə durur?

– Mənim dilim adi, işlək dildir. Ona görə bizim ciddi yazıçılar deyirlər ki, Yaşar yəhudi kimi yazır. Dilimdə artıq təsvirin, sözün olmasından gücüm çatan qədər qaçıram.

– Əvvəl necə olub bilmirəm, amma indi əlində qələmin dayandığını görən nə gəldi yazır: roman, dram, esse... Siz niyə romandan qaçırsınız?

– Əslində, "Yeddi" kitabına bir roman da demək olar. Amma mənə elə gəlir ki, o hekayələrin müəllifi roman da yazacaq. İri həcmli əsəri yazmaq üçün vaxt tapa bilmədiyimə görə romandan hələ qaçıram.

– Vaxt tapa bilməmək – bu da bir bəhanə deyil ki?

– Məndə yazı xəstəliyi yoxdur ki, harda, necə gəldi, oturub yazım. Romana başlamaq uzun bir yola çıxmaqdır. Mən bu uzun yola hazır olduğumu hiss eləyirəm. Di gəl, yola çıxmaq üçün bircə vaxt tapmıram. Açığı, mən çox yazmaq istəyirəm.

– Yazdıqlarının finalını qabaqcadan görən Yaşar Tanrının, ya da elə özünün seçimiylə cığırına düşüb getdiyi bu ədəbiyyat yolunun nəylə, necə qurtaracağını da bilirmi?

– Tez-tez qulağıma yarımçıq yazılarımın səsi gəlir ki, yaz, tamamla, qurtar bizi. Yazılarımın üstündə çox işləyirəm, o qədər redaktə eləyirəm ki, tamam tanınmaz bir şəklə düşür. Amma inanıram ki, Tanrı mənə öz yazı taleyimi yaşamağa, yazmağa imkan verəcək...

*iyul – 2003*

# “Hökmdarın taleyi”: tarixi faciə, uğurlu film...

“Hərdən mənə elə gəlir ki, bu dinlər, məzhəblər insanları birləşdirmək yox, ayırmaq üçün yaranıb”. Bu sözləri xalq yazıçısı Elçinin ssenarisi əsasında ekranlaşdırılan “Hökmdarın taleyi” filminin qəhrəmanı İbrahim xan deyir.

Dramatik hadisələrin inkişafı ilə göz önünə XIX əsrin əvvəlində nəhəng qonşularının hədəfinə çevrilən Azərbaycan xanları və xanlıqlarının taleyi gəlir. Kadrlar bir-birini əvəzlədikcə, nəinki din və məzhəblərin, bu yer üzü və dünyanın da insanları birləşdirmək yox, məhz ayırmaq üçün yarandığına əmin olursan. İran, Rusiya və Avropanın təzyiqləri qarşısında divara dirənən Azərbaycan xanları Qarabağ xanı İbrahim xanın birləşmək təklifini qəbul etmirlər. Niyə? Tarixdə və filmdə bu sualın aydın cavabı var. Əslində, nəhəng dövlətlərə qarşı birləşmiş Azərbaycan xanlıqlarının mübarizəsi də faydasızdır, o ki qala təkbaşına mücadilə... İran şahının işğalından qurtulmaq üçün çarəsiz İbrahim xan qızı Ağabəyim ağanı və oğlu Əbülfət ağanı Tehrana göndərmək şərtinə imza atır. Bəs ruslarla neyləsin? Rusların Avropaya bir addım yaxın olduğunu və bu asılılıqda gələcəkdə müstəqilliyi qazanmağın asan olduğunu düşünən İbrahim xan bu yolu seçməyi xanlara təklif edir. Cavad xan “Son damla qanımıza qədər vuruşacağıq” deyir və dediyini də edir. Rus qoşunu Gəncəyə onun, övladlarının, gəncəlilərin və İbrahim xanın köməyə göndərdiyi qarabağlıların qanı bahasına daxil olur. İbrahim xanın rus asılılığını qəbul etməsi ilə ona və varislərinə Qarabağ xanlığı vəd olunur, rus qarnizonu Qarabağda yerləşdirilir. Bakı xanlığına elçi sifəti ilə gələn Sisyanov Qoşa Qala qapısından içəri keçə bilmir, Bakı xanı Hüseynqulu xanın qardaşı oğlunun bıçağına hədəf olur. Tarixi kulminasiya nöqtəsi və taleyi tükdən asılı





Azərbaycan xanları və torpaqları. İran şahı sarayında bir növ girov kimi saxladığı oğlu atasının üstünə qoşunla göndərir. Rus qoşunlarının köməyi ilə bu həmlənin qarşısı alınır, amma az keçməmiş fitnə-fəsada uyan qarnizon Şuşaya hücum edir, camaat, o cümlədən xan ailəsi, uşaqlar qılıncdan keçirilir. Xan qürurunu, Qarabağını, camaatını ağılla, siyasətlə qorumağa çalışan İbrahim xan güllələnir!

Filmdə hökmdarın timsalında Azərbaycanın tarixi və faciəvi taleyi canlanır. Güclü qoşunu olan nəhəng imperiyaların Azərbaycana qarşı bir silahı da var: ermənilər! İşğalçılıq siyasətinin baş tutması üçün planlı şəkildə Qarabağa 6500 erməni ailəsinin köçürülməsi, Gəncə qalasının ermənilər tərəfindən sirlərinin açılması və erməni canfəşanlığı hesabına İbrahim xanın və ailəsinin qətlə yetirilməsi faktları qaranlıq tarix səhifələrindən bu günümüzə gətirilib. Erməni vasitəçiliyi və hiyləsi öz yerində, əslində onlarsız belə qürurlu, asanlıqla ipə-sapa yatmayan Azərbaycan xanlarının ölüm hökmü kəsilmişdi. Kimini bir az gec, kimini isə bir az tez qaçılası mümkün olmayan bu tale haqlayır. Bütün bu tarixi həqiqətlər mayın 12-də təqdimatı keçirilmiş “Hökmdarın taleyi” filmində əks olunub. Konkret tarixi dövrü əks etdirməsinə baxmayaraq, bu faciələrin içində 20 Yanvar, Xocalı qırğınları, Qarabağın işğalı aydın görünür. Yataq otağının qabağında rusların İbrahim xanı güllələməsi ilə ermənilərin Şuşanı işğal etməsi və Bülbülün, Üzeyir bəyin, Natəvanın heykəllərini güllələməsi arasında nə fərq var ki? Eləcə də, İbrahim xanın, Cavad xanın taleyi və qəhrəmanlığı dünya tarixinin qəhrəmanlıq səhifələrindəki qeyri-bərabər döyüşləri yada salır. Ləyaqətli qəhrəmanlıq səhifələri kimi ləyaqətsiz vandalizm, qəddarlıq aktları da əslində zaman çərçivəsində, konkret dövrdən və məkandan kənardadır. Bu baxımdan, sənət, ədəbiyyat da gerçək, milli qəhrəmanlardan daha çox, heyrətli qəhrəmanlığı təqdim edir. Məsələn, ölümü ilə dostlarını və düşmənlərini ağladan Hacı Muradı Lev Tolstoy bütün dünyanın qəhrəmanına çevirə bilib. Bu baxımdan, filmdə görünən və son nəfəsinə qədər xalqını xilas etməyə çalışan İbrahim xan, Cavad xan da Robin Qudun, Hacı Muradın, Şeyx Şamilin... sırasında hamının və hər kəsin qəhrəmanıdır.

“Hökmdarın taleyi”ni səsi kəsiləndə belə aydın eşidilən təsirli musiqi və canlı dialoqlarsız təsəvvür etmək çətin, Azərbaycan xanlarının, İran, Rusiya, Avropa əyanlarının geyimlərinin tarixi və milliliyinin tamaşaçısı olmaq isə rahat və xoşdur. Bu amillər filmin bədii-estetik təsirini, süjetini tamamlamaqla yanaşı, aktyorların ifasına, xarakterlərin açılmasına da yardımçı olur. Fəxrəddin Manafovun İbrahim xanı ekranda cəsur sərkərdə və uzaqgörən dövlət xadimi kimi canlanır. Təbii yaradılan, pafos və ritorikadan uzaq olan ifa əvvəl tamaşaçıya qəribə görünür. Sənətdə və təsəvvürlərdə olan hazır hökmdar obrazlarına əsla oxşamayan, sadə, təbii, çətin vəziyyətində qılıncdan çox ağıla pənah aparan İbrahim xan özünəməxsusluqla yaradılan ekran qəhrəmanıdır. Ondan tam fərqli şəkildə, Vidadi Həsənovun simasında uğurla yaradılan, yaşamaqdan daha çox qəhrəman kimi ölümə can atan cəsur və qətiyyətli Cavad xan müasir tamaşaçıya təqdim edilir. Rusları Bakıya qoymayacağına sadəlövhcəsinə inanan və İran şahının könlünü almaq üçün Sisyanovun başını İbrahim xana göndərən Hüseynqulu xan (aktyor Muxtar İbadov) da tam fərqli ampluada canlanır. Və... Nəhəng düşmənlərinə qarşı birləşmək əvəzinə Azərbaycan xanları nala-mıxa, axırda da barmaqlarına çəkici vururlar. Böyük ekranda hökmdarların yox, Azərbaycanın taleyi görünür. Ekranda əks olunan bu taleyimiz sözün hər mənasında qanla yazılıb. Söz yox ki, əvvəla, tarixilik və faciəvilik baxımından, digər tərəfdən isə çağdaş professional dünya kinosuna sanballı bir nümunə təqdim etmək istəyən Azərbaycan kinoçularının cəfakeşliyinə görə. Bu film müasir avadanlıq və “Dolbi” 1+5 sistemli səsləndirmə ilə yox, məhz Azərbaycan kinoçularının böyük zəhməti bahasına istehsal olunub. Hamı bacardığından və real vəziyyətdən daha güclü görünməyə çalışıb və bu cəhdlər alınıb. “A.S.V.A Profi Studia XXI” Prodüser Mərkəzində, Ramiz Fətəliyev və Dilşad Fatxulinin quruluşunda, Polad Bülbüloğlunun musiqisi ilə təqdim edilən filmin uğurlu aktyor ansamblı var. Vaqif Əsədullayevin prodüseri olduğu filmdə Azərbaycan aktyorları ilə yanaşı, rusiyalı aktyorlar – Daniil Spivakovski, Aleksandr Qalibin, İlyar Şakunov rollarını professionallıqla ifa ediblər.





Film daha çox dünya tamaşaçısına Azərbaycan həqiqətlərini təqdim etmək məqsədi ilə çəkilib, amma... “Hökmdarın taleyi” adi kinoman üçün yox, səviyyəli, məlumatlı, hazırlıqlı tamaşaçı üçün çəkilib. Bu günəcən səviyyəli film istəyirdik, indi hazırlıqlı tamaşaçı arzulayırıq... Görəsən, Allah bilir nəyin bahasına və yüzlərləminlərlə parçalanmış ürəklərin ağrısı ilə çəkilən bu film – bizim “Azərbaycannamə” layiqli tamaşaçısını tapacaqmı?..

*may – 2008*

## Alim Qasımov: "Mən nə sufiyəm, nə də dərviş"

– Alim Qasımovun xaricdə qastrolda olması, uğurla çıxış etməsi xəbəri bizim üçün artıq adiləşib. Sizin üçün necə, oxumaq, qastrolda olmaq adiləşməyib ki?

– Əgər konsert vermək ifaçının ürəyindən gəlirsə və sənətdən özü də zövq alırsa, onda tamaşaçının fikri xanəndə üçün maraqlı deyil. Amma tamaşaçı da konsertdən zövq alanda, ifaçı üçün ikiqat ləzzətli olur. Bəzən ifaçı ilə tamaşaçı arasında heç bir vəhdət yaranmır, onda ifaçı da, tamaşaçı da sənətdən soyuyur. Bir də muğamı harada ifa etməyin, yerin aurasının da böyük rolu var. Birdən elə olur ki, konsertdə az qalır adamın ürəyi partlasın. Öz-özünə deyirsən ki, ta bəsdir, yoruldum!

– Hazırda sizin üçün heyrətli olan layihələr varmı? Bu gün Sizi hansı ideyalar düşündürür?

– İnsan həmişə əlçatmaz olana can atır. Bir Allah şahiddir ki, mən də sənətdə çox yüksəkdə olanlara can atmışam. Arzusu başa çatandan sonra insanda bir naşükürlük hissi yaranır, bir növ biganələşir. Çalışıram ki, məndə bu naşükürlük hissi yaranmasın. Həm də çox vaxt adama elə gəlir ki, bu mahnını özü oxuyub. Bu, səhv düşüncədir, çünki biz öz xoşuna doğulmadığımız kimi, heç bir işi də öz xoşumuzla etmirik. Mən öz xoşuna bu boyda yükün, məsuliyyətin altına girməzdim. Bu, Allahın işidir, mən də hələlik o qayanın altındayam. Bunun əzabı da var, ləzzəti də.

– Cabbar Qaryağdıoğlu adına müsabiqənin iştirakçısı olan Alim Qasımovu indi çox az adam xatırlayır. Müsabiqənin qalibi kimi sənətə gələn o sakit, utancaq, klassik muğam ifaçısı olan cavanı Siz də xatırlayırsınızmı?

– Mən o müsabiqədə iştirak etmək istəmirdim. Onda mən xalq arasında tanınırdım, toylara gedirdim. Fikirləşirdim ki, bu müsabiqədə iştirakım necə alınar? Ruhu şad olsun, bəstəkar Süleyman Ələsgərov mənə dedi ki, sənədlərini gətir, ver müsabiqəyə. Dedim





yox, Süleyman müəllim, bu müsabiqədə birdən mənə artıq söz deyib eləyən olar. Təkid etdi ki, gətir sənədlərini ver, özüm də orada olacağam. O, bu müsabiqədə mənim iştirak etməyimə səbəbkar oldu. Süleyman müəllim sənət adamına qiymət verməyi bacaran, necə deyərlər, ağsaqqal adam idi. İdmançılar yarışa necə hazırlaşırsa, biz də o müsabiqəyə elə hazırlaşırdıq. Möhlət Müslimov və Fəxrəddin Dadaşovla qədim lent yazılarını tapdıq, üzərimizdə işlədik. Dedik ki, özümüzü ustadlara oxşadaq. Deyirlər ki, özünü başqasına oxşatmaq səhvdir. Mənim fikrimcə, belə düşünənlər haqlı deyil. Böyük sənətkarlara özünü hökmən oxşatmaq lazımdır. Böyük sənətkarlara oxşayan bir gün də axtarıb özünü tapacaq.

– Həmin cavanla bugünkü məşhur Alim Qasımovun mübahisələri olurmu? Doğrudanmı, muğamda müəyyən yeniliklər edən Alim Qasımov həmişə qalib gəlir?

– Sözün doğrusu, bu günəcən "mən haqlıyam" sözü hələ dilimə gəlməyib. Ailədə, ürəyində deyilən sözləri tamaşaçı qarşısında açıqlamağın əleyhinəyəm. Haqq-ədalət onsuz da yerini tapır, bir də durub demək nəyə lazım? Cavanlığın xüsusiyyəti budur ki, həmişə məsuliyyət hiss edir, bildiklərini təzədən bir də oxuyur, öyrənirsən. Bir az keçəndən sonra isə ifa vaxtı ancaq Allaha dua edirsən ki, səsim gəlsin, Allahı çağırırsan ki, ya Allah, bir ilham ver. Bu, misqalla yığılan bir sənət, mədəniyyətdir. Sən də ifanın alınması üçün həmişə Allaha yalvarırsan.

– Alim Qasımovun klassik muğam mizanlarını özünəməxsus tərzdə dəyişdirməsi birmənalı qarşılanmadı. Necə bilirsiniz, bu yeniliklər, başqa sözlə, stuldan yerə düşmək sizə hörmət gətirdi, yoxsa əksinə?

– Mən sizə deyim ki, sənətkarda bir damcı Allah vergisi, istedad varsa – istəyir stolda, istəyir də yerdə, göydə otursun, lap dəlilik etsin, dəxli yoxdur – insanların qəlbində onun yeri var. Əvvəl mən stolda otururdum, dədə-baba yolu ilə öyrəndiyim muğamları oxuyurdum. Səmərqənddə, Amerikada çıxış etdik, hamısında da bizi bəyəndilər. Onda dədə-baba qaydası ilə oxuyurdum, amma tamaşaçının xoşuna gəlməklə yanaşı, çalışırdım elə edək ki, biz özümüz də yaşayaq. Bir var, tamaşaçı üçün oxuyasan, ancaq ona qulluq

edəsən, bir də var ki, səhnədə özün də yaşamaq istəyəsən. Həm də hər insanın bir xasiyyəti var. Bu xasiyyətin də adamın sənətinə təsiri var. Mən xanəndəni tamaşaçı qarşısında köləlikdən çıxartmaq istədim. Yəni xanəndənin oturan tamaşaçı qarşısında çıxış etməsi, sonra da baş əyib səhnədən çıxması adi haldır. Mən xanəndənin tamaşaçı üçün yox, ilk növbədə özü üçün oxumasını istədim. Yəni yerdə oturub oxuyuram, kimin xoşu gəlirsə, kənardan qulaq assın. Bizim çox ifaçılarımız var ki, ömür boyu tamaşaçıların köləsi olublar, yalnız onlar üçün oxuyub gediblər. Bu ifalar da sənətdə qalıb. Amma tamaşaçı görəndə ki, bir xanəndə köləlikdən çıxdı, ona da qəribə gəldi ki, bu necə ola bilər?! Niyə olmur ki?! Bəyəm mən ömür boyu tamaşaçıdan asılı, bir növ zəncirli onun qarşısına çıxmalıyam?! Bu fikirlər həm də xasiyyətimdən irəli gəlir, başqalarına baxanda mənim xasiyyətimdə nə isə çatışmır axı.

.– Onların adını bir-bir çəkmək mənim üçün bir az yersiz olar. İndi muğam oxuyan cavanlar çoxdur. İndi kim yaxşı oxuyur, onun ifasına hamımız əl çalırıq, o cümlədən də mən.

– Sizi Qədir Rüstəmova oxşadırlar. Özünüz də bu oxşarlığı hiss edirsiniz?

– Maraqlı insan olmaqla yanaşı, o da bir sənətkar kimi köləlikdən azad olmağa çalışır. Ola bilsin ki, bizim oxşarlığımız buradan yaranır. Onun da özünəməxsus yaratdığı bir sənəti var. Vacib deyil ki, bir xanəndənin saatlarla lent yazısı olsun. Qədir Rüstəmov heç az da oxumayıb, amma yüz mahnın içində onun “Sona bülbülləri”ni eşidəndə gərək dayanasan. Keçib getmək olmur, gərək o mahnının, ifanın enerjisini alıb sonra yoluna davam edəsən. Hər ifaçıdan nişanə qalan gül xalqın gülüzarına çevrilir.

– Deyirlər ki, Alim Qasımov xaricdə məşhurlaşandan sonra Azərbaycanda qəbul olundu. Bu fikrə münasibətiniz necədir?

– Ola bilsin, ad məsələsində bir az problem yaranardı. Yəni bu fəxri adları heç almaya, bir az gec ala bilərdim, amma məni heç kim tanımayanda məni xalq sevirdi, bəyənirdi axı. Belə şey ola bilməz ki, Azərbaycanda sevilməsin, dünyada bəyənilsin, sonra Azərbaycana qayıdanda hamı onu çox istəsin. Bu, bəlkə də başqa sənətlərdə ola bilər, amma muğamda yox.





– Qızınız Fərqanə xanımla birgə “Leyli və Məcnun” ifa etməniz də Azərbaycanda birmənalı qarşılanmadı...

– Biz Fərqanə ilə “Leyli və Məcnun”u tam oxumamışıq, ayrı-ayrı parçaları ifa etmişik. Bu konsert də xaricdə lentə alındı. Bu yaxınlarda onu bir az artırmaq istədik, fikirləşirəm ki, operadan müəyyən səhnələr, arada müxtəlif musiqilər səslənsə, maraqlı olar. Hələ ki, bu layihə tamamlanmayıb.

– Bir ara xarici musiqilərlə Azərbaycan musiqisinin, muğamının sintezindən ibarət layihələrdə iştirak edirdiniz. Bu layihələr uğurlu alındımı, onların davamı olacaqmı?

– Adam həmişə bir yenilik axtarır. Bir vaxt belə layihələrimiz oldu, Yo-Yo-Manın rəhbərlik etdiyi “İpək Yolu” ansamblı, kvartet ilə birgə çıxış etməyə hazırlaşırıq. Musiqi mənəvi qidadır, onun milliyyəti olmur. Yaxşı sənətdirsə, ondan bu qidanı alırsan. Musiqiçilərin halı da bir-birinə uyğun olanda, ortaya yaxşı bir iş çıxır.

– Bir muğam mərkəzi yaratmışdınız, onun taleyi necə oldu?

– Bu, böyük bir iş idi. “Gənclik” metrosunun yaxınlığındakı yerimizi indi Rəsulzadə qəsəbəsində xudmani yerlə əvəzləmişik. Təbiətin qoynunda bir musiqi guşəsi yaratmaq istəyirik. Elə özümdən götürürəm ki, əgər mən bu qədər darıxıram, sıxılıramsa, onda başqaları da darıxırlar. Mən də yerimdən, yurdumdan aralanmışam. İstəyirəm bir yerimiz olsun, yığışaq, mahnı oxuyaq, ürəyi istəyən qulaq assın, öyrənmək istəyən öyrənsin... Bu mərkəzdə vacib deyil ki, hökmən dərs keçilsin. Mən burada bir aura yaratmaq istəyirəm. Ümumiyyətlə, dərs, məktəb əvvəllər vacib idi. İndi vəziyyət elə dəyişib ki, öyrənmək istəyən hazır kasetləri, internetdən məlumatları götürüb mənimsəyir.

– Muğam bir növ şifahi sənət olduğu üçün xanəndələrin yazı-pozu ilə heç arası yoxdur. Siz necə, latın qrafikasında yazıb-oxuya bilirsinizmi, kompüter, internetlə aranız necədir?

– Latın qrafikasını bir təhər öyrəndim, indi ərəb dilini öyrənmək istəyirəm. 5-6 dəfə öyrənmişəm, hələ mükəmməl alınmır. Amma ingilis dili, internet mənlik deyil. Ümumiyyətlə, texniki avadanlıq əsəblərimə toxunur.

– Xanəndənin səsi onun repertuarındakı, qəzəllərin, sözlərin seçilməsindəki çatışmazlıqları da ört-basdır edirmi?

– Əslində xanəndənin savadlı olması məsələsində böyük hikmət var. Mütaliə lazımdır, amma çox savad tələb etməyə qorxuram. Deməyin ki, Alim özü savadsızdır, ona görə belə deyir. Onsuz da, sənətkar ya bir olur, ya iki. Ola bilsin ki, xanəndə yaxşı yazıb-oxusun, dil bilsin, kompüter bilsin, sonra da halı dəyişsin. Xanəndə hal əhlidir. Bu savad onun Allahdan gələn ilhamını poza bilər. İlhamlı adamlarla savadlı adamlar bir-birinə oxşamırlar. İlhamlı adamlar uşaqlara oxşayırlar. Uşaq nə etsə, adama xoş gəlir, amma böyüdükcə hamıya oxşayır, olur hamının tayı. Sənətkar, şair də hamının tayı olanda, onun marağı qalmaz ki?!

*aprel – 2008*





# Cəfər Cabbarlının evindən reportaj

Dünyanın doğrudan da qəribə işləri olur. Heç ağlıma da gəlməzdi ki, Cəfər Cabbarlının evinə gedən yolu mənə Nəriman Nərimanov göstərəcək. Bəlkə doğrudan da iki talantlı şəxs bir-birinin varlığına yalnız sevinə bilər?

Nərimanov heykəlinin yanından üzü yuxarı qalxıram.

– Cabbarlının evi? Küçəni keçib pillələrlə qalxın.

Ətrafdakı tikililərdən seçilən, hər tərəfi hasara çəkilən həyət evinin qapısını tapmaq üçün iki qız uşağından kömək istəyirəm.

– Gəlin, yolu göstərim.

İrəli düşən Lamiyə adlı balaca bələdçi qapının zəngini basır:

– Kimdir?

– Gülarə xala, qonağınız gəlib.

– Qapı açıqdır, qoy gəlsin.

İçəri ayaq qoyanı divara hörülmüş Cabbarlı qəhrəmanları qarşılayır. Yazıların arasından gözüm bu misranı alır:

Həyat, söylə sən kiminsən?

Balaca həyətin küncündəki güllər çiçəkləyib. Ortada tut ağacıdır.

– Xoş gəlmisiniz.

Bu ağsaçlı, nurani xanım Gülarə Cabbarlıdır.

– Gedək, atamın evi oradır. Təmir işləri başa çatmayıb, ona görə qapını bağlamışıq. Atam bu evi özü tikdirib. 1930-cu ildə. Memarı da özü olub, fəhləsi də. Daş-qum daşıyır, sement qarışdırırmış... Gəlin içəri, bu evə sağlığında, elə indi də gələnlər çoxdur, lap çox. Bu böyük otaqda indi tədbirlər keçiririk. Yüz illiyi ilə bağlı tədbirlərimiz yüksək səviyyədə keçir. Uşaqlar elə həvəslə çıxış edirlər ki... Atamı doğrudan çox istəyirlər. Bu ev 1982-ci ildən muzey ömrünü yaşayır. Özü buranı sözün əsl mənasında alın təri ilə tikib. Cəmi yeddi otaqdır. Qonaq otağında mebellər necə var eləcə qalır. Bufet, pianino, stol, stullar... müasirlərindən Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyyə Davudova, İsmayıl Hidayətzadə,

Tuqanov... Bu evə tez-tez gələr, bir-birləri ilə görüşər, dərdləşərdilər. Atam çox qonaqpərvər olub. Ortalıqdakı stol açılanda lap böyük olur. Bura yığışıblar, pianinoda çalıblar... Atam bu pianinoda neçə mahnı bəstələyib. Amma elə biliblər ki, onlar xalq mahnılarıdır. Anam deyirdi ki, ağzında nəyisə züm-zümə edib gəzəndə bilirdim ki, təzə mahnı yazır. "Sevil"i yazanda elə hey otaqda var-gəl edir, anam dözmür, soruşur ki, nə olub ey? Gəzirsən, ağzının içində oxuyursan? Qayıdıb ki, Sonası, təzə bir əsər başlayıram, istəyirəm ora bir mahnı da salım. O mahnını çoxları oxuyub, hamı əzbər bilir.

Sənə nə olub zalım yar,
Qadan-balam alım, yar...

Çoxları elə bilir xalq mahnısıdı. Başqa mahnıları da var: Yaxşının, Solmazın nəğmələri... Bu pianinoda işləməyi çox sevib, indi kökdən düşüb. Gərək düzəltdirəm. Bu kamot da o vaxtdan qalıb. Hələ çarpayıları da durur.

İş otağında kitab şkafları, yazı stoludur. Balaca masanın üstündə saçı lentli bu uşaq şəklini kimə oxşadırsınız? – Burada iki yaşım var. Biz iki uşaq olmuşuq. Qardaşımın ilinə görə, iki-üç günlüyə təmir işlərini dayandırdıq. Sabahdan gələrlər. Mən uşaq vaxtı çox dəcəl olmuşam. Qız uşağı şeytan olur axı. Bu şəklimi atam başının üstündən asarmış. Anam deyir ki, səni həmişə dizinin üstündə oturdardı. Elə yeyib-içməyiniz də bir yerdə olardı. Atam qayğanağı çox xoşlayıb. Anam danışır ki, biz bir yerdə yeyəndə yemək azalan kimi çoxunu öz qabağıma çəkir, azını isə atama tərəf itələyib deyərmişəm ki, ata, bu sənin. Atam bu sözü gözləyirmiş, həmişə də gülməkdən uğunarmış. Bir dəfə də anamın darağı ilə başını darayıb, sonra da saçında qoymuşam. Atam fikir verməyib, papağını qoyub gedir işə. Teatrda papağı çıxaranda hamı ona sataşır: a, Cəfərin başında arvad darağı... Çox sadə olub atam. Geyim-keçiminə elə fikir vermirmiş.

Atamın kitabları çoxdur, lap çox. İş stolunun üstündəki bu kitablar türkcə lüğətdir. Hamısı öz əşyalarıdır. Qələmi, ştampı, stəkanı, çayniki...

Yazı stolunun üstündə bıçaq diqqətimi çəkir.





– Bıçağa oxşayan bu əşyayla o vaxt kitablarının vərəqini çeviriblər. Böyük əmimin balaca dükanı olub. Əmimə haqq-hesab işlərində atam kömək edib. Bu onun "şotka"sıdır. İndi tapılan təzə romanını o dükanda haqq-hesab işlərinə baxanda mühasibat dəftərinə yazıb. O vaxt 12 yaşında olub. Əlinə nə keçib üstünə yazıb. İndi o romanın üstündə ədəbiyyatşünas Asif Rüstəmli işləyir, yüzilliyində çalışırlar ki, çap etdirsinlər. Bu isə əlyazmalarıdır, ərəb qrafikası ilə. Yəqin eşitmisiniz, Cəfər Cabbarlı Tibb İnstitutunda da oxuyub axı. Dostları danışır ki, anatomiyadan imtahan verəndə bizim ürəyimiz çırpınardı ki, ay Allah, indi iki-zad alacağıq. Cəfər bir kəlləni əlinə alıb, ona şeir qoşurdu. Sür-sümüyə, sümüyün çıxıntılarına, hər şeyə şeir yazıbmış. Axırda dostları deyir ki, ay Cəfər, get işinlə məşğul ol. Atam da ordan çıxıb gedir İncəsənət Texnikumuna. Hələ Neft və Kimya İnstitutunu da oxuyub. Oranın elektromexanika fakültəsini bitirib. Baxın, oranın tələbə geyimində şəklidir, bu da diplomu, tələbə bileti, attestatı...

Kitab şkafının üstündə görünən hündür lampa da o vaxtdan qalıb. "Almaz" əsərini yazanda Şüvəlan bağlarında yaşayıblar.

Anam danışır, alaçıqda qalırdıq, bir yandan kərtənkələ, toz-torpaq, dözməyib dedim ki, ay Cəfər, bir balaca ev kimi düzəlt. Dözə bilmirəm, qorxuram axı. Dedi, Sonası, ev tikərəm, amma onda ta bağ həyatı olmadı ki? Sonra otaq da tikir. Orda heç stol da olmayıb. Kartonu qoyub dizinin üstünə lampa işığında yazıb. Çox çay içən olub, həkim də icazə verməyib ki, ürəyə ziyandır. Anam deyib ki, ay Cəfər, bağ yerində nə çox çay içirsən, qəndimiz də yoxdur. Elə deyib ki, heç olmasa, az içsin. Gedib çay gətirməyə, qayıdanda görüb kağız. Atam deyib ki, oxu, Sonası. Deməli, yazıb:

Ay Sonası, çay gətir, mənimçün,
Qələmdaram, pay gətir mənimçün,
Bağ yeridir, qəndi çox işlətmərəm
İstəyirsən, say, gətir mənimçün.

Bir dəqiqənin içində çay gətirib gəlincə, anama bu sözləri yazıb. Atam ailəsini çox istəyib. Anam da həmişə onun qayğısını çəkib. Deyir, elə vaxt olurdu ki, teatrdan vaxt tapıb çörək yeməyə

gəlmirdi. Bir dəfə də anam çörəyini teatra aparır. O vaxt da "Sevil"in məşqi gedir. Anam danışır ki, yavaşca gedib arxa cərgədə oturdum. Balaşla Dilbərin görüşən səhnəsi idi. Atam tamaşanın rejissoru idi. Təhmasib Balaşı oynayır, görüş səhnəsi nə qədər edirlər, canlı alınmır. Atam hirslənir. Səhnəyə çıxır, Dilbəri qucaqlayıb bağrına basır... sonra ona deyirlər ki, arvad zaldadır a, Cəfər.

Aktyorları buraxandan sonra gəlib ki, ay Sonası, haçan gəlmisən? Anam qayıdıb ki, sən elə Dilbəri öpəndən burdayam. Bəlkə əvvəllər olub, amma sonralar anam onu qısqanmayıb. Bilib ki, işidir, sənətidir. Atamın bizə, anama məktublarını saxlayırıq. Bizə məktublarının elə tərbiyəvi əhəmiyyəti var ki, təsəvvür edin, o əhmətə gedəndə dörd yaşım olub, amma hələ anamın qucağında olanda mənə məktublar yazıb.

Burda atamın əsərlərindən, tamaşalarından səhnələrdir. Atam özünü ömrü boyu həvəskar sayıb. Heç Yazıçılar İttifaqının üzvü də olmayıb. Ölümündən bir neçə ay qabaq Moskvaya getmək üçün, İttifaqa üzv qəbul ediblər. Lap axır vaxtlar. Anam deyir, azca kökəlmişdi. Tez-tez zarafat edirmiş ki, indi yazıçıya oxşayıram. Onlar İsmayıl Hidayətzadə ilə yaxın olublar. Atam rəhmətə gedəndən sonra da ailələr dostluqlarını davam etdiriblər. Dostlarının çoxu 1937-də tutulub. Anam deyir, bir dəfə soruşdum ki, bu cavanlardan hansına daha çox ümid edirsən, cavab verib ki, Müşfiq böyük şair olacaq. Müşfiq də nə yaşadı ki...

Şəkillərə baxıram, Cabbarlını dostlarının arasında seyr etmək xoşdur. Görək düşmənləri kim imiş?

– Düşmən deyəndə, çox incidiblər onu. Dalbadal həbs olunub. Ölümündən qabaq da elə təzə həbsxanadan çıxıbmış. Ordan yazdığı məktublarını da saxlayırıq. Özü də gərək nəsə istəyib-eləyəndə, məktubları rus dilində yazaydın. Başqa dildə icazə verməyiblər. Aramsız tənqidləri, həbsləri nəticəsində elə dünyasını da erkən dəyişdi. Amma atamı çox istəyiblər. Camaat xətrini əziz tutub. Bəlkə də elə ona görə, dəfələrlə həbs olunsa da, həbsxanada çox saxlamağa ehtiyat ediblər. Özü həddindən artıq sadə adam olub. Nə yaşayıb ki, cəmi 35 il. İndi yüz illiyini keçiririk. Mənim üçün həmişə cavandır atam. Onu qoca təsəvvür edə bilmirəm.





Bu evdə dörd il yaşayıb atam. Bu həyət bizim baba ocağımızdır. Babam Xızıdan köçüb bura gəlib, həyətin o başında ev tikib. Atam sonra, əli çörəyə çatanda üzbəüz bu otaqları tikdirib. İndi mən də bu həyətdə oluram. Atamın əli ilə əkdiyi tut ağacına baxa bilmirəm. O da qurudu. İnanın, bu ağac quruyanda elə bildim atamı təkrar itirdim. Elə ağrıtdı məni. İndi qurumuş gövdəni həyətdən çıxarmağa ürəyim gəlmir. O da pis-yaxşı günlərimizin şahididir. Axırda ürəyimdə deyirdim ki, gərək tapşırım, gəlib doğrayıb aparsınlar. Bir də baxdıq ki, qurumuş kötükdən öz-özünə zoğ qalxdı. İndi iki ildir bar verir.

Gülarə xanım qonağını düz qapıya kimi ötürür.

– Gülarə xanım, Cabbarlının obrazlarını bu divarlara kim yapıb?

– Familini unutmuşam, Xanlar adlı rəssamdır. Yaxşı işləyib, hamı maraqla baxır.

– İçəri girəndə mən də baxdım, bir beytini oxudum. Görüm, sonra nə yazılıb:

Doğan günəş sən kiminsən,
Məndən işıq alanın...

*iyun – 2000*

## “Cavid ömrü” filmi, yoxsa Ramiz Həsənoğlunun növbəti teletamaşası?

“Necə yəni Cavid qayıdır?” Eşitdiyi xəbəri bu sualla qarşılayan Mircəfər Bağırov 1943-cü ildə, şairin ölümündən 2 il sonra hazırlanan planın təşkilatçılarını özbaşınalıqda qınayır. Uzaq Sibirə sürgün edilən Hüseyn Cavidin Azərbaycana qayıtmaq planını ilk dəfə NKVD-nin hazırlaması və bu yalanın hansı profilaktik məqsədə xidmət etməsi xalq yazıçısı Anarın ssenarisi əsasında xalq artisti Ramiz Həsənoğlunun çəkdiyi “Cavid ömrü” filmində aydınlaşır. Dövlət sifarişi ilə çəkilən film şairin anadan olmasının 125 illiyinə həsr olunub. Xalq artisti Rasim Balayev 25 yaşında yaratdığı şair obrazından düz 34 il sonra taleyi Nəsimidən o qədər də seçilməyən Hüseyn Cavidi canlandırıb. Artıq yaşa dolan aktyorun simasında əvvəlcə yorğun şairin, hadisələr dramatikləşdikcə isə ailəsindən ayrı salınan, dostları işgəncələrə məruz qalan bir insanın faciəsi aydın görünür. Amma bu Hüseyn Caviddir. Söhbət “Topal Teymur”, “Şeyx Sənan”, “İblis”, “Peyğəmbər”, “Xəyyam”, “Uçurum”, “Ana” pyeslərinin müəllifindən, dövrünün böyük söz və nüfuz sahibindən gedir. Rasim Balayevin Cavidi çox səbrlidir, başına gələnləri də sanki bütün bunları gözləyirmiş kimi təmkinlə qarşılayır. Bu, Cavidin müdrik, uzaqgörən filosof obrazıdır. Bəs üsyankar, millətçi-turançı şair hanı? Rejissor yozumunda bu sualın cavabı əks olunmadığına görə, Cavidin rejim tərəfindən niyə hədəfə alınması, bu səbəbdən də dramatik konfliktin inkişafı, kulminasiyası nəzərə çarpmır. Pyesi tamaşaçıların və rəhbər M. Bağırovun alqışları ilə qarşılanan filmin qəhrəmanı olan şair niyə həbs olunur, nəyə görə ona məhz ölüm hökmü verilir? Filmdə bu sualı cavablandırmağı artıq hesab edən, yaxud cavabın bədii həllini fəlsəfi, obrazlı şəkildə izah etmək istəyən rejissor Azərbaycan xalqının təsəvvüründə olan və tamaşaçının tanıdığı Hüseyn Cavidi sürgünə göndərir.





“Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü” – (“Topal Teymur”), “Tükəndi taqətü-səbrim, ədalət, ah ədalət!” – (“Şeyx, Sənan”), “Min hiylə quran tülkü siyasilər, o hər an, Məzhəb çağıran, yol ayıran xadimi ədyan: Onlarda bütün fitnəvü şər, zülmü xəyanət, Onlar duruyorkən məni təhqirə nə hacət?!” – (“İblis”)... Bəli, bu sözləri qələmə alan və aktyorların dilində səhnədə dönə-dönə ifa olunan belə misraların müəllifi olan şairin dövrün, hakimin, Stalin rejiminin hədəfinə çevrilməsi təbiidir. Amma adi, xüsusən gənc (etiraf edək ki, çağdaş nəsil repressiya illəri barədə çox az məlumatlıdır), müasir tamaşaçı yalnız ekrana baxır, dramatik situasiyanı izləyir. O sualları hansısa ədəbiyyat tarixçisinə, yaxud arxiv tədqiqatçısına yox, ekrana verir və ekran bu sualların hamısına cavab verməlidir!

Bəşər tarixində hakimlərin bu günəcən minlərlə günahsız qurbanı olub. Hüseyn Cavidin, 59 yaşlı şairin sürgündə vəfat eləməsi də özlüyündə insanlığa yaraşmayan bir faciədir. Doğrudanmı, bizim məqsədimiz bir insanın faciəsini göstərmək idi?! Bəzən xırda bir jest qurbanın kimliyini aydınlaşdırır. Alman faşistlərinin güllələdiyi Federiko Qarsia Lorkanın son anda “mən axı şairəm!” deməsi taleyin ironiyası və dövrün dramasının kulminasiyasıdır. Bu baxımdan, əgər “Cavid ömrü”ndə canlanan qurbanlar günahsızdırsa, onda bu ağır işgəncə və həbslərə sadəlövhcəsinə etiraz bildirməlidirlər: “Mən axı aktyoram”, “mən axı şairəm”, “mən Abbas Mirzəyəm axı, eşidirsiniz?!”. Yox, əgər bu həbslərə əsla heyrətlənmirlərsə, onda onlar qəhrəmandır! Bu qəhrəmanlığı niyə etiraf etmək istəmirik, gizlədirik ki? Yeri gəlmişkən, Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, lap elə Cəfər Cabbarlının dönə-dönə günahsızlığını təbliğ etmək əvəzinə, daha real həqiqəti, yəni onların Stalin rejiminə qarşı dayandıqlarını, milli müqavimət hərəkatının nüfuzlu, parlaq simaları kimi təqdim etməyimiz daha doğru deyilmi? Bax, onda şair-hökmdar konflikti daha aydın görünərdi və Yazıçılar İttifaqındakı müzakirələrə də belə xüsusi yer ayrılmağına ehtiyac olmazdı. Əslində bu müzakirələrin təqdiminin də yozumu verilməliydi ki, ölüm hökmlərini yazıçı vermir, sadəcə yazıçıların bəziləri belə qurama, məqsədli müzakirələrdə fəallıq göstərirlər. Başqa sözlə,

tamaşaçıya süjet daxilində süjet yaradanlar, bu qara ssenariləri düzüb-qoşanlar və bütün hadisələrin arxasında dayanan hakimi-mütləqlər təqdim olunmalıydı. Hakim demişkən, filmdə Cavidin işıqlı obrazının qarşısını kəsən şərin kimliyi, məqsədi də aydın deyil. Xalq artisti Ramiz Novruzovun canlandırdığı Mircəfər Bağırov liderdir. Əslində liderlərin təyinsiz, izahsız təqdimatına alışmalıyıq. Dramatik ziddiyyətlər şəxsiyyətlərin kimliyi üzərində yox, ideya və ideaNların, ideologiya və dünyagörüşlərin toqquşması üzərində qurulmalıdır. Məsələn, Hitlerin ağılsız, xəstə, təlxək obrazı ilə ikinci dünya müharibəsinin siyasi mahiyyətini təqdim etmək cəhdi əslində çox uğursuzdur. Xüsusən, müasir tamaşaçını belə təqdimatla tovlamaq mümkün deyil. Bu baxımdan, Mircəfər Bağırovun liderliyi və son sözü yaddaqalandır: "Mən hara düşdüyümü yaxşı bilirəm...". Adətən, aktyorun sevimli qəhrəman obrazından sonra yaratdığı "persona non-qrata"sı sönük alınır, amma Ramiz Novruzov M.Bağırovun sərtliyini və qətiyyətini Azərbaycan ekranına gətirməyin öhdəsindən gəlsə də, xarakterinin, dünyagörüşünün ziddiyyətlərini açmağa azacıq belə cəhd etməyib.

Şairin yaradıcılığı ilə yanaşı, onun həyat yoldaşı, sevdiyi qadın da həmişə oxucuların diqqət mərkəzində, maraq dairəsində olur. Dünyanın hər yerində, günü bu gün də davam eləyən bu maraq hissi ilə Azərbaycan tamaşaçısı Müşkünaz xanımı gözləyirdi. Əməkdar artist Dilarə Əliyevanın timsalında rejissor tamaşaçıya gözəl və yaraşıqlı Müşkünaz xanımı təqdim edir. Tamaşaçı isə Cavid əfəndinin dərd-sərini bölüşdüyü ömür-gün yoldaşını, alicənablığı və təhsili ilə dərhal seçilən Ərtoğrul və Turan Cavidləri böyüdən ananı görmək istəyirdi! Canlandırdığı obrazın ağırlığını duya bilməyən və "Çal-çağır"la filmi qarışdıran aktrisanın danışığı, ləhcəsi isə dözülməz idi: "Cavidin pyeslərini səhnəyə qoymadız da", "...nə gözünü zilləmisən" və "siz xalq düşmənisiniz" deyən uşağa verdiyi cavabı, danışığı, nitqindəki nidaları isə ümumiyyətlə dözülməzdir! Bu qadın obrazı Rasim Balayevin yaratdığı ağır, sanballı Cavidlə heç danışa bilmir, o ki qala "yerə enməm də səma şairiyəm" deyən şairlə. Danışmaq demişkən, film boyu şairimiz çağdaş ədəbi Azərbaycan dilində danışır. Cavid əfəndi belə danışmayıb axı? İstanbulda təhsil alan və Turan dünyasının qurulmasını arzulayan şair türk-Azərbaycan sözləri ilə, bugünkü





terminlə desək, ortaq türkcədə danışıb-yazıb. Cavidin nitqini qorumadığımız bəs deyil, onun xanımını niyə belə kobud ləhcəylə danışdırırıq? Ümumiyyətlə, filminə çox uğursuz aktyor ansamblı toplayan rejissorun dramatik qəhrəmanları niyə məhz komediya aktyorlarına həvalə etməsi də anlaşılmır. Mikayıl Müşfiqin obrazının pantomimçi Qurban Məsimova tapşırılması da böyük risk idi və bu seçim də özünü doğrultmayıb. Bu çox çətin dramatik obrazların hamısı xarakter yaratmağı bacaran aktyorlara, özü də dönə-dönə sınaq çəkilişlərindən sonra təsdiqlənənlərə etibar olunmalı idi. Aktyor ansamblına nəzər yetirəndə şükür edirsən ki, nə yaxşı Cavid Telman Adıgözəlova və yaxud Arif Quliyevə tapşırılmayıb. Tamaşaçının repressiya qurbanlarına hədsiz həssaslığını unutmaqla yanaşı, qəhrəmanlarını, xüsusilə Əhməd Cavadı qrimləmək, ötən əsrin 30-cu illərinin Bakısını ekrana gətirmək, lap karvan kimi ləngiyən dinamikanı dəyişmək də rejissorun nəzərindən yayınıb.

Çoxdan gözlənən və nəhayət, ekrana gələn "Cavid ömrü". Yox, film demək çətindir, ən yaxşı halda bədii televiziya filmi. Gerçək dünyamız azmış kimi, yaratmaq istədiyimiz bir ayrı dünyada – kinoda, ekranda da İblis qəhrəmandır, hadisələrin mərkəzində və fövqündə! Aktyor Məmmədsəfa obrazının xarakterini yorulmadan açıb-tökür, böyük bir uğurla İblisanə sifətləri göstərir. Yer İblisindir, yaxşı, bəs Göy? Hanı bizim Səma şairimiz? Hanı sözün, fikrin, ağlın, şeir və şairin ucalığı? Bu ucalıqdan baxanda filmin qəhrəmanı Abdulla Şaiqdir. Rejimdən çəkinmədən Cavidi qarşılamaq üçün 1943-cü ildə Müşkünazla vağzala gələn ağsaqqal şair! NKVD-nin profilaktik məqsədlə hazırladığı plandan xəbərsiz olan və şair həmkarı ilə gizlincə görüşə ümid edən sadəlövh şair obrazı ilə yadda qalan Abdulla Şaiq! Bir də repressiya maşınının əzişdirib, xıncım-xıncım etdiyi, döyülərək ölümcül hala salınan, huşsuz vəziyyətdə yalançı izahata zorla imza atdıqdan sonda güllələnən Abbas Mirzə Şərifzadə...

Filmin son anına qədər Hüseyn Cavidin – iblisi, mələyi, şeyxi, əmiri və sair və ilaxır obrazların yaradıcısının dinc, rahat, sakit obrazı axtarılır... Ona yenə sualımız var axı! Necə yanı nə sual? Bir baxalım, xoşmu, gözəlmi, cənnətdə mələklər?..

*yanvar – 2008*

# Fehruz Səxavət: “Muğam calaq götürmür”

– İndi tamaşaçıların çox dəyişdiyini deyirlər. Doğrudanmı, köhnə tamaşaçılar, sənətə qiymət verənlər, xalq mahnılarını sevənlər hazırda barmaqla sayılır?

– MDB ölkələrində yaşayan soydaşlarımızı, tamaşaçıları nəzərdə tutmuram – çünki onların zövqünü bizim ölkəmizdə baş verən proseslər yaradır – amma bir az kənarda, Şərq ölkələrində, Avropada münasibət bir xeyli fərqlidir. MDB ölkələrində yüngül, bayağı musiqilərə meyl hiss edirik, amma bir az uzaqda bizim xalq mahnılarına münasibət tamam fərqlidir. Xüsusən, İranda konsert verməkdən adam məmnun qalır, onlar xalq mahnılarımızın, muğamlarımızın, dədə-baba qaydasıyla ifasını tələb edir, eşidəndə isə heyran olurlar.

– Bu gün bizim tamaşaçıların bayağı musiqilərə meylinin səbəbləri hamını düşündürür. Günah daha çox kimin boynuna düşür, sənətçilərin, yoxsa tamaşaçıların?

– Bu məsələdə hərə öz fikrini bildirir. Mənim fikrimcə, həm tamaşaçıları, həm ifaçıları, amma lap çox musiqimizin təbliği ilə məşğul olan cavabdehləri qınamaq lazımdır. Bəlkə də ən bağışlanmaz günah elə bizimdir – sənətçilərin.

– Siz tamaşaçıların musiqi zövqünü yüksək səviyyədə formalaşdıra bilmədiyinizə görə özünüzü günahkar bilirsiniz?

– Bilirsiniz, bizim – sənət adamlarının azadlığı bu gün həddini aşıb. Hakimi-mütləq, əliqılınclı “senzor”un olmaması bizim arzularımızı, iddialarımızı sərhədsiz edib. Biri – min bir şou ilə səhnəyə çıxan deyir, istəyirəm muğam oxuyam, – qavalı əlinə alıb oxuyur. Bir başqası, ömrü boyu xalq mahnılarını oxuyan deyir ki, bu gündən ta caza keçmişəm, onu da səhnəyə çıxarırlar. Axı, belə olmaz, indi kimin ürəyi nə istəyir, onu eləyir. Bəs xalq, tamaşaçı mənim ifamda nə istəyir? O məndən xalq mahnısı gözləyir, yoxsa caz? Mən onun qarşısına çıxanda piano çalmalıyam, yoxsa əlimə qaval götürməliyəm? İndi heç kim özünə bu sualları vermir, tamaşaçının da sözünü qəribçiliyə salırlar.





– Bəs reallığı necə dəyişmək olar, vəziyyətdən çıxış yolu var, yoxsa biz artıq bu yolu da itirmişik?

– Radio-televiziyanın, mətbuatın mübarizəsi gərək daha inadkar olsun. Hər yerindən duran ekrana çıxanda, radioda mahnısını yazdıranda, mətbuatda çıxış eləyəndə vəziyyət də tamaşaçı üçün adiləşəcək. Zərbələrin ən ağırı isə cavanlara, gənc nəslə dəyir. Onların bəxtinə telekanalların, informasiyaların, qarışıq musiqilərin, bayağı mahnıların çoxluğu düşüb. Bütün günü kanallarda türk pop musiqisi, bir-birini təkrarlayan kliplər verilir, ona görə də istər-istəməz cavanların meyli belə mahnılara çoxalır. Başqa sahələri deyə bilmərəm, amma incəsənətdə təbliğatın təsiri həlledici olur.

– Zaman bu gün sənətdən dinamika, hərəkət, sürət tələb edir. Dövrün, zamanın təsirinə uyğunlaşmağa münasibətiniz necədir?

– Sənət adamı tamaşaçının fikri, auditoriyanın tələbatı ilə gərək hesablaşsın. Toyda bir-birinin ardınca muğamları ifa eləmək də tamaşaçını yorur, təkcə yüngül musiqilərə qol götürüb oynamaq da. Böyük sənətkarlar həmişə auditoriyanı idarə ediblər. Ona görə yox ki, ustadlar nə deyiblər – elə olub. Sadəcə, onlar tamaşaçının istəyini dəqiqliyilə oxumağı bacarıblar. Ayrı yol yoxdur, gərək boynumuza alaq ki, bu gün həm sənətçilərdə, həm də təbliğatçılarda günah var.

– Senzor tələb edirsiniz, sənətçiləri qınayırsınız. Bəs həmkarlarınızın hədəfinə çevrilmək qorxutmur sizi?

– “Qılınc müsəlmanı” sözü yəqin elə-belə yaranmayıb. Gərək biz həmişə özümüzü nəzarətdə hiss edək. Amma mən bu gün bircə ötən yüz ilin xanəndələrinin bir də heç vaxt yetişməyəcəyinə təəssüflənirəm. Vaxt ötdükcə onların əvəzsizliyinə daha çox inanırıq. Allah elə bil qəsdən onları XX əsrin 40-80-ci illərinə gətirib çıxarmışdı. Düzü, o dövrün sənətinə, mədəniyyətinə heyranlığımı mən heç cür gizlədə bilmirəm. Adamın təkcə özünün istəməyi ilə heç nə alınmır, gərək o böyük taleyi, sənətkar ömrünü Allah sənin qismətinə yaza.

– Bizim ən yanğılı muğamımız heç kədər notlarıyla bitmir. Bəlkə bədbin əhvalla, təkcə dərdləşməklə kifayətlənməyib ciddi sənətin xilasına, sintezlərdən, improvizələrdən qurtulmağa can ataq?

– Bunun üçün ilk növbədə əsarətdə olan torpaqlarımızı qaytarmalıyıq. Sənətin, musiqinin, ədəbiyyatın, əxlaqın, cəmiyyətin başının

üstünü alan təhlükələr onda öz-özünə məhv olacaq. Başqa çıxış yolu yoxdur, çünki o torpaqlar bizə güc-qüvvət, istedad, təmizlik, təbii, bənzərsiz ifa verirdi. Bu gün biz bütün bunlardan məhrum olmuşuq. Sintez mahnıların, ifaçıların qarşısını kəsmək üçün təcili nəzarət mexanizmi yaradılmalıdır. Özü də bu səlahiyyətlər ayrı-ayrı şəxsiyyətlərə yox, hansısa bir rəsmi quruma verilsə, daha yaxşı olar. Çünki bizim böyük sənətkarlar da hərdən nəyinsə xatirinə elələrini tərifləyirlər ki, adamın ayağının altından yer qaçır.

– Xalq ifaçılıq sənətiylə məşğul olanların çoxu indi yeni aranjimanlara üz tutub. Sizin belə bir fikriniz yoxdur ki?

– Mahnıları dəyişmək, başqa cür oxumaq elə həmişə olub, bizim zamanımızda isə lap çoxalıb. Bunlar unudurlar ki, xalq mahnıları, xüsusən də muğam calaq götürmür. Hərənin öz bildiyi kimi aranjiman eləməsini görəndə mən əsəblərimi cilovlaya bilmirəm. Xalq mahnılarımızın sözləri, musiqisi elə gözəldir ki, ona qulaq asanda adamın ürəyinə kərə yağı kimi yayılır. Belə musiqiyə sintezator qoşanda yenə də heç nə dəyişmir. Onsuz da muğam, xalq mahnısı qalır, sintezçilər isə sıradan çıxır. Amma istər-istəməz adam hövsələdən çıxır ki, ay balam, xalq mahnılarını, muğamı niyə bu günə qoyursan? Bizim sənət adamlarının arasında yaxşı bir məsəl var, belələrinə deyirlər ki, özün nə yaradırsan, yarat, amma sən Allah, bu yaranmışlarla işin olmasın.

– Belə sintezlərin bir qorxulu tərəfi də var ki, gələcək nəslin yaddaşına xalq mahnıları bu aranjimanlarla yazılır.

– Ona görə də Teleradionun Qızıl Fondundakı mahnıları yüksək keyfiyyətli disklərə köçürmək, qorumaq lazımdır. Son illər bayağı musiqi ora da yol tapıb. Adam fikirləşəndə dəhşətə gəlir ki, belə getsə yavaş-yavaş o köhnə kişilərin lent yazılarını itirib yerinə bu bayağıları yerləşdirəcəklər. Səlahiyyətim olsa, mən elə günü bu gün qədim lent yazılarını uzunmüddətli disklərə köçürərəm... İndi mənim də sizə bir sualım var: keçən il ən çox hansı mahnı dəbdəydi?

– ...

– Heç biri yadımızda qalmayıb, amma xalq musiqisi elə hey oxunur, hamı da deyir ki, nə gözəldir!

*iyun – 2004*





# Teatrlarımız teatr çıxarır...

*Teatrda darıxan*
*qardaşım Namiqə*

Deyilənə görə, bizim dünyaca məşhurlarımızdan birinə bir yaxını xəbər gətirir ki, nə durmusan, bəs Bakıya təzə sirk gəlib. O da dərhal “yox” deyib, yəni, balam, mənim haçan heyvanlarla aram olub?

– Bu elə-belə sirk deyil ey, çılpaq qızlar şirləri çapır!!

– Hə, onda gedək, çoxdandı şir görmürəm...

Səhnəsində aktrisanı soyunduran “Yuğ” çoxlarının yadına saldı ki, bir xeyli müddətdir teatr, tamaşa görmürlər. Və tələm-tələsik ora yüyürənlərin kefinə əməllicə soğan doğrandi: elə bu?

Başqa sözlə, məlum oldu ki, səhnəyə boylananları bircə məlum bu epizod maraqlandırırmış. Biz isə elə hey özümüzü aldadırıq ki, truppa yeni axtarışlar sorağındadır, filan teatrda premyeradır... Gəlin, razılaşaq ki, teatrın bu vəziyyətə düşməsi, yəni tamaşaçını çılpaq səhnələrlə cəlb etmək istəyi qanqaraldan bir əhvalatdır. Bu yolla onun ömrünü bir az da uzatmaq olar, amma belə çıxış yolu olarmı, teatrallar?

Əslində isə teatrlarımızın problemi biz gözlədiyimizdən də ciddidir. Teatr rəhbərləri də mat-məəttəl qalıblar ki, neyləsinlər, bu vəziyyətə, reallığa necə düzəliş eləsinlər? Çar-naçar biri qızı soyundurmaqla, o biri aktrisadan “çimdik qoparmaqla” tamaşaçı toplamaq istəyir, irəli getmək istəyənə isə “streptizdən” başqa heç nə qalmayıb! Rejissorun biri klassikaya üz tutur, digəri gənc ədəbi nəslin dramaturji materialına. Bu cəhdlərin hamısına isə “tamaşaçı ayaqla səs verir”, yəni sükutla...

Məsələ burasındadır ki, incəsənətin digər növlərindən fərqli olaraq, teatr fərdi yox, kütləvi sənətdir. Ona görə “mən belə istəyirəm”i deməyə teatr rəhbərlərinin haqqı çatmır. Üstəlik, əgər teatrları dövlət maliyyələşdirirsə, onda tamaşaçılarla eksperiment

oyunu oynayanlara heç cür haqq qazandırmaq olmur. Teatr sənətçisi rəssamdan, yazıçıdan fərqli olaraq, tamaşaçısına-alıcısına “xoşun gəlmir, gəlib baxma” deyə bilməz! Çünki onlar bütün teatrı özləri üçün yox, tamaşaçı üçün çıxarırlar. Bəs çıxış yolunu harda axtarmalı?

Əgər biz psixoloji teatrı qəbul eləyə bilmiriksə, onda bu qədər xərc və əziyyəti niyə çəkirik? Səhnəsi və hadisəsi bir-birindən seçilməyən bu teatrlar nəyə (kimə) lazımdır axı?

Bəlkə etiraf edək ki, istedad yoxdur?

Onda teatrlarımız kimin əlindədir?

Bu suallardan yayınmaq Azərbaycanda teatrın gələcəyinə xidmət etsəydi, onda məmnuniyyətlə susardıq. Amma bu gün teatrlarımız susmaqdan daha qiymətli olanı gözləyir...

*fevral – 2002*





## Rüstəm Behrudi: “Bir də doğulmaq istəməzdim”

– Biz şairsevən xalqıq...

– Tamam cəfəng bir işə düşmüşük.

– Yəqin sizdən avtoqraf istəyən çox olur?

– Hərdən olur, amma avtoqraf yazmaqdan heç xoşum gəlmir.

– Niyə?

– Heç tanımadığın adam səndən bir yaxşı söz istəyir. Amma deyən yoxdur ki, tanımadığın adama xoş sözü nə təhər yazmaq olar? Ona görə avtoqraf yazmaq mənim üçün bir əziyyətdir. Çox vaxt yazı əvəzinə bircə imzanı qoyuram, vəssalam.

– Avtoqraf istəyən oxucusuna şairin təkcə imza bağışlaması insafsızlıq deyil ki?

– Bu cəmiyyətin kimisə yuxarıda görmək istəməsini başa düşə bilmirəm. Adamları seçmək vərdişi mənə çox yersiz görünür. Qoy hərə öz işini görsün, pinəçi yaxşı ayaqqabı tiksin, şair oturub şeirini yazsın. Səhv eləmirəmsə, Puşkinin sözüdür ki, poeziya əxlaqdan yuxarıda dayanır. Poeziya yuxarıdan da yuxarıda dayanır, çünki poeziyanın özü bir əxlaqdır, onda əxlaqın bütün ölçüləri, normaları var. Amma poeziyanın harda dayanmasına baxmayaraq, şairlərdən avtoqraf almaq adamların başını qatır.

– Bəyəm şairlər də bütün ömürlərini tarixə bir imza qoymağa həsr eləmirlərmi?

– On-on beş il əvvəl mənə də elə gəlirdi ki, hamı şöhrət üçün yazır. Dünyanın lap əvvəllərində böyük şairlər şeir yazıb, rəssamlar böyük əsərlər çəkiblər, amma heç biri imza qoymayıb.

– Yəqin kifayət qədər məşhurlaşandan sonra imzanın üstündə əsmək yersiz görünür.

– Ola bilər. Amma insan yaşa dolduqca müdrikləşir axı. Dünyanı bir az geniş mənada dərk eləyəndə mənasızlıqları görürsən.

– Amma elə indi də şeiri yazan kimi dərhal imza qoyursunuz, eləmi?

– İki ildir şeir çap elətdirmirəm. İndi kitabımı çıxarmağa hazırlaşıram. Onu da imzaya görə yox, istədiyim tək bir adamın oxuması üçün. Vallah, bu, görünmək istəyi deyil, yəqin mənim kimi bir başqa darıxan da var, qoy oxuyub bir rahatlıq tapsın.

– Sizin imzayla üzə çıxan bu təzə kitabın adı nə olacaq?

– "Mən qərib, kimsəsiz, tənha bir ruham".

– Bu qərib ruhun ürəyində olanları ifadə eləməyə şeirin gücü çatır?

– Hansısa günün yaşantısını şeirlə demək olar. Amma böyük mənada insan heç nə ifadə edə bilmir. Çünki yer üzündə yerdəyişik olan çoxdur. Məsələn, sevginin əsl adı "sevgi" deyil. Səhv deyiblər, gərək adı "ölüm" olaydı. Ölümə isə əksinə, gərək "sevgi" deyəydik.

– Niyə?

– Mənə belə gəlir, bu adları bəşəriyyət qanmayan, körpə vaxtlarında qoyub.

– Bütün bu anlamları öz təzə adıyla nə əcəb şeirinizə, kitabınıza gətirmirsiniz?

– Sözləri dəyişirəm, şeirlərimdəki sevgi ölüm anlayışındadır. Bir zaman ölçüsü var – sonsuzluq deyirik. Bu söz o böyük anlamı ifadə eləyə bilmir. Ona görə mən sonrasızlıq yazdım. Bu gün bizim "yaşıl" dediyimiz rəngə yüz, min ildən sonra "qara" deyəcəklər. Çünki insanların düşüncəsi getdikcə dəyişir.

– Düşüncəmizin təzələnməsi axırda bir gün ünsiyyət formamızı da dəyişə bilər?

– Sözləri bir ucdan salıb itiririk. Yüzlərlə sözü bu gün ta işlətmirik. Bəli, getdikcə sözlərlə də vidalaşırıq.

– Axı, hər itən sözün də yerinə təzəsi gəlir.

– Amma bu təzə sözlər itirilənlərin yerini vermir. Olmayan həmişə olmağa can atır. Məncə, təzə ünsiyyət yolu tapınca, sözləri dəyişmək lazımdır.

– Başınız sözlə, ruhla oynamağa qarışıb, nə karyera yada düşür, nə də kabinet...





– Yer üzündə dəbdəbədən pis heç nə yoxdur. Karyera nəyə lazımdı – heç nəyə. Cəmiyyətin ölçülərinə görə, şöhrəti olanın gərək hər şeyi olsun. Amma mənə elə gəlir ki, çoxa can atanın axırda heç nəyi olmur, heç nə istəməyənin isə axırda hər şeyi olur.

– Ruha ağırlıq elədiyi üçün şöhrəti, karyeranı atdıq yerə, ta nə qaldı?

– Mənim düşüncələrim.

– Düşüncələrin olması realdır, yoxsa daha bir aldanış?

– Biz hələ reallıqla irreallığın sərhədini tapa bilməmişik. Mənim üçün düşüncələrim əsl reallıqdır. Mən onları görürəm, hiss eləyirəm, eşidirəm. Mən öz fikirlərimlə bir yerdə olanda özümü rahat hiss eləyirəm. Axı, bu cəmiyyət nə istəyir məndən?!

– Cəmiyyətin nə istəməsi bəlkə də aydındır, bəs Allah nə istəyir sizdən?

– Mən Allahın da varlığını yox elədim. Bəndələrinin ağır günündə görünməyən Allah yoxdur. Şeirlərimdə yazmışam ki, heç olmasa bir dəfə varsansa, ay Allah, görün mənə, kafir olmayım. İndi də günah məndə deyil. Bir heylə yalvardım, gözümə görünmədi, mən də dönüb kafir oldum.

– Bəs bu tale nə idi, o sizdən nə istəyirdi?

– Tale məndən nə istəyirdisə, nə vermişdisə, ona qaytardım. İndi ta heç nə istəmir. Amma ailəmin, sevdiyim adamların istəkləri heç qurtarmır.

– Bu dünyayla sizin aranızda olan yeganə bağları qırmağa ehtiyac varmı?

– Bəlkə də bu güclü olmayan bağları da çoxdan qırmışam. Bilmirəm, bəlkə o qırdığım bağların əzabı hələ yaşadır məni. Çünki bu yer üzündə hamı məndən incikdir.

– Dərdi nə yarıda, nə də tovlaya bildiniz. Bu dərd nə idi?

– Bir şeirim var: "Qoy anam bağışlasın, məni o yox, dərd doğub". Allah bizimlə oyun oynayır. Bizi bu dünyaya gətirir, ən dözülməz əzabları verir. İnsanın dünyaya gəlməyi də əzabla olur, dünyadan köçməyi də.

– Dərd Allahdan gəlmədir, yoxsa yazıçıların ustalıqla hördüyü adi hörümçək toru?

– Yer üzündə bəlkə də heç nə yox, bircə dərd var. Allah özü da darıxdığı üçün dərdi yaradıb ki, bəndələrin onunla necə yola getdiyinə tamaşa eləsin. Ona görə də yer üzündə dərddən başqa qalan hər şey ötəridir.

– Dərddən niyə dərdlə danışaq ki?

– Dərddən gərək dərdin özü kimi danışasan. Dərdi anlamaq, olmayan Allahı dərk eləmək deməkdir. Dərd insanın Allahı, dünyanı, özünü anlamaq istəyindən doğulur. Amma bu anlamaq istəyinin özü də başdan-başa yalandır, mənasızdır. Bax, dərdi doğuran əsl səbəb də elə bu boşluqdur.

– Bəlkə bir az da Allahlı söhbət eləyək.

– Mən onun həmişə ayaqları altında oldum. Bir dəfə mənə cavab vermədi. Bir şeirim var:

Mən əvvələm, mən axıram,
Zamanam, vaxtam, axıram.
Hər yerdən sənə baxıram,
Sən də bir yol gəl gör məni.

– Bu balaca şəhərin bu boyda allahsızını xeyli axtarsaq da, axırda tapdıq. Bu müsahibələrlə Allahın hansı günahını yumaq istəyirsiniz?

– İstəyirəm, bu dünyanın boş və mənasız olduğunu hamıya deyim. İstəyirəm, hamı təkcə sevgiyə qul olsun. İstəyirəm, hamı elmin, dini mifalogiyanın gəldiyi son nəticəyə inansın. Hamısı axırda deyir ki, yer üzü bir atomun zərrələridir. Onda belə çıxır ki, biz hamımız əslində bir-birimizin hissələriyik. Onun qolu məndədi, mənim əlim bir başqasında. Əslində yüzlərlə, minlərlə adamlar da elə bir adamdır. Biz hamımız bir atomun hissələriyiksə, bir-birimizi sevməkdən başqa yolumuz, ayrı əlacımız yoxdur. Bizim hardan gəldiyimiz bəlli deyil. Bir az seçilən adamlara "Göydən Yerə zənbillə düşüb" deyirlər. Deməli, biz hamımız hardansa gəlmişik. Bəs hara, gedəcəyik? Biz burda görüşürük. Burda gördüyümüz pisi də yaxşını da ta heç vaxt, heç yerdə görməyəcəyik. Vaxtımızsa azdır, çox az. Hamımız yer üzündə darıxırıq,





çünki burda qəribik. Sevgiylə, dərdlə Allah bizi burda saxlamaq istəyir. Amma bir gün gəldiyimiz yerə dönəcəyik.

– Öz missiyasını yerinə yetirə bilməyənlər bir də doğulur, deyirlər.

– Yox, mən bu dünyaya bir də gəlmək istəməzdim. Bu 45 ildə gördüyüm gördüm, çəkdiyimi çəkdim. Bu dolaşıq, bir-birini təkzib eləyən fikirlərə gəlincə, nələr yaşadığımı bilsə-bilsə bircə Allah bilər. Bütün bunları təkrarlamaq, təzədən doğulmaq əsl dəhşətdir.

– Bir vaxtlar vətənpərvərlik şeirləri ilə məşhurlaşan, Vətəndən möhkəm əllərlə yapışan Rüstəm Behrudi indi dünyadan əlini nə tez çəkir?

– Mən də bu milləti ürəkdən sevmişəm. Bu şeirlər də ordan-burdan yox, sevgidən doğub. Sonra gördüm ki, dünya balacadır. Sonra İsanın gününə düşəndə nə dediyini anladım: "Dünya dolu adamdır, amma mən dərdimi kimə deyim?" Gördüm ki, bu qədər darıxmağın yanında dar ağacına salam vermək də, şaman duası oxumaq da, ölümə xoşgəldin eləmək də boşuna imiş. Bəlkə də cəmiyyət üçün onları yazmaq lazım imiş, amma mən onlarla yaşaya bilmərəm. Hətta o yaşantıların özü indi mənə çox gülünc gəlir. İndi oturub göydən bir səs gəlməyini gözləyirəm. Yer üzündə aləm bir-birinə qarışıbsa, onda heç o səsi də eşitməyəcəm. Allah çoxdan ölüb. Özü də Allahı bizim qurduğumuz ölçülər yox, öz ölçüləri öldürüb.

– Qorxmursunuz, bir gün Allahdan səs gələr ki, ayrı günahım yoxdur, tək günahım Rüstəm Behrudini yaratmaq olub elə?

– Təki desin. Amma bir səsi gəlsin.

– Deyirlər, italyanlar ona görə çox danışırlar ki, heç kimi eşitmək istəmirlər. Bəlkə şairlər, yazıçılar, filosoflar da belə çox danışırlar ki, Allahı eşitməsinlər?

– Bütün bu qeyri-adi adamlar əslində Allahın danışmasını hamıdan çox istəyənlərdi. Allah bir kərə danışsaydı, hamı səsini kəsərdi...

*2003*

# "Yerlərdə süründüm, yetişir, göylərə qaldır..."

*En gəl! En gəl! Ziyarət eyləyəlim,*
*Sənə həp macərayı söyləyəlim.*
*Xayır, alçalmam, istəyən gəlsin,*
*Məni hər kim sevərsə, yüksəlsin.*

***H.Cavid***

Gəlimli-gedimli, son ucu ölümlü deyirik bu dünyaya...

Gəlirik, bir gün də gedəcəyimizi bilirik... Bu gerçəkliyi aydınca anlayan insan bircə yol nə zəifliyindən danışdı, nə də gücsüzlüyünü boynuna aldı. Sevə-sevə yaratdı, yaratdığı ilə başqalarını yaşatdı, yaşatdığı ilə özü də yaşadı. Sevə-sevə yaratdı, dedik... Cavid də sevə-sevə yaradırdı. Bu sevgiyə çoxları qızınırdı... Cavid yaşayacağından arxayın idi. Gözəl dövrün böyük şairi deyildi. Bəşəriyyətin nə qızıl dövrüydü, nə də dünyanın düz vaxtı. Bununla belə, Cavid bizi gözəlliyə çağırırdı... Cavid qanunlardan, qadağalardan, qandal-zəncir buxovlarından, içimizdəki, böyrümüzdəki şeytanlardan qurtulmağın yolunu deyirdi bizə. Yolun başlanğıcında Əbdülhaq Hamidin "Həqiqətin üzü lakin gülümsəməz, ağlar" – misrasını xatırlatdı bizə. Yol boyu, ömrü boyu özü də sevə-sevə təkrarladı bu misranı...

Bu gün Cavid obrazlarına, Cavid yaradıcılığına və Cavid taleyinə bir az özümüzü yaxın görəndə, doğma biləndə bu bircə misranı istər-istəməz biz də təkrar edirik: "Həqiqətin üzü lakin gülümsəməz, ağlar".

H.Cavid həqiqət idi. Dünyanın çox qarışıq dövründə, bulanıq illərində yazdı, yaratdı. Çox sonra baxıb gördük ki, ölənlə ölmədi, gedənlə getmədi. Yaşadı bu ölümlü dünyada... Uzun illər onu tanımaq üçün meyar axtardıq. Çoxluqdan tamam ayrıldığı aydın idi. "Mənim Tanrım gözəllikdir, sevgidir" – deyən bir şair səsi "nələrinsə" eşqi ilə dövrü, mühiti ələk-vələk edənləri çaşdırmışdı. Hazır modellər, standart meyllər, qəliz cümlələr yox idi, – çoxları çaşbaş qalmışdı.





Bu çaşbaş qalanların adına araşdırıcı deyilirdi. Cavidin şəxsiyyətinə də, əsərlərinə də, "milli mənlikdən" uzaq damğası vurulanda, bəlkə də şairin sevə-sevə yaratdıqlarının da ölümü baş tutardı. Əgər sözün diriliyi olmasaydı. Həqiqi söz üçün gəlimli-gedimli dünya yoxdur. Qandallı dünya qanadlı sözün məğlubudur. Söz isə "həp duyduğum gözəllikdir, sevgidir", – deyən şairimizin bütün yaradıcılığında görünən gözəllikdir, duyulan sevgidir. Buna qarşı olan mühitlə mübarizə, çarpışma da açıqdır, aydındır. Nə yazıqlar ki, mühit həmişə çoxluğa deyirik... Və nə yaxşı ki, çoxluğu darıxmağa, rahat yaşamağa qoymayan "təklər", "seçilənlər" və ya "tərslər" həmişə olur.

Cavid bütün dövrlərdə, əsərlərində insanı azadlığa, ucalığa çağırırdı. Amma mühiti rədd edən talelərin ən uğurlu obrazı Cavid yaradıcılığında Şeyx Sənan idi.

"Şeyx Sənan" faciəsi Hüseyn Cavidin ilk səhnə əsərindən olsa da, onun yaradıcılığı üçün çox səciyyəvidir. Hələ gənc ikən Şeyx Sənan taleyi, həm də Sənan eşqi onu maraqlandırmış, Şeyx Sənanın türbəsi önündə şeir də yazmışdı:

"Nədir mənası eşqin? Söyləyənlər nərdə?
Bir gəlsin görüb qüdsiyyəti – Sənanı, lal olsun xəcalətdən".

Amma Cavid nə bir romantik aşiq obrazı, nə də lirik mövzulu əsər yaratmağa çalışmadı. Mühiti rədd edən Sənan obrazı Cavid üçün maraqlı idi. "Şeyx Sənan" faciəsi Cavid yaradıcılığının ilk illərində şairin yüksəkliyə, mənəvi təmizliyə və əbədiyyətə çağırışı idi.

Eşq nədir, aşiq kimdir? Bu suallar yüz illər boyu insanlığın cavab axtardığı suallardandır. Cavablar çoxdur. Bu cavabların arasında Cavidin də cavabı var:

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı,
Nə xəlq olaydı, nə xaliq, nə eşqi həsrət olaydı..."

Amma eşq də var, aşiq də. Mühit nə qədər rədd etsə də, son anda gördüyünü boynuna alır. İnsanın xilqətində bir "nəsnə" var. Həmişə insanı yüksəkliyə çağırır.

İnsan ucalığa can atır. Özündən yüksəyə qalxmağa çalışır:

Durma, yüksəl, ənisi-ruhum, gəl!
Mütərəddid görünmə! Gəl, yüksəl!
Oxunur, gözlərində nuri-dəha, yüksəl ey şeyx!
Gəl düşünmə daha!..

Bu, bir gözəlin, bir nazlı mələyin səsindən çox, Sənanın içindəki çarpışmaların, qaçmaq, qurtulmaq azadlığının səsi idi. Sənan müdhiş anlar keçirir, sarsılır, sanki kömək diləyir. Özündən qaçmaq, dünənki düşüncələrdən, istəklərdən, diləklərdən adlamaq asan deyil. Sənan ayrılmağa çalışmır. Amma rahatlıq da tapmır. Deyir, ən böyük kəşf insanın özünü tanımasıdır. Sənan ilk dəfə "Yüksəl, ey şeyx! Gəl düşünmə daha!" – çağırışını eşidəndə sarsılır:

Of, məndən nə istəyirsən, get!
Məndə can qalmamış, bir insaf et!

– deyə Xumarı rədd edir. Maraqlıdır, böyük Sənanın dilinə bu sözlər nədən gəldi, niyə gəldi? Sənan özünü, kimliyini anlamamışdı hələ. Özünü tapmamış, tanımamışdı Sənan. Demək, vaxt, zaman lazım idi ona.

Şeyx Kəbir yozumu Sənanı bu vaxtın ağuşuna atır:
Şübhə artarsa, həm yəqin artar,
Mərifət nuru şübhədən parlar.
Zənn edərsən yanılmayır Sənan
Çünki xəllaq için şərəfli məkan
Eyi, parlaq olsun gərək.





Şeyx Kəbir sözü Sənanı vaxtın ağuşuna atır, Sənan özünütanıma mərhələsinə qədəm basır. Şeyx Kəbirin yuxu yozumu da çox maraqlıdır:

Çünki röyada gördüyün uçurum
Səni eylər bu feyzdən məhrum.
Baş verər səndən öylə bir hərəkət
Ki, bütün xalq edər həmən nifrət.

İlk anda bu uçurumun mənası adama aydın olmur. Yalnız faciə bitəndə bu uçurum da aydınlaşır. Yüksəlişə can atan bir insan gec-tez mühitin qəbul etmədiyi və ya başqa cür desək, mühitin ram etmədiyi bir tərsə çevrilir.

Sənanın özünütanıma yolunda, insanın yüksəlişi yolunda çox gerçəkliyə toxunur Cavid. Əzra deyir:

Səndə bir öylə hüsnü-cazibə var,
Ki, olur hər görən pərəstişkar.
Səni Sənan arar da, kəndi bulur.
Daima eşq hüsnə mail olur.

Zəhra gözəldir, sevimlidir. Ürəyi var, sevgilidir. Amma Sənanı niyə yüksəkliyə çağıra bilmir. Səbəb bu misralardan aydın olur:

Kimsəsiz bir zəvallıdır Sənan,
Səndə vardır fəqət nəcabətü-şan.
Bir atan var, cahanda şöhrətgir
Fazili-binəzir, Şeyx Kəbir.

Zəhra:

Doğru, çox doğrudur sözün, lakin
Məncə, mənası yox, həsəbi-nəsəbin.
Qara puldan da alçaq olsa, inan,
Yenə məndən şərəflidir Sənan.

Sənana belə son məqsəd gərək deyil. Bu deyil onun istəyi. O, məqsədə doğru gedən yolda əzablar, iztirablar üçün sanki darı-

xır. Amma bu eşq yolunda Şeyx Kəbirin Sənana məsləhəti maraqlıdır. Sənanın eşqi ilk növbədə gözəlliyə olan eşqdir. Xumar gözəldir, zərif, incədir. Xumarın mühiti Sənanın ətrafındakı mühitdən heç nə ilə fərqlənmir. Bunu Sənan görür, bəs onda iki il onu donuzlara çobanlıq etməyə vadar edən nədir? Bu yol yüksəklik yoludur. Hamıdan, çoxluqdan seçilməkdir.

O donuzlar ki, otladır Sənan,
Şübhəsiz fərqi yoxdur onlardan.

Faciədə təsvir olunan Xumar da çoxluqdan seçilir. Mühitin qəbul etmədiyi qızdır Xumar. Nina deyəndə ki:

Heç fəraq etmə, sıxılma, Xumar,
Çünki bir fərd ölür də, dördü doğar.

Xumar cavab verir:

Doğar, amma doğub-doğurmaqdan
Nə çıxar sanki?!

Bu sözlərdə mühitin idbarlığı da var, zamanın bulanıqlığı da. Bu sözlərdə dövrün də rəngi var, adamların da.

Faciədə bir dərviş obrazı var. Dərviş klassik ədəbiyyatdan yaxşı tanıdığımız müdrik, kamil şəxsə çox bənzəyir. Amma bu dərviş mühitinə gülən bir aqil deyil, dərviş hər gedənə asanca "xoş getdin" deyən dünyadır. Dərviş neçə-neçə sənanları, mərvanları özündə heçə endirən, insan məzarlığı içində əhvalatları, olacaqları izləyən qoca tarixdir. Dünya, tarix təkcə mühitə, kiçikliyə yox, hətta Sənan, Xumar yüksəkliyinə də gülür:

Əcəba nərdə Şeyx? Nərdə Xumar?
Allah, Allah, nə cahil insanlar?
Nə üçün anlamam bu ahu-fəğan?
Bunların fərqi varmı torpaqdan?





Gözəllik bəşəridir. Sevgi əbədidir. Din, məzhəb insanlığı təmizliyə çağıra bilər. İnsanı düzlüyə dəvət edər. Pak, saf mənəviyyat çağırışı ilə insanı, xalqı öz arxanca apara bilərsən. Sən öz qəlbini hər şeydən – şöhrətdən, xəbislikdən, kindən, xırda hisslərdən, hətta ötəri dediyimiz həvəslərdən, şəhvətdən də təmizliyə bilərsən. Amma gözəllik... Qəlbini gözəllikdən ayırmağa gücün çatmaz. Sevgini ürəyinə yaxın qoymamaq – bu, sənin əlindən gəlməz. Sənanın qəlbi təmizdir. Sənan kamildir. Mühitində sevilən, seçiləndir. Amma... axı o, insandır. Cavid Sənan faciəsini, daha doğrusu, Sənanın kimliyini bizim üçün belə açır. Aydın olur ki, təmiz, düz bir ürək ehtirasın, alçaqlığın yox, olduqca insani çağırışın qulu olur. Budur, Cavid ucalığı, budur Cavid eşqi və budur Cavidin insan obrazı.

Mühitin rədd etdiyi, güldüyü adam niyə Sənan oldu? Bu sualın da cavabı aydındır. Cavabı dərviş, yəni dünya, tarix verir:

Baxma, şeyxim, bu halı-pürqəminə,
Giriyorsun həqiqət aləminə.
Fəzli-həqq runüma kəmalında,
Parlayır nuri-həqq cəmalında.
Səndə bir əhli-hal əlaməti var,
Səndə əlan xuda qiyafəti var.

İstər əfsanələrdə, rəvayətlərdə yaşayan, istərsə də Cavid qələmində canlanan Sənan obrazının həqiqəti, sirri belədir. Artıq bumbuz olmuş gözəl bir mələyə, ölmüş sevgiliyə aşiqin sualı necə gözəl, necə də sevimlidir:

Bu sükutunda başqa məna var,
Yenə küsdünmü? Söylə, söylə, Xumar!

Araşdırıcıların bu fikri nə qədər bəsit görünür. Deyəndə ki, Sənan, Xumar fəal deyil, mübarizə etmirlər. Görəsən, Sənan, ya elə Xumar axı nə deməli? Hansı qələbə üçün döyüşməli, didişməlidirlər? Cavid insanlığı və insanı qəddarcasına doğru təsvir edib! Kimdir axı dünyanın əşrəfi dediyimiz bu insan? Bu əşrəfi-insan xalq üçün, millət üçün çarpışanda diri olur, güclü olur, din uğrunda qan tökəndə, istə-

yinə yetəndə, cahangirlik edəndə fəal olur, güclü olur, amma öz-özünə yavaşca "mən axı insanam", – deyəndə zəif, heysiz... Bir də, kim deyə bilər axı, gözəlliyə gedən yol yüksəkliyə gedib çıxmır? Və niyə axı çıxmamalıdır?! Dinindən, irqindən, cinsindən asılı olmayaraq, bu insan – Cavid qəhrəmanı Şeyx Sənanın diləkləri əbədidir... Gözəl diləklərdən, ülvi istəklərdən danışdıq. Bəs mühit, bəs zaman, bəs dövrün gerçəkliyi necə?

Yarəb, azacıq lütvi-inayət
Qəhr olmada artıq bəşəriyyət.
Başdan-başa həp yer üzü vəhşət
İblis ilə həmrəngi-siyasət.

Başdan-başa həp yer üzü vəhşət... Ədəbiyyat hansı ucalıqda dursa belə, ən gözəl insan obrazı yaratsa belə, həyatın acı mənzərəsindən nə qaçmaq olur, nə də qurtulmaq. Sevə-sevə yaratdığı obrazların həyatdakı taleyini demirəm, səhnə taleyinə acıyırsan, hər kəlmə, hər misra üçün çək-çevirlər, dindirmələr, üzləşmələr...

En gəl mənə, yaxud məni yüksəklərə qaldır,
Gəzdir qonağında:
Yerlərdə süründüm, yetişir, göylərə qaldır,
Dindir qucağında,
Qaldır məni bir seyr edəyim, xoşmu, gözəlmi,
Cənnətdə mələklər.
Qaldır məni ta görməyim insandakı zülmü
Bax, yer üzü inlər.

Dünyaya, çarpışan, dartışan bu yer üzünə yerdən yox, bir az yüksəkdən baxanda bütün dəhşətlər gözlərinin önündə açılır.

Cavid öz ucalığından baxırdı insana və onun dünyasına... Biz isə Cavid ucalığından baxırıq tanış, doğma şeytan üzlərə. Cavid bizə qarışıq bir dünyanı göstərir. Nə yazıqlar ki, bu dünyadakıların başı sevgi və gözəllik nəğmələrinə yox, dəhşət və vəhşət oyunlarına aldanıb. "Şeyx Sənan", "Şeyda", "Uçurum", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Ana"... Bir-birindən nəhəng əsər-





lər və Uzaq Sibir, doğmaları bumbuz nəfəsi, 59 nömrəli məhbus, 59 yaşlı şair və 59 nömrəli qəbir. Bu da axırı. Şair taleyi, şair ömrü...

"Əgər bu dünyanın zərrə qədər dəyəri olsaydı, mənim kimi topallar, sənin kimi korlar bu dünyanı idarə etməzdi". Cavidin Topal Teymurun dili ilə dediyi sözlərdir. Ustad şair, topalların və korların ağalıq etdiyi bu dünyanın zərrə qədər dəyəri olsaydı, şairləri məhbəslərdə çürüməz, rəssamları qapılarda dilənməzdi. Bu yazı da dəyərsiz və mənasız dünyamızda dərhal görünən, seçilən Cavid ucalığından danışmaq, insanlığın onsuz da çox olan günahlarını bir az yüngülləşdirmək istəyindən başqa heç nə deyil. İstədik son sözü biz deyək, amma Cavid burada da qabaqladı:

Yüksələn məhv olar, fəqət enməz.
Nuri-həqq daima yanar, sönməz.

Cavid yüksəldi, enmədi, məhv oldu, sönmədi. Bu qələbə bir şairin yox, insanın və onun duyğularının qələbəsidir...

*1998*

# Əliağa Sədiyev: “Tarım özümdən qocadır...”

– Sənət yoldaşlarınız deyir ki, Əliağa Sədiyev dilli-dilavərdir. Suallara birnəfəsə cavab verə bilərsiniz?

– Çalışaram. Yaxşı, mən hazır.

– Sizi həmişə başqaları təqdim edir. Bəs siz özünüzü necə təqdim edərdiniz?

– 1973-cü ilin 25 sentyabrında Qafan rayonunda doğulmuşam. 1979-cu ildə ailəmiz Bakıya köçüb. 1992-ci ildə Asəf Zeynallı adına Musiqi Texnikumunu, 1997-ci ildə Bakı Musiqi Akademiyasını (BMA), 1999-cu ildə magistraturanı, 2002-ci ildə aspiranturanı bitirmişəm. “Tarın səs sırasında muğam ifaçılığının problemləri” mövzusunda elmi iş yazıram. BMA-nın müəllimi, “Xarı bülbül” muğam qrupunun bədii rəhbəri, Səxavət Məmmədov adına “Qarabağ” instrumental ansamblının musiqi rəhbəriyəm.

– Uğurlarınız çoxdur?

– Ən böyük uğurum tarı əlimə almağım olub. 1987-ci ildə respublika musiqi müsabiqəsinin qalibi, 1997-ci ildə Qazaxıstanda keçirilən Muxtar Auezov adına ənənəvi musiqi festivalının laureatı, 1996-cı ildə Füzulinin 500 illiyinə həsr olunmuş respublika muğam müsabiqəsinin birincisi olmuşam.

– Sənətə gəlişiniz necə olub?

– Anamın gözəl səsi, xanəndəyə məxsus yüksək səs diapozonu olsa da, sənət yolunu secməyib, müəllimdir. Sənəti çox sevdiyinə görə, məni musiqiyə, özü də məhz tara yönəldib.

– Musiqi təhsilini birtəhər yola vermək istəyirdiniz, yoxsa elə birinci görüşdən tarın vurğununa çevrildiniz?

– Dərslərimiz yaxşı oxuyurdum, orta məktəbi də əla qiymətlərlə bitirmişəm. Riyaziyyatı daha çox sevirdim. Həndəsənin məsələlərini, aksiomlarını həvəslə öyrənirdim. Amma fizika mənlik deyildi... Musiqi isə mənə yad deyildi, sənət mühitini evdə görmüşdüm.





– Əlaçı olanlar birinci olmaq istəyirlər. Bəlkə elə ona görə tarzən oldunuz ki, tar da trioda aparıcıdır...

– Tarı anamın istəyilə əlimə alsam da, həvəslə öyrəndim. Üstəlik, axı musiqi də riyaziyyat kimi dəqiqdir, gərək kənara çıxmayasan.

-Siz riyaziyyatı sevsəniz də, tarı hamıdan fərqli bir tərzdə çalmağa, vahid düsturlardan uzaqlaşmağa çalışırsınız...

– Mən musiqidə nə qədər kənara çıxsam da, 2 ilə 2-nin hasilinin 4 olduğunu unutmuram...

– Tarın imkanları hüdudsuzdur, deyirlər. İfaçılar niyə bu hüdudsuzluğu sonacan aça, təqdim eləyə bilmirlər?

– Əvvəlki ustad tarzənlərdən üzübəri lent yazılarını dinlədikcə görürsən ki, dəyişiklik, inkişaf var. Hazırda skripkanın, pianonun ifa etdiyi musiqiləri tarla ifa edirlər. Yəni tarın belə imkanları var və bu imkan hüdudsuzdur. Mən hər mahnıya novator kimi yanaşıram. Xalq musiqisində mənim demək istədiyim hələ o qədər sözüm var ki...

– Zəif ifaçının yanında olmaq istəyirsiniz, yoxsa güclü?

– Güclü. Mənim müşayiətçi kimi yeganə məqsədim xanəndəni yönləndirməkdir. Tarzən gözəl fraza ifa eləmək istəyirsə, bacarığını solo konsertdə göstərsin. Müşayiətçi kimi onun borcudur ki, xanəndənin gözəl ifasına yardım göstərsin.

– Tarın neçə simi var?

– Tar 11 sim, 22 pərdədən ibarətdir. Bu, Sadıqcandan üzübəri belədir. Mən elmi işimdə, nəzəriyyədə tarın pərdələrini 32-yə çatdırmışam. Tarın simini də artırmaq olar.

– İndi sizin tarınız neçə simdə, neçə pərdədə dinir?

– Mənim tarımın 11 simi, 26 pərdəsi var. Çox güman ki, pərdələrin sayını 32-yə çatdıracağam.

– Sarı sim doğrudan sarıdır?

– Rəngi sarıdır, amma təsiri çox dərindir, güclüdür... Ona görə də rəngsizdir, əvəzsizdir.

– Sarı simə keçməyi xoşlayırsınız?

– Mən heç vaxt simlərə görə musiqini çalmıram. Barmağım o an ürəyimə gələni çalır. Bir dəfə rəhmətlik Ədalət Vəzirov dedi ki, sən tar çalan deyilsən, musiqiçisən. Tar çala-çala sənin yeni-yeni oranjemanların, bir sözlə sənətdə öz yolun olmalıdır.

– Neçə tarınız var?

– 7 tarım var. Hamısı da tut ağacındandır. Ən cavanı 30 yaşındadır. 60 yaşlısı da var. Bir sözlə, tarım özümdən qocadır. Bu dünyada "uf" demədən bircə tara pul verirəm. Yaxşı tar ifaçının sənətinin tən yarısıdır.

– Ürəyinizdən xanəndə olmaq keçməyib ki?

– Mən xanəndəni müşayiət eləyəndə çalmaqla bərabər ürəyimdə oxuyuram. İfa boyu həyəcan keçirirəm ki, qəfil bir əlavə xal vuraram, mizrabın səsi xanəndəni çaşdırar...

– Solo konsertiniz niyə ləngiyir?

– İndiyə kimi Azərbaycanda keçirilən 15-dən artıq konsertin bədii rəhbəri olmuşam, amma solo konsertim hələ olmayıb. Bir yenilik arzusundayam, təzə nəsə eləməyə çalışıram. Düşünürəm ki, solo konserti indən belə verə bilərəm. Həm texniki, həm təcrübə baxımından yetişdiyimi hiss edirəm, amma vaxtını hələ bilmirəm.

– Sənət adamlarının "kaprizləri" çox olur, deyirlər...

– Yaddaşdan zəif ifaçıları sevmirəm.

– Bəs sizin yadınızdan ən çox çıxan nədir?

– Mən məşqdə, konsertdə olanda hər şey yadımdan çıxır.

– Sevdiyiniz muğam?

– Şur.

– Sevdiyiniz rəqəm.

– 8.

– Düşünürdüm, 11 deyərsiniz.

– Yox, 8 Tarın çanağına oxşayır axı...

*2009*





# Tutqun Gün(əş)dən işıqlı reportaj

11 avqust 1999-cu il. Astroloqların həsrətlə, sadə adamların isə təlaşla gözlədiyi gün. Taleyinə əsrin son Günəş tutulması yazılan bu gün axır ki, açıldı... Obaşdan gözümüzü göyə dikdik: Günəş hanı? Ha tərəfdədir? Bəs niyə yoxdur?

Dünya bomboz idi. Ayın gizlədəcəyi Günəşi hələ buludlar örtmüşdü... Deməli, heç nə özbaşına və özxoşuna deyil! Günəş olsan belə, gah bulud, gah da... Ay qarşına keçir. Gizlənən Günəşi saatlarla axtardıq və... Adamı sıxan bozluğun faciəsindən düz saat 2-də qurtulduq. Gün çıxdı. Yox, nə kəhər atı minmişdi, nə də qılınc-qalxan götürmüşdü. Hirsi-hikkəsi də yox idi, həmişəkindən sakit, dinciydi. Ona baxmağa qorxan adamların gözünün içinə gülümsəyirdi:

"Günəşi örtsə də, qara buludlar,
Yenə Günəş adın
Özündə saxlar".

Günəşi görəndən sonra, Ayı axtardıq: Hardadır? Ay necə görünəcək? Az keçməmiş buludlar yenə göyü bürüdü. Qonşu binaların damında adamlar özünə yer seçir, kameralar quraşdırılırdı... Günəş tutulması hadisəsinin saat 16.22 dəqiqədə olacağını deyirdilər. Dörd tamamda isə... Göydə Günəşlə Ay görüşürdü. Dünyaya od yedirən Günəş təbiətin mizanına tabe olurdu: get-gedə Günəş Ayın, Ay isə Günəşin alışdığımız şəklini alırdı. Bu vaxtlar görünməyən yarımqaranlığı və Günəşin tutulmağını müşahidə edirik. Üzbəüz binanın balkonunda ağsaçlı nənə iri bir qazanı döyəcləyir: cınq, cınq... Cinləri, pis ruhları qovan bu nənə günün tutulduğunu hardan bilib görən? Kaş ki, o, xəbəri televiziya – radio – mətbuatdan eşitməyəydi! Bəli, XX yüzilliyin sonu – 11 avqust günü. Əcdadlarımızdan fərqli olaraq, bu nadir səma hadisəsini kirimişcə müşahidə edirik. Yolboyu adamlar hisli şüşələrin, fotoplyonkaların köməyi

ilə göyə baxırlar. Nənə isə qazanı döyəcləyir: cınq, cınq... Saat 16.22-dir. Yox, hələ tezdir. Günəş on dörd günlük Ay kimidir. Saat 16.45-də Günəşin ən çox tutulma anını müşahidə edirik. Sonra... Ay əbədi mizana tabe olur, yavaş-yavaş gözdən itir.

Həsrətlə gözlənən günün yadda qalan anları da arxada qalır: dama çıxanlar damdan düşür, hisli-paslı şüşələr yenidən lazımsız əşyaya çevrilir, gün öz adi həyatına qovuşur.

Hadisələr öz yerini sonda suallara verir. Sualların meydan sulaması daha uzunömürlü cəmiyyət hadisəsidir. Beləliklə, təbiət hadisəsi öz yerini cəmiyyət hadisəsinə – polemikalara, səs-küyə, müxtəlif şayiələrə təhvil verir. "Günəş tutulmasından sonra bizi nələr gözləyir" sualına "Xalq Biliciləri və Ekstrasenslər İttifaqı"nın vitse-prezidenti Elxan Zal cavab verir ki, eralar dəyişdi:

"Balıq erası yerini Dolçaya verdi. Eraların dəyişmə prosesindən sonra dünyaya yeni insan tipinin gəlişi, adamların təfəkküründə dəyişikliklərin olması gözlənilir. İnsanlarda Allahın malik olduğu qabiliyyətlər yaranacaq. "Avesta"da var ki, qartal başlı ölkədə yeni insan doğulacaq. O insan dünyaya işıq aparacaq. Bu ölkənin Azərbaycan olduğu güman olunur. Azərbaycanda istedadlı, qabiliyyətli adamların sayı artacaq. Yeni erada Azərbaycan diqqət mərkəzində olacaq".

Ekstrasens Abidə Əliyeva isə deyir ki, hamıya inanmayın! "Havalar sərin keçəcək. Dəhşətli istilərin olacağını deyənlər yanılırlar". Şair-tərcüməçi Nəriman Qasımoğlunun bu nadir hadisədən sonrakı qənaətləri isə belədir:

"Quranda "Yasin" surəsində yazılır ki, Günəş öz qərarıyla axıb gedir. Sonra belə bir ifadə gəlir ki, Günəş Aya çatmır, gecə də gündüzə. Amma konkret bu, ya digər təbiət hadisəsiylə bağlı hər hansı işarəyə rast gəlməmişəm. Bu gündən sonrakı hadisələr haqqında müxtəlif fikirlər var. Mən də inanıram ki, get-gedə xeyir şəri üstələyəcək. Ümumplanetar mədəniyyət yaranacaq. Xeyirə xidmət edən adamların say artımı başlayacaq. Bu proses artıq hiss olunur. İnsanlar Allaha, Tanrıya dönür. Dini dəyərlərə görə, insan Allaha yaxınlaşdıqca, Yaradanın da yardımı çoxalır. Yaxşı insanlar heç vaxt qiyaməti gözləmirlər. Çünki Allahın cəzasını yox, yardımını gözləyirlər."





Bu mövzuda maraqlı fikirləri hələ çox oxuyacaq, eşidəcəyik. Hələliksə, hər şey vahid nizama tabe olur və bu maraqlı gündən biz də ayrılırıq. Nağılların, miflərin acığına, bu gün Ayla Günəş görüşdü! Min illərdir bu rəvayətlər insanları belə bir görüşün əfsanə olmasına inandırmağa çalışır... Əfsanələr bir əfsanədir, bu dünya bütün əlyetməz, ağlagəlməz qovuşmanın görüş yeridir. Ayla Günəş qədər bir-birindən aralı olanlar da görüşə bilir! İnanın, çünki biz – bu günün adamları şahidik.

11 avqust 1999-cu il gözümüzün qabağında dünənə çevrilir və artıq tarixə dönür.

Səhər Günəş doğacaq. Adam lap uşaq kimi çığırmaq istəyir: Qoy həmişə Günəş olsun!

*avqust – 1999*

# Aşıq Əhməd Sadaxlı dastanı

*Hər aşiqin bir dövranı var, deyirlər. Amma Aşıq Əhməd Sadaxlının söhbəti dədə-baba sənətini qoruyub-yaşadanların dövranını yada salır. Bir vaxt meydan sulayan aşıqlar indi küçələrdə, kafe-çayxanada dolanır. Ay gidi dünya... Görən şifahi ədəbiyyatımızı yaşadanların dövranını kim pozdu, kim dağıtdı? Biz bu dünyanı qınayırıq, amma ustadlar belə fikirləşmir. Bəs ustadlar nə deyir? Arifə bir işarə bəsdir, ürəyimizi sözsüz oxuyan Aşıq Əhməd Sadaxlı aldı görək nə dedi...*

– 10 yaşımdan sənətə bağlanmışam. Özümdən şeir yazırdım. Şeir deyəndə ki, sözləri quraşdırırdım. Amma məni aşıq məclisinə yaxın qoymurdular. Uşağın böyük yanında nə işi vardı? O, vaxt beləydi, 14-15, lap elə 20-25 yaşlı cahılın ağsaqqalların yanında oturmağa həddi nəydi, bəlkə birinin ağzından şit söz çıxdı, onu gərək cavan eşidə? Mən başmaq çıxaran yerdə, qapının dabanında otururdum. Gələn bir çırtma vurardı ki, çıx çölə, yerimdən tərpənməzdim. Deyir, pul kəsəni qılınc kəsməz. Aşıq dastanını deyib qurtarandan sonra qırmızı lentli sinidə ona dövrə yığırdılar. Pul verməyəni qovurdular. Aylığım, donluğum yox, bəs mən neyləyim? Anamın çoxlu toyuq-cücəsi vardı, başladım yumurta oğurlamağa.

-Yoxsa, balaca Əhməddən pul əvəzinə yumurta alırdılar?

– Gerisinə qulaq as. Hər gün iki yumurta oğurlayıb satırdım. Yumurtanın biri də o vaxt on qəpiyə idi. Bir həftəyə bir-iki manat düzəldib aşığa dövrə verirdim ki, məni qovmasınlar. Anam da hər gün yumurtanı yığanda kirimirdi ki, bu çil toyuq harda yumurtlayır, yumurtasını deyən pişik aparır. Qorxumdan səsimi çıxarmırdım. Bir gün işin üstü açıldı. Xalq da məni başa düşdü, məndən ta pul istəmədilər. Özümə görə deyildim, axşam aşıqdan eşitdiyimi səhər kəndə yayırdım.

– Bəs yanına çağırıb-eləyən yox idi?





– Günlərin birində anam toyuq-cücəni satıb mənə bir saz aldı. Birinci sazımı elə çox istəyirdim, bəlkə Məcnun Leylini elə çox istəmirdi. 14-15 yaşım olardı. Hamı yatandan sonra başlayırdım dınqıldatmağa. Anam da danışardı ki, səhər çalarsan. Qorxumdan girirdim yerimə, qucağımda da saz. Sonra əsgər getdim, qayıdıb yenə sazı aldım əlimə, Aşıq Məmməddən, Aşıq Mehdidən bəhrələndim. Bir gün – 60-cı ilin əvvəllərində radiodan bir səs eşitdim. Bu səs cilovladı məni, o kim olsa yaxşıdır, Aşıq Hüseyn Saraclı. Aşıq hər yoldan ötəni şəyird götürməz. Şəyirdin gərək tən-dürüst nəsli olsun ki, sonra ustadına, el-obasına, sənətinə xain çıxmasın. Aşıq Hüseyn Saraclı üstəlik bir zamin duran da istəyirdi. Yaxın qohumumuz Qiyas İsmayıl oğlu 1962-ci il dekabrın 25-də məni ustadın evinə gətirib ona təhvil verdi. Aşıq yoldaşına dedi, duz-çörək gətir. Mənə də dedi ki, çörəkdən kəs, o duza batır ye, özün də and iç ki, bu evə, ocağa, ailəyə, ustadına, sənətimə namusla qulluq eləyəcəm. And içdim, düz 25 il, Aşıq Hüseyn Saraclı dünyasını dəyişənə qədər onun şəyirdi yox, nökəri oldum. Aşıq da məni böyrünə salıb dünyanı gəzdirdi, oturub-durub dedi ki, sənətimi məndən sonra Aşıq Əhməd Sadaxlı davam edəcək.

– İndi sizə necə müraciət edək: baba, aşıq...

– Birdən dilinizə ustad gələr ha, yox, elə aşıq desən bəsimdir. Saz bizə ana laylası kimi əzizdir, amma bu gün onun hörmətini itiririk. Biri müəllim kimi geyinib sazı alır əlinə, o biri sazı götürüb əlinə çayxananı, kafeni dolanır. ANS kanalının “Qulp” verlişi sazımızı verib bir artistin əlinə, o da başlayır lağa qoymağa. Hələ o birisi də sazı başına dolayır, suya atır. O Yadigara deyən gərək ki, başqa bir şey tapmadın, gərək elə sazla məzələnəsən? Televiziyaya çıxan qadın aşıqlar da ağ eyləyiblər. Açıq-saçıq geyimlə saz tutmur axı.

– Aşıq paltarının necə olması sualına da sözkəsən bir cavab tapılmır ki, tapılmır.

– Aşığın gərək başında papağı, ayağında çəkməsi olsun. Görürsünüzmü, mən boyu çarpaz düyməli köynək geyinmişəm. Aşığın dədə-baba geyimi belə olub. Qadınlar da saz çalırlar, yaxşı eləyirlər, başlarına kələğayi örtsünlər, əyinlərinə boynu-boğazı örtülü

uzun bir don geyinsinlər. Yoxsa, indi kim nə istəyir geyinir, nə cür istəyir çalıb-oxuyur.

– İndi sənətdə bir qarışıqlıq yaranıb, bəs dədə-baba yolu ilə gedən aşığı hardan tapaq, yaxşını pisdən necə ayıraq?

– Özünü aşıq sayandan birinci ustadını soruşmaq gərək. Bir baxın-görün kimdən dərs alıb, onun saz çalmağına hansı ustad razılıq verib.

– İndi ustadlar da barmaqla sayılır.

– Rayonlarda, kənd-kəsəkdə dədə-baba qaydasıyla sazı yaşadanlar hələ də qalıb. Əziyyət çəkib axtarsınlar, tapsınlar. Axı belə də olmaz. Hər sənətin bir yiyəsi gərək olsun. Mədəniyyət Nazirliyi bir qayda-qanun yaratsa, hər əlinə saz alan xalqın qarşısına çıxa bilməz.

– Folklorşünasların aşıq sənətindəki bölümləri öz yerində, Aşıq Əhməd Sadaxlının təsnifatı necədi?

– Üç cür aşıq var. Birincisi, çalan aşıqdır. Yaxşı barmağı var, saz havalarını çalır xalq arasında yayır. İkincisi, aşıqlığı yaşadır, yaxşı yaddaşı var, eşitdiyi-bildiyi dastanları, əhvəlatları danışır. Buna deyirlər carçı aşıq. Bir də var həm çalır, həm qədim dastanları danışır, həm də özü yaradır. Bunlar yaradıcı aşıqlardır.

– Bu ölçü-biçi gözlənilir yəni? İndi yaxşı çaldığın görən aşıq oxumağa, sonra da söz qoşmağa başlayır.

– Bir əhvalat danışım. Şəhərə xəbər yayılır ki, vəzirin oğlu oxuyub gəlib, ona nə iş tapşıraq dolansın. Çox fikirləşib axırda tapırlar. Deyirlər, gəlin onu fil həkimi qoyaq. Bu şəhərdə də ömür boyu fil olmayıb. Fil həkimi beləcə kef eləyir. Bir gün Hindistandan qonaqlar gəlir. Filin də canı-candı, nə təhər olursa biri xəstələnir. Neyləyək-neyləyək, birdən fil həkimi yada düşür. Fil yıxılıb yerə, quyruğu bir tərəfə, xortumu bir tərəfə. Həmən bu həkim gəlib bir xortumuna baxır, bir quyruğuna. Qalır məəttəl ki, biri quyruqdusa, bəs o biri nədir. Axırda deyir ki, onu ayağından asın, burnundan qan açılsın, sağalsın... Yazıb-yaradan Azaflı Mikayılı, Allahverdi Qəmkeşi gördüm. İndi yazıb-yaradan aşıq yoxdur. Bu sözlərdən sonra məni daşa tutacaqlar. Boş şeydir, ağıllı öldürməz, dəli də tapınca qaçıb gedəcəyəm.

– Aşıq Əhməd Sadaxlı neçə dastan bilir?





– Sinəm doludur. 50 ildə yığdıqlarımın hamısını ora toplamışam. Elə uşaqlıqdan yaxşı hafizəm olub. Bir yol eşitdiyim, ta yadımdan çıxmaz. Çox desəm yalan olar, halal 30 dastan bilirəm, 20 də əhvalat.

– Necə bilirsiniz, aşığın danışdığı dastanı dinləyiciyə uyğun dəyişməyə, nələrisə artırmağa haqqı çatır? Hərə bir söz artıranda dastanın əsli itir axı.

– Əgər əlavələr dastanı bir az da gözəlləşdirirsə, razıyam. Sənəti ləkələməyinsə tərəfdarı ola bilmərəm. Aşıq şifahi ədəbiyyatı yaşadan adamdır, hər dəfə danışanda əlavələr eliyir, söz artırır. Aşıq ən gözəl dastanı elə danışar ki, lap gözəl olar. Qulaq asan deyər bir də eşidim. Elə əlavələr də eləyər ki, lap zəhlə tökər. Xalq deyər ki, bu dastanı bir də eşitməyim.

– 30 dastanın hamısını danışmısınız?

– Vaxt vardı məclisə girəndə deyirdilər, aşıq, bildiyin dastanları sadala. Sayırdım, deyirdilər indi filan dastanı, məsələn, “Valehin nağılı”nı bizə danış. Bu bildiyim dastanların içində eləsi var, on dəfə danışmışam. Yoxsa aşığı öz başına qoysan, elə birini əzbərləyib yüz yol danışar.

– Bəs heç danışmadığınız dastan var?

– Hə, o danışmadıqlarım qan ağlayır. Elə hey yuxuma girirlər ki, bəs bizi nə vaxt danışacaqsan. Məsələn, “Mehdi bəyin dastanı”, “Murad bəyin dastanı” hələ sinəmdə qalıb.

– Bu dastanları bir soruşan, istəyən...

– Çoxdu, amma bu dastanları yaxşı yığan iki nəfər var. Biri Azad Kərimlidi, o biri də Elxan Məmmədli. Bildiklərimi onlara danışıram.

– Hamısını yazıblar?

– Əşi, vaxt hardadı. Buna illər lazımdı. Onlar çağıranda mənim vaxtım olmur, mənim ürəyim dastan istəyəndə onlar tapılmırlar. Həm də mən burda yaşamıram axı, Gücüstanda oluram. Bakıya hərdən, oğlumun yanına gəlirəm. Vallah, gəlmək-getmək asan deyil.

– Sizi bura gətirə bilmədik...

– Allah eləməsin, orda yaxşı ev-eşiyim, ocağım var. Özü də bizim kənd erməniylə çəpər-çəpərdi. Yaxşı mal-qaram, bağım-bostanım, beş hektar da torpağım var. Burda olanda umudumu kəsmirəm ki, orda yurdum var.

– Necə dolanırsız, indi yerindən duran özünə qiymət qoyur.

– Mən toya getmirəm, ürəyi saz istəyən çağıranda ərinməyib gedirəm.

– Aşıq, xalqın yaz bayramını təbrik eləmədiz...

– Yadımdan çıxmayıb. Novruz bayramını bənövşəli, nərgizli görmüşük. Deyir, Allaha ibadət də könül xoşluğundandır. Arzu edirəm, xalqımız könül xoşluğuyla mən gördüyüm Novruz kimi bayram keçirsin.

*mart – 2003*





# Hərə bir cür ağıllıdır...

Son ucu ölümlü bu dünyaya gəldiyimiz kimi bir gün də gedəcəyimizi bilirik. Bu gerçəkliyi bilsə də, sevə-sevə yaratmaqdan, yaşamaqdan doymur insan. Nə gücsüzlüyünü boynuna alır, nə də zəifliyindən danışır. Yaşayır, yaradır. Tez-tez bizdən öncəkilərin ölümlü dünya ilə mübarizəsini yada salırıq. Neçənci yüzilliyi adlasaq da, qədim insanların yaratdıqları miflər, əfsanələr, rəvayətlər həmişə diridir. Çünki əbədi həyat arzusu, ölmək istəməyən insanın mübarizəsi və uğursuzluğu gerçəkdir, təbiidir. Qədim bir ilkinliyi, təsəvvürü sonra söz dağıdır, sənət yaranır... O gündən bu günə bəşəriyyət çox dinləri, məbədləri, ictimai-siyasi quruluşları dəyişib, amma yenə sənət – adamları öz başına toplayır. Niyə axı? İnsan deyilən sirli varlıq ORDA nə tapır? Yəqin bu sual çoxlrını düşündürür: insan sənətiylə əbədiliyə yetdiyini Yerə-Göyə sübut edir, yoxsa əksinə, gücsüzlüyünü təkrar-təkrar etiraf edir?

Sənət tədricən arxa plana keçir. Gün-güzaran dərdi, gündəlik qayğılar bəşəri sualları üstələyib, ona görə də hisslər, duyğular ehtiyaclarımızın son pilləsinə qısılıb...

Bugünkü sənətdən danışanlar, yazanlar belə cümlələrlə incəsənətin, mədəniyyətimizin bozumtul tablosunu çəkməkdədirlər... Biz də bu tablonu reallığa oxşatmaqda!

Sənətkarlar hər zaman doğulmurlar. Yaxşıları vardı... Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı?!

Gedənlərin, köçənlərin dünyadakı bütün qeyri-adilikləri yığıb-yığışdırıb apardıqlarına inanmaqda, elələrini sağkən görmədiyimizə təəssüflənməkdə, insan taleləri ilə yanaşı, bu anları yaşayanlara qısqanclıqla nəzər salmaqdayıq!

Arabir bəzi hadisələr bu yekrəng təsəvvür və düşüncələrin rəngini azacıq təzələyir: bizi belə qarşıladılar, belə yola saldılar. Gül-çiçək, ürək-dirək...

Hissləri nisbiliklə tovlamaqda, aldanmaqda, günləri sovurmaqdayıq!

Şuşa Dövlət Dram Teatrının komediyaya dəvətini tamaşaçılar tarixin ironiyası kimi qəbul etdi. Müəllifin Firuz Mustafa olduğuna da inanmaq olmurdu. Niyə? Firuz Mustafa axtarışlarında, məqalə və yazılarında insanla bağlı ciddi sualları birbaşa qoyurdu axı... "Ağıllı adam". Tamaşa üçün seçilən bu ad da özlüyündə hələ bir söz demirdi. "Ağıllı adam", kimdir axı, ağıllı?

Heç kim! Tamaşaya baxanda tələm-tələsik belə qərar vermək olardı, çünki hadisə dəlixanada, 6 nömrəli palatada cərəyan edir. Nə vaxt? Zaman yoxdu. Heç geyim-kecimlə də onun nəbzini tutmaq olmurdu, çünki həkimlər ağ, xəstələr ağ, göz öyrəşən klassik geyimdə idilər. Məkan? Məkan da bilinmirdi, çünki belə hadisələr elə hər yerdə cərəyan edə bilər. Millət? O da yox idi. Doktor və pasiyentlər vardı, ər, bir də arvad idi. Cəmiyyəti öz havasına oynadan Jurnalist, oturduğu ilə qalxdığını özü bilməyən Müstəntiq klassik teatrda təzə personajlar idi.

Bəs ağıllı kimdir? – Heç kim! Amma personajlar başqa nəticə çıxarmağımız üçün çalışır, mübarizə aparırdılar. Bu mübarizə heç də nəticəsiz qalmadı: düzdür, hamı dəlidir, amma hərə bir cür! Biri hakimiyyətini itirdiyinə, digəri var-dövlətinin qədrini bilmədiyinə, başqası elə hey irəli yüyürdüyünə görə... Personajları dinlədikdən sonra tamaşaçı beynində bayaqdan kök salan fikir təzələnir: hərə bir cür dəli yox, hərə bir cür ağıllıdır! Bu nəticə ilə birgə səhnə – salon sərhədi pozulur, aktyor – tamaşaçı ayrılığı dağılır...

Bir ara səhnəmizdə müsbət qəhrəmanlar kök salmışdı, indi əksinədir, son dövrün ədəbi əsərlərində, bizi daha çox mənfi obrazların bolluğu heyrətləndirir. Xəstə və xəstəxana, dəli və dəlixana – bir sözlə, düşdükləri vəziyyətdən ağlını itirən adamların faciəsi səhnəmizdən düşmür.

Sənətimizdəki bu "dəb"in səbəbini və nəticəsini görməsək də, xəstə və çıxılmaz vəziyyətdə vurnuxan adamların faciəsi ilə balaca teatr səhnəsindəki dünya dramatik həddə çatır. Aldanışlar adamları da, cəmiyyəti də axırsız eləyir! Bəli, yalan və saxta inamlarla çaşqın vəziyyətdə çabalayan insan taleləri, onların hərəkətə gətirdiyi dünya gendən baxana xəstə və axırsız görünür!





Kimdir ağıllı? "Ağıllı adam" bu suala cavab vermədi. Amma çox suallar cavablandı. Demə, sənətin də öz qanunları, meyarları, nizamı var. Demə, sənətin gözlənilməz qabarması, hərdən də öz içinə çəkilməsi var. Hər ikisi olduqca heyrətli və sirlidir. Bu məqamların şahidi olmaq üçün gərək ayıq-sayıq olaq, çünki sənət, sənətkarlar elə bir anda, qəflətən doğulurlar. Bu bir andan sonra qalan sevincdir, söhbətdir, xatirədir...

Bu gəlimli-gedimli dünyada əbədi həyat da var, dirilik suyu da. Qalır axtarmaq və tapmaq. Amma nə sirdisə, bu yolla gedən də peşimandı, üzülüb geri dönən də...

*oktyabr – 2000*

# Aqşin: "Mən yazılarımı məşhurluq üçün yazmıram"

– Özünüzü təqdim edin...
– Yazıçı Aqşin.
– Niyə məhz yazıçı?
– Sadəcə, yazı yazmaqdan başqa, əlimdən bir iş gəlmir.
– Aqşin yazıçıdır, bəs Yenisey kimdir?
– Yenisey mənim gizli imzalarımdan biridir.
– Bəs gizli imza hansı ehtiyacdan yaranıb? Onsuz da müəllifin kimliyi dərhal bilinir.
– Mən oxumuşam ki, Volterin 200-ə yaxın imzası olub. Cəlil Məmmədquluzadənin bir neçə imzasının olduğu da hamıya məlumdur...
– Məşhurların çoxlu imzası varsa, gərək sizin də gizli imzanız olsun – bu nədir, bəhsə-bəhs, yoxsa dəblə ayaqlaşmaq?
– Yazdığım yazıların, dediyim fikirlərin hamısının arxasında dururam. İmzamdan asılı olmayaraq, bütün məsuliyyəti daşımağa hazıram. Fikirlərimi izah etməkdən də çəkinmirəm. Məsələn, muğam haqqında niyə məhz belə düşündüyümü lap sakitcə izah edə bilərəm. Düzü, yazılarımı öz imzamla yazmağım həmişə redaksiyaların özündə problemə çevrilib. Yuxarı hakimiyyət, səlahiyyətli şəxslərdən öncə, qəzet redaksiyasının özündə dərhal müzakirə, mübahisə, barışmaz mövqe ilə rastlaşırdım. Bizim mətbuatda bir neçə nəfərin imzası həmişə problemlə qarşılanıb, o cümlədən də mənim. Redaksiya daxilindəki təzyiqdən yaxa qurtarmaq üçün gizli imza ilə yazmağa başladım. Ona görə mən ən primitiv, ən bəsit bir yolu – öz imzamı gizlətmək üsulunu seçdim.
– Ümumiyyətlə, imzanıza, yazıçı adına nə qədər hörmətlə yanaşırsınız?
– Mən yazıçıya, yazıya ibadət edirəm. Mən heç vaxt Allah qarşısında əyilməmişəm, amma istənilən böyük yazıçı qarşısında əyilməyə hazıram.





– Doğrudanmı, xalqın sevgisini qazanmaq hissi və ya itirmək qorxusu sizə yaddır?
– Dünyanın heç bir yerində xalq ədəbiyyat oxumur. Ədəbiyyat ayrı-ayrı adamlar üçün yazılır. Şəxsən mən öz oxucularımı tanıyıram. Onlarla çörək yeyirəm, araq içirəm. Mən heç istəmirəm ki, Azərbaycan xalqının sevgisini qazanım. Mənim yazılarım mənim tərkibimdir, bir hissəmdir. Xalq yazılarımı oxuyandan sonra mənə necə münasibət bildirir-bildirsin, istəyir sevsin, istəyir nifrət etsin. Mən öz işimi görürəm, qoy onlar da öz işlərini görsünlər. Xalqın sevdiyi, bağrına basdığı Qabil 81 yaşında dünyasını dəyişdi. Amma bu boyda xalq şairinin bircə misrası ədəbiyyatda qalmadı. Qaldı?
– Sizin neçə yaşınız var?
– 29.
– Niyə sizə elə gəlir ki, 29 yaşında bir gəncin, iki kitabı çıxan şairin 29 oxucusu ola bilir, 81 yaşında xalq şairinin, 100-dən çox kitabı olan müəllifin 81 oxucusu ola bilmir?
– Mən fikirləşirəm ki, Qabilin, Bəxtiyar Vahabzadənin oxucuları elə öz səviyyələrindədir. Bəxtiyar Vahabzadənin, Qabilin ədəbiyyata dəxli olmadığı kimi, onların oxucularının da ədəbiyyata dəxli yoxdur. Ümumiyyətlə, tipik Azərbaycan yazıçısı ilə tipik Azərbaycan oxucusunun ədəbiyyatdan xəbəri yoxdur. Azərbaycan oxucusu ilə Azərbaycan yazıçısı sonsuz ər-arvad kimi öz daxmalarında qalıblar. Onları nə dünya, nə də ədəbiyyat maraqlandırır. Ona görə də mən qarşıma məqsəd qoymuşam ki, azərbaycanlı üçün yox, insan üçün yazacağam. Ömründə 5 kitab oxumuş adam Bəxtiyar Vahabzadənin poeziyasından nə götürə bilər?
– Razılaşın ki, bütün bunlar yalnız subyektiv münasibətdir. Subyektiv münasibətlərin ucadan deyilməsində qəribə nə var ki?
– Mən yazıçıyam. Yazıçı obyektiv ola bilməz ki?
– Özündən əvvəlkiləri bəyənməyən gənc obrazı hamını yorub. Aqşin təzə, maraqlı nəsə tapa bilərdi, bəlkə?
– Ataları bəyənməyən oğul kimi görünmək istəməzdim. Azərbaycan adət-ənənələrinin saf-çürük olunmasını istərdim. İndi adət-ənənələr də hamıya yaltaqlanır. Prezidentlərin ayağının altında qurban kəsilir, belə milli dəyər olar?

– Hörmətlə qarşılanan hər kəsin ayağının altında qurban kəsilə bilər, burda qəribə nə var ki?

– Yox, sevgini qanla bildirməzlər. Sevgiyə, hörmətə görə məzlum bir heyvanın qanını tökmək yüksək dəyər sayıla bilməz.

– Qurbanların, məzlum heyvanın taleyindən belə ağrı ilə danışırsınız. Özünüz isə addımbaşı, qəsdən dünyanın əşrəfi sayılan insanın könlünə dəyməkdən çəkinmirsiniz. Sizin humanistliyinizi necə başa düşmək olar?

– Əbəs yerə deyilmir ki, mədəniyyətin sonu vəhşilikdir. Mən yazılarımda tənqid etdiyim adamların heç birinin burnunun qanamasını istəmirəm. Mən də onun tərəfdarıyam ki, adamların şəxsiyyəti yox, ictimai-siyasi fəaliyyəti tənqid olunsun. Fazil Qəzənfəroğlunun Həcc ziyarətinə getməsi onu tənqid etmək üçün mənə imkan yaradır. Sənin intellektuallığın hara, Həcc ziyarətinə getməyin hara? Ay Fazil Qəzənfəroğlu, nəsildaşların, seçicilərin sənin Avropaya üz çevirməyini gözləyir, sən durub Həccə gedirsən. İndi hamı Avropa ölkəsində yaşamaq istəyir. Bütün Şərq mədəniyyəti insanı o dünya üçün yaşamağa çağırır. Bəs bu dünya? İlk növbədə, bu dünyanı yaşamağı bacarmaq lazımdır.

– Tənqid etmək xoşunuza gəlir, bəs tənqid olunmaqla aranız necədir? Yeri gəlmişkən, ədəbi tənqidə münasibətiniz?

– Ədəbiyyatdan əvvəl tənqid olmalıdır. Əslində şairin, şeirin gərək prinsipi olsun. Yoxsa, oturdum araq içdim, kefləndim şeir yazdım, noolsun? Yeri gəlmişkən, dünyada heç kim muğama zövq almaq üçün qulaq asmır. Dünya muğama bir şərq abidəsi kimi yanaşır. Onlar Qız qalasına necə heyrətlə baxırlarsa, muğama da elə baxırlar.

– Niyə düşündüklərinizi kiminsə adından deyirsiniz? Liderlərdən fərqli olaraq, yazıçı yalnız öz adından danışa bilər axı, elə deyil?

– Öz adımdan da deyirəm. Məsələn, sözümün üstündə dururam ki, tənqidçilər şairlərin süfrəsinin çörəyi ilə yazı yazırlar. Bunu hamı görür və bilir. Mən Azərbaycan ədəbiyyatı tənqidində kiminsə şairdən yox, şeirdən yazdığına rast gəlməmişəm. Əsəd Cahangir həmişə mənim özümdən yazır. Mənim şəxsiyyətimin yox, şeirimin oxucuya, ədəbiyyata dəxli var. Tənqidçinin hədəfi gərək şeir olsun. Bizdə isə əksinədir, tənqidçilərin hədəfi həmişə şairlər olub! Yazıçının əlinə baxan tənqidin ədəbiyyata nə dəxli var?





– Əyalətdən paytaxta durub gələn cavan bir oğlanın şeir kitabından yazanda onlar səmimi idilər, amma indi təmənnalı? Sizi tərifləyənlər, kitablarınız haqqında xoş söz deyənlər xeyli çox idi. Doğrudanmı, onları Aqşinin maddi imkanı maraqlandırırdı?

– Mən ona görə şeir yazmamışam ki, kimsə məni tərifləsin. İndi də onlardan incimirəm ki, niyə başqalarını tərifləyirlər. Mən tənqidin üsulu ilə razı deyiləm.

– Siz ədəbiyyatçısınız?

– Xeyr, mən coğrafiyaçıyam.

– Onda bir ədəbiyyat adamı kimi niyə etalon tənqidi yazının nümunəsini göstərmirsiniz?

– Mən bu yaxınlarda yazdığım "Azadlığa Rafiq Tağı" yazısında yazmışdım ki, Azərbaycanda müəyyən istisnaları çıxmaq şərti ilə, hələ müəllif yazısı yazılmayıb. Məsələn, Ramiz Rövşən dilin şairidir. O şeirlərin hamısını dilin diktəsi ilə yazıb. Deyirlər, Səməd Vurğun dili yaradıb, əksinə, dil özü Səməd Vurğunu yaradıb. Azərbaycanda dili məhv edən yazıçılar nəsli yetişməlidir. Yazıçı gərək dili üstələsin, dilin köləsi olmasın. Bu gün dilə ən çox nökərçilik edən şair Ramiz Rövşəndir. Onun şeirlərini yazmaq üçün xüsusi istedadlı olmaq lazım deyil.

– Onda dil niyə başqasını yox, məhz bu adamı seçir?

– Yox, əlbəttə, seçilmək söhbəti var. İnsanın məzmununda ilkin istedad olmalıdır.

– Sizcə, yazıçı məşhur olmalıdır?

– Faiq Ağayev kimilərinin məşhur olmağındansa, intellektual bir yazıçının tanınmağı daha düzgün olardı.

– Sevdiyiniz yazıçı obrazı...

– Mənim üçün ən sevimli yazıçı obrazı Kafkadır. Biz eyni dövrdə yaşasaydıq, böyük məmnuniyyətlə, onunla dostluq edərdim.

– Özüylə dostlaşa bilməyən bir adamla siz dostluq edə bilərdiniz ki?

– Yox, biz hökmən dil tapa bilərdik. Kafkanın əsərləri mənim stolüstü kitablarımdır. Ən yorğun vaxtlarımda mən Kafkanı oxuyuram.

– Sizcə, öz müəllifinə müsbət enerji verə bilməyən yaradıcılıq oxucusuna həyat bağışlaya bilər?

– Mən Kafkanı oxuyanda, yaşadığım hissləri sözlə deyə bilmirəm. Dünyada intihar etmiş yazıçılar var. Onların hamısını qınaya bilmərik ki? Mənə elə gəlir ki, Kafka hamıdan çox yaşamaq istəyirdi. Onun ürəyində olan yaşamaq ehtirası Kafkanı öldürdü.

– Sizin sevimli yazıçınız ədəbiyyata dəxli olmayan hər şeydən yorulurdu. Siz isə heç kimin bostanını daşsız qoymaq istəmirsiniz... Bu nədir, ədəbiyyata xidmət, yoxsa məşhur olmaq ehtiyacı?

– Yox, mən də yazılarımı məşhurluq üçün yazmıram. Yazıçı istənilən məsələyə münasibət bildirməlidir. Mən Azərbaycanın populyar yazıçısı olmaq istəmirəm. Ciddi yazıçının əsərinin motivi ictimai-siyasi hadisələr olmalıdır. Yazıçılar öz içlərini yox, çöllərini yazmalıdır. İnsanlar həbs olunur, tutulur...

– Siz başa düşülürsünüz?

– Başa düşülməyən adamlar heç kimi başa salmaq istəmirlər. Kimisə başa salmaq iddiam yoxdur. Mən də sizin birinizəm. Amma muğam, Novruz bayramı, qoyun qurbanı haqqında belə düşünürəm.

– Sizcə, kiminsə sizə qərəzli münasibəti var?

– Sözsüz ki, mənə heç bir təzyiq-filan yoxdur.

– Bizim Azərbaycan ədəbiyyatında kimi özünüzə dost bildiniz, kimi sevdiniz?

– Mənim Anar, Ramiz Rövşən, Əkrəm Əylisli, Vaqif Bayatlı, Yusif Vəzir Çəmənzəminli ilə dostluğum olub. Amma bütün bunlar müvəqqəti idi, keçdi, getdi. Kafka ilə dostluğum isə əbədidir. Qalan bütün dostlarıma isə xəyanət etmişəm.

– Çexovun albalı yeyən qəhrəmanına niyə bu qədər oxşayırsınız?

– Hə, oxumuşam, Çexovun gənc qəhrəmanı hamını soyuqqanlılıqla duelə çağıran, öldürən gəncdir. Yaşa dolandan sonra, özünü xoşbəxt saydığı bir gün onu duelə çağırırlar... İnanın mənə, mən heç vaxt gənc olmamışam. Ömür boyu da gənc olmağı arzulamışam...

*aprel – 2007*





# Gündən sətirlər

Acgöz bir günüm doğulur,
Onu nəylə doyuracam.
Acqarına qoy ulayıb
Ölsün, sonra oxşayacam...

* * *

Yenə təkliyimin, yiyəsiz düşüncələrimin axşamı düşür. Hava da yavaş-yavaş qaralır, ömür-gün də, fikir-xəyal da...

* * *

“Mən yazdıqlarımla xalqımın sözünü deyirəm”, “mən yaradıcılığımla xalqıma xidmət edirəm”... Boğazdan deyə bilmərəm, amma yüz faiz ürəkdən yuxarı sözlərdir.

* * *

Aramsız yağışlara, qaranlıq axşamlara, qarışıq sədalara alışdığımız vaxtda Elçin “Sarı gəlin”i yenə yadımıza saldı – aradan keçən uzun-uzun illər yox oldu və bu mahnını dünyaya ilk dəfə oxuyanın yanıqlı səsini müasir yazıçı eşitdi:

Nə ola bir gün görəm
nazlı yarın üzünü...
neynim aman, aman,
neynim aman, aman,
Sarı gəlin...

“Sarı gəlin” hekayəsində Amerikaya gedib çıxan balaban bizim bu qədim mahnını çalır. Bu naləni eşidən əcnəbilər bilmir ki, bu, Azərbaycan mahnısıdır. Adamı, elə balabanı da yandıran budur...

* * *

Arzular döyüş bayrağına oxşayır. Ömür boyu başının üstündə gəzdirməyin də azdır, gərək son nəfəsindən sonra da onu torpağa düşməyə qoymayasan.

* * *

– Ayna, ayna, mən gözələm, yoxsa sən?
– Sən.
Bir müddət keçir.
– Ayna, ayna, mən gözələm?!
– Yox, mən.
Bizim tənqidçi-müəllif dostluğumuz belədir.

* * *

Tinə atılan çağayam,
Nə səsim var, nə bir kimsəm.
Suda darıxan dalğayam,
Nə qumum var, nə qum-dənəm.

Soyuq yer çöldü guya
Mən evdə üşüyürəm.
Yeriyən, yüyürəndi guya
Mən oturub tövşüyürəm.

Dünya səs-küydü deyirlər,
Mən bir taq-tuq gözləyirəm.
Vaxt sürüşkəndi, deyirlər,
Üst-üstə xizək geyirəm...

Boş günləri atıb bir-bir,
Kösöv tüstüyə isinnəm.
Ağıl, ürək canbir, qəlbbir,
Ara yerdə mən sürünnəm.





Çapıb-yortub günü, ayı,
Ta belimdə gəzdirirəm.
Gəzib, gəzib axır yenə
Gəlib özümə dirənirəm.

* * *

...Getmək istəyirəm – qorxuram, bu yolla adamlara ölməyi öyrədərəm...

* * *

Qadın məğlub etməyincə təslim olmur.

* * *

Qəfəsin ağzı açıq qalanda da göyərçinlər uçmur. Qəfəs öz quşlarına ilk növbədə uçmağı tərgidir...

* * *

Cəmi bir kərə dinmək lazım olan yerdə susanı, sonra danışmaq istəyəndə susdururlar.

* * *

Yaşın ayağına getməyim çətin,
Bir də küldən oda dönməyim çətin.
Ətini didsəm də bu məhəbbətin
Sümüyün sümürrəm, onu bilirsən.

* * *

İnsan iddialarının quludur.

* * *

Ədəbiyyat güvəndiyim, amma dara düşən kimi yanıldığım dostuma oxşayır. Mənim bu dostumun başı kimin hansı ideoloji, mənəvi, ədəbi təxribata can qoyduğunu axtarmağa qarışıb.

* * *

Bu ruh da öz işindədi,
Gah Yerdədi, gah Göydədi,
İpi Tanrı əlindədi,
Onu da qırmaq istəyir...

* * *

Mən tənqidçiləri çox vaxt ürəyimdə qınayıram. Nədə? Ədəbiyyatı duymamaqda!

* * *

Biz çox vaxt "istedadsızların bəxti elə gətirir ki, Allah da onlarladır, elə bil", – deyə gileylənirik. Amma unuduruq ki, bircə gilə istedadı olan heç vaxt ayaq saxlayıb istedadsızla döyüşmür, qarşı-qarşıya çıxanda da tüpürüb yolunu dəyişir. İstedadsızların təkcə özləri kimilərinin toplaşdığı meydan belə genəlir.

* * *

Bir ev – qəbir, bir qəbir – ev,
Öz səsinə özün hay ver.
Üstündə Göy, altında Yer,
Bağlı yolu-yolağası...

* * *

Uşaqları da nağıl kimi sevirəm...





* * *

Sallaqxanaya dartılan quzu üst-üstə yığılmış qanlı qoyun dərilərinə qısılıb mələyirdi. Burada söykənməyə ayrı dəstək yoxuydu...

* * *

Bizi doğulan gün bağışla, Allah,
Bizi bu sevgiyə bağışla, Allah!..

* * *

...Kitabı qaytarıb rəfə qoymaqla Kafkanın ədəbi enerjisindən qurtulmaq mümkün olmur. Onun bu yoluxucu aurasından xilas olmaq üçün elə hey suyun altında qalmaq istəyirsən... İlahi, bu yaradıcılıqda bir gilə də olsun işıq yoxdur. Başa düşmürəm, Kafkanın özünü axırda minbir dəhşətlə öldürən bu təsəvvür – gerçəklik ədəbiyyatın nəyinə gərəkdir axı?

* * *

Ömür daralınca,
Möhlət azalınca,
Yollar qısalınca,
Son beləmi olur?

Günlər dağılınca,
İllər qovulunca,
Gözlər yumulunca
Ta gecəmi olur?

Bu yarı atınca,
Əzələ çatınca,
Ürək soyuyunca
Daş-kəsəkmi olur?

Dünya hey qovunca,
Sən də hey qaçınca,
Di gəl, yorulunca
Bəs deməkmi olur?

* * *

Ailə də bir döyüşdü – özünlə, yoldaşınla, ətrafdakılarla... Gendən baxana bu döyüş də asan gəlir.

* * *

Tanrım heyy...
Bir göz pəncərəsi,
Bir ağız havası,
Bir ölü yuvası
Dünyan var – görürsənmi?

* * *

Bir kərə doğuluruq! Adamları yaxından tanıdıqca sevinirsən ki, nə yaxşı...

* * *

Ədəbiyyat qəriblər üçün yazılan yol işarələridir.

* * *

Qoy yolumuz haçalansın,
Bir yanda sən, bir yanda mən.
Yolumuza yol calansın –
Bir yol sən ol, bir yol da mən.

Yolun yolunu gözləsin,
Bir yol üzünə gəlməsin.





Heç kim səni tək blməsin,
Sağda sənsən, solda da mən.

Biz yorğunuq, yol neyləsin,
Dərd sevənlə nə dərdləşsin,
Ayrı kimə ərk eləsin?
Orda sənsən, burda da mən.

Düşdük yolun ayağına,
Di ağrıma öz canına,
Yürü, çataq yuvasına
Atda sənsən, piyada mən...

* * *

Mətbuatı dövri adlandıranlar yanılmayıblar. Mətbuatla cəmiyyət çox vaxt yanaşı addımlayan, bəzən də bir-birini nəzakət xətrinə özündən çox yox, bircə addım irəli buraxan qoşa müsafirlərdir.

* * *

– Hardaydın?
– Çöldə.
– Çöldə adam vardı?..

* * *

Yer üzünün ən ağır üzüntüsü boş evə girməkdir. Qapını aç, işığı yandır və buyur, sən sükutun qonağısan...

* * *

Aşağı-yuxarı dartmaqla,
Güclə çəkib uzatmaqla,
Dartıb yaxasın cırmaqla
Dar paltar genəlmir axı!..

* * *

Şair istədiyi yox, bacardığı şəkildə yazır!

* * *

Qardan, qışdan qabaq gələn
Qar adamam, qaçın elə...
İsti görsəm, əriyərəm,
Siz buz kimi baxın mənə...

* * *

Təbiətin yox, taleyin gücü adamı böyüdür.

* * *

...Ömür – ömürlük məhbəsdir,
Günlər ordan diri çıxmır.
Tale – qansız bir yiyədir,
Ölməyincə yaxın durmur.

Bəxt – qanadlı kəpənəkdir,
Tutan kimi toza dönür.
Qismət – başsız bir külfətdir,
Yetimdən də pay gözləyir.

Dünya – yeyənə quyruqdur,
Diş görəndə daşa dönür.
Həyat – keçəl bir çubuqdur,
Naşı ona saç düzəldir.

İnsan – adsız bir ünvandır
Yollar onda sınıb keçir...
Torpaq – sanılı yorğandır,
Hərəmizə bir pay düşür...
(Biz yatdıqca o dikəlir)





* * *

Mən onu yamayıram, dünya da sökür məni.

* * *

Sözün üstümə gəlməyindən həmişə qorxmuşam.

* * *

Günün birin yola salıb
O birini qarşıladım.
Bəxtəvər bir otelçini
Çox uğurla yamsıladım.
Dörd divara əl gəzdirib
İçin-başın sahmanladım.
Yormayıb bir məzarçını
Öz yerimi rahatladım.

Əl-ayağımı bağlayıb
Ruhumu açıb boşladım.
Görməyib İnkir-Minkiri
Suallarıma başladım.

Oyundan çox oyun qurub
Çıxmağa səhnə tapmadım.
Bu rolların hamısını
Zakulisdə oynadım...

* * *

İlanın ağına da lənət, qarasına, xalasına da. Anasına... olmaz. Ana söyüşünü heç bir canlı bağışlamır.

* * *

Son illər başımıza gələnləri yazıya gətirmədiklərinə görə yazıçılar elə hey qınanır. Əslində, ötən əsrin sonlarında, Qarabağ müharibəsində, paytaxtdakı hadisələr zamanı başımız çəkənlərin hamısı ədəbiyyatımızda var. Tarixin, cəmiyyətin qanunları ilə heç uyuşmayan bu hadisələr çağdaş yazarların ən çox üz tutduğu, qayıtdığı, yazdığı bir həyat materialıdır. Amma bizim oxucular həyatda görmədiklərini, eşitmədiklərini ədəbiyyatda tapmağa öyrəşiblər. Ona görə əslində, çağdaş oxucular müharibənin real təsvirindən çox, ədəbi əsərlərdə qeyri-adi bir qəhrəmanlıq, qələbə axtarırlar.

* * *

Biz xoşbəxtliyin bircə yolunu tapmışıq: ailə, ev, dolanışıq... Biz xoşbəxtliyin ayrı formulunu hələ bilmirik!

* * *

Bu nədi sürüyürəm, Tanrım,
Ömürdü, yoxsa tale?
Onu mənə sən seçmisən,
Yoxsa bu, mənim zövqümdü belə?

* * *

Ədəbiyyat deyingən qarılar kimi elə hey ölümü, dərdi ağzına salıb çeynəyir. İllər boyu çeynədiyinin çoxdan çürüdüyündən xəbəri də yoxdur.

* * *

Planlı, ya plansız, hər halda, elə hey kimlərsə ədəbiyyatı ölüm mələyinə, insanlığın məhvinə yönələn təhlükəli bir silaha çevirmək istəyirlər. Bu ehtiraslı cəhdlərə sadəcə çiynimizi çəkməkləmi cavab verəcəyik?





* * *

**Yeni il nağılı**

Vaxt yetişib, vədə çatıb
Bu ili də atdan saldı.
Yəhər-yüyəni ələ alıb
Tez təzəsi ata qalxdı.
Əvvəl ümidləri biçdi,
Biçdi – biçənlər kimi.
Təzə sözləri göyərdib
Səpdi – səpənlər kimi.
Günün biri bir an olub
Ötdü – ötənlər kimi.
Təzə ümidlər də solub
Öldü – ölənlər kimi.
Az keçdi, yüz keçdi,
Vaxt yetişdi, möhlət bitdi –
Bu il də atın itirib
İtdi – itənlər kmi...

* * *

Günəş Yerdən qat-qat böyük olsa da, eyni vaxtda onu işıqlandırmağa gücü çatmır. Gün, ay, fəsil, il – əslində Yerin işıq növbəsidir...

* * *

Adam var, qalibləri, adam da məğlub üzləri sevir...

* * *

Yaradıcılıq insanın zəif tərəfidir. Ona görə də çoxu şeirini, bəstəsini, rəsmini gizlədir. Öz zəifliyini üzə çıxartmaq gücsüzlüyünü etirafdır – buna hamı hazır olmur.

* * *

Ağıl, bəzən yaxamı sənin əlindən xilas etməyi, qurtulmağı, elə istəyirəm, elə istəyirəm ki...

* * *

Bir qoca ilə bir qarının söhbəti tez-tez fikrimdə canlanır:

– Qəfil durub kəndə getməyimiz, ev yiyəsinin bizi atıyla-itiylə tanış eləməyi yadında?

– Amma atları nə gözəl idi!

– Elə itləri də!..

* * *

Başqalarını aldatmaq çox asandır, ən çətin iş özünü aldatmaqdır. Amma indi hamı elə özünü aldatmaqla məşğuldu...

* * *

**Barış Mançoya**

...Bu nağılçımız da köhnəldi,
Gəl, indi təzəsin uyduraq.
Ağ atlı oğlanlar getdi,
Biz ayrı işıq axtaraq.
Dünya fanilik oxuyur,
Gəl, biz həyatdan danışaq.
O, bizə ölüm toxuyur,
Biz ona çiçək yollayaq.

Ölmək də köhnə nağıldı,
Nağılçımız yuxulayır...
Ölüm yoxdu, ömürləri
Göy quşları oğurlayır...





* * *

Üstünü unlu görüb adını dəyirmançı qoymaq da ağır deyil. Ağır odur ki, dəyirmançı olmadığını bilə-bilə səni dəyirmançı çağıralar...

***

Şeirdə dünyaya, insana, zamana, həyata verilən sualların cavabı olmur, çünki poeziya sual-cavab meydanı deyil. Şeir hər nədirsə – bir az söz, bir az dil, bir az da hissin əlindən alıb öz faktını, hadisəsini yaradır. Gendən baxanlardan, toyda-məclisdə pafosla şeir oxuyanlardan fərqli olaraq, ədəbiyyata, şeirə sarı gəldikcə, ayrı gerçəkliyin içinə düşürsən. Gözünə dilin, sözün, hissin qovşağı görünür. Ona görə Səadət xanım heyrətlə özündən, oxucusundan xəbər alır: “Bu, sevdamı, nağılmı?”

Uzun illərin jurnalistika, publisistika təcrübəsi belə, Səadət Qabilqızını sualların yolundan azdırıb cavab axtarışına yönəltməyib. Cavab axtaranların ədəbiyatda nə işi? Ona görə suallar külək kimi “Bu sevdamı, nağılmı?” kitabını başına götürüb, hissi hara gəldi qovur, sözü istədiyi kimi oynadır...

Ömrümüzün yaxasına
Bu sevgini yük elədik.
Dünyamızı qurammadıq,
Dünyanı evcik elədik.

Hissin, sözün, dilin qovşağında Səadətin sərçəylə, xatirəylə, kənd uşağıyla köməkləşib qurduğu nədir belə? O, bir belə çətinliklə qurduğunu Zamanın, Vaxtın küləyindən qoruya biləcəkmi?

Şeirin sərhədləri Yerin sədlərinə oxşamır, onu qılınc-qalxanla nə adlamaq, nə də qorumaq olur. Səadət xanım özünün tapdığı harmoniya sayəsində poeziyamıza gəlir. Bu dünyanın sədlərinin üstündən adlayıb onun misralarının yanına tələsmək isə bizim boynumuza düşür. Onda nəyi gözləyirik, yerüstü maneələri keçmək belə çətinmi?

* * *

Yıxılmaq – hələ hər yetənə oturacaq olmaq deyil.

* * *

**İsa peyğəmbərə**

Gözüm baxa-baxa,
bir anım öldü indicə,
o biri də quçağımda
çabalayır.
Gözümün qabağında
bu da ölür,
yerinə təzəsi gəlir –
o da.

Anlar bir-bir köçür ora,
ən köhnə qəbristana.
Dünyada ən yekə məzarlıq –
zamandı hələ,
yola salmadığım,
dalınca baxmadığım bu ölülər –
yad deyil,
dos-doğma anlardı mənə.
...Gözümün qabağında
anlarım bitdi beləcə.
Gözüm baxa-baxa,
ürəyim öldü!
– İndicə...

* * *

Adətən, keçmişimizi üzə çıxaranlar, tariximizi araşdıranlardan söz düşəndə yunan filosofunun bu sözlərini xatırlayırıq: "Sus, ya da susmaqdan qiymətli bir söz de". Susmaqdan qiymətli olan sözü ərklə umuruq hər bir araşdırıcıdan. Bəs, görəsən, az qala addımbaşı ərklə köməyə çağırdığmız, iti nəzərlərdən güc-bəla yayınıb Tarixin köməyinə yetənlər bizdən – müasirlərindən, dostlardan, yaxınlardan, doğmalardan nə umurlar?





* * *

Bu gün müasir insan üçün hələ çox şey qaranlıqdır, sirlidir. İllərlə bugünkü açılmazları yel o üz-bu üzə qovsa da, lap birtəhər süpürüb toplasa da, heç hara tökə bilmir: Yer axı kürə şəkillidir!

* * *

Sabah –
yox, tezdi.
Birigün –
yox, gecdi.
Nə vaxt?
Bilmirəm,
amma bir gün
bu ömrü
əynimdən çıxaracam.
Arzular...
– Hanı onlar?
Aman, tale,
arzularım arzulardan
küsüb demə.
Qardan qara gödələn,
yağışdan yağışa süzülən
ümidlər ölməyib hələ.
Mən Yerə qayıdacam
itən arzulrın sarvanı kimi.
Soyunub atılan bu ömürlərə
yaxın durmayacam –
bir kərə düşdüyüm
tələnin qurbanı kimi.
...Bir gün yaşayacam,
vallah, yaşayacam –
bu itən həyatı
ürəyim istəyən kimi...

* * *

Şairlər Tanrının elçiləridir, yoxsa bizim, bilmirik. Şairlər necə doğulur, nə vaxt ölür, onu da bilmirik. Bircə onu bilirik ki, bizim Göydə axtardığımızı onlar Yerdə tapırlar...

* * *

“Çevrəsindən çıxsa əgər sevda fırfıran,
Bir ümidin ətəyindən tutub da fırlan...”

Ümidin ətəyindən tutub fırlananı insan çağırırlar, sözün ətəyindən tutub fırlananın adı şairdir!

“Bu get-gəllər bazarında dəvədi dünya,
Bu ömür-gün naxışında həvədi dünya...”

Ömrünü-gününü bəzəyənlərin adı insandır, Allahın qurduğu bu dünyaya düzəliş eləyənlərin adı şair!

“Umdum nə verdi ki, küsdüm nə verə,
Mən belə dünyanın nəyindən küsüm?”

Elə hey umanların, küsənlərin adı insandır, ona dodaq büzənlərin adı şair!

“Qıraqdan baxırsan, ağdır, təmizdir,
Yaxından baxırsan – qurd düşüb qara...”

Suyuna-qarına da qurd düşən bu dünya şairi bircə sözlə tovlaya bildi...

“Bu sevgidə kim uduzdu, kim uddu,
Peşimanı kim olacaq, nə bilim...”

Şairlərin sevgisindən hələ uduzan olmayıb!





* * *

Biz zamanın qiymətini gözləməyə adət etmişik. Kimdənsə söz düşəndə, xidmət və mövqeləri dəqiqləşdirəndə asanlıqla yaxamızı kənara çəkib hər şeyi zamanın üstünə atırıq. Niyə bu dəqiqləşməni biz yox, kimlərsə eləsin? Yükümüzdən niyə qaçır, görməli olduğumuz işləri kimin üstünə atırıq?

* * *

Karvan-karvan göydən ulduzlar köçür,
Öz bəxtinə hər kəs bir ülkər seçir,
Qocalırıq... Ömür keçir, gün keçir,
Oxu, gözəl, oxu, gözəl, qoy səsin
Ürəyimdə kaman kimi titrəsin...

İllər bir-birinin ardınca qanad taxıb uçur, günlər bir göz qırpımında böyük Zamanın oyunundan qovulur, amma Şövkət xanımın oxuduğu hər mahnı bir şirin xatirəyə dönür...

Kürəyini dağa söykəyənlərin də arxası uçur, gözlə görünənlərə tapınanların inamı çökür, amma Şövkət xanımın “Dərələr”i gün keçdikcə ürəyimizdə dağa dönür, bu səs hələ də qonaq çağırır...

1922-ci ildən dünyanı tanıyan, “Ağ çiçək”, “Qaragöz”, “Qurban adına”, “Məhəbbət”, “Bakı gecələri” mahnılarını tale nəğməsi kimi oxuyan, 1958-ci ilin 10 dekabr günündə – Məhəmməd Füzulinin 400 illik yubiley gecəsində isə Cahangir Cahangirovun “Füzuli” kantatası ilə səs-obrazını yaddaşlara yazan Şövkət Ələkbərovanın oktyabrın 20-si doğum günüdür. Onun yubiley tədbiri üçün əl-ayağa düşməyənlər heç təntiməsinlər, tələsməsinlər! Şövkət Ələkbərovanın adı insanların, elə dünyanın da yaddaşına yazılıb.

Müğənnilər yazılarını səslə yazırlar. Bu yazıları gün görmür, il təzələmir... Bu yazılar keçəlləşmir, tozda-torpaqda itmir...

* * *

“Bu dünyanın axırı necə olacaq, bilmirik!”. Bu sözləri elə müdrikcəsinə deyirik ki, guya dünyanın bu günündən baş açırıq...

*1994-2009*

# Kitabdakılar

*Ədəbiyyat onu axtarır* (***Vaqif Bayatlı***) ... 3
*Bütöv cümlələrdə qırıq-qırıq həqiqətlər...* (***müəllif***) ... 5

# Esse, publisistika, müsahibə

Sözlə oynayanlar üçün libretto ... 9
Həmişə bizim Xudu... ... 12
Dərdin bəlası ... 18
Realist nəsrin urası ... 20
Ayın dostu ... 27
Yuxusuna da söz girən dilçi ... 29
Vidadi fenomeni ... 32
Rəmiş yenə adsız qaldı... ... 37
Gücsüz bir yağış damlası kimi... ... 39
Mustanger ... 46
Hər kəsdən Aydın ... 49
Ürəyindən yıxılan şair ... 53
59 – Hüseyn Cavidin tale rəqəmi ... 55
3478 işarə ... 61
"Ətirşah Masan"dan reportaj ... 63
İsa Hüseynov: "Boz-bulanıq axın ədəbiyyatı süquta aparır" ... 70
Səs+söz=Flora Kərimova ... 77
İkicə kəlmə: Mehdi Bəyazid ... 80
"Dolu": roman, yoxsa tarixi salnamə? ... 86
Yazıçının ölümü ... 89
Şeirdə yeni imza: Mahir Mehdi ... 95
Rafiq Əliyev: "50 ildən sonra dünya tamam dəyişəcək" ... 97
Gülə-gülə, Nəsibə xanım... ... 105
Tarixi Fərman ... 108
Cavanşir Yusiflinin yeni formulu ... 113
Məğlub etməyincə təslim olmayan... ... 115
Anar: "Ömrü bir qədər redaktə edərdim" ... 118
Əsli Şuşaya, surəti Opera və Balet Teatrına! ... 124
Sərhəd dirəklərini uçuran səs ... 126
Nə, hop? Hə, hop! ... 130
Qürbətdən pay tutan şair ... 133
Arif Əmrahoğlu: "Ədəbiyyata heç kim cavabdeh ola bilməz" ... 135
"Ömür bivəfalıq etməyəydi kaş!.." ... 138
Allahın əsir mələyi ... 140
Nəsrimizin "Balıq-adam"ı ... 142
Burzu Əliyev: "Ukraynada Azərbaycan Qafqazın lideri kimi tanınır" ... 144
Məcnunun monoloqu ... 148
Son yazı ... 152
Unutmaq çətindi, gözəlim, səni... ... 157
Elçin: "İllər məni dəyişdirməyib" ... 159
Şuşaya ölüb gedən... ... 164
Vaqif Bayatlı Odər: 1994-1998 ... 166
Yeni tamaşa: bu dəfə "Arılar arasında" ... 173
Şamil Süleymanov: "Mən kinoda ölmək istəyirəm" ... 176
Xocalı – faciələrimizmn anası ... 182
Mərkəzi poçtxanaya məktub ... 186
Həsənağa Turabov: "Tamaşaçılar çox dəyişib..." ... 192
ANAR ... 195
Günaydın, mələyim, kino başladı... ... 201
Bizim Məmməd müəllim... ... 205
Məmməd İsmayıl: "Mən Tanrıya uydum" ... 207
Uzaq ada ... 210
Diş ... 217
Əlibala Hacızadə: "Ürəksiz heç nə yazmamışam" ... 219
Rolsuz aktyorlar... ... 223
BDU: Bizim Dövlət Universitetimiz ... 225
Rasim Balayev: "Məni axıracan danışmağa qoymadılar" ... 229
Şimali Azərbaycanın cənubu ... 235
Aşıq modelyer axtarır ... 239
Sabir Abdullayev: "Mən sənətin gücündən arxayınam" ... 242
Sözdə pauza ... 245
Yaşar: "Mən hekayələrimi yəhudi kimi yazıram" ... 249
"Hökmdarın taleyi": tarixi faciə, uğurlu film... ... 254
Alim Qasımov: "Mən nə sufiyəm, nə də dərviş" ... 258
Cəfər Cabbarlının evindən reportaj ... 263
"Cavid ömrü" filmi, yoxsa Ramiz Həsənoğlunun növbəti teletamaşası? ... 268
Fehruz Səxavət: "Muğam calaq götürmür" ... 272
Teatrlarımız teatr çıxarır... ... 275
Rüstəm Behrudi: "Bir də doğulmaq istəməzdim" ... 277
"Yerlərdə süründüm, yetişir, göylərə qaldır..." ... 282
Əliağa Sədiyev: "Tarım özümdən qocadır..." ... 290
Tutqun Gün(əş)dən işıqlı reportaj ... 293
Aşıq Əhməd Sadaxlı dastanı ... 296
Hərə bir cür ağıllıdır... ... 301
Aqşin: "Mən yazılarımı məşhurluq üçün yazmıram" ... 304
Gündən sətirlər ... 309

**Laura Cəbrayıllı**
**Yeddinci qat**

Bakı, "Avrasiya Press", 2010

Texniki redaktor | ***Mübariz Piri***

Dizayner | ***Turab Məhərrəmli***

Kompyuter operatoru | ***Maral Rəisqızı***

Korrektor | ***Pərviz Qocayev***

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1[a]
Tel: (994 12) 439 76 97

Yığılmağa verilmişdir

Kitab___________ çap olunmuşdur